# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

İLHAM
ƏLİYEV

# ALTMIŞ DÖRDÜNCÜ KİTAB

## İYUL 2014 - SENTYABR 2014

**AZƏRNƏŞR**
**BAKI - 2018**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

**AZƏRNƏŞR**
**BAKI – 2018**

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2018, 396 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının beynəlxalq tədbirlərdə, o cümlədən Böyük Britaniyada keçirilən NATO-nun Sammitində çıxışı, dövlət və hökumət rəhbərləri ilə görüş və danışıqlarına dair materiallar toplanmışdır. Ölkə rəhbəri bu tədbirlərdə Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çəvçivəsində həllinə dair danışıqları həmişəki kimi gündəmə gətirmişdir.

Kitabda dövlət başçısının Rusiya Federasiyasına, İtaliya Respublikasına rəsmi və işgüzar səfərləri, həmçinin Türkiyə Respublikasının Prezidenti və Baş nazirinin Azərbaycana səfəri zamanı bu ölkələrin dövlət və hökumət rəhbərləri ilə enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələr, hərtərəfli əməkdaşlıq məsələlərinə dair materiallar, həmçinin Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında giriş və yekun nitqləri də yer almışdır.

Cilddə toplanmış materiallar arasında ölkə başçısının Ağdam, Füzuli, Beyləqan, Bərdə və Xızıya səfərləri, ictimaiyyət nümayəndələri ilə görüşü, bölgədə müxtəlif infrastruktur obyektlərinin istifadəyə verilməsi mərasimlərində iştirakını əks etdirən materiallar da toplanmışdır.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07)– 2018}}$ **ББК - 32**

© Azərnəşr, 2018

## BÖYÜK BRİTANİYANIN ENERGETİKA NAZİRİ MAYKL FALLONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Energetika naziri Maykl Fallonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nazir Maykl Fallon Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeronun salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, ölkəsinin Baş nazirinin prezident İlham Əliyev ilə Haaqada görüşünü məmnunluqla xatırladığını dedi. Maykl Fallon ölkəsinin Azərbaycan ilə ikitərəfli əlaqələrin müxtəlif sahələrdə, o cümlədən enerji və qeyri-enerji sektorunda inkişaf etdirilməsinə böyük önəm verdiyini vurğuladı.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən enerji və qeyri-enerji sektorunda əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğuladı. Son 6 ayda qeyri-enerji sektorunda iqtisadiyyatın dinamik şəkildə artdığını bildirən prezident İlham Əliyev bunu ölkə iqtisadiyyatının şaxələndirilməsinin yaxşı göstəricisi kimi dəyərləndirdi. Azərbaycan ilə bp arasında 20 illik uğurlu əməkdaşlığa toxunan dövlətimizin başçısı enerji, infrastruktur, inşaat və digər birgə layihələrin həyata keçirilməsində Böyük Britaniya şirkətlərinin bundan sonra da yaxından iştirak edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Prezident İlham Əliyev Baş nazir Devid Kemeronun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinə çatdırmağı xahiş etdi.*

## İTALİYA RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*13 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 13-də İtaliya Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Roma Beynəlxalq Aeroportunda dövlətimizin başçısını İtaliyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## ROMADA DAHİ AZƏRBAYCAN ŞAİRİ VƏ MÜTƏFƏKKİRİ NİZAMİ GƏNCƏVİNİN ABİDƏSİNİ ZİYARƏT

*13 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 13-də Romadakı məşhur «Villa Borghese» parkında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsini ziyarət etmiş, önünə gül dəstəsi qoymuşdur.*

*Bu abidə «Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 dekabr tarixli Sərəncamına əsasən ucaldılıb. Həmin sərəncama əsasən Nizami Gəncəvinin yubileyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi ilə 2012-ci ilin aprelində abidənin açılışı oldu.*

## «NAMƏLUM ƏSGƏR» ABİDƏSİNİ ZİYARƏT

*Roma*

*14 iyul 2014-cü il*

*İtaliya Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 14-də Romadakı «Altare della Patria» memorial kompleksində «Naməlum Əsgər» abidəsini ziyarət etmişdir.*

*Burada dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev «Naməlum Əsgər» abidəsinin önünə əklil qoydu.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Roma*

*14 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikasının Prezidenti Ciorcio Napolitanonun nümayəndə heyətlərinin iştirakı ilə iyulun 14-də geniş tərkibdə görüşü olmuşdur.*

*Dövlətimizin başçısı İtaliya Prezidentinin sarayına gəldi.*

*Sarayın həyətində prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan nümayəndə heyətinin üzvləri prezident Ciorcio Napolitanoya, İtaliyanın rəsmi şəxsləri prezident İlham Əliyevə təqdim edildi.*

*Prezidentlər rəsmi foto çəkdirdilər.*

*Sonra dövlət başçılarının geniş tərkibdə görüşü oldu.*

*Görüşdə Azərbaycan ilə İtaliya arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın uğurlu inkişafından məmnunluq ifadə edildi. Ölkələrimiz arasında əlaqələrin Avropa İttifaqı–Azərbaycan əməkdaşlığı baxımından önəmi vurğulandı. Azərbaycanın Avropa Şurasında, İtaliyanın Avropa İttifaqında sədrliyi dövründə səylərin əlaqələndirilməsinin vacibliyi qeyd edildi.*

*Söhbət zamanı energetika sahəsində əməkdaşlığın uğurlu inkişafı vurğulandı, ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birinə qarşılıqlı dəstək verdiyi bildirildi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan–İtaliya ikitərəfli münasibətlərinin müxtəlif aspektləri və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparıldı.*

* * *

*Görüşdən sonra İtaliya prezidenti Ciorcio Napolitanonun adından Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə nahar verildi.*

## İTALİYA SENATININ SƏDRİ PİETRO QRASSO İLƏ GÖRÜŞ

*Roma*

*14 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 14-də Romada İtaliya Senatının Sədri Pietro Qrasso ilə görüşmüşdür.*

*Azərbaycan prezidenti İlham Əliyev və İtaliya Senatının Sədri Pietro Qrasso birgə foto çəkdirdilər.*

*Görüşdə Azərbaycan ilə İtaliya arasında strateji əlaqələrin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu. İtaliyanın ölkəmizin əsas ticarət tərəfdaşı olduğu vurğulandı, iqtisadi əməkdaşlığımızın şaxələndirilməsinin önəmi qeyd edildi. Azərbaycanda çoxsaylı italyan şirkətlərinin fəaliyyət göstərməsinin əlaqələrimizin inkişafına töhfə verdiyi bildirildi. Ölkələrimiz arasında əlaqələrin Azərbaycan–Avropa İttifaqı əməkdaşlığının inkişafında mühüm rol oynadığı qeyd olundu. Azərbaycanın Avropa Şurasının Nazirlər Komitəsinə, İtaliyanın isə Avropa İttifaqına sədrliyi dövründə birgə fəaliyyətin həyata keçirilməsinə əminlik ifadə edildi.*

*İtaliya Senatının Sədri ölkəsinin Azərbaycana Qafqazda sabitliyin təminatçısı kimi yanaşdığını bildirdi.*

*Prezident İlham Əliyev İtaliya Senatının Sədrinə Ermənistanın Azərbaycana hərbi təcavüzünün nəticələri və Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti barədə məlumat verdi.*

*Görüşdə ölkələrimiz arasında münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin, o cümlədən dostluq qruplarının rolunun önəmi qeyd olundu, bu sahədə gələcək əməkdaşlığın daha da möhkəmləndirilməsinin əhəmiyyəti vurğulandı.*

*Sonda qarşılıqlı hədiyyələr təqdim olundu.*

## «MERCATİ Dİ TRAİANO» MUZEYİNDƏ ŞƏHƏR MERİ İQNATSİO MARİNO İLƏ GÖRÜŞ VƏ İTALİYA JURNALİSTLƏRİNƏ MÜSAHİBƏ

*Roma*

*14 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 14-də Romanın «Mercati di Traiano» Muzeyində olmuş, burada şəhərin meri İqnatsio Marino ilə görüşmüş və İtaliya jurnalistlərinə müsahibə vermişdir.*

*Prezident İlham Əliyevi Roma şəhərinin meri İqnatsio Marino qarşıladı.*

*Dövlətimizin başçısına Romanın «Mercati di Traiano» Muzeyi barədə ətraflı məlumat* verildi. Bildirildi ki, nadir eksponatların qorunduğu bu muzey qədim Roma tarixinin öyrənilməsində müstəsna əhəmiyyətə malikdir. Muzeyin yerləşdiyi ərazidə müxtəlif vaxtlarda aparılan arxeoloji qazıntılar bir çox nadir memarlıq nümunələrini üzə çıxarıb. Digər tərəfdən, bu qazıntılar qədim dövr tarixinin müxtəlif mərhələlərinin tədqiqinə geniş imkanlar açıb. Ona görə də «Mercati di Traiano» Muzeyinin əhəmiyyəti heç vaxt azalmır, onun ümumbəşəri dəyəri getdikcə daha da artır.

Daha sonra keçirilən görüşdə Roma şəhərinin meri İqnatsio Marino Azərbaycan ilə İtaliya arasında siyasi, iqtisadi, enerji sahələrində əlaqələrin genişləndiyini bildirdi, ölkəmizdə gedən inkişaf proseslərinin məmnunluq doğurduğunu diqqətə çatdırdı. O, Azərbaycan ilə mədəniyyət sahəsində əlaqələrin inkişafında maraqlı olduqlarını bildirdi. Bunun ölkələrimizin və xalqlarımızın bir-birini daha yaxından tanımaları üçün yaxşı imkan yaratdığını dedi. Roma şəhərinin meri Heydər Əliyev Fondu ilə geniş əməkdaşlıq əlaqələrinə toxunaraq Fondun dün-

yada ümumbəşəri dəyəri olan bir çox mədəni və humanitar layihələri uğurla həyata keçirdiyindən xəbərdar olduğunu bildirdi. İqnatsio Marino Azərbaycanın birinci xanımı Mehriban Əliyeva ilə Romada keçirilən görüşünü xatırlatdı, Heydər Əliyev Fondu ilə birgə reallaşdırılan layihələrin əhəmiyyətinə toxundu. «Mercati di Traiano» Muzeyinin ərazisində arxeoloji qazıntı işlərinin aparılmasında Heydər Əliyev Fondunun xidmətlərini yüksək qiymətləndirən mer buna görə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev bu memarlıq və mədəniyyət mirasının təkcə Romaya deyil, bütün bəşəriyyətə aid olduğunu dedi, arxeoloji qazıntı işlərində Azərbaycanın da iştirak etməsindən fərəh hissi keçirdiyini bildirdi. «Düşünürəm ki, bu bizim ikitərəfli əlaqələrimizin vacib elementidir» – deyən dövlətimizin başçısı mədəniyyət sahəsində əlaqələrin inkişafının xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırdı. Prezident İlham Əliyev İtaliya tarixinin və mədəniyyətinin Azərbaycanda yaxşı tanındığını, ölkəmizin mədəniyyətinin də İtaliyada təbliğinin mühüm əhəmiyyətə malik olduğunu qeyd etdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin çox yüksək səviyyəyə çatdığını deyərək, İtaliyanın Avropada və dünyada Azərbaycanın əsas ticarət tərəfdaşı olduğunu bildirdi. Hazırda tərəfdaşlığımızın enerji sektorunda uğurla həyata keçirildiyini, Avropanın enerji xəritəsini dəyişəcək TAP layihəsinin Azərbaycan üçün də böyük önəm təşkil etdiyini deyən dövlətimizin başçısı əməkdaşlıq əlaqələrinin gələcəkdə infrastruktur, tikinti, yüksək texnologiyalar və iqtisadiyyatın digər sahələrini də əhatə edəcəyinə əminliyini bildirdi.

Görüşdən sonra prezident İlham Əliyev muzeyin fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Daha sonra dövlətimizin başçısı İlham Əliyev Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Roma Şəhər Meriyası arasında sazişin imzalanması mərasimində iştirak etdi.

*Bu saziş «Mercati di Traiano» Muzeyinin yerləşdiyi ərazidə arxeoloji qazıntı işlərinin aparılmasına maliyyə vəsaitinin ayrılmasını nəzərdə tutur.*

*Sonra İqnatsio Marino Roma şəhərinin rəmzi olan xatirə hədiyyəsini prezident İlham Əliyevə təqdim etdi.*

*Mərasim başa çatdıqdan sonra dövlətimizin başçısı və Roma şəhərinin meri arxeoloji qazıntı işlərinin aparılacağı ərazini, həmçinin Roma şəhərinin mənzərəsini seyr etdilər.*

*Sonda prezident İlham Əliyev İtaliya jurnalistlərinə müsahibə verdi.*

**İlham Əliyev:** Yenidən gözəl Roma şəhərində olmaqdan çox şadam. Bu gün əlaqələrimizdə çox vacib bir gündür. İtaliya–Azərbaycan əlaqələri çox uğurla inkişaf edir, müxtəlif sahələri əhatə edir. Biz yaxşı dost və tərəfdaşlarıq. Biz fəxr edirik ki, Azərbaycan sizin tarixi memarlıq irsinizin bərpasında iştirak edir. Sizin tarixiniz, mədəniyyətiniz, memarlığınız bütün bəşəriyyətə məxsusdur. Azərbaycan fəxr edir ki, bu prosesin iştirakçısıdır.

Bu gün biz merlə müzakirələr apardıq və əməkdaşlığımızı davam etdirəcəyik. Bu gün imzalanan saziş o deməkdir ki, biz yeni əməkdaşlıq mərhələsinə qədəm qoyuruq. Siyasi, iqtisadi, enerji məsələləri bizim üçün çox vacibdir və ölkələrimizi birləşdirir. Lakin mədəniyyət təkcə siyasətçiləri, ölkələri yox, həm də insanları birləşdirir. Bu gün ölkələrimiz arasında mədəniyyətlərarası münasibətlər, insanlar arasında təmaslar, bir-birimizin tarixinə göstərdiyimiz qarşılıqlı maraq bu tərəfdaşlığı gücləndirir. Ona görə də biz bu gün ölkələrimiz arasında yüksək səviyyəli əməkdaşlıqdan danışa bilərik, çünki o, həyatın bir çox sahələrini əhatə edir.

Bu yerdən sizin şəhərinizə açılan füsunkar mənzərəyə baxmaq çox gözəldir. Çünki mənim əvvəllər Romaya dəfələrlə səfərlərim olub, lakin burdan Romaya baxmamışdım. Ümid edirəm ki, biz birlikdə tezliklə bu ərazilərdə əhəmiyyətli tapıntılar aşkarlayacağıq.

**İ q n a t s i o  M a r i n o:** Bizə göstərdiyi bu yardıma görə Azərbaycan prezidenti İlham Əliyevə minnətdarıq. Bu yardım sayəsində biz Aleksandria küçəsində arxeoloji qazıntı işlərini aparacağıq. Söz veririk ki, cənab Prezidentin İtaliyaya növbəti səfəri zamanı biz gördüyümüz işlərin nəticələrini nümayiş etdirəcəyik.

Onu da deyim ki, ölkələrimiz arasında münasibətlərin inkişafından məmnunuq. Təbii ki, bu gün Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi ilə Roma Şəhər Meriyası arasında imzalanmış bu mühüm saziş ölkələrimizin mədəniyyət sahəsində əlaqələrinin inkişafından xəbər verir. Biz buna böyük əhəmiyyət veririk. Əminəm ki, bu sənəd əməkdaşlığımızın gələcəkdə daha da genişlənməsinə töhfəsini verəcəkdir.

# İTALİYA RESPUBLİKASININ BAŞ NAZİRİ MATTEO RENZİ İLƏ GÖRÜŞ

*Roma*

*14 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 14-də Romada İtaliya Respublikasının Baş naziri Matteo Renzi ilə görüşmüşdür.*

*Baş nazir Matteo Renzi prezident İlham Əliyevi qarşıladı. İtaliya nümayəndə heyəti prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti Baş nazir Matteo Renziyə təqdim olundu.*

*Görüşdə Azərbaycan ilə İtaliya arasında ikitərəfli əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə inkişafından məmnunluq ifadə olundu. Ölkələrimiz arasında əlaqələrin strateji səviyyəyə qalxdığı bildirildi, energetika sahəsində əməkdaşlığın yaxşı perspektivləri olduğu qeyd edildi. Prezident İlham Əliyevin İtaliyaya rəsmi səfərinin ikitərəfli münasibətlərin inkişafı baxımından önəmi vurğulandı. Azərbaycan–İtaliya əlaqələrinin Avropa İttifaqı ilə əməkdaşlıq baxımından əhəmiyyəti qeyd edildi, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Roma*

*14 iyul 2014-cü il*

*Romada iyulun 14-də Azərbaycan–İtaliya sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Əvvəlcə Azərbaycan* prezidenti *İlham Əliyev və İtaliyanın Baş* naziri *Matteo Renzi tərəfindən «Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında* strateji *tərəfdaşlıq haqqında Birgə Bəyannamə» qəbul* olundu.

*«Azərbaycan Respublikası Hökuməti ilə İtaliya Respublikası Hökuməti arasında dəniz nəqliyyatı haqqında Saziş»i Azərbaycanın Energetika naziri Natiq Əliyev və İtaliyanın İnfrastruktur, Nəqliyyat və Telekommunikasiyalar naziri Maurizio Lupi imzaladılar.*

*«Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi ilə İtaliya Respublikasının İqtisadi İnkişaf Nazirliyi arasında iqtisadi əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın İtaliyadakı səfiri Vaqif Sadıqov və İtaliyanın İqtisadi İnkişaf nazirinin müavini Karlo Kalenda imzaladılar.*

*«Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə İtaliya Respublikasının Mədəni İrs və Fəaliyyətlər və Turizm Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev və İtaliyanın Mədəni İrs və Fəaliyyətlər və Turizm Nazirliyinin Dövlət* katibi *Françeska Barraççiu imzaladılar.*

*«Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə İtaliya Respublikası Nazirlər Şurasının Sədrliyinin Regional*

*Məsələlər, Muxtariyyətlər və İdman* Departamenti – *İdman* Ofisi *arasında* idman *əməkdaşlığına* dair *Anlaşma* Memorandumu»nu *Azərbaycanın* Xarici *İşlər* naziri Elmar *Məmmədyarov və İtaliya Nazirlər* Kabinetinin *Dövlət* katibi Qratsiano Delrio *imzaladılar.*

## BMT-nin ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATININ BAŞ DİREKTORU JOZE QRATSİANO DA SİLVA İLƏ GÖRÜŞ

*Roma*

*15 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 15-də Romada BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) baş direktoru Joze Qratsiano da Silva ilə görüşmüşdür.*

*Prezident İlham Əliyevi Joze Qratsiano da Silva qarşıladı.*

*Görüşdə Azərbaycan ilə FAO arasında əməkdaşlığın uğurla inkişaf etdiyi bildirildi, ölkəmizdə iqtisadi sahədə qazanılan nailiyyətlərdən danışıldı. Son illərdə Azərbaycanda kənd təsərrüfatının inkişaf etdiyi və bu sahədə aparılan islahatların yaxşı nəticələr verdiyi, fermerlərə dövlət dəstəyinin ildən-ilə artdığı qeyd olundu. Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi işində qazanılan uğurlar və bu istiqamətdə gələcəkdə görüləcək tədbirlərdən danışıldı.*

*Görüşdə Azərbaycan ilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev FAO-nun fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

*Daha sonra dövlətimizin başçısı BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı Muzeyində oldu.*

*FAO-nun baş direktoru Jose Qratsiano da Silva prezident İlham Əliyevə məlumat verdi ki, təşkilatın yerləşdiyi binada zəngin kitabxana da vardır. Bundan əlavə, burada FAO-nun Media Mərkəzi də yerləşir.*

*Sonra prezident İlham Əliyev FAO-nun televiziyasına müsahibə verdi.*

**İ l h a m  Ə l i y e v:** BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatında olmaqdan məmnunluq hissi keçirirəm. Bizim mükəmməl əməkdaşlığımız vardır. 2 il bundan əvvəl Bakı şəhərində təşkilatın baş direktoru ilə olan görüşümü xatırlayıram. O zaman Bakıda BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Avropa konfransı keçirildi və bizim çox yaxşı müzakirələrimiz oldu.

Biz BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatına kənd təsərrüfatı sahəsində apardığımız islahatlara davamlı dəstək göstərdiyinə görə minnətdarıq. Çünki biz islahatları davam etdiririk, özümüzü istehsal etdiyimiz əsas kənd təsərrüfatı məhsulları ilə 100 faiz təmin etməyə çalışırıq və buna nail olmağa yaxınıq. Buna görə də BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının metodoloji tövsiyələri, məsləhətləri və ekspert biliyi bizim üçün çox önəmlidir.

Biz əməkdaşlığımızı çox yüksək dəyərləndiririk və cənab baş direktoru bütün dünyanı, demək olar ki, 200 ölkəni əhatə edən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının nailiyyətlərinə görə təbrik etmək istəyirəm. Mən əminəm ki, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının fəaliyyətinin praktiki təsiri dünyanın bir çox yerlərində nəzərə çarpır. Bizim əməkdaşlığımız uğurla davam edir. Bu gün əməkdaşlığın yeni formalarını müzakirə etdik və ümidvaram ki, çox tezliklə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycanda ofisi açılacaq. Həmçinin Azərbaycan artıq digər ölkələrə də yardım etmək iqtidarındadır. Biz bu yardımı göstəririk və bunu əməkdaşlığımızın formatı çərçivəsində BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı ilə birlikdə etmək istəyirik. Biz artıq bir neçə sahədə donor ölkəsinə çevrilirik və həmçinin kənd təsərrüfatı islahatlarına da öz dəstəyimizi göstərmək istəyirik. Çünki ərzaq təhlükəsizliyi ölkələrin milli təhlükəsizliyinin ən əsas elementlərindən biridir.

Bir daha cənab baş direktora göstərdiyi qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istəyirəm və onun üçün münasib olan vaxtda onu yenidən Azərbaycana dəvət edirəm.

## Səfər başa çatdı

*İyulun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasına rəsmi səfəri başa çatmışdır.*

*Roma Beynəlxalq Aeroportunda dövlətimizin başçısını İtaliyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Moskva metrosunda qəza nəticəsində insan tələfatı haqqında xəbər məni dərindən kədərləndirdi.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir, zərərçəkənlərin hamısının tezliklə sağalmasını arzu edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 iyul 2014-cü il*

## SURAXANI GÜNƏŞ ELEKTRİK STANSİYASININ AÇILIŞI MƏRASİMİ

*16 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin «Azalternativenerji» Məhdud Məsuliyyətli Cəmiyyətinin Suraxanı Günəş Elektrik Stansiyasının açılışında iştirak etmişdir.*

*Son illər ölkəmizin həyatının bütün sahələrində irimiqyaslı layihələr uğurla icra edilir. Həyata keçirilən islahatlar nəticəsində iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən energetika sektorunda sürətli inkişafa nail olunub. Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin «Azalternativenerji» Məhdud Məsuliyyətli Cəmiyyətinin Suraxanı Günəş Elektrik Stansiyasının yaradılması da bu istiqamətdə görülən işlərin ardıcıl xarakter almasını bir daha sübut edir. Müasir avadanlıqlarla təchiz olunan stansiyada elektrik enerjisinin istehlakçıya itkisiz çatdırılması üçün bütün imkanlar yaradılıb.*

*«Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə müasirlikdir, yenilikdir, ekoloji cəhətdən təmiz texnologiyadır. Bu bizim gələcəyə baxışımızdır» – deyən prezident İlham Əliyev bu sahənin yaradılmasında tarixi işlər görüb.*

*Qeyd edək ki, ölkədə alternativ və bərpa olunan enerji sahəsində idarəetmə sisteminin təkmilləşdirilməsi məqsədilə dövlətimizin başçısının fərmanına əsasən 2013-cü ildə Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi yaradılıb və bu sahənin inki-*

*şafını nəzərdə* tutan *bir sıra sənədlər imzalanıb, proqramlar qəbul* olunub.

*Son dövrdə* alternativ *və bərpa* olunan *enerjidən səmərəli istifadə, bu sahədə müasir* infrastrukturun *yaradılması baxımından mühüm işlər görülüb.* Bütün bu *işlər* iqtisadiyyatda *və* sosial *sahələrdə* alternativ *və bərpa* olunan *energetikanın tətbiqini genişləndirməyə* imkan verib, bu *cür* enerjinin *istehsalı, istehlakı və səmərəliliyi ilə bağlı tədbirlərin həyata keçirilməsinə hərtərəfli şərait yaradıb.*

*Azərbaycan bərpa* olunan *və* alternativ *enerji potensialı ilə zəngin ölkədir. Bərpa* olunan *və* alternativ *enerji mənbələrinin payını* 2020-ci *ilə qədər ümumi* enerji *istehsalının* 20 *faizinə çatdırmaq qarşıya məqsəd* qoyulub.

*Alternativ və Bərpa* Olunan *Enerji Mənbələri üzrə Dövlət* Agentliyinin *sədri* Akim *Bədəlov* burada *görülən işlər barədə* prezident *İlham Əliyevə məlumat* verdi.

Qeyd *edildi ki*, stansiyada *təlim məntəqəsi fəaliyyət göstərir. Məntəqədə* bu ixtisas *üzrə təhsil* alan *tələbələr, həmçinin* bu *sahənin mütəxəssisləri üçün müxtəlif təlim kurslarının keçirilməsi nəzərdə* tutulub. 6 *hektar sahədə yaradılan* stansiyada 8 min *günəş* paneli *quraşdırılıb.* Bu *panellər gündə təqribən* 12 *min* kilovat-saat *elektrik* enerjisi *istehsal etmək iqtidarındadır. Gələcəkdə* burada daha 4 min *belə* panelin *quraşdırılması nəzərdə* tutulur. Bu *isə* stansiyanın daha *səmərəli fəaliyyət göstərməsi üçün geniş* imkanlar *açacaq.*

*İnşasına* 2014-cü *ilin martından başlanılan* stansiya *mayın* 22-*dən* test *rejimində çalışır.* Bu *müddət ərzində stansiyanın müəyyən qurğuları və* onun *müxtəlif rejimlərdə,* o *cümlədən qəza rejimində fəaliyyəti yoxlanılıb.*

*Dövlət başçısı stansiyanın idarəetmə mərkəzində* oldu.

*Mərkəzdən* Qobustan *Hibrid* Elektrik *Stansiyası, Suraxanı Günəş* Elektrik *Stansiyası, Biləsuvar qaçqın şəhərciyi, Masallı İdman* Kompleksi, *həmçinin Bakı şəhərində* 5 *məktəb və* 2 *poliklinikanın üzərində quraşdırılan günəş panellərinin fəaliyyətinə nəzarət etmək mümkündür. Yaxın gələcəkdə Sumqayıt,*

*Samux, Səngəçal və Pirallahıda günəş elektrik stansiyalarının istifadəyə verilməsi nəzərdə tutulur. Mövcud stansiyaların fəaliyyəti nəticəsində 4 milyon kilovat-saatdan artıq elektrik enerjisi istehsal olunub, 1 milyon 300 min kubmetrə yaxın təbii qaza qənaət edilib.*

*Prezident İlham Əliyevə Suraxanı Günəş Elektrik Stansiyasının göstəriciləri barədə məlumat verildi.*

*Bildirildi ki, yaradılmasında əsasən yerli xammal və avadanlıqdan istifadə olunan stansiyanın layihə gücü 2800, stansiyada illik elektrik enerjisi istehsalı 4 milyon kilovatdır. Stansiya layihə gücü ilə tam işləyəndə il ərzində 1,5 milyon kubmetr qaza qənaət olunacaq.*

*Sonra dövlətimizin başçısına Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin səyyar laboratoriyasının fəaliyyəti barədə məlumat verildi.*

*Bu laboratoriya alternativ və bərpa olunan enerji mənbələrinin potensialını müəyyənləşdirmək üçün yaradılıb. Laboratoriya ən müasir və xüsusi avadanlıq, həmçinin avtonom enerji mənbəyi ilə təchiz olunub. Respublikanın müxtəlif yerlərinə aparılan laboratoriyanın köməyi ilə həmin ərazidə günəş, su, külək elektrik stansiyalarının quraşdırılmasının səmərəliliyi yoxlanılır. Dövlət Agentliyinin istehsalı olan səyyar günəş generatorları xüsusi əhəmiyyətə malikdir. Günəş panelləri ilə təchiz olunan bu avadanlıq əvəzsiz qurğudur. Avadanlıq günəşdən enerji alaraq onu saxlamaq imkanına malikdir. Agentlik hidrogen generatoru da istehsal edir. Bu qurğu ilə yüksək temperatur əldə etmək və qaz-qaynaq işləri aparmaq olur. Generatoru digərlərindən fərqləndirən onun ekoloji cəhətdən təmiz olmasıdır. Bu cihaz qaynaq işləri zamanı 3500 selsi temperaturla işləyir.*

*Prezident İlham Əliyev 2020-ci ilədək Azərbaycan Respublikasının alternativ və bərpa olunan enerji mənbələri üzrə inkişaf xəritəsinə baxdı. 2020-ci ilədək Azərbaycanın hər bir şəhər və rayonunda hibrid tipli elektrik stansiyalarının yaradılması qarşıya məqsəd qoyulub. Hazırda hansı bölgədə neçə*

stansiyanın quraşdırılması ilə əlaqədar araşdırmalar aparılır. Belə stansiyaların yaşayış yerlərinə yaxın yaradılması ilk növbədə, elektrik enerjisi itkisinin qarşısını alacaq və enerjinin istehlakçıya daha ucuz qiymətə çatdırılmasına imkan verəcək. Ümumilikdə, alternativ və bərpa olunan enerji mənbələrinin inkişafını təmin etmək məqsədilə 2020-ci ilədək qoyuluş gücü 2500 meqavat olan elektrik stansiyalarının hesabına ildə 11 milyard kilovat-saat elektrik enerjisi istehsalı nəzərdə tutulur ki, bu da il ərzində 3 milyard kubmetrə yaxın qaza qənaət etmək deməkdir. Araşdırmalar göstərir ki, alternativ və bərpa olunan enerji mənbələri sahəsinə yatırılan investisiyalar 7-8 il ərzində geri qayıdır.

Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin 2015-ci ilədək inkişaf layihələri ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, respublikanın müxtəlif bölgələrində ümumi qoyuluş gücü 300 meqavat olan elektrik stansiyalarının inşası nəzərdə tutulub.

Buzovna «Eko-kənd» layihəsi də mühüm əhəmiyyət kəsb edir. Layihənin reallaşması nəticəsində ərazinin elektrik enerjisi ilə təchizatı günəş panelləri hesabına təmin ediləcək. Bu isə elektrik enerjisinin istehsalı zamanı heç bir ekoloji problem yaratmayacaq. «Qobustan–2020» layihəsini isə pilot layihə hesab etmək olar. Layihə «Ağıllı şəbəkə» adlanan sistem vasitəsilə reallaşacaq. «Ağıllı şəbəkə» enerji itkisini azaltmaqla yanaşı, həm də istehlakçıya daha keyfiyyətli elektrik enerjisi ötürməyə imkan verəcək. Bu sistem Qobustanda hansısa bir ərazidə qəza baş verər-sə, bütün rayonun deyil, məhz həmin ərazinin elektrik enerjisi ilə təchizatını dayandıracaq. Layihənin həyata keçməsi ilə Qobustan rayonu üzrə 212 kilometr elektrikötürücü xətlərinin qənaətinə imkan yaradılacaq və 94 komplekt transformator məntəqəsi ixtisara düşəcək. Layihə həm də müxtəlif ölçülü 11 su anbarının yaradılmasını nəzərdə tutur. Qobustanda günəş elektrik stansiyaları hesabına boru su kəmərləri vasitəsilə suvarılan torpaqların sahəsinin 5 min hektardan 50 min hektara çatdırılması

nəzərdə tutulur. Layihə çərçivəsində burada bir sıra iqtisadi, kənd təsərrüfatı və sənaye obyektlərinin inşası planlaşdırılır.

Prezident İlham Əliyevə yolların və yaşayış binalarının işıqlandırılması ilə bağlı avtomatik idarəetmə sistemi barədə məlumat verildi. Bu sistemi reallaşdırmaqda məqsəd günün saatından asılı olaraq yolların və yaşayış binalarının müxtəlif rejimlərdə işıqlandırılmasıdır. Belə ki, sistem yolları avtomobillərin intensivliyinə görə də işıqlandıra bilir. Bunun hesabına isə həm elektrik enerjisinə qənaət olunur, həm də yol istismar xərcləri aşağı düşür. Sistemin özəlliyi ondan ibarətdir ki, onun bütün intellektual proqramları Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyində hazırlanıb.

Görülən işlərlə tanış olan prezident İlham Əliyev kollektivlə xatirə şəkli çəkdirdi və müvafiq tapşırıq və göstərişlərini verdi.

# ABŞ-ın AZƏRBAYCANDAKI SƏFİRİ İLƏ GÖRÜŞ

*16 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da ABŞ-ın ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Riçard Morninqstarı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə ABŞ arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, enerji sahəsində uzun illər həyata keçirilən əməkdaşlığın önəmi qeyd olundu, əlaqələrimizin hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AVROPA KOMİSSİYASININ YENİ SEÇİLMİŞ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB JAN-KLOD YUNKERƏ

Hörmətli cənab Yunker!

Avropa Komissiyasının sədri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası Avropa İttifaqı ilə əlaqələrin hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir. Bu mənada Avropa İttifaqı ilə müxtəlif sahələrdə əməkdaşlığımızın gündən-günə genişlənməsi, əldə edilmiş nailiyyətlər məmnunluq doğurur.

Bu gün siyasi, iqtisadi, mədəni və digər sahələrdə böyük potensiala malik əlaqələrimiz uğurla inkişaf etməkdədir. Avropa İttifaqı ilə münasibətlərimizin əsas istiqamətlərindən biri sayılan enerji sahəsində uğurlu və davamlı əməkdaşlığımız Avropanın enerji təhlükəsizliyinin təminatında ölkəmizin etibarlı tərəfdaş olduğunu sübut etmişdir.

İnanıram ki, sağlam təməl, etimad və dəstək üzərində qurduğumuz tərəfdaşlıq əlaqələrinin, qarşılıqlı faydalı əməkdaşlığımızın bundan sonra da müvəffəqiyyətlə davam etdirilməsi üçün birgə səylər göstərəcəyik.

Hörmətli cənab Yunker, Sizi bir daha təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı fəaliyyətinizdə Sizə və Komissiyanın gələcək heyətinə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 iyul 2014-cü il*

## BELÇİKA KRALI ƏLAHƏZRƏT FİLİPPƏ

Əlahəzrət!

Belçika Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Belçika xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 iyul 2014-cü il*

## RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ İŞTİRAK

*Qafqaz Müsəlmanları İdarəsi*

*17 iyul 2014-cü il*

*Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə iyulun 17-də müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açmışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak etmişdir.*

*İftar mərasimi «Qurani-Kərim»dən ayələrin və Ramazan duasının oxunması ilə başlandı.*

**Ş e y x ü l i s l a m  A l l a h ş ü k ü r  P a ş a z a d ə** *(Qafqaz Müsəlmanları İdarəsinin sədri):* Bismillahir-rəhmanir-rəhim!

Möhtərəm prezident İlham Əliyev həzrətləri!

Hörmətli məclis iştirakçıları, əziz qonaqlar!

Ənənəvi iftar süfrəmizə verdiyiniz şərəfə, burada iştirakınıza görə sizə «Xoş gəlmisiniz!» – deyir və xoş arzular diləyirəm.

Allah-Taalanın bizə bəxş etdiyi Quranın nazil olduğu bu mübarək Ramazan ayında iftar süfrəmizə təşrif gətirdiyinizə, bu müqəddəs aya hörmətinizə görə sizə xoş arzularımı çatdırır, təşəkkürümü bildirirəm.

İftar süfrəsi arxasında sizinlə görüşmək bir ənənəyə çevrilmişdir. Bu ənənənin bünövrəsini qoyan əziz dostum, qardaşım ulu öndər Heydər Əliyev həzrətləri olmuşdur. Allah-Taala ulu öndərimizə və ömür-gün yoldaşı Zərifə xanıma rəhmət etsin, qəbirləri nurla dolsun, inşallah! Həm də bu iftar süfrəsi başına toplaşmağımız qardaşlıq, dostluq, dinlər, millətlər arasında dialoq, vicdan azadlığı və tolerantlıq deməkdir. Mən

Rəbbin dərgahına şükür edirəm ki, Allah-Taala bu görüşün səadətini və bu ayın nemətini bizə nəsib etdi. İftar süfrəsi arxasında bu görüş, əlbəttə, biz müsəlmanlar üçün çox xoşdur. Ötən iftar süfrəsindən keçən 1 il ərzində ən mühüm hadisələrdən biri və ən önəmlisi zati-aliləri İlham Əliyev həzrətlərinin Allahın istəyi və xalqın dəstəyi ilə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi olmuşdur. Həmin dövrlərdə zəvvarlarımız Məkkədə, müqəddəs Kəbə evində Allaha dua edib Azərbaycanın bu gününə və sabahına səs verdilər. Bu gün də dindarlarımız həmin səsverməni Allahın lütfü hesab edirlər.

Siz gözəl bilirsiniz, həmin dövrü yaşamısınız. Mən də həmin dövrü yaşamışam. Bir vaxtlar Azərbaycan parçalanmaq, dağılmaq ərəfəsində idi. Müstəqilliyimiz şübhə altında idi. Xalqın çağırışı ilə ulu öndər Heydər Əliyev həzrətləri yenidən hakimiyyətə qayıtdı. Nəinki Azərbaycanı parçalanmaqdan xilas etdi, eyni zamanda, yeni və daha gözəl bir Azərbaycan yaratdı.

Heydər Əliyev böyük siyasət xadimi, müdrik insan idi. Bu gün bir çox dövlətlərin rəhbərlərində məhz Heydər Əliyev siyasətinin çatışmazlığı görünür. Əgər onlar Heydər Əliyev siyasi məktəbindən öyrənsəydilər, bu gün dünyada baş verən hadisələr başqa məcrada inkişaf edə bilərdi. Bu gün ulu öndər Heydər Əliyev həzrətləri cismən olmasa da, ruhən bizimlədir, yaşayır və həmişə də yaşayacaqdır. Onun bizə göstərdiyi yol, bizim üçün miras qoyduğu dövlətçilik məktəbi, həyat verdiyi müstəqillik yaşayır və yaşamaqdadır.

Özü qədər inandığı İlham Əliyev həzrətləri Heydər Əliyev siyasətini şərəflə uca tutur. Bu gün Azərbaycan heç də keçən əsrin 90-cı illərinin Azərbaycanı deyil. İndi Azərbaycan regionda möhkəm, iradəli, inkişaf etmiş lider dövlətdir. Azərbaycan bir çox mötəbər təşkilatların üzvüdür və onlara sədrlik edir. Bu il Azərbaycan Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik edir və həm də İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. Azərbaycan dünyada baş verən qlobal və regional məsələlərdə

yaxından iştirak edir və onların həlli yollarını tapır. Əlbəttə, bu bizi çox sevindirir.

Heydər Əliyevin – Allah rəhmət eləsin – müəllifi olduğu «Əsrin müqaviləsi» əgər Azərbaycan dövlətinin birliyinə yönəlmişdisə, zati-aliləri, Sizin müəllifi olduğunuz XXI əsrin müqaviləsi – «Şahdəniz-2» qaz layihəsi Azərbaycanın inkişafı, bu günü və sabahı üçün atılan bir addımdır.

Azərbaycan dövləti və rəhbərliyi yalnız siyasi-iqtisadi məsələlərə deyil, həm də milli-mənəvi dəyərlərə böyük önəm verir. Azərbaycanda dinindən, dilindən asılı olmayaraq hər bir vətəndaşa öz dini etiqadını yerinə yetirmək üçün bütün şərait yaradılıb. Azərbaycanda din xadimlərinə, dini ibadət yerlərinə dövlətimizin başçısı tərəfindən yüksək diqqət və qayğı göstərilir. Buna görə bir ağsaqqal kimi, mən bütün dindarlar adından, zati-aliləri, Sizə təşəkkürümü bildirirəm.

Azərbaycanda keçirilən beynəlxalq humanitar forumlar, dövlət–din məsələləri, millətlərarası, dinlərarası dialoqlar, dünya dini liderlərinin Azərbaycanda görüşü, patriarxların, islam dini liderlərinin tez-tez Azərbaycana gəlməsi və zati-aliləri ilə görüşməsi bizim üçün fəxarətdir.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət Müşavirliyinin, Dini Mədəniyyətin İnkişaf Fondunun yaradılması bir daha göstərir ki, Azərbaycanda hərtərəfli inkişaf gedir.

Əlbəttə, burada Heydər Əliyev Fondunun da gördüyü çox böyük işlər vardır. Fondun prezidenti Mehriban xanım Əliyeva öz zərif çiynində Azərbaycanın böyük milli-mənəvi dəyərlərimizə yeni həyat verdi, yaşatdı, onu dünya miqyasına qaldırdı və bütün dünyada təbliğ etdi.

Bu gün Azərbaycanı yalnız nefti, qazı, qaz kəmərləri ilə deyil, həm də mədəniyyəti, dünyagörüşü, mənəviyyatı, tolerantlığı ilə tanıyırlar. Ona görə də biz Heydər Əliyev Fondunun prezidenti Mehriban xanıma, Fondun vitse-prezidenti Leyla xanıma və bütün işçilərinə Allah-Taaladan xeyir-dualar diləyirik.

Heydər Əliyev həzrətlərinin Təzəpirdən, Bibiheybətdən başladığı mənəviyyat yolu bu gün uğurla davam edir. Bakıda Əjdərbəy, Şamaxıda ən qədim Cümə məscidlərinin yenidən inşa olunması, Gəncədə İmamzadə Kompleksinin əsaslı şəkildə yenidən qurulması, ən mühümü isə Binəqədi rayonunda yeni, gözəl, ən böyük bir məscidin tikilməsi ilə bərabər, həm də sinaqoqların, kilsələrin, katolik və udin kilsələrinin bərpa edilib və tikilib dindarların istifadəsinə verilməsi bunun əyani təsdiqidir.

Mən bir məsələni də qeyd etmək istərdim ki, bayaq dediyim kimi, əgər Azərbaycanda Binəqədi məscidinin 95 metrlik minarəsi ucalırsa, bununla bərabər, həm də dünyada ən hündür bayraq Azərbaycan üzərində dalğalanır. Bu da hərtərəfli inkişaf deməkdir. Amma mən çox heyifsilənirəm ki, bunu gözü götürməyən qüvvələr də vardır. Açığı, bizdə də məzhəblər arasında nifaq salmaq, dinlər arasında iğtişaş yaratmaq istəyirlər.

Zati-aliləri, mən Sizi əmin edirəm ki, dinindən, dilindən asılı olmayaraq Azərbaycan vətəndaşları öz Vətəninə, torpağına, dədə-baba adətlərinə sadiqdirlər və heç bir qüvvə onları bu yoldan döndərə, başqa yollara apara bilməz. Çünki bu dövlətin, dövlət–din əlaqələrinin bünövrəsini ulu öndər Heydər Əliyev həzrətləri qoymuşdur. Ulu öndər Heydər Əliyev həzrətləri deyirdi ki, müstəqilliyimiz həmişəyaşardır, əbədidir, inşallah. Amma buna inanmayan, ola bilsin şübhə ilə yanaşan bəzi qüvvələr varsa, onlar Şəhidlər xiyabanına getsinlər – Allah bütün şəhidlərə rəhmət etsin, zati-aliləri, Qarabağ torpaqlarımızın tezliklə azad olunmasını da Sizin rəhbərliyinizlə bizə nəsib etsin – gözləri ilə görsünlər orada uyuyan, canından, qanından keçən qardaşlarımız, oğullarımız, o dövrdə heç soruşurdular ki, kim hansı millətdəndir?! Orada Azərbaycanda yaşayan bütün xalqların və dinlərin nümayəndələri uyuyur. Bəs onları birləşdirən amal nə idi?! Onları birləşdirən Vətən, torpaq, sevgi, qardaşlıq idi.

Bizim qurum – Qafqaz Müsəlmanları İdarəsi Heydər Əliyevə, onun siyasətinə, onun vəsiyyətlərinə həmişə sadiq olmuşdur.

Allah-Taala bizə ömür versin. Ömrümüzün axırına qədər bu əqidədə qalacağıq. Əlbəttə, Heydər Əliyev çox böyük şəxsiyyət, dahi siyasət xadimi, həm də vəfalı dost, sözünə, əməlinə sadiq bir insan idi.

Zati-aliləri, Sizin bu iftar süfrəsində bizimlə birlikdə olmağınızı mən bu sədaqətin, bu vəfanın davamı hesab edirəm. Ona görə də öz adımdan, ailəm adından, dindarlar adından Sizə minnətdarlığımı bildirirəm. Mən bilirəm ki, Siz də, Mehriban xanım da çox işləyirsiniz, yorulursunuz. Sizin gözəl nəvələriniz vardır. Onları yanınıza gətirirlər, onlarla görüşəndən 5-10 dəqiqə sonra yorğunluğunuz yaddan çıxır.

Bu gecələr duaların qəbul edildiyi Əhya gecələridir. Zati-aliləri, mən dua edirəm ki, Allah-Taala Sizə və Mehriban xanıma oğlunuzdan nəvə nəsib etsin, inşallah. Onunla bərabər olasınız, görüşəsiniz və bütün bu yorğunluqlar yaddan çıxsın.

Allah-Taaladan arzu edirəm ki, Sizin ailənizi xoşbəxt etsin. Bütün Azərbaycan xalqına xoşbəxtlik arzu edirəm. Allah-Taala xəstələrə şəfa versin, dualarımızı, ibadətlərimizi qəbul etsin, növbəti iftarı da bizə nəsib etsin, inşallah.

Bir daha «Xoş gəlmisiniz!» – deyirəm.

Vəs-səlamu əleykum və rəhmətullahi və bərəkatuhu!

**A l e k s a n d r** *(Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının rəhbəri):* Hörmətli cənab Prezident!

Hörmətli şeyx həzrətləri!

Möhtərəm din xadimləri!

Xanımlar və cənablar!

Sizinlə birlikdə din xadimləri ilə dünyəvi insanların görüşü kimi nadir bir hadisənin şahidiyik. Biz birlikdə, bir masa arxasında ünsiyyət saxlayır, dünyəvi insanları dini həyatla, dindar insanları isə dünyəvi siyasət və iqtisadiyyatın inkişafı ilə bağlı narahat edən məsələləri müzakirə edə bilərik.

Bu nadir imkan bizə dini mərasimlər, Ramazan ayı sayəsində qismət olur ki, bu ay ərzində iftar süfrəsi açmaq kimi gözəl dini adət vardır. Biz ilk dəfə deyildir ki, bu gözəl evdə toplaşırıq. Mənə belə gəlir ki, hər kəs bu görüş, dindarlarla dünyəvi insanlar

arasında belə gözəl şəraitdə ünsiyyət imkanı ilə dərindən maraqlanır. Demək istərdim ki, bizdə – Azərbaycanda həqiqətən, heyrətamiz bir imkan mövcuddur. Bununla əlaqədar keçən il baş vermiş bir hadisəni xatırlatmaq istərdim. Noyabrın 15-də Bakıda Pravoslav Dini-Mədəni Mərkəzinin açılışı oldu. Cənab Prezident də açılış mərasiminə təşrif gətirmişdi. Cənab Prezident bu mərasimdə din xadimlərinə müraciətlə bizim multikulturalizm adlandırdığımız anlayış barədə çox əhəmiyyətli, deyərdim ki, proqram xarakterli nitq söylədi. Biz tolerantlıq barədə, onun imkanları, nailiyyətləri, uğursuzluqları haqqında çox danışmışıq. Lakin indi yeni bir termin yaranıb – multikulturalizm. Cənab Prezident bu anlayışı açıqlayaraq, onun mahiyyətini və ölkəmizdəki vəziyyəti təhlil edərək, çox dəyərli sözlər dedi. O bildirdi ki, müxtəlif dinlərin nümayəndələri arasında qardaşlıq və dostluq münasibətləri ölkələrin gələcək inkişafının əsasıdır. Burada qloballaşma problemləri, identikliyin itirilməsi problemi də vardır. Məhz multikulturalizm sayəsində, xüsusən gənclər üçün cəmiyyətin mənəvi və ənənəvi əsasları qorunub saxlanılır. Multikulturalizm problemi gələcək nəsillərin öz identikliyini qoruyub saxlamasına imkan verir.

Multikulturalizm anlayışının təhlili çox vacibdir. Qeyd etməliyəm ki, multikulturalizm heç də hər yerdə müsbət nəticələr vermir. Burada da cənab Prezident bizim diqqətimizi ona yönəltdi ki, müxtəlif xalqların, müxtəlif mədəniyyətlərin, müxtəlif dinlərin nümayəndələri arasında bu cür münasibət yuxarıdan zorla qəbul etdirilməyib. İnsanların çətin vəziyyətdən çıxış yolları tapmaq cəhdi, ümumi dil tapmaq və ümumi gələcəyi qurmaq istəyi varsa – onu da deyim ki, biz hamımız buna məhkumuq – bizim ümumi gələcəyimiz olmalıdır, dövlət hakimiyyət orqanları bu meyili dəstəkləyirsə, onda, əlbəttə, multikulturalizm problemləri müsbət nəticələr verir, müsbət qərarlar qəbul edilir.

Cənab Prezidentin çıxışını özüm eşitsəm də onu bir neçə dəfə təkrar-təkrar oxumuşam. Birmənalı şəkildə deməliyəm ki, Azərbaycanda formalaşmış uğurlu model, deyərdim ki, xoşbəxt

model bizim hökumətimiz tərəfindən, ölkəmizin rəhbərliyi tərəfindən bütünlüklə dəstəklənir.

Cənab Prezident, şəxsən öz adımdan və dindar qardaşlarım, din xadimləri adından Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Siz Azərbaycan Respublikasının daxili həyatının bu istiqamətini dəstəkləyirsiniz. Düşünürəm ki, multikulturalizm anlayışı ilə əlaqədar Azərbaycanın daxili siyasətində çox məqamlar daha aydın, daha anlaşıqlıdır və əlbəttə, hamı bunu alqışlayır. İstərdim ki, ölkəmizin ulu öndər Heydər Əliyev tərəfindən müəyyən edilmiş inkişaf yolunda daha böyük uğurlar diləyim.

Diqqətinizə görə hamınıza təşəkkür edirəm.

**Milix Yevdayev** *(Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri):* Möhtərəm cənab Prezident!

Hörmətli şeyx həzrətləri, qonaqlar!

Mübarək Ramazanın gəlişi islam aləmi üçün böyük bir sevincdir. Çünki müqəddəs Qurani-Kərim bu ayda nazil olub. Xeyir-bərəkət də bu ayın kəramətinə yazılıb. Orucluq islam dininin, imanımızın kamillik zirvəsidir. Bütün insanlarda Adəm övladının hər bir əməli özü üçün olduğu halda, oruc Allah üçündür. Allah da əvəzini verir. Allah-Taaladan arzu edərdim ki, tutduğunuz oruclar, etdiyiniz dualar Allahın dərgahında qəbul olunub, əvəzində isə Sizə, bütün xalqımıza, Azərbaycana xoş günlər, firavan həyat və əmin-amanlıq bəxş etsin. Biz – əsrlərboyu bu torpaqda yaşamış dağ yəhudiləri bu xalq ilə doğmalaşıb, qardaşlaşmışıq. Bu, qardaşlığın rəmzidir ki, bu xalq bizi həmişə, uzun əsrlər-boyu bütün bəlalardan hifz edib, bizə həmişə arxa-dayaq, həyan olub.

Bu məqamda mən gözəl bir kəlamı da xatırlatmaq istərdim ki, ulu öndərimiz, türk dünyasının dahi oğlu Heydər Əliyev cənabları demişdir: «Xalqın və Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir». Bəli, bu gün Azərbaycanda yaşayan bütün xalqların taleyi gözəl Azərbaycanın taleyinə çevrilmişdir. Ona görə də biz həmişə Azərbaycanın kiçik bir parçasıyıq, bizi heç vaxt Azərbaycandan ayırmaq mümkün deyildir. Harada

yaşamağımızdan, harada olmağımızdan asılı olmayaraq biz həmişə azərbaycanlıyıq.

Bizi də heç vaxt Azərbaycandan ayırmaq mümkün deyil. Ona görə də, möhtərəm Prezident, şeyx həzrətləri, bu əziz gündə Sizi, bütün Azərbaycan xalqını, bütün dünya müsəlmanlarını bizim xalqın adından, ümumiyyətlə, bütün dünya yəhudiləri adından təbrik edir və hamınıza böyük ailə səadəti, xoş günlər, İbrahim peyğəmbər ömrü arzulayıram. Deyirlər həyatda 2 yaraşıq var – evin yaraşığı uşaqlar, məclisin yaraşığı qonaqlardır. Həmişə belə məclislərin, xoş məclislərin yaraşığı olasınız. Allah-Taala cəmi şəhidlərimizə də rəhmət etsin, onların ruhu şad olsun, qəbirləri nurla dolsun. Allah-Taala bizə qismət etsin ki, yaxın zamanlarda Azərbaycanın Dövlət bayrağı gözəl Qarabağımızda dalğalansın.

*Azərbaycan prezidenti İlham Əliyev iftar mərasimində çıxış etdi.*

## MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ ÇIXIŞ

*17 iyul 2014-cü il*

Hörmətli şeyx həzrətləri!
Hörmətli din xadimləri!
Hörmətli məclis iştirakçıları!

İlk növbədə, mənim ünvanıma deyilən bütün xoş sözlərə görə sizə minnətdaram. Mən çox şadam ki, bu gün Azərbaycan uğurla, inamla inkişaf edir. Bu gün dünyada Azərbaycan böyük hörmətlə, böyük ehtiramla qarşılanır. Bizə olan hörmət, rəğbət gündən-günə artır. Çünki dünya bilir ki, artıq biz etibarlı tərəfdaşıq. Dünya bilir ki, Azərbaycanda gedən proseslər nəinki ölkəmizin inkişafını müəyyən edir, eyni zamanda, bölgəyə də çox müsbət təsir göstərir.

Artıq gözəl bir ənənədir ki, biz mübarək Ramazan ayında şeyx həzrətlərinin iftar süfrəsinə toplaşırıq. Təxminən 1 il bundan əvvəl bu salonda görüşmüşdük. Günlər, aylar tez keçir. Keçən il ərzində Azərbaycan daha da güclənmiş, beynəlxalq mövqelərini daha da möhkəmləndirə bilmişdir. Bizim inamlı, dayanıqlı inkişafımız əminəm ki, bundan sonra da təmin ediləcəkdir.

Bu gözəl ənənənin səbəbkarları – ulu öndər Heydər Əliyev və şeyx həzrətləri doğrudan da çox gözəl bir ənənənin təməlini qoymuşlar. Çünki Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra, bildiyiniz kimi, müstəqilliyimizin ilk illəri ölkəmiz, xalqımız üçün çox ağır keçmişdir. Böyük problemlərlə, fəlakətlərlə üzləşmişdik. Azərbaycanda vətəndaş müharibəsi təhlükəsi var idi. Ulu öndər siyasi hakimiyyətə qayıtdıqdan sonra bütün istiqamətlər üzrə konkret inkişaf strategiyamız müəyyən edildi. İqtisadi islahatlar, siyasi islahatlar, ordu quruculuğu, sosial proqramların icrası, eyni zamanda, dövlət–din münasibətlərinin qurulması, yaradılması

da ulu öndər tərəfindən irəli sürülmüş çox müdrik bir təşəbbüs idi. Təbii ki, müstəqillikdən əvvəl dövlətimiz yox idi və təbii ki, dövlət–din münasibətləri də mövcud deyildi. Bu münasibətlər möhkəm və sağlam təməl üzərində qurulubdur və bu gün ölkəmizin uğurlu inkişafında dövlət–din münasibətləri xüsusi yer tutur. Deyə bilərəm ki, Azərbaycanda bu münasibətlər nümunəvi xarakter daşıyır. Əlbəttə, burada ulu öndərin və şeyx həzrətlərinin şəxsi dostluğu öz rolunu oynamışdır və bu gün bütün istiqamətlər üzrə olduğu kimi, bu sahədə də ənənələr, ardıcıllıq davam edir. Bizim də şeyx həzrətləri ilə dostluğumuz həm ürəyimizdən gələn bir sifarişdir, bir duyğudur, eyni zamanda, ölkəmizin inamlı inkişafı üçün də mühüm amildir. Bu gün dövlət–din münasibətləri uğurla inkişaf edir. Əminəm ki, bundan sonra da bu istiqamətdə ardıcıllıq davam etdiriləcəkdir.

Azərbaycan öz milli, dini dəyərlərinə sadiqdir. Bizim dini dəyərlərimiz milli dəyərlərimizin tərkib hissəsidir və milli dəyərlərimizi dini dəyərlərsiz təsəvvür etmək mümkün deyil. Bizi əsrlərboyu bir millət, bir xalq kimi qoruyan, saxlayan dəyərlərimiz olmuşdur. Bu gün bu məsələyə çox böyük diqqət göstərilir. Bu gün qloballaşan, çətinliklərlə üzləşən dünyada milli dəyərlərimiz bizim dövlətçiliyimizin təməlini təşkil edir. Bizim dövlətçiliyimizin çox möhkəm ideoloji əsasları vardır. Azərbaycançılıq məfkurəsi bizim əsas ideoloji dayağımızdır. Dövlətçiliyimizin möhkəm siyasi dayaqları vardır. Müstəqil Azərbaycan artıq dünya miqyasında sözünü açıq deyən, müstəqil siyasət aparan bir ölkədir və daxili siyasət xarici siyasətlə tamamlanır və siyasi dayaqlarımız kifayət qədər möhkəmdir.

Bu gün son 10 il ərzində iqtisadi sahədə Azərbaycan kimi inkişaf edən ikinci ölkə yoxdur. Bu da müstəqilliyimizin möhkəmləndirilməsinə xidmət göstərir. Eyni zamanda, mənəvi dayaqlar – cəmiyyətimizin mənəvi dayaqları bizim uğurlu inkişafımızın əsas şərtidir. Çünki iqtisadiyyat güclü ola bilər – biz tarixdən bilirik ki, ölkələr inkişaf edir, ondan sonra tənəzzülə

uğrayır – ancaq əgər mənəvi sütun, dayaq yoxdursa, bu ölkənin gələcəyi yoxdur.

Ona görə gənc nəslimizi vətənpərvərlik ruhunda, milli ruhda tərbiyə etmək hər bir şüurlu vətəndaşın, dövlətin borcudur. Dövlət öz üzərinə düşən vəzifəni icra edir. Mən şadam ki, Azərbaycanda çox dəyərli, bilikli, savadlı gənc nəsil yetişir. O gənc nəsil ki, gələcəkdə ölkəmizi idarə edəcək. Bu gün gənclərimiz qürur hissi ilə deyirlər ki, onlar Azərbaycan vətəndaşlarıdır. Çünki doğrudan da bu gün ölkəmizdə gedən uğurlu inkişaf prosesi hər bir vətənpərvər insanın qəlbini qürurla doldurur. Milli-mənəvi dəyərlər, ənənələr, bizim dini dəyərlərimiz əminəm ki, bundan sonra da inkişafımızın əsas istiqaməti olacaqdır.

Bu gün iftar məclisimizdə dinlərarası münasibətlər haqqında danışıldı. Azərbaycanda bu münasibətlərə də çox böyük diqqət yetirilir. Deyə bilərəm ki, burada 2 mühüm amil cəmləşir. Həm dövlət siyasəti, eyni zamanda, cəmiyyətimizin vəziyyəti və statusu. Çünki sadəcə olaraq, dövlət siyasəti yeritməklə istədiyimizə nail olmaq mümkün deyil. Ona görə Azərbaycanda çox nadir bir ab-hava, nadir bir vəziyyət yaranıbdır. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Əsrlərboyu bu belə olub. Bu gün, müstəqillik dövründə bu müsbət meyillər daha da güclənir və bizim gücümüz birliyimizdədir. Biz bütün dini bayramlarımızı birlikdə qeyd edirik. Bu gün biz bu masa arxasında bir yerdə əyləşmişik. Azərbaycan cəmiyyətində bütün xalqların, bütün dinlərin nümayəndələri bərabər hüquqlara malikdirlər. Əlbəttə, bu, Konstitusiyada təsbit edilib. Ancaq eyni zamanda, real həyatda da bu belədir. Deyə bilərəm ki, bu gün bu əlamətə görə Azərbaycan dünyada böyük dərəcədə fərqlənir, seçilir. Ölkəmizə gələn qonaqlar bir çox hallarda təəccüb hissi ilə bunu qeyd edirlər ki, siz buna necə nail ola bilmisiniz, sizdə dini, milli zəmində nəinki heç bir qarşıdurma, heç anlaşılmazlıq da yoxdur. Reallıq bundan ibarətdir ki, dövlət siyasəti, din xadimlərinin müdrikliyi, eyni zamanda, cəmiyyətdə müsbət ab-havanın mövcudluğu və

əlbəttə ki, ölkəmizin sürətli dinamik inkişafı burada əsas rol oynayır. Bu bizim böyük sərvətimizdir.

Biz indi internet dövründə dünyada gedən proseslər haqqında dərhal xəbər tuturuq. Əfsuslar olsun ki, bu xəbərlər heç də müsbət deyildir. Dünyanın müxtəlif yerlərində – Avropada, Yaxın Şərqdə, bizim bölgədə dini zəmində, məzhəb zəminində, başqa səbəblər üzündən qan tökülür, müharibələr, vətəndaş müharibələri aparılır, qarşıdurmalar baş verir. Azərbaycan sabitlik adasıdır. Azərbaycan əslində bölgədə sabitləşdirici rol oynayır. Yəni ölkə daxilində gedən bu gözəl proseslər bölgəyə də müsbət təsir göstərir. Bu gün Azərbaycansız bölgə siyasətini təsəvvür etmək mümkün deyildir. Çünki biz öz addımlarımızla, təşəbbüslərimizlə, siyasi, iqtisadi, digər istiqamətlər üzrə atılan addımlarla böyük dərəcədə bölgənin gündəliyini müəyyən edirik.

Bizim qərarlarımızın əhəmiyyəti böyük dərəcədə artır və bütün qərarlarımız müsbət istiqamətə yönəlibdir. Regional əməkdaşlığı dərinləşdirmək, ölkə daxilindəki vəziyyəti və Azərbaycan xalqının rifah halını daha da yaxşılaşdırmaq bizim əsas vəzifəmizdir.

Daxili sabitliyin möhkəmləndirilməsi üçün əsas şərt xalqla iqtidar arasındakı birlikdir. Bu birlik vardır. Birliyin təməlində dövlət siyasəti dayanır. Mən bu barədə öz fikirlərimi dəfələrlə bildirmişəm, bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, təhlükəsizliyi, qayğıları, rifahı dayanır. Ona görə xalq–iqtidar birliyi Azərbaycanda sabitliyin əsas şərtidir. Görəndə ki, başqa bölgələrdə, başqa yerlərdə sabitlik pozulur və qardaş qanı tökülür, bu bizi çox incidir, üzür və eyni zamanda, Azərbaycan təcrübəsinə dünyanın diqqətini bir daha cəlb edir.

Azərbaycanda milli, dini, məzhəb zəminində heç vaxt qarşıdurma olmamışdır və olmayacaqdır. Bunun qarantı Azərbaycan dövlətidir, Azərbaycan xalqıdır. Biz dünyanın müxtəlif yerlərində baş verən xoşagəlməz hadisələri təhlil edərkən öz siyasətimizi bundan sonra daha da inamla apar-

malıyıq. Azərbaycan vətəndaşları təhlükəsizlik şəraitində yaşayırlar, yaşayacaqlar. Azərbaycanda ictimai-siyasi asayiş tam şəkildə təmin edilir. Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir. Bu əsas şərtlər imkan verir ki, biz gələcəyimizi planlaşdıraq, gələcəyə böyük nikbinliklə baxaq.

Bu gün dinlərarası, millətlərarası dialoqdan söhbət açılanda hesab edirəm ki, ilk növbədə, Azərbaycan göz önünə gəlir. Azərbaycanda dinlərarası dialoq çoxdan təmin edilibdir. Bu gün Azərbaycanda dinlərarası, millətlərarası dostluq, qardaşlıq meyilləri güclənir. Budur bizim üstünlüyümüz. Təsadüfi deyildir ki, multikulturalizm, dinlərarası dialoq üzrə beynəlxalq forumlar məhz Azərbaycanda keçirilir. Bu forumların təşəbbüskarı da bizik. Mən şübhə etmirəm ki, bizim bu istiqamətdə inkişaf edən doğma Vətənimiz gələcəkdə daha da böyük mövqelərə malik olacaqdır. Bu gün onsuz da beynəlxalq aləmdə kifayət qədər güclü mövqelərə malikik. Biz həm Avropa Şurasının, həm İslam Əməkdaşlıq Təşkilatının üzvüyük. Gələn il Bakıda I Avropa oyunları, 2017-ci ildə İslam Həmrəyliyi oyunları keçiriləcəkdir. Yəni bu, nadir bir vəziyyətdir. Azərbaycan nəinki sivilizasiyalararası bir körpüdür, biz eyni zamanda, öz əməyimizlə, siyasətimizlə müsbət meyillərin güclənməsinə təkan veririk. Ancaq burada da deyildiyi kimi, əfsuslar olsun ki, heç də hər yerdə belə deyildir. Dini ayrı-seçkilik müşahidə olunur, məzhəb davası aparılır. Bu, böyük fəlakətdir və uçuruma aparan yoldur.

Biz çalışırıq, çalışmalıyıq öz səylərimizi daha da böyük dərəcədə qoyaq ki, dünyada meyillər müsbət istiqamətdə getsin. Burada şeyx həzrətlərinin rolunu xüsusilə qeyd etmək istəyirəm. Şeyx həzrətlərinin dünya dinlərarası dialoqun inkişafında böyük rolu, dünyada böyük hörməti vardır. Həm öz həmkarları ilə sıx əlaqələri, həm də ictimaiyyətdə çox böyük təşəbbüsləri vardır. Bu, əlbəttə ki, ölkəmiz üçün böyük üstünlükdür. Hesab edirəm ki, dinlərarası münasibətlərin sağlam zəmində təmin edilməsi üçün Azərbaycan təcrübəsi öyrənilməlidir və əminəm, öyrəniləcəkdir. Çünki bu doğrudan da nadir bir təcrübədir.

Mən bir daha qeyd etmək istəyirəm ki, bu iftar məclisimiz ənənəvi xarakter daşıyır. Bunun həm bizim, həm də cəmiyyət üçün çox böyük əhəmiyyəti vardır. Cəmiyyət də görür ki, baxmayaraq Konstitusiyaya görə din dövlətdən ayrıdır, ancaq din və dövlət bir yerdədir, çünki bizim amalımız birdir – daha güclü Azərbaycan qurmaq, yaratmaq.

Bizim amalımız ölkəmizi inkişaf etdirmək, əsas məqsədimiz ərazi bütövlüyümüzü bərpa etməkdir. Buna nail olmaq üçün biz daha da güclü olmalıyıq. Çünki əfsuslar olsun ki – artıq bu heç kəs üçün sirr deyil – dünyada daha çox beynəlxalq hüquq yox, güc amili rol oynayır. Biz daha da güclü olmalıyıq. Biz güclənirik. Buna vaxt lazımdır. Ancaq baxsaq görərik ki, qısa müddət ərzində haradan-haraya gəlmişik, onda tam əminliklə deyə bilərik ki, gücümüzü daha da artıracağıq və bu güc, siyasət hesabına biz öz hədəfimizə çatacağıq.

Bu gün işğaldan əziyyət çəkən Azərbaycan vətəndaşları, soydaşlarımız öz dədə-baba torpaqlarına qayıdacaqlar, qayıtmalıdırlar, orada yaşamalıdırlar, yaşayacaqlar. Biz hamımız – Azərbaycan vətəndaşları hər gün, hər an o müqəddəs günü yaxınlaşdırırıq və yaxınlaşdırmalıyıq.

Mən bir neçə gün bundan əvvəl müsəlman ölkələrinin səfirləri ilə görüşmüşəm. Bu gün də onlar və digər ölkələrin səfirləri bizim aramızdadırlar. Mən hesab edirəm ki, bu gün Azərbaycan həm islam aləmində, həm Avropada etibarlı tərəfdaş və dost kimi tanınır. Bu şərəfli adı biz öz əməyimizlə, siyasətimizlə qazanmışıq.

Fürsətdən istifadə edib bütün dünya müsəlmanlarını qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bütün Azərbaycan xalqını bir daha əmin etmək istəyirəm ki, mən bundan sonra da ölkəmizin inkişafı, təhlükəsizliyin təmin edilməsi və strateji hədəflərimizə çatmaq üçün öz səylərimi əsirgəməyəcəyəm. Azərbaycan xalqına bir daha söz verirəm ki, mən bundan sonra da doğma xalqımıza sədaqətlə xidmət edəcəyəm.

Sağ olun.

**Ş e y x ü l i s l a m  A l l a h ş ü k ü r  P a ş a z a d ə:** Zatialiləri, cənab Prezident, Sizin mənə verdiyiniz önəmə görə minnətdarlığımı bildirirəm. İnşallah, Sizin rəhbərliyinizlə Azərbaycan çiçəklənəcək və xoşbəxt olacaq. Sizə cansağlığı arzu edirəm.

Buyurun, «Bismillah» deyib iftar süfrəsinə başlayaq.

İftar süfrəsinə xoş gəlmisiniz!

**MALAYZİYA RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB DATO SRİ MOHD NACİBƏ**

Hörmətli cənab Baş nazir!

«Malaysia Airlines» şirkətinə məxsus «Boeing-777» təyyarəsinin Ukrayna ərazisində qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Baş vermiş bu dəhşətli faciə ilə əlaqədar Sizə, həlak olan sərnişinlərin və ekipaj üzvlərinin ailələrinə və yaxınlarına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 iyul 2014-cü il*

**NİDERLAND KRALLIĞININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB MARK RÜTTEYƏ**

Hörmətli cənab Baş nazir!

«Malaysia Airlines» şirkətinə məxsus «Boeing-777» təyyarəsinin qəzaya uğraması nəticəsində çox sayda həmvətəninizin həlak olması xəbəri məni sarsıtdı.

Baş vermiş bu ağır faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 iyul 2014-cü il*

## DÖVLƏT SƏRHƏD XİDMƏTİ SAHİL MÜHAFİZƏSİNİN YENİ GƏMİ İNŞASI ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*18 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev iyulun 18-də Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Bakının Türkan qəsəbəsindəki bazasında yeni Gəmi inşası zavodunun istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Ulu öndər Heydər Əliyevin fərmanı ilə 2002-ci ildə Dövlət Sərhəd Xidmətinin yaradılması və ona mərkəzi icra hakimiyyəti orqanı statusunun verilməsi ilə Azərbaycan sərhədçilərinin fəaliyyəti keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Bununla da ölkədə sərhəd təhlükəsizliyinin təminatı məsələlərinin ən yüksək səviyyədə həll olunmasına başlanıldı.*

*Son illərdə Azərbaycan Respublikasının Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində Dövlət Sərhəd Xidmətinin maddi-texniki bazası daha da möhkəmləndirilib. Dövlətimizin başçısı ölkədə sərhəd xidmətinin təkmilləşdirilməsinə dair kompleks tədbirlərin həyata keçirilməsini və sərhəd dəstələrinin fəaliyyətinin ən müasir tələblər səviyyəsində qurulmasını daim diqqətdə saxlayır. Havada, suda və quruda sərhədlərin etibarlı şəkildə qorunmasını təşkil etmək üçün bütün zəruri tədbirlər görülür. Bununla yanaşı, sərhədçilərin xidməti-döyüş şəraitinin yaxşılaşdırılması, peşə bacarığının, səfərbərlik və döyüş qabiliyyətinin artırılması sahəsində də mühüm addımlar atılıb.*

*Bir neçə il əvvəl prezident İlham Əliyevin iştirakı ilə Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin yeni bazasının istifadəyə verilməsi bu sahədə görülən işlərin miqyasından xəbər verir. Bu*

baza Xəzər dənizinin Azərbaycana aid hissəsində nəzarətin daha da gücləndirilməsində, dəniz sərhədlərinin, neft-qaz çıxarma rayonlarının, platformaların və sualtı boru kəmərlərinin daha etibarlı mühafizəsinin təmin olunmasında mühüm rol oynayır.

Dövlət Sərhəd Xidmətinin rəisi, Sərhəd Qoşunlarının komandanı general-leytenant Elçin Quliyev prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Ali Baş Komandana məlumat verildi ki, zavod 13 min kvadratmetr ərazidə inşa olunub.

Prezident İlham Əliyev Gəmi inşası zavodunun baş planına, maketinə və gəmi tikintisi zamanı istifadə olunan dəzgahlara baxdı.

Qeyd edək ki, dövlətimizin başçısının 2013-cü il 11 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi strategiyası»na əsasən Dövlət Sərhəd Xidmətinə həvalə edilmiş vəzifələrin icrası, o cümlədən Xəzər dənizində dövlət sərhədlərinin mühafizəsi sahələrində mümkün təhdidlərin qarşısının alınması üzrə qüvvə və vasitələrin gücləndirilməsi istiqamətində zəruri tədbirlər görülür.

Sonra Azərbaycan Prezidenti yeni gəmilərin taktiki-texniki göstəricilərindən bəhs edən videoçarxa baxdı.

Bildirildi ki, artıq bu zavodun imkanları hesabına Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsi üçün itisürətli və yüksək üzmə qabiliyyətli 3-cü dərəcəli 2 sərhəd gözətçi gəmisinin inşası başa çatıb. Mükəmməl naviqasiya və rabitə-radiotexnika avadanlığının quraşdırıldığı, Xəzər dənizində ağır üzmə şəraitində xidməti vəzifələri yerinə yetirə bilən sərhəd gözətçi gəmiləri müasir silahlarla təchiz edilib. Hazırda 100-dək mütəxəssisin işlə təmin olunduğu zavodda yeni 2-ci dərəcəli sərhəd gözətçi gəmilərinin inşasına başlanılıb.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev yeni sərhəd gözətçi gəmisinin dənizdə manevrlərinə baxdı.

*Məlumat verildi ki, Xəzər dənizinin Azərbaycana aid olan hissəsində dövlət sərhədlərinin mühafizəsi, sərhəd boyu rejimin təmin olunması, karbohidrogen ehtiyatlarının hasilatı və nəqli infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi istiqamətində xidməti vəzifələrin icrası zamanı yeni gəmilərin imkanlarından geniş istifadə ediləcək. Yaxın müddətdə zavodun imkanları hesabına Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin sərhəd gözətçi gəmilərinin tam yenilənməsinə və nəticə etibarilə sərhəd sularında dövlət maraqlarının qorunması imkanlarının əhəmiyyətli dərəcədə genişləndirilməsinə nail olunacaq.*

*Ölkəmizin ərazi bütövlüyünün qorunmasında, sərhədlərimizin təhlükəsizliyinin təmin olunmasında Azərbaycan sərhədçiləri bundan sonra da yüksək peşəkarlıq nümayiş etdirəcəklər. Dövlət Sərhəd Xidmətinin ölkəmizin sərhədlərinin toxunulmazlığının təmin edilməsi ilə bağlı həyata keçirdiyi strategiya deməyə əsas verir ki, sərhədçilərimiz Vətənimizin keşiyində hər zaman ayıq-sayıq dururlar.*

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ**

Hörmətli cənab Prezident!

Misir Ərəb Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Misir əlaqələri, ənənəvi dostluq və əməkdaşlıq münasibətlərimiz xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da ikitərəfli və çoxtərəfli qaydada inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Misir xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 iyul 2014-cü il*

## «NORM» SEMENT ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*21 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Bakının Qaradağ rayonunun ərazisində yerləşən «Norm» sement zavodunun açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun və sənayenin əsaslı şəkildə inkişaf etdirilməsi dövlətin böyük önəm verdiyi prioritet sahələrdən birinə çevrilib. Məhz buna görə də dünyada maliyyə və iqtisadi böhranın davam etdiyi bir şəraitdə Azərbaycan iqtisadiyyatı sürətlə artır, bütün sahələrdə yüksək tərəqqi müşahidə olunur. Son illər qeyri-neft sektorunu əhatə edən yeni istehsal sahələrinin yaradılması, mövcud müəssisələrin isə fəaliyyətinin genişləndirilməsi bu sahənin daha da inkişaf etdirilməsində əhəmiyyətli rol oynayır. Bakının Qaradağ rayonunda «Norm» sement zavodunun inşası Azərbaycanda son dövrlərdə iqtisadi əhəmiyyəti ilə seçilən müəssisələrin sayının xeyli artdığını aydın nümayiş etdirir. Zavod ümumilikdə Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və rəqabətqabliyyətli məhsul istehsal etmək baxımından mühüm əhəmiyyətə malikdir.*

*Müəssisədə inşaat işlərini Çinin CNBM korporasiyasının CTIEC tikinti şirkəti həyata keçirib. Zavodun tikintisi ilə yanaşı, müəssisənin yerləşdiyi ərazidə əsaslı infrastruktur yaradılıb, üçmərtəbəli inzibati bina, yeməkxana və tibb məntəqəsi tikilib. Bu istehsal müəssisəsinin ərazisindən Bakı–Salyan şosesinə birləşən 10 kilometr uzunluğunda asfalt yol inşa edilib, yeni elektrik, su və qaz xətləri çəkilib. Bundan başqa, seldən*

mühafizə bəndləri, həmçinin zavodun elektrik təchizatının etibarlı təminatı üçün yarımstansiya inşa olunub.

Dövlətimizin başçısı İlham Əliyev 2014-cü ili «Sənaye ili» elan edib. Belə müasir istehsal müəssisəsinin məhz bu il işə düşməsi «Sənaye ili» çərçivəsində qarşıya qoyulan məqsədlərə çatmaq baxımından müstəsna əhəmiyyətə malikdir.

İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev dövlətimizin başçısına müəssisədə görülən işlər barədə məlumat verdi.

Qeyd edildi ki, «Norm» sement zavodu nəinki Azərbaycan, ümumilikdə Cənubi Qafqazda sement istehsalı ilə məşğul olan ən böyük müəssisədir. Zavodun konsepsiyası işlənib hazırlanarkən onun uzun illər boyu məhsuldar və səmərəli istismarını təmin etmək məqsədilə müasir avadanlıq və texnologiyalardan istifadə edilib. Dünya miqyasında zəngin təcrübəyə malik mütəxəssislər və məsləhətçilərin iştirakı ilə bu sahədə ən son innovasiyalar araşdırılıb və mühəndis-layihələndirmə işləri nəticəsində zavodun iqtisadi səmərəliliyi təsdiqlənib.

Müəssisədə əsas istehsal nöqtələrində quraşdırılan kameralar vasitəsilə bütün prosesə mərkəzdən nəzarət olunur. İstehsal xətti boyu xüsusi avadanlığın tətbiqi və işıqlandırıcı cihazların örtüklə təmin edilməsi səs və işıq kimi təsirlərin qarşısının alınmasını təmin edir. Texnoloji avadanlığın soyudulması üçün istifadə edilən texniki su zavodda quraşdırılmış qurğularda təmizlənərək təkrar istifadə olunur ki, bu da suya qənaəti təmin edir. Bu müəssisənin işə düşməsi həm də yeni iş yerlərinin açılması baxımından böyük əhəmiyyət kəsb edir. Hazırda müəssisədə 350 nəfər çalışır. Daha 150 nəfər isə xammal yataqlarında və digər köməkçi sahələrdə işlə təmin olunub.

Zavodun inzibati binasında ulu öndər Heydər Əliyevin həm sovet dönəmində, həm də müstəqillik illərində hakimiyyəti dövründə Azərbaycanda istifadəyə verilən sənaye müəssisələrinin açılışlarındakı iştirakından, həmçinin dövlətimizin başçısı İlham Əliyevin bu sahəyə göstərdiyi diqqətdən bəhs edən fotostendlər quraşdırılıb.

*Bildirildi ki, zavodun laboratoriyaları ən yüksək standartlara cavab verir. Burada dünyanın tanınmış şirkətlərinin avadanlığı quraşdırılıb. Sement-beton laboratoriyasında yaradılan şərait xammalın və məhsulun keyfiyyətini araşdırmağa hərtərəfli imkan verir. Zavodda quraşdırılmış əsas texnoloji avadanlıq Avropanın bu sahədə ixtisaslaşmış və dünyada böyük nüfuza malik qabaqcıl şirkətlərinin istehsalıdır. Bu, yüksəkkeyfiyyətli məhsul əldə etməyə imkan verir.*

*Müəssisənin idarəetmə mərkəzində prezident İlham Əliyevə ölkənin sement bazarındakı ümumi vəziyyət və zavod haqqında məlumat verildi.*

*Qeyd edildi ki, ötən il Azərbaycanda sement satışının həcmi 4,3 milyon ton təşkil edib ki, bunun da 40 faizi yerli istehsalçı olan «Holcim Azərbaycan»ın payına düşür. Tələbatın digər hissəsi isə idxal və klinkerdən istehsal edilən sement hesabına ödənilib. Proqnozlara görə, ölkədə sement istehsalı artmaqda davam edəcək və ilin sonunadək daxili tələbat tamamilə yerli istehsal hesabına ödəniləcəkdir. İllik gücü 2 milyon ton olan «Norm» zavodunun fəaliyyətə başlaması ilə yerli sement istehsalının həcmi 5,2 milyon tona çatacaqdır. «Norm» sement zavodunun istehsal gücü gündə 5 min ton klinker və ildə 2 milyon ton sement təşkil edir. Müəssisənin istehsal gücünü 4 milyon tona çatdırmağa imkan vardır. Zavodda neft sənayesi üçün Azərbaycanda indiyədək istehsal olunmayan və xaricdən idxal edilən API standartlarına uyğun quyu-tamponaj sementi də istehsal ediləcək. Hazırda zavodda 3 çeşiddə sement istehsalı planlaşdırılır. Yaxın gələcəkdə isə məhsulun çeşidinin artırılması nəzərdə tutulur. Əsas xammal Qaradağda əldə edilir, qatqı materialları isə Şəmkir, Goranboy, Ağstafa və Tovuz rayonlarından gətirilir. Burada istehsal zamanı «quru üsul» texnologiyasından istifadə edilir. Sement istehsalında bu müasir texnologiyanın üstünlüyü ondan ibarətdir ki, məhsulun yüksək keyfiyyəti tam təmin edilir. Bu texnologiyanın tətbiqi sayəsində xammalın üyüdülməsində sudan istifadə edilmir və demək olar ki, istehsal prosesində 2 dəfəyə yaxın az yanacaq istifadə olunur. Bu*

*isə öz növbəsində, məhsulun maya dəyərini aşağı salır. Bundan əlavə, bu üsul sobadan çıxan qazların və tozun həcminin kəskin azalmasını təmin edir ki, bu da öz növbəsində, sobanın məhsuldarlığını artırır. Xammalın üyüdülməsi üçün zavodda qurutma və üyütmə məhsuldarlığı yüksək olan, enerjiyə maksimum qənaət edən dəyirman da quraşdırılıb. Zavoddakı texnoloji proseslər avtomatlaşdırılıb və insan müdaxiləsi, demək olar ki, minimuma endirilib. Burada fiber-optik kabellər vasitəsilə bütün parametrlər üzrə məlumatlar idarəetmə mərkəzinə ötürülür. Müəssisədəki müasir avtomatlaşdırılmış idarəetmə sistemi sayəsində texnoloji proseslərə və fiziki-mexaniki sınaqlara nəzarət etməklə yanaşı, parametrlərin avtomatik tənzimlənməsinə, həmçinin qurğuların məsafədən idarə olunmasına imkan yaranır.*

*Prezident İlham Əliyev zavodu işə saldı.*

*Zavodun qabaqcıl avadanlıq və texnologiyalarla təchiz olunması onun yüksək məhsuldarlığını və istismar zamanı ekoloji standartlara cavab verməsini təmin edir. Zavodun yaradılması prosesində ətraf mühitin mühafizəsi məsələsinə xüsusi diqqət yetirilib. Bu məqsədlə müəssisənin istehsal xətti boyu müasir toz süzgəcləri quraşdırılıb. Bu avadanlıq qazın tərkibində tozun miqdarının az olmasını təmin edir ki, bu da dünyada qəbul olunan standartların tələblərinə cavab verir. Əsas toz mənbələrində havanın keyfiyyəti, həmçinin sobadan və xammal dəyirmanından atmosferə atılan qazların miqdarı isə xüsusi optik cihazlar vasitəsilə mütəmadi nəzarətdə saxlanılır.*

*Bildirildi ki, «Norm» şirkətinin beynəlxalq əlaqələri də genişdir. Şirkət Almaniya Sement İstehsalçıları Assosiasiyası ilə sıx əməkdaşlıq edir. Assosiasiya mütəxəssisləri tərəfindən zavodda texnoloji prosesin monitorinqi aparılır. Hazır məhsul və xammal nümunələri Assosiasiyanın Düsseldorfdakı laboratoriyasında mütəmadi sınaqdan keçirilir. Zavodda istehsal olunan bütün məhsullara Almaniya Sement İstehsalçıları Assosiasiyasının sertifikatı verilib. Bundan əlavə, «Norm» şirkəti Avropa Sement Tədqiqatları Akademiyasının həqiqi üzvüdür.*

*Beləliklə, qeyri-neft sektorunda həcminə görə ən iri layihələr sırasında olan və təxminən 350 milyon dollara başa gələn «Norm» sement zavodu Azərbaycan iqtisadiyyatının daha da qüdrətlənməsinə töhfəsini verəcəkdir.*

*Zavodun fəaliyyəti ilə tanışlıqdan sonra dövlətimizin başçısı kollektivlə görüşdü.*

**İ l h a m  Ə l i y e v:** Əziz dostlar, bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Biz Bakıda – Qaradağ rayonunda yeni Sement zavodunun açılışına toplaşmışıq. Sizi bu münasibətlə ürəkdən təbrik edirəm.

«Norm» sement zavodu ən müasir standartlara cavab verir. Bu zavodun fəaliyyətə başlaması sement istehsalında bütün hədəflərimizə çatmaq üçün bizə imkan yaradır. Bizim əsas məqsədimiz ondan ibarət idi ki, bu sahədə idxaldan asılılığımızı aradan götürək və nəinki özümüzü tam şəkildə təmin edək, eyni zamanda, kifayət qədər böyük ixrac potensialı da yaradaq.

Zavodun inşasına 350 milyon dollar sərmayə qoyulub. Bu, son illər ərzində Azərbaycanda tikilən ən böyük Sement zavodudur. Bu zavodun fəaliyyətə başlaması eyni zamanda, 500 yeni iş yerinin yaradılmasına imkan verir. Əslində zavodun yaradılmasında Azərbaycanda iqtisadi sahədə və sənaye sahəsində bütün dövlət siyasəti öz əksini tapıb. Çünki bizim siyasətimiz ondan ibarətdir ki, Azərbaycanda yerli istehsal genişlənsin, idxalı əvəzləyən istehsal yaradılsın. Qeyri-neft sektorunun inkişafı bizim prioritetimizdir. Bildiyiniz kimi, bu il Azərbaycanda «Sənaye ili» elan edilib və sənaye istehsalının yaradılması, genişləndirilməsi bizim əsas məqsədimizdir.

Yəni dövlət siyasətimizin bütün istiqamətləri bu zavodda, demək olar ki, öz əksini tapıb. Çox şadam ki, hazırda Azərbaycanda bir neçə Sement zavodu fəaliyyət göstərir. Yadımdadır, bir neçə il əvvəl sadəcə olaraq, yalnız «Qaradağ» sement zavodu işləyirdi. O da ekoloji normalara uyğun deyildi. Orada böyük yenidənqurma işləri aparıldı və ötən dövrdə «Holcim» zavodunun fəaliyyətə başlamasını qeyd etdik. Qazaxda, Naxçıvanda, Sumqayıtda sement zavodları vardır. Hazırda bu zavodun – ən

böyük «Norm» zavodunun fəaliyyətə başlaması Azərbaycanda sement istehsalını 5 milyon tona çatdırır, bəlkə ondan da bir qədər çox. Tələbat isə 4,5 milyon tondur. Yəni biz artıq fikirləşməliyik ki, ilk növbədə, daxili bazarımızı qoruyaq. Bu məqsədlə İqtisadiyyat və Sənaye Nazirliyi təklifləri hazırlayır. Çünki artıq bu zavodun fəaliyyətə başlamasından sonra xaricdən sementin gətirilməsi məqsədəuyğun deyildir. Öz sementimizlə, ixrac məhsulumuzla yeni bazarlara çıxmalıyıq. Əslində bizim ixrac potensialımızın gücləndirilməsi artıq təmin edilir. Nəzərə alsaq ki, bu zavodda istehsalı artırmaq üçün imkanlar var, hesab edirəm, gələcəkdə yeni bazarlara çıxdıqca Azərbaycanın bütün sement zavodları öz fəaliyyətlərini genişləndirə bilər.

Zavodun tikintisində ən müasir avadanlıqdan istifadə edilib, Avropa istehsalı olan avadanlıqlar quraşdırılıbdır. Zavodun tikintisini isə baş podratçı kimi, Çin şirkəti icra edib və bu da Azərbaycanın iqtisadi sahədə beynəlxalq əlaqələrinin güclü olduğunu göstərir. Bizim tərəfdaşlarımız arasında Avropa, Asiya şirkətləri yer tutur və bu gün Azərbaycanda fəaliyyət göstərmək, işləmək üçün bizə çoxlu müraciətlər daxil olur. Azərbaycanda son illərdə müşahidə olunan iqtisadi inkişaf, sənayeləşmə prosesi, geniş infrastruktur layihələrinin həyata keçirilməsi, əlbəttə ki, ölkəmizə beynəlxalq biznes qurumlarının diqqətini artırır. Bizim uğurlu inkişafımıza böyük inam var. Çünki bu gün bizim həm maliyyə, həm iqtisadi vəziyyətimiz kifayət qədər möhkəmdir, sabitdir. Bizim iqtisadi siyasətimiz dəqiq proqram əsasında icra edilir. Hazırda üçüncü regional inkişaf proqramı icra edilir və bu proqram 2018-ci ilə qədər ölkəmizin əsas infrastruktur layihələrinin icrasına xidmət göstərəcəkdir.

Əlbəttə, bizim xarici tərəfdaşlarımız da bütün bu məlumatları əldə ediblər və bilirlər ki, Azərbaycanda həm dövlət investisiyaları, eyni zamanda, özəl investisiyalar böyük həcmdə qoyulur. Dövlət investisiyaları daha çox infrastruktur layihələrinə, sosial infrastruktur layihələrinə yönəldir və büdcədən özəl sektora kredit şəklində güzəştli şərtlərlə vəsait ayırır. Özəl sektor isə Azərbaycanın sürətli inkişafından istifadə edərək, öz sərmayələrini,

bax, belə gözəl müəssisələrə yönəldir və beləliklə, Azərbaycanda dövlət və özəl tərəfdaşlıq ən yüksək səviyyədə təmin edilir. Son vaxtlar Azərbaycanda yaradılan sənaye müəssisələri, infrastruktur layihələrinin icrası, sənayeləşmə ilə bağlı atılan addımlar əminəm ki, gələcəkdə daha da gözəl nəticələrə gətirib çıxaracaqdır.

Bu gün biz ölkəmizdə gedən sənaye və iqtisadi prosesləri istiqamətləndiririk və burada əsas məsələ bu sahədə təhlükəsizliyi tam şəkildə təmin etməkdir. İlk növbədə, enerji təhlükəsizliyidir ki, Azərbaycanda bu, artıq 100 faiz səviyyəsində təmin edilib və hətta biz başqa ölkələrin enerji təhlükəsizliyinə öz töhfəmizi veririk.

Azərbaycanda nəqliyyat təhlükəsizliyi təmin edilir və son vaxtlar icra edilən və icrada olan layihələr – Bakı–Tbilisi–Qars dəmir yolu, Gəmiqayırma zavodu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, digər layihələr nəqliyyat təhlükəsizliyimizi tam təmin edəcəkdir. Coğrafi vəziyyətimiz elədir ki, əgər biz müasir infrastrukturla bu coğrafi üstünlükləri zənginləşdirsək, Azərbaycan ərazisindən böyük həcmdə yüklərin keçirilməsi mümkün olacaqdır.

Ərzaq təhlükəsizliyi təmin edilir. Biz yaxın zamanlarda özümüzü əsas ərzaq məhsulları ilə 100 faiz təmin edəcəyik. Hazırda Azərbaycanda inşaat materiallarının istehsalı istiqamətində böyük işlər görülür. Sement sahəsində biz bunu artıq tam şəkildə təmin etmişik, böyük metallurgiya kompleksinin tikintisi artıq başlanmışdır.

Qaradağ rayonunda və digər bölgələrdə bir çox sənaye müəssisələri fəaliyyət göstərir. Bir sözlə, özümüzü 100 faiz təmin etməliyik və xarici bazarlara keyfiyyətli məhsulla çıxırıq və çıxmalıyıq. Belə olan halda ölkəmizin uzunmüddətli dayanıqlı inkişafı təmin ediləcək, iş yerlərinin yaradılması prosesi davam etdiriləcək və ölkəmizdə qeyri-neft sektoru daha da böyük paya malik olacaqdır. Hazırda ümumi daxili məhsulumuzda qeyri-neft sektoru 55 faiz təşkil edir. Baxmayaraq ki, biz indi böyük qaz layihələrini icra etməyə başlayırıq və əlavə böyük qaz hasilatı gözlənilir, əminəm ki, yaxın illərdə qeyri-neft sektorumuz ümumi iqtisadiyyatda daha da böyük paya malik olacaqdır.

Bu zavodun fəaliyyətə başlaması məni çox sevindirir. Çünki bir daha demək istəyirəm ki, mən burada dövlət siyasətimizin təzahürünü görürəm. O siyasət ki, bu gün Azərbaycanda böyük inkişafa səbəb olmuşdur. Ölkəmizin inamlı, uzunmüddətli dayanıqlı inkişafını təmin edən bizim siyasətimizdir – daxili siyasət, siyasi sahədə atılan addımlar, iqtisadi islahatlar. Təsadüfi deyil ki, dünyanın aparıcı maliyyə və iqtisadi qurumları Azərbaycanda iqtisadi sahədə görülən işlərə çox böyük qiymət verir. Rəqabətqabliyyətliliyinə görə Azərbaycan dünya miqyasında 39-cu yerdədir. Belə zavodların işə düşməsi nəticəsində bizim yerimiz daha da yüksək olacaqdır. Mən sizi bu zavodun fəaliyyətə başlaması münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə uğurlar arzulayıram. Sağ olun.

* * *

*Sonra dövlətimizin başçısı müəssisənin tikinti işlərini aparan Çin şirkətinin nümayəndələri ilə söhbət etdi.*

**S u n  J i a n a n** *(şirkətin nümayəndəsi):* Azərbaycan çox gözəl ölkədir.

**İ l h a m  Ə l i y e v:** Mən bu yaxınlarda Çində olmuşam, rəhbərliklə görüşmüşəm. Çox yaxşı görüşümüz olubdur.

Çin–Azərbaycan əlaqələri yüksək səviyyədədir. Şadam ki, sizin şirkətiniz belə gözəl layihəni icra edib. Bu hər halda, Azərbaycanda birinci layihənizdir, elədirmi?

**S u n  J i a n a n:** Bəli, Azərbaycanda birincidir. Amma ümid edirik ki, gələcəkdə yenə layihələr olacaq.

**İ l h a m  Ə l i y e v:** Gələcəkdə mütləq yenə də layihələr olacaq. Bu nəinki Azərbaycanda, bütün bölgədə bir nömrəlidir. Sizə uğurlar. Sağ olun.

## XIZI RAYONUNA SƏFƏR

*22 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Xızı rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Xızı şəhərinin mərkəzində salınan Heydər Əliyev parkında ümummilli liderin yeni ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu.*

### Heydər Əliyev parkında aparılan yenidənqurma işləri ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Xızı rayonuna səfəri çərçivəsində Heydər Əliyev parkında aparılan yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası bölgələrin daha da gözəlləşməsi, regionların simasına yeni elementlərin əlavə edilməsi ilə müşayiət olunur. Şəhər və rayonlarımızda aparılan quruculuq işləri çərçivəsində park və xiyabanların salınması və ya yenidən qurulması da diqqətdən kənarda qalmır. Bu sahədə həyata keçirilən işlər çərçivəsində Xızı rayonundakı Heydər Əliyev parkının yenidən qurulması da xüsusi əhəmiyyət kəsb edir. Rayon mərkəzində yerləşən bu mədəniyyət və istirahət parkının ərazisi tamamilə yenidən qurulub. Xızının mərkəzi hissəsinə xüsusi yaraşıq verən bu park rayon sakinlərinin istirahətinin yüksək səviyyədə təşkilinə xidmət edir.*

*Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov parkda görülən abadlıq və quruculuq işləri barədə dövlətimizin başçısına məlumat verdi.*

*Bildirildi ki, rayon sakinlərinin mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün 3,6 hektar ərazidə salınmış parkda ardıcıl olaraq yenidənqurma və tikinti-quraşdırma işləri aparılır. Yenidənqurma işləri zamanı milli memarlıq üslubu ilə müasirlik tam uzlaşdırılıb, orijinal elementlər və formalarla zənginləşdirilib. Parkın ərazisində çoxlu ağac və dekorativ gül kolları əkilib, çəmənlik salınıb.*

*Ölkəmizdə aparılan abadlıq-quruculuq işləri əhalinin istirahətinin təşkilində ciddi dəyişikliklərə səbəb olub. Şəhər və rayonlarımızın simasını daha da gözəlləşdirən yeni parkların salınması, həmçinin mövcud parkların yenidən qurulması diqqət mərkəzində saxlanılır. Bu da regionlarda həyata keçirilən quruculuq işlərinin davamlı və kompleks xarakter daşımasına əyani sübutdur.*

*Prezident İlham Əliyevə Xızı şəhərinin mərkəzi hissəsinin yenidən qurulması layihəsi barədə ətraflı məlumat verildi.*

*Bildirildi ki, layihədə nəzərdə tutulan «Xızı Grand Hotel» ən yüksək standartlar səviyyəsində inşa olunacaqdır.*

## HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞINDA XIZI RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*22 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Xızıda Heydər Əliyev Mərkəzinin açılışı mərasimində iştirak etmişdir.*

*Azərbaycan dövlətçiliyinin möhkəm əsaslar üzərində qurulmasında, respublikamızın hərtərəfli inkişafında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə ölkəmizin bütün bölgələrində, o cümlədən Xızıda mühüm işlər görülür və vacib layihələr reallaşdırılır. Rayonun mərkəzində yeni tikilən Heydər Əliyev Mərkəzi ümummilli liderin xatirəsinə dərin ehtiramın nümunəsidir. Mərkəzdə ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar toplanılıb. Burada Heydər Əliyevin Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, bu böyük şəxsiyyətin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində müstəqilliyin ilk illərində ölkəmizdə vətəndaş müharibəsinin qarşısının alınması, iqtisadiyyatın ağır böhran vəziyyətindən çıxarılaraq inkişaf yoluna qədəm qoyması, qüdrətli ordu quruculuğu istiqamətində həyata keçirilən mühüm tədbirləri əks etdirən foto, kitab və digər vəsaitlərə geniş yer verilib. Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsinin təbliği, Azərbaycan vətəndaşlarının dünyada gedən müasir proseslər çərçivəsində öz vətəni, milləti və xalqının taleyi ilə bağlı genişmiqyaslı layihələrdə iştirakının təmin olunması, onların arzu və niyyətlərini gerçəkləşdirmək əzminin reallaşması baxımından mühüm əhəmiyyət daşıyan Heydər Əliyev Mərkəzi həm də Azərbaycanın müasir reallıqlarını əks etdirir.*

Dövlətimizin başçısı Heydər Əliyev Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, Mərkəzin tikintisinə 2013-cü ilin aprelində başlanılıb. Binanın ətrafında geniş abadlıq-quruculuq işləri görülüb. Müasir interyeri ilə diqqəti cəlb edən Mərkəzin foyesində ümummilli liderin büstü qoyulub. Mərkəzdə ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinə dair tarixi sənədlərə geniş yer verilib. Burada ümummilli liderin həyatının uşaqlıq, gənclik və tələbəlik illəri, həmçinin sovet və müstəqillik dövrünə aid müxtəlif fotoları maraqla qarşılanır. Bu fotolarda ümummilli liderin istər sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə Azərbaycana rəhbərliyinin müxtəlif məqamları əks olunub. Bundan başqa, Mərkəzdə ümummilli liderlə bağlı kitablar, sənədlər və digər maraqlı eksponatlar sərgilənir. Binada, həmçinin prezident İlham Əliyevin Xızıya səfərlərini əks etdirən fotolardan ibarət stend də maraq doğurur. Son illərdə respublikamızda fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərində yeni ailə quran gənclərin nikah mərasimlərinin təşkili kimi xoşməramlı tədbirlərə də başlanılıb. Qeyd edildi ki, bu Mərkəzdə də vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı və bununla bağlı mərasimlərin təşkili də nəzərdə tutulur.

Mərkəzin tikintisində şəhərsalma memarlığının son nailiyyətlərindən istifadə olunub. Burada sərgi salonu, kafe, istirahət və digər yardımçı otaqlar var. Açıq sərgi salonunda maraqlı rəsm nümunələri sərgilənir. Mərkəzdə elektron kitabxana, kulinariya, xalq sənətkarlığı emalatxanası, musiqi və heykəltəraşlıq dərnəkləri fəaliyyət göstərəcək. Bu dərnəklər gənclərin müxtəlif sənətlərin sirlərinə yiyələnməsinə, onların asudə vaxtının səmərəli təşkilinə geniş imkanlar yaradır. Mərkəzdəki kompüter otağı, rəsm və dizayn studiyaları, virtual sinif də müasirliyi ilə diqqəti cəlb edir. Burada rayonun ictimai-siyasi həyatında baş verən mühüm hadisələr və əlamətdar günlərlə bağlı tədbirləri yüksək səviyyədə keçirmək üçün hərtərəfli imkan yaradılıb. Mərkəzdəki 230 yerlik akt və kiçik konfrans zallarında ictimai-siyasi və mədəni-kütləvi tədbirlərin,

*o cümlədən ulu öndər Heydər Əliyevin zəngin irsinin geniş təbliği məqsədilə açıq dərslərin keçirilməsi nəzərdə tutulub. Buraya gələnlər 3D kino zalından, pnevmatik tir zallarından istifadə edə bilərlər.*

*Heydər Əliyev Mərkəzi ilə tanışlıqdan sonra dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m Ə l i ye v:** Sizi ürəkdən salamlayıram. Yenidən Xızıda olmağımdan çox şadam. Bu, Xızıya mənim üçüncü səfərimdir. Yadımdadır, keçən dəfə xəstəxananın açılışını qeyd etmişdik.

Bu gün də bu möhtəşəm Heydər Əliyev Mərkəzinin açılışında bir yerdəyik. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Bu çox gözəl Mərkəzdir, çox gözəl binadır. Həm xarici görünüşü, həm daxili tərtibatı ən yüksək səviyyədədir. Çox böyük zövqlə tikilibdir. Əminəm ki, Xızı rayonunun sakinləri bu Mərkəzdən səmərəli şəkildə istifadə edəcəklər. Çünki bu Mərkəzdən gənclər, yeniyetmələr, yaşlı nəslin nümayəndələri müxtəlif istiqamətlər üzrə istifadə edə bilərlər. Həm funksional, həm memarlıq baxımından çox gözəl bir yerdir. Burada fəaliyyət göstərəcək dərnəklərdə gərək gənclər iştirak etsinlər və bu Mərkəz yaşamalıdır. Çünki belə gözəl bina tikilib və əlbəttə ki, bunun funksional tərəfi də yüksək səviyyədə təşkil edilməlidir.

Mərkəz ulu öndərin adını daşıyır və bu da təbiidir. Çünki Heydər Əliyev müstəqilliyimizin banisidir. Məhz onun fəaliyyəti nəticəsində bu gün Azərbaycan müstəqil dövlət kimi yaşayır, güclənir. Ölkəmiz üçün ən ağır dövrdə xalqın tələbi ilə rəhbərliyə gəlmiş Heydər Əliyev müstəqilliyi təmin edib, vətəndaş müharibəsinə son qoyub, ölkəmizi inkişaf yoluna çıxarıb. Bu gün biz bu siyasətə bütün istiqamətlər üzrə sadiqik və ölkəmizin uğurlu inkişafı bu siyasətin nəticəsidir. Bu inkişafı biz Xızı rayonunun timsalında da görürük. Çünki bildiyiniz kimi, Xızı o qədər də böyük rayon deyil, əhali də 15 min civarındadır.

Buna baxmayaraq, Xızının sosial-iqtisadi inkişafı üçün bütün lazımi tədbirlər görülür. Biz bu tədbirləri ardıcıllıqla görürük ki, bütün insanları narahat edən məsələlər öz həllini tapsın. Magistral yoldan Xızıya gözəl bir yol çəkilib. Bu yol əvvəlki dövrdə o qədər də yaxşı vəziyyətdə deyildi. İndi ən gözəl standartlara uyğundur. Burada digər yol layihələri icra edilir. Bu yaxınlarda kənd yollarının tikintisi üçün əlavə vəsait ayrılmışdır. Altıağac kəndinə qədər gedən yol əsaslı şəkildə tikiləcəkdir. Digər yol layihələri indi həllini gözləyir və o məsələlər də həll olunacaqdır. Şurabad kənd yolu da tikilməlidir. Bu məqsədlər üçün də vəsait ayrılacaq. Yəni yol infrastrukturu əsasdır və indi ölkəmizin bütün yerlərində kənd yolları prioritet kimi gündəlikdədir. Yol olanda, əlbəttə ki, rahatlıq da, inkişaf da olur. Xızının turizm potensialı çox böyükdür. Burada çox gözəl təbii şərait var – gözəl dağlar, təmiz hava. Bu gün mənə yeni layihə təqdim olundu, burada gözəl hotel tikintisi nəzərdə tutulur. Yəni bu sahədə əlavə tədbirlərin görülməsi, əlbəttə ki, rayonun iqtisadi potensialını artıracaqdır. Çünki ilk növbədə, yol olmalıdır, infrastruktur layihələri icra edilməlidir. Hər rayon üçün onun spesifikasına uyğun olaraq iqtisadi inkişaf planı da nəzərdə tutulur, o cümlədən Xızı üçün. Bildiyiniz kimi, üçüncü regional inkişaf proqramında Xızı rayonunun inkişafı üçün bütün lazımi tədbirlər nəzərə alınıb.

Keçən dəfə burada olarkən biz xəstəxananın açılışını qeyd etmişdik. Bu çox gözəl tibb ocağıdır. Həm gözəldir, həm də ki, orada quraşdırılan bütün avadanlıqlar dünya klinikalarından geri qalmır. Hesab edirəm ki, bu da insanların sağlamlığına çox böyük töhfədir.

Xızı rayonunda kənd təsərrüfatının inkişafı üçün çox önəmli addım atılmışdır. Suvarma layihəsinə start verildi və bu layihənin reallaşması Taxtakörpü su anbarının tikintisindən sonra mümkün olmuşdur. Taxtakörpü su anbarının tikintisi ölkədə son vaxtlar qeyri-neft sektorunda infrastruktur layihələri arasında bəlkə də ən böyüyüdür, kənd təsərrüfatının inkişafı

üçün xüsusi əhəmiyyətə malikdir. Samur–Abşeron kanalı, Taxtakörpü su anbarı, elektrik stansiyası, Taxtakörpü–Ceyranbatan kanalı – bu layihələr artıq icra edilibdir. Beləliklə, biz Samur çayının sularından istənilən həcmdə istifadə edirik. İndi isə biz artıq bu kanal üzərində yerləşən rayonların kənd təsərrüfatına da ciddi diqqət göstəririk.

Siyəzən, Şabran və Xızı rayonlarında böyük həcmdə yeni torpaq sahələri dövriyyəyə buraxılacaqdır. Xızı rayonunda isə 9 min hektar torpaq su ilə təmin ediləcəkdir. Hazırda Xızı rayonunda suvarılan torpaqların sahəsi 3 min hektardır. Yəni indikindən 3 dəfə çox torpaq suvarılacaqdır. Beləliklə, fermerlər üçün əlavə imkanlar yaranacaqdır. Fermerlər gərək o torpaqlardan səmərəli şəkildə istifadə etsinlər. Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, yerli icra hakimiyyəti birlikdə bu işlərlə məşğul olmalıdırlar ki, biz bu torpaqlarda əkiləcək məhsulların nomenklaturasını müəyyən edək.

Yəni bu, kənd təsərrüfatının inkişafı üçün çox böyük layihədir, böyük töhfədir. Əminəm ki, yaxın vaxtlarda artıq bütün lazımi şəbəkə qurulacaqdır. İndi boru xətləri və kanallar tikilməlidir ki, hazırda səhraya bənzəyən o torpaqlar artıq gülüstana çevrilsin.

Bax, budur bizim konkret gördüyümüz işlər. Xızı rayonunun gələcək inkişafı ilə bağlı, əlbəttə, əlavə tədbirlər görüləcək. Mən bilirəm ki, problemlər də vardır. Onların arasında birincisi içməli su problemidir. Bildiyiniz kimi, indi ölkə üzrə bu problem tədricən öz həllini tapır. Əminəm ki, üçüncü regional inkişaf proqramının icrası nəticəsində bizim bütün şəhərlərimizdə içməli su layihələri təmin ediləcəkdir, o cümlədən Xızı rayonunda.

Bilirəm ki, mənbənin müəyyən edilməsi ilə bağlı müxtəlif çətinliklər vardır. O məsələ də öz həllini tapacaqdır. Yəni Xızı rayonuna da təmiz içməli su gətiriləcəkdir. Çünki biz indi bu layihələrə böyük diqqət göstəririk. Artıq son vaxtlar bir neçə şəhərə təmiz içməli su gətirilibdir. Kanalizasiya layihələri də

bərabər aparılır, o cümlədən Xızıda da bu məsələ öz həllini tapacaqdır.

Yəni son vaxtlar aparılan işlər onu göstərir ki, biz bütün problemləri ardıcıllıqla həll edirik və həll edəcəyik. Misal üçün, bu gün Xızıda qazlaşma 90 faiz təşkil edir. Amma vaxtilə burada qaz yox idi, yollar yox idi. Yollar tikilibdir. Xəstəxana yox idi, xəstəxana tikilibdir. İndi içməli su layihəsi də icra ediləndən sonra, demək olar ki, əsas infrastruktur məsələləri həll olunacaqdır.

Suvarma layihəsinə start verildi. Fermerlərə güzəştli şərtlərlə kreditlər verilir. Təkcə o qalıb ki, insanlar bu imkanlardan səmərəli şəkildə istifadə etsinlər, işləsinlər və öz əməkləri ilə ölkəmizi daha da möhkəmləndirsinlər. Bizim ümumi inkişafımız göz qabağındadır. Azərbaycan öz sürətli inkişaf dövrünü yaşayır və ölkədə böyük quruculuq işləri aparılır.

İqtisadiyyatımız artır, sosial məsələlər həll olunur. Ölkədə sabitlik və vətəndaş həmrəyliyi hökm sürür. Bir sözlə, bu gün Azərbaycan məhz görülən işlərə görə dünya miqyasında diqqət mərkəzinə çevrilib. Biz bu işləri ardıcıllıqla görürük. Hər bir istiqamət üzrə bu işlər konkret proqram əsasında aparılır, o cümlədən rayonların inkişafı və Xızı rayonunun gələcək inkişafı ilə bağlı bizdə heç bir şübhə yoxdur. Daha da böyük işlər görüləcəkdir, insanlar daha da yaxşı yaşayacaqlar.

Əminəm ki, dediyim məsələlərin reallaşması nəticəsində biz hələ sizinlə çox görüşəcəyik. Çünki gələcəkdə burada yenə də böyük açılışlar olacaqdır.

Sizi bir daha salamlayıram. Sizə ən xoş arzularımı çatdırıram.

**Xatirə Şahgəldiyeva** *(müəllimə):* Möhtərəm cənab Prezident, Sizi xızılılar adından salamlayıram. Xızı torpağına xoş gəlmisiniz!

Biz müstəqil Azərbaycan dövlətinin bugünkü inkişafına görə hər birimizin borclu olduğu dahi şəxsiyyətin – Heydər Əliyevin adını daşıyan möhtəşəm Mərkəzin açılışına toplaşmışıq. Hər bir azərbaycanlı çox gözəl bilir ki, Heydər Əliyev Vətənimizin, insanlarımızın gələcəyi naminə çalışıb, ömrünü Vətəninə, xalqına həsr edib. Heydər Əliyevin cəsarəti, uzaqgörənliyi, müdrikliyi

nəticəsində Azərbaycan ayağa qalxdı, möhkəmləndi, müstəqil bir dövlət kimi, özünü qoruyub saxlaya bildi, iqtisadiyyatını gücləndirdi. Elə o dövrdən bu günədək Azərbaycan bu yolla sürətlə inkişaf edir, irəliləyir.

Qarşımızdakı bu əzəmətli Mərkəzdə müxtəlif dərnəklər yaradılıb. Biz inanırıq ki, gənclərimiz bu dərnəklərdə müsbət yönümdə təhsil, tərbiyə alacaqlar. Onlar maraq və istəklərinə uyğun məşğuliyyət tapacaq, bir-biriləri ilə informasiya, fikir mübadiləsi edəcəklər.

Yaratdığınız bu şəraitə görə Sizə ictimaiyyətimiz adından minnətdarlığımızı bildiririk. Ən başlıcası isə bu Mərkəzdə gənclərimiz Heydər Əliyevin nümunəsində Vətəni sevməyi, ona sədaqətlə xidmət etməyi öyrənəcəklər. Biz fəxr edirik ki, ulu öndərimizin qurub yaratdığı müstəqil Azərbaycan dövlətinin sükanı bu gün etibarlı əllərdə – Sizin əlinizdədir. Sizin rəhbərliyinizlə ölkəmiz bu gün çox güclü, özü-özünü hər cəhətdən təmin edə bilən qüdrətli dövlətə çevrilib. Onun səsi mötəbər beynəlxalq kürsülərdən gəlir. O öz sözünü hər bir məqamda, hər bir şəraitdə açıq deyə bilir. Dünyanın aparıcı dövlətləri onunla – bizim dövlətimizlə hesablaşır. Bu bir həqiqətdir. Biz bununla qürur duyuruq. İnanırıq ki, gələcəkdə də Sizin rəhbərliyiniz altında ölkəmiz yeni-yeni zirvələr fəth edəcəkdir.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanımla birgə Sizin çiyin-çiyinə gördüyünüz işləri sözlə ifadə etmək qeyri-mümkündür. Cəmiyyətimiz, insanlarımız, xüsusilə gənclərimizin sağlam, savadlı, istedadlı olmaları, hərtərəfli inkişaf etmələri üçün çox önəmli layihələr həyata keçirir, çox gözəl şərait yaradırsınız. Ulu öndər, Siz, Mehriban xanım, övladınız Leyla da dövlətə sədaqətin, dövləti sevməyin nümunəsisiniz. Cənab Prezident, Siz həm gənclərimizə, həm də bütün dünyaya Vətənə sədaqətli olmağı nümayiş etdirirsiniz.

Möhtərəm cənab Prezident, heç bir şübhə yoxdur ki, Sizin bəyan etdiyiniz kimi, bizim gözəl Vətənimizin ərazi bütövlüyü bərpa olunacaq, işğaldan əzab çəkən soydaşlarımız öz ata-baba

torpaqlarına qayıdacaqlar. Sizin kimi mərd, cəsarətli, rəşadətli Prezidentimizlə biz buna mütləq nail olacağıq. O müqəddəs günü biz Sizinlə səbirsizliklə gözləyirik.

Möhtərəm cənab Prezident, məktəbimdə, evimdə, ailəmdə, rayonumda baş verən dəyişikliklərin canlı şahidiyəm. Bakıya yaxın olsa da ucqar sayılan Xızı bu gün belə gözəl, müasir, abad bir şəhərə çevrilib. Mənim doğma rayonum gündən-günə sürətlə inkişaf edir, yollar, parklar salınır, yeni evlər tikilir, misli görülməmiş quruculuq, abadlıq işləri aparılır.

Cənab Prezident, bu gün hər bir azərbaycanlı öz qüdrətli ölkəsində rahat yaşayır. Gələcəyimizə isə möhkəm bir əminlik vardır. Çünki Siz həmişə Azərbaycanı irəliyə, yeni-yeni zirvələrə aparırsınız. Xalq Sizə inanır, arxanızca gedir və hər zaman gedəcəkdir. Allah Sizi qorusun!

## Xızı Rayon İcra Hakimiyyətinin yeni binasında yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Xızı Rayon İcra Hakimiyyətinin yeni binasında yaradılan şəraitlə tanış olmuşdur.*

*Prezident İlham Əliyevin sərəncamları və tapşırıqları əsasında regionlarda həyata keçirilən quruculuq işləri hər bir bölgənin inkişaf strategiyasına uyğun aparılır. Yeni tikilən binalar bölgələrin simasını daha da gözəlləşdirir. İndi bütün regionlarda səngiməyən abadlıq-quruculuq işləri ölkəmizin kompleks inkişafını təmin edir. Bu sırada Xızı rayonunda görülən işlər də diqqəti cəlb edir. Rayon icra hakimiyyəti üçün yeni tikilən binada yaradılan şərait ölkədə dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsinin daim diqqət mərkəzində olduğunu təsdiqləyir. Bundan başqa, müasir memarlıq üslubunda inşa olunan həmin bina rayonun görkəminə də xüsusi gözəllik verir. Bina bütün lazımi avadanlıq və sistemlərlə təchiz edilib.*

*Dövlətimizin başçısına məlumat verildi ki, binanın inşasına 2013-cü ilin aprelində başlanılıb və bu ilin iyulunda başa çat-*

*dırılıb. Foyedə ümummilli lider Heydər Əliyevin büstü qoyulub. Binada ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizin tərəqqisi naminə çoxşaxəli fəaliyyətlərini əks etdirən fotoguşələr yaradılıb. Fotoguşələrdə, həmçinin prezident İlham Əliyevin müxtəlif illərdə Xızı rayonunda keçirilən tədbirlərdə iştirakını əks etdirən şəkillər böyük maraq doğurur.*

*Dövlətimizin başçısı otaqlarda yaradılan şəraitlə də tanış oldu. Otaqların hamısı müasir tələblər səviyyəsində qurulub. Burada müasir idarəetmə metodlarından istifadə etmək üçün bütün texniki imkanlar yaradılıb. Bu da icra strukturunun işinin daha mükəmməl qurulmasına, rayon icra hakimiyyəti əməkdaşlarının səmərəli fəaliyyətinə geniş imkan yaradır. Operativ idarəetmə otağı vasitəsilə sakinlər inzibati binaya gəlmədən onları narahat edən problemlərlə əlaqədar icra hakimiyyətinin məsul şəxsləri ilə birbaşa videoəlaqə yarada biləcəklər. Artıq rayonun bütün icra nümayəndəlikləri şəbəkəyə qoşulub. Akt zalında tədbirləri yüksək səviyyədə keçirmək üçün hər cür şərait yaradılıb. Binada kitabxana, iclas və konfrans zalları, inzibati və digər otaqlar vardır. İcra hakimiyyətinin binası eyni zamanda, şəhərin simasına yeni görkəm verir. Binanın yerləşdiyi ərazidə geniş yaşıllaşdırma işləri aparılıb, müasir işıqlandırma sistemi quraşdırılıb.*

*Prezident İlham Əliyev əhaliyə yüksək xidmət göstərilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## Cəfər Cabbarlı parkında yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Cəfər Cabbarlı parkında yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*İqtisadiyyatın güclənməsi nəticəsində əldə edilən gəlirlər hesabına regionların sosial-iqtisadi tərəqqisinə yönəldilən tədbirlərin sayı xeyli artıb. Bu tədbirlər sırasında yeni park, xiyaban və istirahət mərkəzlərinin salınmasına və ya günün*

*tələbləri səviyyəsində yenidən qurulmasına xüsusi diqqət yetirilir. Müasir səviyyədə yenidən qurulan parklardan biri də Xızıdakı Cəfər Cabbarlı parkıdır. Bu istirahət məkanının yenidən qurulması sosial məna daşımaqla yanaşı, həm də mənəvi əhəmiyyətə malikdir. Bu park həm də Xızıda doğulmuş Azərbaycanın görkəmli dramaturqu Cəfər Cabbarlının xatirəsinə olan ehtiramı nümayiş etdirir.*

*Dövlətimizin başçısı Cəfər Cabbarlının parkda ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu.*

*Azərbaycan Prezidentinə parkda aparılan abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verildi. Bildirildi ki, ümumi sahəsi 5800 kvadratmetr olan parkda sakinlərin istirahəti üçün hərtərəfli şərait yaradılıb, geniş yaşıllıq zolağı salınıb. Parkda aparılan yenidənqurma işləri zamanı ən xırda detallar da nəzərə alınıb. Bunun nəticəsidir ki, park Xızının ən gözəl və görkəmli yerlərindən birinə çevrilib. Burada yaradılan şərait həm də ümumilikdə rayonda aparılan abadlıq-quruculuq işlərinin həcmini aydın göstərir. Azərbaycan teatr sənətinin inkişafında böyük xidmətləri olmuş, görkəmli dramaturq Cəfər Cabbarlının adını daşıyan bu parkda yaradılan şərait istər rayon sakinlərinin, istərsə də Xızıya gələn qonaqların istirahətinin mənalı təşkili üçün geniş imkanlar açır.*

## Yeni inşa edilmiş 25 fərdi evdə yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Xızı şəhərində inşa edilmiş 25 fərdi evdə yaradılan şəraitlə tanış olmuşdur.*

*Azərbaycan nadir ölkələrdəndir ki, təbii fəlakətlər zamanı evləri dağılmış insanlara dövlət vəsaiti hesabına yeni mənzillər tikir. Xızı şəhərində də müxtəlif təbii proseslər zamanı 25 fərdi ev qəzalı vəziyyətə düşmüşdü. Dövlətimizin başçısının göstərişinə əsasən həmin evlərin sahibləri üçün dövlət vəsaiti hesabına yeni evlər inşa olunub. Bu işlər qısa zamanda, həm də yüksək keyfiyyətlə həyata*

*keçirilib. Belə tədbirlər prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mərkəzində insan amilinin durduğuna daha bir əyani misaldır. «Mən hər bir azərbaycanlının prezidenti olacağam» – deyən dövlət başçımızın fəaliyyətinin real nəticələridir. Həyata keçirilən bu layihələr Azərbaycan dövlətinin ilk növbədə, vətəndaşların sosial rifah halının və mənzil-məişət şəraitinin yaxşılaşdırılması naminə gördüyü işlər sırasındandır. Bu həm də Azərbaycanın iqtisadi gücünü və potensialını nümayiş etdirir.*

*Bildirildi ki, bu yeni massivin sakinlərinin əvvəlki evləri rayonda müxtəlif illərdə baş vermiş ekzogen proseslər, o cümlədən qeyri-normal yağıntı, torpaq sürüşməsi, çökmə nəticəsində yaşayış üçün yararsız vəziyyətə düşüb. İkimərtəbəli evlərdə hər cür şərait yaradılıb. Dördotaqlı evlərin hər birinin 7 sot həyətyanı torpaq sahəsi var. Yeni massiv bütün infrastrukturla təchiz edilib. Ərazidə geniş abadlıq işləri görülüb, istirahət guşəsi və uşaq əyləncə meydançası yaradılıb.*

## Taxtakörpü–Ceyranbatan kanalından suyun yeni suvarılan torpaqlara verilməsi üçün suburaxıcı qurğunun təməlinin qoyulması mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Taxtakörpü–Ceyranbatan kanalından suyun yeni suvarılan torpaqlara verilməsi üçün suburaxıcı qurğunun təməlinin qoyulması mərasimində iştirak etmişdir.*

*Başlanğıcını Azərbaycan ilə Rusiya sərhədində Samur çayından götürən və uzunluğu 182 kilometr olan Samur–Abşeron kanalı hazırda respublikanın şimal bölgəsi rayonlarının 150 min hektara yaxın torpaq sahəsini suvarma suyu və Bakı, Sumqayıt şəhərlərini, habelə Abşeron yarımadasını içməli, suvarma və texniki su ilə təmin edən irimiqyaslı kompleks su təsərrüfatı obyektidir.*

*«Samur–Abşeron suvarma sisteminin yenidən qurulması» layihəsinə daxil olan Vəlvələçay–Taxtakörpü və Taxtakörpü–*

*Ceyranbatan kanallarının, Taxtakörpü su anbarının Su-Elektrik Stansiyası ilə birlikdə tikintilərinin beynəlxalq maliyyə qurumlarının krediti və Dövlət Neft Fondunun vəsaiti hesabına 2013-cü ildə başa çatdırılması respublikamızın şimal bölgəsi rayonlarında və Abşeron yarımadasında 150 min hektara yaxın mövcud əkin sahəsinin su təminatının yaxşılaşdırılmasına və 30 min hektar yeni torpaq sahəsini suvarma suyu ilə təmin etməklə, onların kənd təsərrüfatı dövriyyəsinə cəlb olunmasına şərait yaradıb. Buna görə də prezident İlham Əliyevin tapşırığına əsasən həmin layihənin icrası davam etdirilir.*

*Dövlətimizin başçısı Samur–Abşeron kanalını qidalandırmaq üçün şimal çaylarında sugötürücü və nəqletmə qurğularının tikintisi, Şabran, Siyəzən, Xızı rayonları üzrə suvarılacaq torpaq sahələrinin planı, Samur–Abşeron suvarma sistemi zonasında həmin rayonlardakı mövcud suvarılan torpaqlarda su təminatının yaxşılaşdırılması və yeni suvarılan torpaqların istifadəyə verilməsi, həmçinin Samur–Abşeron kanalı sistemi üzrə mövcud və yeni suvarılan torpaqların planı ilə tanış oldu.*

*«Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə prezident İlham Əliyevə məlumat verdi ki, Taxtakörpü su anbarının istifadəyə verilməsi ilə əlaqədar layihə zonasında yerləşən rayonlarda yeni suvarılan torpaqların müəyyənləşdirilməsi ilə bağlı dövlətimizin başçısının verdiyi tapşırıqların icrasına əsasən aparılan araşdırmalar nəticəsində «Samur–Abşeron suvarma sisteminin yenidən qurulması» layihəsi zonasında 30 153 hektar, o cümlədən Şabran rayonunda 13678, Siyəzən rayonunda 7962 və Xızı rayonunda 8513 hektar yeni suvarılan torpaq sahələri müəyyən edilib.*

*Beynəlxalq məsləhətçilər tərəfindən «Samur–Abşeron suvarma sisteminin yenidən qurulması» layihəsinin davamı olaraq Xızı, Siyəzən və Şabran rayonlarında yeni suvarılan torpaqların istifadəyə verilməsi üçün mütərəqqi suvarma texnikasının tətbiqi ilə meliorativ tədbirlərin, eləcə də mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılmasının layihə*

*sənədləri hazırlanıb. Birinci növbədə, Xızı rayonunun inzibati ərazisi üzrə yeni suvarılan torpaqların istifadəyə verilməsi üçün meliorativ tədbirlərin layihə sənədləri tamamlanaraq tikintiyə hazırlıq işlərinə başlanılıb. Siyəzən rayonu üzrə layihə sənədlərinin hazırlanması başa çatmaq ərəfəsindədir. Şabran rayonunda isə bu işlər davam etdirilir.*

*Layihəyə əsasən, Xızı rayonu üzrə yeni suvarılan torpaq sahələri dəqiqləşdirilərək, onun 9609 hektar və su təminatı yaxşılaşdırılacaq mövcud əkin sahələri 2970 hektar olmaqla, cəmi 12 579 hektar müəyyən edilib. Layihədə yeni inşa olunmuş Taxtakörpü–Ceyranbatan kanalından suvarma suyunun mövcud və yeni suvarılan torpaq sahələrinə verilməsi üçün ümumi uzunluğu 261,4 kilometr, o cümlədən 194,5 kilometr qapalı və 66,9 kilometr açıq suvarma şəbəkələrinin tikintisi nəzərdə tutulur. Torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması məqsədilə 630 hektar sahədə qapalı drenaj şəbəkəsi layihələndirilib.*

*Bildirildi ki, cari ildə Dövlət Neft Fondundan «Samur–Abşeron suvarma sisteminin yenidən qurulması» layihəsinə ayrılmış vəsait hesabına Xızı və Siyəzən rayonlarında yeni suvarılan torpaqlarda meliorativ tədbirlərin aparılmasına başlanılıb. Birinci mərhələdə Xızı rayonunun 3396 hektar yeni suvarılacaq torpaq sahələrində bu işlərin tamamlanması nəzərdə tutulur.*

*Eyni zamanda, Dövlət Neft Fondunun vəsaiti hesabına Samur–Abşeron kanalının 50-ci kilometrliyində yerləşən Qusarçay, Qudyalçay, Quruçay, Ağçay, Qaraçay və Caqacuqçay şimal çaylarından sugötürücü və nəqledici kanalların tikintisinin layihə sənədləri hazırlanaraq cari ildə Qusarçay və digər 2 çayda tikinti işlərinə başlanılıb. Bu tədbirin başa çatması ilə Samur–Abşeron kanalına orta sulu illərdə əlavə 322 milyon kubmetrdən çox suyun verilməsinə, bununla da bu çayların zonasında yerləşən mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılmasına imkan yaranacaq.*

*Prezident İlham Əliyev Taxtakörpü–Ceyranbatan kanalından suvarma suyunun yeni suvarılan torpaqlara verilməsi üçün suburaxıcı qurğunun təməlini qoydu.*

*Dövlətimizin başçısı bölgə üçün çox mühüm əhəmiyyət kəsb edən layihənin yüksək səviyyədə icrası ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

**MALDİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH YAMİN ABDUL QƏYYUMA**

Hörmətli cənab Prezident!

Maldiv Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Maldiv münasibətləri daha da inkişaf edərək, xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Maldiv xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *23 iyul 2014-cü il*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HERBERT SALBERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 23-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Herbert Salberi Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi vəzifəsində fəaliyyətə başlaması münasibətilə təbrik edən prezident İlham Əliyev onun bu səfərinin regiondakı vəziyyətlə yaxından tanış olmaq üçün yaxşı fürsət yaradacağına əminliyini ifadə etdi. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlətimizin başçısı bildirdi ki, Azərbaycan münaqişənin sülh yolu ilə nizama salınmasına tərəfdardır. Qeyri-konstruktiv mövqe nümayiş etdirən Ermənistan isə nə beynəlxalq hüquqa, nə də həmsədr ölkələrin rəhbərlərinin bəyanatlarına məhəl qoyur. Münaqişə nəticəsində Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazilərinin hələ də işğal altında olduğunu vurğulayan prezident İlham Əliyev qeyd etdi ki, əgər problem beynəlxalq hüquq çərçivəsində ədalətli həll olunmazsa, regionda vəziyyət daha da mürəkkəbləşə bilər.*

*Regiona müxtəlif vaxtlarda bir neçə dəfə səfər etdiyini vurğulayan Herbert Salber mövcud vəziyyətlə tanış olduğunu dedi. O, təmsil etdiyi qurumun Azərbaycan ilə əməkdaşlığı genişləndirərək regiondakı münaqişələrin həllinə öz töhfəsini vermək niyyətində olduğunu vurğuladı.*

**PERU RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB OLYANTA UMALA TASSOYA**

Hörmətli cənab Prezident!

Peru Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Peru əlaqələrinin genişlənməsi, dostluq və əməkdaşlıq münasibətlərimizin inkişafı yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Peru xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *24 iyul 2014-cü il*

## BAKI OLİMPİYA STADİONUNDA TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*24 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 24-də Bakı Olimpiya stadionunda tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Artıq neçə illərdir ki, Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Ölkəmizdə bu sahənin daha da inkişaf etdirilməsi istiqamətində görülən tədbirlər nəticəsində Azərbaycan beynəlxalq əhəmiyyətli idman yarışlarının keçirilməsi üçün əlverişli məkana çevrilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strategiyaya uyğun olaraq bu gün idman ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Azərbaycanda yeni idmançılar nəslinin yetişdirilməsi də diqqət mərkəzindədir. Dövlətimizin başçısının idmanın inkişafına göstərdiyi diqqət və qayğı idmançılarımızın beynəlxalq yarışlarda yüksək nəticələr qazanmalarına gətirib çıxarır.*

*2015-ci ildə Azərbaycan daha bir mötəbər idman yarışına ev sahibliyi edəcək. I Avropa oyunları ilk dəfə olaraq Bakıda keçiriləcək. Avropa Olimpiya Komitəsinin bununla bağlı qərarı beynəlxalq idman ictimaiyyətinin ölkəmizin olimpiya hərəkatında oynadığı rola, idmanın inkişafına göstərdiyi yüksək dəstəyə verdiyi önəmin ifadəsidir.*

*Bakının Avropa oyunlarının keçirilməsi üçün böyük potensiala malik olmasını beynəlxalq idman təşkilatları da təsdiqləyib. Güclü idman infrastrukturu olan Azərbaycan eyni zamanda, beynəlxalq yarışları keçirmək təcrübəsinə də malikdir. I Avropa oyunlarına bir ilə yaxın vaxt qalmasına baxmayaraq, ölkəmizdə bu mötəbər tədbirə hazırlıqla bağlı işlər yüksək səviyyədə həyata keçirilir. Bakıda Su İdmanı Növləri sarayı,*

*Atıcılıq Mərkəzi və digər mükəmməl infrastruktur obyektlərinin inşası davam etdirilir. Milli Gimnastika Arenası artıq istifadəyə verilib. Ölkədə idman infrastrukturunun daha da gücləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin mühüm tərkib hissəsi olan Bakı Olimpiya stadionunda da işlər sürətlə və yüksək keyfiyyətlə davam etdirilir.*

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev görülən işlərlə bağlı prezident İlham Əliyevə məlumat verdi.*

*Bildirildi ki, 2011-ci ilin iyununda təməli qoyulan stadionda tikinti işləri başa çatmaq üzrədir. Stadionun tammiqyaslı tikintisinə 2012-ci ilin noyabrında başlanılıb və işlərin gələn ilin fevralında yekunlaşması nəzərdə tutulur. Ümumi layihə üzrə işlərin böyük əksəriyyəti başa çatıb. Stadionun svay işləri bütünlüklə, torpaq və dəmir-beton işlərinin isə 95 faizi yerinə yetirilib. Dam konstruksiyası yerinə qoyulub və polad konstruksiya işlərinin böyük bir hissəsi yekunlaşıb. Artıq fasad örtüyünün vurulmasına başlanılıb və interyer-tamamlama işləri sürətlə davam edir. Bununla yanaşı, köməkçi məşq sahəsində ot örtüyünün və qaçış zolağının salınmasına başlanılıb. Yaxın zamanlarda əsas stadionda da bu işlərə start veriləcək. Landşaft üçün infrastruktur işləri davam edir. Əsaslı yaşıllaşdırma işlərinə sentyabrda başlanılacaq.*

*Qeyd edildi ki, paytaxtda müasir memarlıq üslubu, xüsusi gözəlliyi ilə seçiləcək, 69 minə yaxın tamaşaçı tutumuna malik Bakı Olimpiya stadionunun bu tipli idman qurğuları sırasında özünəməxsus yeri olacaq. Beynəlxalq standartlara tam cavab verəcək stadionda müxtəlif funksiyalı tribunalar, qaçış zolağı və digər infrastruktur inşa ediləcək. Təqribən 50 hektar ərazidə tikilən altımərtəbəli stadion 62 metr hündürlüyündədir. İnşaat işləri Beynəlxalq Tikinti Standartına, FİFA və UEFA standartlarına uyğun aparılır. Əsas və köməkçi stadionlardan, həmçinin mexaniki binadan ibarət olacaq stadionda VIP, CIP, media, habelə əlil tamaşaçı bölmələri nəzərdə tutulub. Oyun meydançasına 4, tribunalara isə 26 qapıdan giriş olacaq. Olim-*

*piya normativlərinə əsasən insanların* stadiona daha *çox piyada,* ictimai *nəqliyyatla gəlmələri nəzərdə* tutulub ki, bunun *üçün də 3103* yerlik avtomobil *parkı inşa* edilir. Stadionun *ətrafında ümumilikdə* 82 min kvadratmetr *yaşıllıq sahəsi salınacaq.* Bununla da orijinal *layihə əsasında inşa edilən Bakı* Olimpiya stadionu *dünyanın möhtəşəm və* nadir idman *qur-ğularından* biri olacaq.

Prezident *İlham Əliyev* tikinti *işlərinin yüksək səviyyədə başa çatdırılması ilə bağlı tapşırıq və tövsiyələrini* verdi.

## BAKI OLİMPİYA STADİONU ƏTRAFINDA İNŞASI DAVAM ETDİRİLƏN YOL-NƏQLİYYAT İNFRASTRUKTURUNUN TİKİNTİSİ İLƏ TANIŞLIQ

*24 iyul 2014-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 24-də Bakı Olimpiya stadionu ətrafında inşası davam etdirilən yol-nəqliyyat infrastrukturunun tikintisi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Həsən Əliyev küçəsi–Ziya Bünyadov prospekti–Olimpiya stadionu avtomobil yolunun birinci hissəsində tikinti işləri qrafik üzrə davam etdirilir. Layihə çərçivəsində işlərin böyük hissəsi görülüb. Çəkilən yolun ümumi uzunluğu 17 kilometrdir və onun hərəkət hissəsi 4–6 zolaqlı olacaq. Növbəti mərhələdə 3 körpünün inşası nəzərdə tutulur. Qeyd edildi ki, birinci körpünün uzunluğu 205 metr, ikinci körpünün uzunluğu 162 metr, piyadalar üçün nəzərdə tutulan üçüncü körpünün uzunluğu isə 115 metr olacaq. Bundan başqa, ərazidə uzunluğu 900 metrə yaxın olan piyada keçidi inşa ediləcək, yol üzərində 2 tunel tikiləcək.*

*Dövlət başçısına Həsən Əliyev küçəsi–Ziya Bünyadov prospekti–Olimpiya stadionu avtomobil yolunun ikinci hissəsində görüləcək işlərlə də bağlı məlumat verildi. Diqqətə çatdırıldı ki, layihə çərçivəsində ümumi uzunluğu 5 kilometrə yaxın olan yol çəkiləcək. Bu yol üzərində 1 körpü və 2 tunel tikiləcək. Tuneldən keçən yollar Bakı Olimpiya stadionu ilə olimpiya şəhərciyini birləşdirəcək.*

*Sonra prezident İlham Əliyevə 18 kilometrlik Bilgəh–Novxanı–Şamaxı–M4 birləşməsi avtomobil yolunun yol qovşaqlarının və piyada keçidlərinin tikintisi barədə məlumat verildi.*

*Azərbaycan Prezidenti inşaat işlərinin yüksək səviyyədə aparılması ilə bağlı tapşırıqlarını verdi.*

## BÖYÜKŞOR GÖLÜNÜN VƏ ƏTRAF ƏRAZİLƏRİN EKOLOJİ VƏZİYYƏTİNİN KOMPLEKS BƏRPASI İŞLƏRİ İLƏ TANIŞLIQ

*24 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 24-də Böyükşor gölünün və ətraf ərazilərin ekoloji vəziyyətinin kompleks bərpası ilə bağlı görülən işlərlə tanış olmuşdur.*

*İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev görülən işlər barədə dövlət başçısına ətraflı məlumat verdi.*

*Bu layihə Prezidentin 2014-cü il 17 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş «2014–2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»na və «Böyükşor gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması, mühafizəsi və istifadəsi sahəsində əlavə tədbirlər haqqında» fərmanına uyğun olaraq həyata keçirilir. İlk Avropa oyunlarına aid tədbirlərin böyük əksəriyyəti Böyükşor gölünün şərq sahilində, hazırda tikilməkdə olan Bakı Olimpiya Stadionu Kompleksində keçiriləcək. Burada çoxsaylı qonaqların, idmançıların və turistlərin qəbul edilməsi gözlənilir. Bu baxımdan gölün və ətraf ərazilərin ekoloji vəziyyətinin kompleks bərpası və Böyükşor bulvarının yaradılması xüsusi əhəmiyyət kəsb edir.*

*Qeyd edildi ki, gölün ekoloji bərpası layihəsi 2 mərhələdə həyata keçiriləcək. 2014–2015-ci illəri əhatə edən birinci mərhələdə işlər uğurla davam etdirilir. Gölün Olimpiya stadionunun yaxınlığında yerləşən 300 hektara yaxın ərazisi bərpa olunur. Bu mərhələdə gölün şimal hissəsinin tarixən neftlə*

*çirklənmiş sahəsinin bənd vasitəsilə* sahil *xəttindən ayrılması nəzərdə* tutulurdu. *Artıq bəndləmə işləri yekunlaşıb.* Bununla da neftin, *çirklənmiş* suyun *və üzən tullantıların axınının qarşısı alınıb.*

*Göl üzərində ərazinin qərb sərhədini müəyyən edən 8 xətli* magistral *şose şəklində layihələndirilmiş bənd bir tərəfdən* Ziya Bünyadov prospekti, *digər tərəfdən Balaxanı–Binəqədi* yolu *ilə* birləşdiriləcək. Bu da öz *növbəsində, şəhərin* yol infrastrukturuna *düşən yükü* azaldacaq. Torpaq *bəndin inşası cədvəl üzrə* davam etdirilir *və işlərin növbəti* ilin ilk *rübündə başa çatdırılması planlaşdırılır.* Eyni zamanda, 100 *ildən artıq müddətdə göl dibinə yığılmış çirkli çöküntülərin çıxarılması və zərərsizləşdirilməsi işləri görülür. Layihə üzrə* ilkin *mərhələdə* 2,8 milyon kubmetr *həcmində çöküntünün* 100 min kubmetr*dən çoxu təmizlənib. Gölün mühafizə zonası* da daxil olmaqla, ciddi *mühafizə işi təşkil* edilib, *göl və* sahil *xətlərinin məişət və* tikinti *tullantıları ilə çirklənməsinin qarşısı tamamilə alınıb. Böyükşor gölünün cənub sahilində geniş abadlıq*-quruculuq *işləri aparılır,* 16 hektara *yaxın ərazidə* park *və yaşıllıq salınır. Gələn* ilin birinci *yarısında şərq* sahil *xətti* boyunca *Böyükşor bulvarının* 1 *kilometrədək hissəsi salınacaq və* buradan stadion *ərazisinə keçid təmin* olunacaq.

Bildirildi ki, *Böyükşor gölünün* tam *bərpası üzrə* ikinci *mərhələ* 2015–2020-ci *illəri əhatə edəcək.* Bununla da *göl öz təbii* tarixi *məcrasına qaytarılacaq,* su *səviyyəsi tənzimlənəcək və* ekosistem *bərpa* olunacaq. *Beynəlxalq ekspertlərin qiymətləndirmələrinə əsasən Böyükşor gölü dünyada çirklənmiş ən mürəkkəb göllərdən* hesab edilir. *Qısa müddətdə görülmüş işlər nəticəsində* suyun *keyfiyyət göstəricilərinin* dinamikası *müsbətə doğru dəyişib.*

Prezident *İlham Əliyev layihənin* ekoloji *əhəmiyyətini yüksək qiymətləndirdi, müvafiq tapşırıq və tövsiyələrini* verdi.

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlər!

Mübarək Ramazan bayramı münasibətilə sizi və bütün dünya azərbaycanlılarını ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi çatdırıram.

Hikmətlər hikməti olan Qurani-Kərimin nazil olduğu Ramazan ayı bəşər övladını xeyirxahlığa, birliyə, mənəvi kamilliyə dəvət edən, öz mahiyyəti ilə insanların ruhunu, düşüncəsini saflaşdıran əziz bir aydır.

Azərbaycanda milli və dini mərasimlər, o cümlədən Ramazan bayramı hər il dövlət səviyyəsində təntənəli şəkildə qeyd olunur. Ölkəmizdəki dövlət–din münasibətləri, vətəndaşların dini etiqad azadlığı milli qanunvericiliyə və beynəlxalq hüquq normalarına uyğun olaraq tənzimlənir. Bu gün dünyanın tolerantlıq örnəyinə çevrilən Azərbaycanda ayrı-ayrı din və təriqətlər arasında qarşılıqlı hörmət və etimad mühitinin, multikultural dəyərlərin qorunması və inkişaf etdirilməsi dövlət siyasətinin əsas istiqamətlərindəndir. Xüsusi vurğulamaq istərdim ki, vaxtilə sovet rejimi tərəfindən etiqad və vicdan azadlığının qadağan edildiyi ölkəmizdə indi bütün xalqların və dinlərin nümayəndələrinin rahat şəkildə və mehriban ailə kimi yaşaması müstəqil Azərbaycanın ən böyük sərvətlərindən biridir.

Bu günlər cəmiyyətimiz əsl bayram sevinci ilə yaşayır. Orucluğun sınağından könül xoşluğu və fərəhlə çıxanlar dünyanın və ölkəmizin əmin-amanlığı naminə və Vətən torpağı uğrunda canını fəda etmiş şəhidlərimizin müqəddəs ruhları üçün dualar edirlər.

Mərhəmət, şəfqət və bərabərlik rəmzi olan Ramazan ayında inanclı vətəndaşlarımızın tutduğu orucun, etdiyi dua və

niyyətlərin Allah dərgahında qəbul olunmasını diləyir, bir daha hər birinizin bayramını təbrik edir, ailələrinizə səadət, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Allah orucunuzu qəbul etsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 iyul 2014-cü il*

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA**

Hörmətli cənab Prezident!

«Air Algerie» şirkətinə məxsus təyyarənin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *25 iyul 2014-cü il*

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB FRANSUA OLLANDA**

Hörmətli cənab Prezident!

«Air Algerie» şirkətinə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çox sayda həmvətəninizin həlak olması xəbəri məni sarsıtdı.

Bu faciə ilə əlaqədar kədərinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Fransa xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *25 iyul 2014-cü il*

**MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT**
**VI MƏHƏMMƏDƏ**

Əlahəzrət!

Əziz qardaşım!

Mərakeşin milli bayramı – Taxt-tac Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Əminəm ki, ölkələrimiz arasında qarşılıqlı hörmət və etimada əsaslanan dostluq və əməkdaşlıq münasibətləri ortaq mənəvi dəyərləri bölüşən xalqlarımızın iradəsinə uyğun olaraq daim möhkəmlənəcək və inkişaf edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Mərakeş xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *25 iyul 2014-cü il*

**İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DİDYE BURKHALTERƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Konfederasiyanın Yaranması Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan–İsveçrə münasibətləri dinamik şəkildə inkişaf edərək, yeni məzmun kəsb etmişdir. İnanıram ki, dostluq əlaqələrimizin möhkəmlənməsi, qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlığımızın dərinləşməsi istiqamətində birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost İsveçrə xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *25 iyul 2014-cü il*

**BENİN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BANİ YAYİYƏ**

Hörmətli cənab Prezident!

Benin Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi üçün birgə səylərimizi davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Benin xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *25 iyul 2014-cü il*

## MALİYYƏ NAZİRLİYİNİN YENİ İNŞA EDİLƏN İNZİBATİ BİNASI İLƏ TANIŞLIQ

*25 iyul 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 25-də Maliyyə Nazirliyinin yeni inşa edilən inzibati binası ilə tanış olmuşdur.*

*Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında mövqeyini möhkəmləndirməkdədir. Respublikamızda bütün sahələrdə islahatlar ildən-ilə daha da dərinləşir. Ölkəmizin iqtisadi qüdrəti artdıqca sosial-infrastruktur layihələri bütün sahələri əhatə edir.*

*Son illər Azərbaycanın sosial-iqtisadi sahədə əldə etdiyi uğurlarda maliyyə, vergi və bank sektorlarının da xüsusi payı var. Dünyada iqtisadi və maliyyə böhranının davam etməsinə baxmayaraq, respublikamızda hərtərəfli düşünülmüş siyasət nəticəsində davamlı sosial-iqtisadi inkişaf təmin olunur. Ölkəmizin strateji valyuta ehtiyatları artır, milli valyutamızın məzənnəsi sabitdir, dünyanın nüfuzlu reytinq agentlikləri Azərbaycanın kredit reytinqlərini daha da artırır. Ötən illərdə «Büdcə sistemi haqqında» qəbul edilən Qanun mütəmadi olaraq təkmilləşdirilir. Respublikamızda beynəlxalq standartlara cavab verən xəzinədarlıq sistemi formalaşdırılıb. Uğurlu sosial-iqtisadi və düzgün büdcə-vergi siyasəti nəticəsində son 12 ildə dövlət büdcəsinin gəlirləri 16 dəfə artıb. Son illər bütün strukturlarda olduğu kimi, Maliyyə Nazirliyinin maddi-texniki bazasının möhkəmləndirilməsi, nazirliyin tabeliyində olan bütün inzibati binaların müasirləşdirilməsi və səmərəli fəaliyyət üçün hərtərəfli iş şəraitinin yaradılması istiqamətində ardıcıl işlər görülür. Maliyyə Nazirliyinin 35 rayon və ya şəhər maliyyə idarəsi, nazirliyin Dövlət Xəzinədarlığı Agentliyinin Bakı şəhəri üzrə 5 xəzinədarlıq idarəsi*

*üçün yeni inzibati binalar tikilib, 17 yerli maliyyə orqanının binası əsaslı təmir edilib, ən müasir texnologiya və avadanlıqlarla təchiz olunub. Hazırda dövlət başçısının tapşırıqlarına əsasən, Maliyyə Nazirliyinin fəaliyyətində modern və çevik idarəetmənin təmin edilməsi, şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması üçün elektron xidmətlərin geniş tətbiqi diqqət mərkəzindədir. Ümumilikdə, prezident İlham Əliyevin «Dövlət məmuru xalqın xidmətçisidir» fikirlərini fəaliyyətində əsas götürən Maliyyə Nazirliyinin kollektivi işini beynəlxalq standartlara və günün tələblərinə uyğun qurmaqla, qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün səylərini əsirgəmir.*

*Maliyyə naziri Samir Şərifov prezident İlham Əliyevə yeni inzibati binada yaradılan şəraitlə bağlı məlumat verdi.*

*Qeyd edildi ki, Maliyyə Nazirliyinin ötən əsrin 50-ci illərində inşa olunan əvvəlki binası istismara yararsız vəziyyətdə idi və müasir tələblərə cavab vermirdi. Dövlət başçısının iş yerlərinin ən müasir standartlara uyğun yenidən qurulmasına dair tapşırığına əsasən paytaxtın ən gözəl və tarixi guşələrindən birində Maliyyə Nazirliyinin yeni inzibati binası inşa olundu. Bina Bakı şəhərinin müasir simasına uyğun, milli və orijinal memarlıq üslubunda tikilib. Burada nazirliyin mərkəzi aparatı, qurumun strukturuna daxil olan 2 dövlət agentliyi və 3 dövlət xidmətinin fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb. Yeni binanın ərazisində əsaslı yaşıllaşdırma və abadlıq işləri aparılıb.*

*Əsas girişdə ulu öndər Heydər Əliyevin büstü qoyulub. Binanın akt zalı da müasirliyi ilə diqqəti cəlb edir. Burada ən son elmi-texniki yeniliklərə əsaslanan informasiya-kommunikasiya texnologiyaları geniş tətbiq olunub. Nazirliyin ekspozisiyalarının zənginliyi ilə seçilən muzeyində Azərbaycanın maliyyə sisteminin keçdiyi tarixi inkişaf yolu mərhələlər üzrə təqdim edilir. Muzeydə ölkəmizin qədim əsginasları, müasir maliyyə sektorunun formalaşdırılması istiqamətində ilkin tədbirlər, respublikamızın*

*maliyyə* sisteminin ulu *öndər Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə keçdiyi zəngin inkişaf* yolu, son *illərdə* prezident *İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən* islahatlar, *büdcə, xəzinədarlıq, sığorta və digər sahələrdə tətbiq edilən yeniliklər, Maliyyə* Nazirliyinin *beynəlxalq əlaqələri geniş əksini tapıb.*

*Dövlət başçısı* iclas *zalları, görüş və iş otaqları ilə də tanış* oldu. *Maliyyə* Nazirliyinin *bütün strukturlarının və* tabeliyind*əki təşkilatların mərkəzi* aparatla *birgə* yeni inzibati binada *yerləşməsi* vahid *mərkəzdən və* daha operativ *idarəetməni təmin etməyə* imkan *verəcək, əməkdaşların iş əmsalını və məsuliyyətini* daha da *artıracaq.*

Nazirliyin kitabxan*ası zəngin* fondu, *ən müasir* texnologiya *və avadanlıqla təchizatı baxımından diqqəti cəlb* edir.

*Dövlət başçısı* Maliyy*ə* Nazirliyinin son *illərdə keçdiyi inkişaf* yolundan, *geniş tətbiqini* tapan kompleks islahatlardan *və* yeni inzibati binadan *bəhs edən qısa videoçarxa baxdı.*

Sonra prezident *İlham Əliyevə büdcə təşkilatları üçün maliyyə uçotu və xəzinədarlığın* informasiya *idarəetmə* sistemləri *təqdim* olundu. Qeyd edildi ki, *nazirlikdə büdcə təşkilatları üçün maliyyə uçotu üzrə* vahid *avtomatlaşdırılmış* sistem, *dövlət büdcəsinə* daxil olan *vəsaitlərin, bütün dövlət xərclərinin, xəzinə hesablarının* bir *mərkəzdən* elektron *və* operativ *şəkildə idarə olunmasını,* faktiki *xərclərə nəzarəti təmin edən Xəzinədarlığın İdarəedilməsinin İnformasiya* Sistemi *yaradılıb.*

*Dövlət başçısına ən müasir texnologiyanın tətbiq olunduğu əyar nəzarət maşını barədə də məlumat* verildi.

*Maliyyə* Nazirliyinin *yeni inzibati binası ilə tanış* olan prezident *İlham Əliyev kollektivə uğurlar arzuladı.*

## XƏTAİ RAYONUNDAKI 56 SAYLI TAM ORTA MƏKTƏBİN BİNASININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*4 avqust 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 4-də Xətai rayonundakı 56 saylı tam orta məktəbin binasının əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısının tapşırıqlarına əsasən Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində məqsədyönlü və ardıcıl tədbirlər həyata keçirilir. Xüsusi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin əsaslı şəkildə yenidən qurulması, yeni məktəb binalarının, uşaq bağçalarının inşası uğurla həyata keçirilir. Yeni dərs ili ərəfəsində respublikanın hər yerində olduğu kimi, paytaxtda və eləcə də ətraf qəsəbələrdə orta məktəb binaları yüksək standartlara uyğun şəkildə yenidən qurulur və lazımi avadanlıqlarla təchiz edilir.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov dövlətimizin başçısına görülən işlərlə bağlı məlumat verdi. Bildirildi ki, məktəbin binası 1976-cı ildə inşa olunub. 960 şagird yerlik məktəbdə Azərbaycan və rus bölmələri fəaliyyət göstərir. Prezidentin tapşırıqlarına uyğun olaraq, yeni dərs ilinə hazırlıq məqsədilə məktəbin binası əsaslı şəkildə yenidən qurulub, lazımi ləvazimatla təchiz edilib.*

*Dövlətimizin başçısına Xətai rayonundakı məktəblərdə görülən təmir və yenidənqurma işləri barədə də məlumat verildi.*

*Prezident İlham Əliyev məktəbin sinif otaqlarına baxdı, fənn kabinetlərində yaradılan şəraitlə yaxından tanış oldu. İdman zalında və hərbi hazırlıq kabinetində də yüksək şəraitin yaradıldığı vurğulandı.*

*Xətai rayonundakı 56 saylı orta məktəbin binasının əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olan dövlətimizin başçısı məktəbin kollektivinə uğurlar arzuladı.*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA**

Hörmətli cənab Prezident!

Ad gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Biz Azərbaycan ilə Birləşmiş Ştatlar arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin hazırkı səviyyəsindən məmnunluq duyuruq. Bu gün qlobal təhdidlərə və terrorizmə qarşı mübarizədə, münaqişə ocaqlarında sülhyaratma missiyasında, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində fəal əməkdaşlığımız münasibətlərimizə strateji tərəfdaşlıq xarakteri vermişdir. Bu münasibətlərin davamlı və ardıcıl inkişafında Sizin xidmətləriniz böyükdür.

Biz həmçinin Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazilərinin işğaldan azad olunması, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında sülh yolu ilə ədalətli həlli istiqamətində ATƏT-in Minsk qrupunun həmsədri kimi, Birləşmiş Ştatların və şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyirik.

Belə əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Amerika xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 iyul 2014-cü il*

## İRAN İSLAM RESPUBLİKASININ RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRİ MAHMUD VAEZİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 avqust 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 5-də İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziri Mahmud Vaezinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə İran arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. İran İslam Respublikasına rəsmi səfərini və İran rəhbərləri ilə görüşlərini məmnunluqla xatırladan prezident İlham Əliyev bu səfərin ikitərəfli əlaqələrimizin genişləndirilməsinə yeni təkan verdiyini qeyd etdi. Ölkələrimiz arasında əməkdaşlığın siyasi, iqtisadi, mədəni və digər sahələrdə yaxşı səviyyədə olduğunu deyən dövlət başçısı Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının növbəti iclasında müzakirə olunacaq məsələlərin bu əməkdaşlığın daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi. Prezident İlham Əliyev İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziri Mahmud Vaezinin ölkəmizə səfərinin də uğurlu keçəcəyinə ümidvar olduğunu bildirdi.*

*Nazir Mahmud Vaezi İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarını dövlətimizin başçısına çatdırdı. O, prezident Həsən Ruhaninin Azərbaycanın dövlət başçısı ilə Davosda və Tehranda keçirdiyi görüşləri məmnunluqla xatırladığını dedi. Mahmud Vaezi ötən səfərləri zamanı*

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə görüşlərini böyük ehtiramla xatırlatdı. Bakıda inanılmaz inkişafın şahidi olduğunu və ötən dövr ərzində ölkəmizdə gedən sürətli inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını vurğulayan Mahmud Vaezi dedi: «Mən Azərbaycanın əldə etdiyi böyük uğurlara görə Sizə təbriklərimi çatdırıram. Mən eyni zamanda, Azərbaycan xalqını təbrik etmək istəyirəm ki, ölkəsi üçün belə böyük işlər görən müdrik və uzaqgörən rəhbəri var».*

*Görüşdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən energetika, nəqliyyat, neft daşımaları, gəmiqayırma, ticarət, bank sektoru, elm, idman və digər sahələrdə inkişaf perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İranın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ

Hörmətli cənab Sədr!

Ölkənizin cənub-qərbində baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Çin xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *4 avqust 2014-cü il*

## İNDONEZİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB COKO VİDODOYA

Hörmətli cənab Vidodo!

İndoneziya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə İndoneziya arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İndoneziya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *4 avqust 2014-cü il*

**SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB TONİ TAN KENQ YAMA**

Hörmətli cənab Prezident!

Sinqapur Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Sinqapur xalqına daim əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının
Prezidenti**

Bakı, 6 *avqust 2014-cü il*

## AĞDAM RAYONUNA SƏFƏR

*6 avqust 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 6-da Ağdam rayonuna səfərə gəlmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev əvvəlcə Ağdamdakı «N» saylı hərbi hissəyə gəldi.*

*Müdafiə naziri, general-polkovnik Zakir Həsənov prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi. Məlumat verildi ki, təmas xəttində yerləşən bu hərbi hissədə əsgərlərin və zabitlərin xidməti üçün hərtərəfli şərait yaradılıb.*

*Ali Baş Komandan İlham Əliyev komanda müşahidə məntəqəsindən düşmənin mövqelərini izlədi. Sonra prezident döyüş tapşırığını yerinə yetirərkən xüsusilə fərqlənmiş bir qrup hərbçiyə qiymətli hədiyyələr təqdim etdi.*

*Dövlət başçısı hərbçilərlə görüşdü və döyüşdə fərqlənmiş hərbi qulluqçular qarşısında çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Bu gün təmas xəttində vəziyyətlə tanış oluram. Müdafiə Nazirliyi müntəzəm olaraq operativ məlumat verir. Vəziyyət tam nəzarət altındadır. Bizim mövqelərimiz möhkəmdir, güclüdür və təmas xəttində Azərbaycan Ordusu tam üstünlüyü əldə edib.

Azərbaycan Ordusunun peşəkarlığı, döyüş qabiliyyəti artır, Azərbaycan əsgər, gizir və zabitləri Vətənə ləyaqətlə xidmət edirlər, öz Vətəninə sadiqdirlər. Bizim bütün hərbi hissələrimizdə, xüsusilə ön cəbhədə yerləşən hərbi hissələrdə

ruh yüksəkliyi var və Azərbaycan əsgərinin vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir. Biz bundan sonra da öz döyüş potensialımızı artıracağıq. Hazırda Azərbaycan Ordusunun maddi-texniki təchizatı ən yüksək səviyyədədir. Əldə etdiyimiz silah, texnika deməyə əsas verir ki, biz istənilən vəzifəni icra edə bilərik.

Son vaxtlar həm Azərbaycanda müasir silah və texnika istehsal olunur, eyni zamanda, xarici mənbələrdən aldığımız avadanlıqlar, texnika, silah-sursat ən müasir standartlara cavab verir. Hava hücumuna qarşı ən müasir qurğular əldə edilibdir. Ordumuzda ən güclü artilleriya qurğuları vardır. Böyük dəqiqliyə və çox böyük dağıdıcı qüvvəyə malik olan raket sistemləri, döyüş və nəqliyyat helikopterləri, döyüş təyyarələri, zirehli texnika, tanklar – bütün bunlar bu gün Azərbaycan Ordusunun potensialını təşkil edən amillərdir. Bu gün Azərbaycan Ordusu düşmənin istənilən obyektini məhv edə bilər. Bunu biz də bilirik, Azərbaycan xalqı da, düşmən də bilməlidir. Bu gün ancaq Azərbaycan dövlətinin siyasəti sayəsində bölgədə sabitlik hələ ki, təmin edilir. Azərbaycan sabitləşdirici ölkədir. Biz bu gün öz imkanlarımızı artıraraq, daha da güclü orduya malik oluruq və bu ordu istənilən vaxtda istənilən vəzifəni icra edə bilər.

Bu gün təmas xəttində olarkən son günlər ərzində baş vermiş hadisələri də yada salırıq. Düşmən erməni işğalçı qüvvələri 1 həftə bundan əvvəl qorxaqcasına, namərdcəsinə gecə vaxtı bizim mövqelərimizə hücum etmişlər. Biz itki vermişik, əsgərlərimiz şəhid olmuşlar. Allah bütün şəhidlərə rəhmət eləsin, onların ailələrinə, yaxınlarına səbir versin. Ancaq eyni zamanda, düşmən layiqli cavab aldı. Həmişə olduğu kimi, erməni tərəfi öz itkilərini gizlədir. Ancaq biz bilirik ki, onlarla işğalçı məhv edilmiş və bu əməliyyatlarda xüsusi rəşadət, cəsarət, peşəkarlıq göstərən əsgər, gizir və zabitlər bu gün bu masa arxasında əyləşiblər. Mən onları təltif etmişəm. Göstərdiyiniz cəsarətə görə, peşəkarlığa görə sizə Azərbaycan xalqı adından öz minnətdarlığımı bildirmək istəyirəm və

əminəm ki, bundan sonra da bütün döyüş tapşırıqlarını ləyaqətlə icra edəcəksiniz.

Bu gün düşmən panikadadır, təşvişdədir. Biz bunu bilirik. Bizim kifayət qədər imkanlarımız var ki, qarşı tərəfdə nələr baş verdiyini bilək. Biz tam şəkildə hərbi və mənəvi üstünlüyü əldə etmişik. Biz öz torpağımızdayıq. Bir həftə bundan əvvəl həlak olmuş şəhidlərimiz öz torpağında şəhid olmuşlar. Sual olunur: erməni əsgərinin – işğalçı qüvvələrin əsgərinin Ağdam ərazisində nə işi var? Bu gün Ermənistanın faşist rəhbərliyi, hərbi xunta öz ölkəsini uçuruma aparır. Onlar bizim torpaqlarımızı işğal ediblər, eyni zamanda, bütün Ermənistanı işğal ediblər. Erməni xalqı kriminal, korrupsioner rəhbərlikdən öz canını qurtarmalıdır. Əks təqdirdə Ermənistanı böyük fəlakətlər gözləyir. Əgər Ermənistan faşist dövləti öz çirkin əməllərindən əl çəkməsə, erməni dövlətinin mövcudluğu sual altına düşə bilər.

Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranıbdır. İrəvan xanlığı, Zəngəzur, Göyçə mahalı bizim tarixi torpağımızdır. Biz azərbaycanlılar o torpaqlara qayıtmalıyıq və qayıdacağıq. Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Həmişə belə olub, bu gün də belədir, sabah da belə olacaq. Sadəcə olaraq, keçən əsrin 90-cı illərinin əvvəllərində baş vermiş hadisələr nəticəsində müvəqqəti olaraq torpaqlarımız işğal altına düşmüşdür. Ancaq biz öz suverenliyimizi bərpa edəcəyik. Bütün işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada, Xankəndidə Azərbaycan bayrağı qaldırılacaqdır. Bu bizim məqsədimizdir. Bu məqsədə doğru gedirik və biz bu məqsədə çatmaq üçün daha da güclü ordu yaratmalıyıq.

Bu gün ölkəmizin iqtisadi, siyasi potensialı Ermənistandan qat-qat artıqdır, üstündür. Son illər ordu quruculuğu sahəsində görülən işlər nəticəsində biz hərbi üstünlüyü də əldə etmişik və öz potensialımızı getdikcə daha da artıracağıq. Münaqişənin həlli yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində

mümkündür. Dağlıq Qarabağ Azərbaycan ərazisidir. Tarixi, əzəli Azərbaycan torpağıdır. Beynəlxalq hüquq normaları bizim mövqemizi dəstəkləyir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycan ərazisi kimi tanıyır. Biz heç vaxt Azərbaycan torpağında ikinci qondarma «erməni dövləti»nin yaradılmasına imkan verməyəcəyik, öz ərazi bütövlüyümüzü bərpa edəcəyik: ya sülh yolu ilə, ya hərbi yolla. Biz hər 2 varianta hazırıq. Son həftə ərzində və ondan əvvəlki dövrdə təmas xəttində müşahidə olunan mənzərə onu deməyə əsas verir ki, biz istənilən varianta hazırıq. Necə ki, siyasi və iqtisadi meydanda ermənilərə qalib gəlmişik, döyüş meydanında da onlara qalib gəlməyə qadirik. Biz güclü hərbi potensiala malikik. Artıq bu, müxtəlif vaxtlarda nümayiş etdirilib. Hərbi təlimlərdə və paradlarda bizim texnikamız nümayiş etdirilir. Amma bizim ən böyük gücümüz əsgərlərimizin cəsarəti, vətənpərvərliyidir. Bu gün Azərbaycanda elə gözəl gənc nəsil yetişib ki, onların hamısı Ali Baş Komandanın əmrini gözləyir. Son hadisələr də bunu göstərir. Hətta hərb işindən kənarda olan insanlar da öz fikirlərini, istəklərini bildirirlər, könüllü olaraq cəbhə bölgəsinə getmək istəyirlər. Bu məni çox sevindirir və onu göstərir ki, Azərbaycanda vətənpərvərlik ruhu yüksəkdir. Mənəvi üstünlük bizim tərəfimizdədir. Ermənistandan isə son hadisələrdən sonra əhali kütləvi köçə başlamışdır. Onsuz da son illər ərzində Ermənistanı orta hesabla ildə 70–80 min vətəndaş həmişəlik tərk edir. Ancaq son günlər ərzində bu köç daha da güclü olubdur. Yəni onlar bizdən qorxurlar, panikadadırlar. Özləri etiraf edirlər ki, xarici yardım olmadan Ermənistanın müstəqilliyini saxlaya bilməzlər. Açıq şəkildə etiraf edirlər ki, xarici qüvvələrə güvənirlər. Biz isə öz xalqımıza, öz gücümüzə güvənirik. Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik və etməliyik. Azərbaycan xalqı öz ordusunu sevir, ona inanır, güvənir. Siz ordumuzun inkişafında böyük xidmətlər göstərmisiniz. Bizim, əlbəttə, bütün hərbi hissələrimizdə xidmət edən əsgər, gizir və zabitlər çox böyük qiymətə layiqdirlər. Ancaq sizin əməliyyatlarınızın, xüsusi təyinatlı bölmələrdə

xidmət edən əsgər və zabitlərimizin xüsusi xidməti vardır. Siz hər an öz həyatınızı riskə atırsınız, böyük qəhrəmanlıq göstərirsiniz. Mən bunu yüksək qiymətləndirirəm və istəyirəm Azərbaycan xalqı da bilsin ki, bizim necə mərd döyüşçülərimiz, qəhrəmanlarımız var.

Sizin gələcək fəaliyyətiniz uğurlu olacaqdır. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda yaşayırıq. Bura Azərbaycan torpağıdır. Buradan bir neçə kilometr məsafədə yerləşən Ağdam şəhəri də, Xankəndi də, Şuşa da, bütün digər işğal edilmiş torpaqlar da Azərbaycan torpağıdır. Ağdam şəhərini erməni quldurları, vəhşiləri yerlə yeksan ediblər. Buradan Ağdam şəhərinin qalıqları açıq-aydın görünür. İki binadan başqa, bütün binalar dağıdılıb. Biz Ağdam şəhərini bərpa edəcəyik. İşğal edilmiş, dağılmış bütün şəhərləri bərpa edəcəyik. Biz o torpaqlara qayıdacağıq, biz bu fikirlə yaşayırıq və yaşayacağıq. Münaqişə öz həllini tapanadək daim öz prinsipial mövqemizi nümayiş etdirəcəyik və təmas xəttində üstünlük daim bizdə olacaqdır.

Göstərdiyiniz qəhrəmanlığa görə sizi bir daha təbrik edirəm, sizə öz minnətdarlığımı bildirmək istəyirəm.

Mən hərbi hissələrdə tez-tez oluram. Təmas xəttində də, bu bölgədə də, digər mövqelərdə də olmuşam. Bir daha demək istəyirəm ki, mənə operativ məlumat verilir. Ancaq bu gün gəlmişəm ki, sizinlə birlikdə bu səngərlərdə olum, sizə öz sözümü deyim və Azərbaycan xalqını buradan əmin edim ki, Azərbaycan Ordusu Azərbaycan dövlətini qoruyur və öz məqsədinə çatacaq. Biz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Sizi şərəfli xidmətinizdə bir daha salamlayıram və sizə bu şərəfli işdə yeni uğurlar arzulayıram.

**M a y o r İ m a n o v**: Cənab Ali Baş Komandan, silahdaşlarım adından orduya göstərdiyiniz qayğıya görə Sizə təşəkkür edirəm. Hər an verdiyiniz hər bir əmri yerinə yetirməyə hazırıq.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**M a y o r İ m a n o v:** Sağ olun. Azərbaycan Respublikasına xidmət edirəm!

* * *

*Əsgər və zabitlər Ali Baş Komandan ilə xatirə şəkli çəkdirdilər.*

*Sonra prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev operativ müşavirə keçirdi, dövlət başçısına cəbhə xəttində ümumi vəziyyətlə bağlı məruzə edildi.*

*Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

## 632 MƏCBURİ KÖÇKÜN AİLƏSİ ÜÇÜN SALINAN YENİ QƏSƏBƏNİN AÇILIŞI MƏRASİMİNDƏ AĞDAM RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*6 avqust 2014-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 6-da Ağdam rayonunda 632 məcburi köçkün ailəsi üçün salınan yeni qəsəbənin açılışında iştirak etmişdir.*

*Azərbaycanın sürətli sosial-iqtisadi inkişafının əsas xarakterik xüsusiyyətlərindən biri də ölkədə həyata keçirilən siyasətin müsbət nəticələrinin hər bir vətəndaşın həyatında öz əksini tapması, insanların rifah halının yaxşılaşmasıdır. Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamlarına əsasən, Ermənistanın hərbi təcavüzü nəticəsində doğma torpaqlarından didərgin düşən vətəndaşlarımızın həyat şəraitinin yaxşılaşdırılması və bu sahədə təsirli tədbirlərin görülməsi diqqət mərkəzində saxlanılır. Bu da təbii ki, Azərbaycanda sosial sahədə vəziyyətin daha da yaxşılaşmasını xarakterizə edən mühüm parametrlərdən biridir. 2003-cü ildə prezident seçkiləri ərəfəsində bir dənə də olsun çadır düşərgəsinin qalmayacağını bildirən prezident İlham Əliyev verdiyi vədə əməl edib. 2007-ci ilin dekabrında ölkədəki sonuncu çadır düşərgəsi tarixə qovuşub. Ötən müddətdə çadır düşərgələri ləğv edilərək, məcburi köçkünlər üçün bütün infrastruktura malik yeni qəsəbələr salınıb. Onlardan biri də Ağdam rayonunda məcburi köçkün ailələri üçün salınan yeni qəsəbədir.*

*Son illərdə məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə Prezident tərəfindən onlarla fərman və sərəncam imzalanıb, müxtəlif qanunlar təsdiqlənib. Dövlət başçısının 2004-cü ildə imzaladığı sərəncamla məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı qəbul olunub. 2003–*

2013-cü illərdə 80-dək qəsəbə, çoxmərtəbəli binalardan ibarət məhəllələr salınıb, 25 minə yaxın məcburi köçkün ailəsi mənzillə təmin olunub. Həmin illər ərzində hərtərəfli infrastruktura malik onlarla məktəb binası, uşaq bağçası, tibb müəssisəsi və Rabitə evi tikilib. 2014-cü ilin avqust ayına olan məlumata əsasən, bu qəbildən olan insanlar üçün indiyədək 42 min mənzildən ibarət 83 müasir qəsəbə salınıb. Beləliklə də 42 min ailənin və ya 190 min qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb. 2014-cü ildə 21 min nəfər üçün daha 7 qəsəbənin salınması nəzərdə tutulur. Qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli məqsədilə son 20 ildə ümumilikdə 5,1 milyard manat vəsait ayrılıb ki, bunun da 2,1 milyard manatı onların mənzil şəraitinin yaxşılaşdırılmasına sərf olunub. Həmin vəsaitin 1,8 milyard manatı Dövlət Neft Fondunun xətti ilə ayrılıb.

Prezident İlham Əliyevə yeni salınmış qəsəbə barədə məlumat verildi. Bildirildi ki, qəsəbə Ağdam rayonundan olan 632 məcburi köçkün ailəsi üçün nəzərdə tutulub. Bu, qaçqın və məcburi köçkünlər üçün salınmış 83-cü yaşayış kompleksidir. 70 hektar sahəni əhatə edən qəsəbədə 632 mənzillə yanaşı, 440 yerlik məktəb, 50 yerlik uşaq bağçası, inzibati bina, tibb məntəqəsi, Klub-icma Mərkəzi, poçt binası da inşa olunub. Qəsəbənin elektrik enerjisi, içməli su və qaz təchizatı ilə bağlı hərtərəfli iş aparılıb. Buraya Ağdam rayonunun «Dörd yol» adlanan ərazisində ağır şəraitdə yaşayan 3100 ağdamlı məcburi köçkün köçürüləcək.

Azərbaycan Prezidenti qəsəbədəki mənzillərdən birində yaradılmış şəraitlə tanış oldu, uşaq bağçasında oldu, burada yaradılan şəraitlə maraqlandı və yeni qəsəbədə çövkən oyununu izlədi.

Dövlət başçısı qəsəbədəki 135 saylı tam orta məktəbdə də oldu. Məktəbdə şagirdlərin ən yüksək səviyyədə təhsil almaları üçün hərtərəfli şərait var. Sinif otaqları bütün zəruri inventar və əyani vəsaitlərlə təmin edilib.

*Məcburi köçkün ailələri üçün salınan yeni qəsəbə ilə tanışlıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz dostlar, mən sizi ürəkdən salamlayıram. Bu gün çox gözəl bir gündür. Ağdam rayonunda yeni qəsəbə istifadəyə verilir. Çox gözəl qəsəbədir. Burada ağdamlılar yaşayacaqlar. Bütün şərait yaradılıb – 632 ev, məktəb, uşaq bağçası, tibb məntəqəsi, yollar – lazımi infrastruktur yaradılıbdır ki, insanlar burada rahat yaşasınlar.

Burada vətəndaşlar indiyədək çox ağır şəraitdə yaşayıblar. Yeraltı qazmalarda, qamış evlərdə uzun illər əziyyət çəkiblər. İndi onların həyatında yeni dövr başlayır, burada rahat yaşayacaqlar. Əlbəttə, hər bir məcburi köçkün bir arzu ilə yaşayır ki, öz doğma kəndinə, şəhərinə qayıtsın. Əminəm ki, o gün də gələcək və o günü yaxınlaşdırmaq üçün biz əlimizdən gələni edirik.

Məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üçün də dövlət əməli-praktiki addımlar atır. Dövlət Proqramı qəbul olunmuşdur, sonra proqrama əlavələr edilmişdir və son illər ərzində 80-dən çox qəsəbə tikilmişdir. Bütün qəsəbələrdə ən yüksək standartlar tətbiq olunur, ən yaxşı şərait yaradılır, vətəndaşlar müasir evlərdə, hündürmərtəbəli binalardakı mənzillərdə yaşayırlar və Azərbaycan dövləti bundan sonra da məcburi köçkünlərin problemlərinin həlli üçün addımlar atacaqdır.

Hazırda məcburi köçkünlərdən 190 mini yeni evlərə, mənzillərə köçürülüb. Ağdam rayonunda isə bu qəsəbə sayca 18-cidir. Yeni tikilmiş 17 qəsəbədə artıq vətəndaşlar yaşayır. Ağdam rayonunun əhalisi indi 190 min nəfərdir. Onlardan 90 mini Ağdam rayonunda məskunlaşmışdır. Bu çox sevindirici haldır. Çünki vaxtilə bu qəsəbələrin yaradılması o məqsədi

güdürdü ki, sakinlər öz kəndlərində yaşaya bilməsələr də, Ağdam rayonunun ərazisində yaşasalar, doğma kəndlərinə daha yaxın olarlar.

Azərbaycan dövləti məcburi köçkünlərin problemləri ilə mütəmadi qaydada məşğuldur və bu məsələlərin həlli üçün böyük vəsait ayrılır. Qaçqınlara, köçkünlərə ayrılan vəsait artır. Hər il ancaq tikinti işlərinə 300 milyon manat vəsait ayrılır ki, bu vəsaitdən istifadə edilərək, qəsəbələr salınır və son illərdə hər il ən azı 20 min köçkün yeni evlərə köçürülür, onların şəraiti yaxşılaşır. Yəni bir sözlə, biz hər il, demək olar ki, bir kiçik şəhər yaradırıq və bunu davam etdirəcəyik. Əminəm ki, növbəti illərdə bu proses daha da sürətlə gedəcək. Çünki ölkəmizin maliyyə vəziyyəti yaxşıdır, yaxşılaşır və ən ağır vəziyyətdə yaşayanlar üçün biz ilk növbədə, bu addımları atmalıyıq.

Köçkünlər arasındakı yoxsulluq da aşağı düşür, məşğulluq artır, iş yerləri açılır. Yəni bu işlər ardıcıllıqla davam etdiriləcək və bu il hələ bir neçə qəsəbənin açılışı gözlənilir. Gələn il də bu proses davam etdiriləcək.

Bütövlükdə, Ağdam rayonunun inkişafı ilə bağlı son illərdə böyük işlər görülmüşdür. Sosial obyektlər, məktəblər tikilir. Hər bir qəsəbədə gözəl məktəb tikilib. Bu məktəb də çox gözəl, böyük məktəbdir. Eyni zamanda, kəndlərdə olan məktəblər təmir olunur, olimpiya kompleksi, rayon xəstəxanası, doğum evi, uşaq xəstəxanası tikilibdir. İnfrastruktur layihələri icra edilir.

Ağdamda, demək olar ki, qazlaşdırılma 100 faizə yaxındır. Əvvəlki dövrdə, ümumiyyətlə, qaz yox idi. İndi mənə məlumat verildi ki, cəmi 1 kəndə qaz verilmir və oraya da veriləcək. Beləliklə, 100 faiz qazlaşdırılma təmin ediləcək. Elektrik enerjisi ilə təchizat yaxşıdır. İçməli su məsələləri həll olunur, artezian quyularının qazılması prosesi davam etdirilir. Kənd yolları abadlaşır, tikilir. Prezidentin ehtiyat fondundan ayrılan vəsait hesabına bir neçə kəndi birləşdirən yol çəkilmişdir. Bilirəm ki, yol çəkilişinə yenə də ehtiyac var. Ona görə də əlavə tədbirlər görüləcək, yeni sərəncam imzalanacaq ki, biz qalan

yolları da abadlaşdıraq. Bir sözlə, rayonun inkişafı üçün əlimizdən gələni edirik, edəcəyik. Ağdam rayonunun çox böyük potensialı vardır. Bu gün də bu potensial ölkəmiz üçün lazımdır.

Ağdamlılar müharibə zamanı böyük itkilər vermişlər. Ən çox şəhidi olan rayon Ağdam rayonudur. Ağdamlılar böyük qəhrəmanlıq göstərmişlər. Ağdamdan olan milli qəhrəmanlarımız xalqımız üçün qürur mənbəyidir və bu gün Azərbaycan Ordusu öz mövqelərini möhkəm qoruyur.

Mən bu gün səhər düşmənlə təmas xəttində idim. Orada vəziyyətlə tanış oldum. Mənə müntəzəm olaraq məlumat verilir. Ancaq təmas xəttində olarkən vəziyyətlə əyani şəkildə tanış oluram, müvafiq göstərişlər verilir. Son günlər ərzində erməni işğalçı qüvvələrinin hücumları nəticəsində bizim ordumuz itkilər vermiş, bir neçə hərbçi şəhid olmuşdur. Allah onlara rəhmət eləsin! Onların qanı yerdə qalmayıb. Azərbaycan Ordusu düşmənə çox böyük zərbə vurmuşdur. Bizdə olan məlumata görə, onlarla işğalçı məhv edilmişdir. Ermənilər həmişə olduğu kimi, öz itkilərini gizlədirlər. Ancaq həqiqət ondan ibarətdir ki, bu hadisələrdə yenə də Azərbaycan Ordusu üstün olmuşdur və bu hadisələrdə biz qələbə qazanmışıq. Bu həmişə belə olacaq.

Azərbaycan Ordusu güclü ordudur. Bu gün Azərbaycan vətəndaşlarının, xüsusilə cəbhəyanı bölgələrdə yaşayan vətəndaşların təhlükəsizliyi tam şəkildə təmin edilir və əlbəttə ki, bizim ordumuz istənilən vəzifəni icra etməyə qadirdir. Bu gün hərbçilərlə müşavirə keçirilib. Müvafiq tapşırıqlar verilmişdir ki, tezliklə Azərbaycan öz ərazi bütövlüyünü bərpa etsin.

Bizim ərazi bütövlüyümüz bərpa olunacaq. Bunu deməyə əsas verən bir neçə amil var. Bütün bunlar ictimaiyyət üçün də bəllidir. Azərbaycan güclənir, möhkəmlənir. Dağlıq Qarabağ, işğal edilmiş torpaqlar bizim əzəli torpağımızdır. Əsrlərboyu xalqımız bu torpaqlarda yaşayıb, yaradıb və yaşayacaqdır. Beynəlxalq hüquq nöqteyi-nəzərindən Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və heç

vaxt qondarma «Dağlıq Qarabağ» müstəqil qurum kimi tanınmayacaq. Azərbaycan dövləti heç vaxt imkan verməyəcək ki, öz ərazisində ikinci qondarma erməni dövləti yaransın. Birinci erməni dövləti Azərbaycanın tarixi torpaqlarında yaradılıbdır. O vaxt – 1918-ci ildə Azərbaycan hakimiyyəti böyük güzəşt etmişdir. Ancaq düşmən bunun qədrini bilməmişdir və bizə qarşı ərazi iddiaları davam etmişdir.

Əfsuslar olsun ki, keçən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda yaşanan xaos, böhran, anarxiya bu vəziyyətə gətirib çıxarıb. Torpaqlarımızın bir hissəsi işğal altına düşmüşdür. Ancaq eyni zamanda, Füzuli rayonu istiqamətində bir neçə kəndi geri qaytara bilmişik və indi orada həyat canlanır, quruculuq-abadlıq işləri aparılır. Yəni biz işğal altında olan torpaqlara qayıdandan sonra bütün şəhərlərimizi, kəndlərimizi bərpa edəcəyik.

Bu gün Azərbaycanda hər bir rayonda böyük quruculuq işləri aparılır. Gələcək perspektivlərimiz də çox müsbətdir. Biz ancaq inkişaf yolu ilə gedəcəyik. Baxmayaraq ki, dünyanın müxtəlif yerlərində indi böhran yaşanır – iqtisadi, hərbi və siyasi böhran. Azərbaycan sabitlik məkanıdır, sabitlik adasıdır. Biz Ağdam şəhərini bərpa edəcəyik. İndi şəhər erməni vəhşiləri tərəfindən tamamilə dağıdılıb və yerlə yeksan edilib. Bizim tarixi abidələrimiz, məscidlərimiz, əcdadlarımızın qəbirləri erməni faşistləri tərəfindən dağıdılıbdır. Biz Ağdamı da, bütün başqa rayonları da bərpa edəcəyik. Biz o torpaqlara qayıdacağıq. Azərbaycan xalqı – həm yaşlı nəsil, həm də gənclər bu arzularla yaşayır. Son hadisələr bir də onu göstərdi ki, cəmiyyətdə vətənpərvərlik ruhu çox yüksəkdir. Yüzlərlə müraciətlər olunur, cəbhə bölgəsinə Azərbaycanın digər bölgələrindən gənclər təşrif buyurur, öz arzularını ifadə edirlər. Onlar könüllülər kimi, ərazi bütövlüyümüzün bərpasında iştirak etmək istəyirlər. Hesab edirəm ki, hələ buna ehtiyac yoxdur. Azərbaycan Ordusu bu bölgədə ən güclü ordudur. Həm döyüş qabiliyyəti, həm də peşəkarlıq, hərbi-texniki təchizat ən yüksək səviyyədədir. Sadəcə olaraq, hələ ki, danışıqlar prosesi davam edir. Müəyyən

ümidlər var. Baxmayaraq ki, ağdamlılar da bütün ölkə vətəndaşları kimi, vasitəçilərin fəaliyyətindən narazıdırlar. Biz də narazıyıq. Çünki vasitəçilərin əsas missiyası münaqişənin həllidir. Vasitəçilərin missiyası məsələnin dondurulması və yaxud da etimad tədbirlərinin gücləndirilməsi deyil. Onların içində ən böyük etimad tədbiri işğalçı qüvvələrin torpaqlarımızdan çıxması ola bilər. Hər halda, bu gün Azərbaycan Ordusu öz gücünü göstərərək, danışıqlar prosesinə də müsbət təsir edir. Çünki düşmən açıq-aydın görür ki, bizim qabağımızda dura bilməyəcək. Əgər Azərbaycan Ordusu hərəkətə keçərsə, düşmənin vəziyyəti çox ağır ola bilər. Bunu biz də bilirik, düşmən də, vasitəçilər də bilir. Ona görə hesab edirəm ki, son günlər ərzində yaşanan hadisələr beynəlxalq vasitəçiləri də hərəkətə gətirəcək. İşğalçı dövlətə açıq-aydın siqnal verilməlidir ki, artıq bu işğala son qoyulsun.

Müxtəlif bölgələrdə, postsovet məkanında bildiyiniz kimi, buna oxşar münaqişələr var. Ancaq bu münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var. BMT Təhlükəsizlik Şurasından ali qurum yoxdur. Bu ən yüksək, mötəbər dünya qurumudur. Bu qurum erməni silahlı qüvvələrinin torpaqlarımızdan qeyd-şərtsiz çıxarılması ilə bağlı 4 qətnamə qəbul etmişdir. Onların heç biri icra edilmir. Onlar icra edilməlidir. İşğalçı qüvvələr bizim torpaqlarımızdan çıxmalıdır. Ondan sonra sülh bərpa oluna bilər.

Hazırda biz sülh şəraitində yaşamırıq, doğrudur, atəşkəs şəraitidir, ancaq müharibə vəziyyətində yaşayırıq. Bunu hamı bilməlidir. Müharibə bitməyib. Müharibənin birinci mərhələsi başa çatıb. Ancaq ikinci mərhələ də başlana bilər. Heç kim bunu istisna edə bilməz. Biz müharibə istəmirik, biz sülh istəyirik. Eyni zamanda, biz torpaqlarımızı istəyirik. Ermənistan, əlbəttə, indiki vəziyyəti, status-kvonu saxlamaq istəyir. Vasitəçilərin də əsas istəyi və fəaliyyətinin əsas mahiyyəti ondan ibarətdir ki, müharibə başlamasın. Biz də müharibə istəmirik. Kim istəyər ki?! Ancaq biz onlardan fərqli olaraq torpağımızı istəyirik. Dədə-baba torpağımızı geri istəyirik. Biz bu istəkdə haqlıyıq.

Haqq, ədalət, həm də beynəlxalq hüquq bizim mövqemizi dəstəkləyir. Ona görə nə sülh, nə hərb vəziyyəti davam edə bilməz. Bunu hamı – Azərbaycan vətəndaşları da, düşmən də bilməlidir. Ümid edirəm, son günlər düşmənə vurulan zərbələr onlar üçün də bir siqnal olacaq ki, bu dözülməz vəziyyət davam edə bilməz.

Biz bundan sonra da ölkəmizi inkişaf etdirəcəyik. Bütün istiqamətlər üzrə konkret proqramlar, planlar var və icra edilir. Azərbaycan bu gün dünya miqyasında iqtisadi inkişaf templərinə görə lider dövlətdir. Regionlarda vəziyyət günü-gündən yaxşılaşır. Bütün bölgələrin, xüsusilə də cəbhəyanı bölgələrin inkişafı diqqət mərkəzindədir. Bugünkü açılış da bunun bariz nümunəsidir.

Mən bir daha sizi ürəkdən salamlayıram və burada yaşayacaq köçkünləri təbrik etmək istəyirəm ki, onlar müvəqqəti də olsa – çünki bu, müvəqqəti yaşayış yeridir – rahat, gözəl şəraitdə yaşayacaqlar.

**B a x ş e y i ş  H ə t ə m l i** *(«Azərbaycan Bayrağı» ordenli Qarabağ müharibəsi əlili)***:** Möhtərəm Prezident, cənab Ali Baş Komandan!

Sizi bütün ağdamlılar adından, Ağdam rayonundan olan Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri adından salamlayıram. Ağdama, qəlbinizdə daim döyündüyü Qarabağ torpağına xoş gəlmisiniz!

Sizin Ağdam rayonuna bütün səfərləriniz ağdamlıların həyatında, xatirələrində silinməz izlər qoyur. Budəfəki səfəriniz də bütün ağdamlıların yaddaşında bir tarixə çevriləcək. Sizin Ağdam rayonuna ardıcıl səfərləriniz bütün ağdamlılar tərəfindən onlara böyük himayədarlığınızın, diqqət və qayğınızın bariz təcəssümü kimi dəyərləndirilir. Bu gün Sizin sərəncamınızla tikilən və açılışında iştirak etdiyiniz bu gözəl, füsunkar qəsəbə yüzlərlə ağdamlı ailəsinə çox böyük bir hədiyyədir. Belə bir şərait yaratdığınıza, tarix baxımından qısa zaman kəsiyində Azərbaycanın çiçəklənməsinə, qüdrətlənməsinə, şöhrətlənməsinə nail olduğunuza, müstə-

qilliyimizin daimiliyini, əbədiliyini təmin etdiyinizə görə, cənab Prezident, Sizə bütün ağdamlı məcburi köçkünlər adından minnətdarlığımızı bildiririk.

Cənab Prezident, tale elə gətirib ki, əməlləri ilə bəşəriyyətə utanc gətirən bir millətlə – erməni ilə qonşu yaşamağa məhkum edilmişik. Tarixin müxtəlif mərhələlərində bu millətin təhriki ilə müharibəyə biz də qoşulmuşuq. 20 ildən artıqdır ki, Azərbaycan xalqı yenə ermənilər tərəfindən başlanmış Qarabağ müharibəsinin ağrı və acılarını yaşayır. Məlumdur ki, bu müharibənin ilk günlərindən ağdamlılar düşmənə qarşı mübarizədə çox böyük vətənpərvərliklə iştirak ediblər. Demək olar ki, əli silah tutan bütün ağdamlılar torpağımızın müdafiəsinə qalxmış və düşmənlə aparılan hərbi əməliyyatlarda 5 min nəfərə qədər ağdamlı vətən oğlu şəhid olmuş, Tanrı ucalığına qovuşmuşdur. Onlardan 16 nəfəri Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülmüşdür. Onların tarixi qəhrəmanlığı bütün Azərbaycan xalqının qəlbində yaşayır və bu, düşmən üçün bir ibrət dərsidir.

Cənab Prezident, bu gün ölkəmizdə çoxlu sayda Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri yaşayır. Bu kateqoriyadan olan insanlar Sizin böyük diqqətiniz və qayğınızla əhatə olunublar. Onların bütün hüquqları, qanuni mənafeləri dövlətimiz tərəfindən qorunur. Eyni zamanda, maddi vəziyyətlərinin, həyat şəraitlərinin yaxşılaşması üçün Sizin verdiyiniz ardıcıl fərman və sərəncamları alqışlayırıq. Odur ki, bütün veteranlarımız, əlillərimiz, şəhid ailələrimiz adından Sizə öz minnətdarlığımızı bildiririk. Yer üzündə elə bir ölkə yoxdur ki, orada veteranlara, əlil, şəhid ailələrinə bizim ölkədəki qədər diqqət və qayğı olsun.

Cənab Prezident, dədə-babadan qanlarında olan nankorluqdan əl çəkməyən ermənilər bu günlərdə təmas xəttində, Ağdam–Ağdərə istiqamətində kəşfiyyat-təxribat əməliyyatları həyata keçirib və qürur duyduğumuz ordu tərəfindən layiqli cavablarını alıblar. Döyüşlərdə biz də 12 şəhid vermişik. Amma qoy düşmən eşitsin və dərk etsin ki, Azərbaycan xalqı şəhid

verməkdən qorxmur. Bu itkilər bizi sarsıtmır, əksinə, daha da qürurlandırır. Bizim düşmənə qarşı nifrətimizi, qəzəbimizi daha da artırır, savaşda yumruq kimi birləşməyə çağırır. Qoy düşmənlər bilsin ki, Azərbaycan xalqı torpaq yolunda, vətən yolunda şəhid verməyi bacaran xalqdır. Ermənilər dərk etsin ki, bizim hiss və duyğumuz hansısa siyasi-hərbi havadardan gəlmir, babalarımızdan, onların qeyrətindən, qanından qidalanır.

Cənab Prezident, Qarabağ savaşında, söz yox ki, qələbə haqqın tərəfindədir. Bu gün haqq bizimlədir və Qarabağ savaşında bizi qələbəyə aparacaq bir yolumuz var. Bu, Prezidentimizin yoludur – İlham Əliyev yoludur. Bu gün öz sözünü deyə biləcək Azərbaycan Ordusu var. Bütün Azərbaycan xalqı, bütün tərəqqipərvər bəşəriyyət bilir ki, Siz bəşəri duyğulara malik bir insan, humanist bir ölkə başçısı kimi, münaqişənin qan tökülmədən başa çatması üçün israrla mübarizə aparırsınız. Sizi əmin edir, eyni zamanda, düşmənlərimizə çatdırırıq ki, 100 min nəfərə qədər azərbaycanlı müharibə veteranı Sizin əmrinizlə müqəddəs Qarabağ savaşına hazırdır.

**Məryəm Cəfərova** (*şəhid anası*)**:** Cənab Prezident! Bizim Ağdam rayonuna xoş gəlmisiniz! Sizi bir daha ürəkdən təbrik edirəm. Siz Ağdam rayonuna böyük qayğı göstərirsiniz, bu qədər binalar tikdirmisiniz. Sizin sayənizdə gözəl zalda oturmuşuq. Allah Sizin işinizi avand eləsin. Mən də bir ağdamlı, 10 oğul və 2 qız böyütmüş, 20 gündə 2 şəhid vermiş ana kimi, Sizi səmimi-qəlbdən salamlayıram. Gələn ayaqlarınız var olsun.

Mənim uşaqlarımın biri Ağdamın Şelli-Maqsudlu kəndində, biri Füzulidə şəhid olub. 18 adamı xilas etdi, özü şəhid oldu. Müharibə qurbansız olmaz. Qalan 8 oğlumu da döyüşə göndərməyə hazıram. Bizə göstərilən qayğı, salınan qəsəbələr hamısı Sizin sayənizdədir. Allah Sizi var eləsin!

1993-cü ildə ermənilər deyirdi: Allah sizi istəyib ki, Heydər babanız köməyə gəlib. Allah ona qəni-qəni rəhmət eləsin. Bütün dünya xalqları Heydər Əliyevin siyasətinə həsəd aparırdı. Siz

onun davamçısısınız. Bu bəladan bizi Siz qurtaracaqsınız. Allah köməyinizdə dursun, işinizi avand eləsin. Ermənilərin bizi təzədən yaralamasına, qanımızı axıtmasına baxmayaraq, qanımızı da coşdurub. Oğul anadan olanda deyirlər «düşmən toxmağıdır». Oğul ölər də, öldürər də. Oğul yaranıb ki, düşmənin qənşərində dayansın.

Allah Sizin də işinizi avand eləsin. Bizə bu qədər qayğı göstərirsiniz. Nə etməmisiniz?! Torpağı əkirik, pulumuzu verirsiniz, şəhid ailələrinə, veteranlara qayğı göstərirsiniz, ev tikirsiniz. Bundan gözəl nə olar?! Siz xalqınıza, eləcə də ağdamlılara tam arxayın ola, güvənə bilərsiniz. Biz də Sizə güvənirik. Bu bəladan bizi Siz qurtaracaqsınız. Allah Sizi var eləsin. Ermənilər qoy eşidib bilsinlər ki, biz dəmir deyilik əyilək, poladıq, hər saat qırılmarıq. Bizi əyən olmaz. Sizin kimi Prezidenti olan ölkə heç vaxt əyilməz, həmişə dəyanətli olacaq. Allah Sizi var eləsin!

O Avropadı, nədi, bilmirəm, savadsız adamam. Amma Sizin oradakı çıxışınız bütün Azərbaycan xalqını, eləcə də ağdamlıları fərəhləndirib. Yaman dediniz, onların iç üzünü, ikiüzlülüyünü açdınız. Görün bu dünya nə yaman etibarsızdır. Biz bunlara nə etmişik?! Əməlli-başlı dolanırdıq. Təzədən gəldilər. İki şəhid vermiş anayam, yenə də əyilməmişəm. Bilsinlər, qulaqlarını açıb eşitsinlər ki, heç vaxt da əyilmərik. Bütün şəhid analarına üzümü tutub deyirəm ki, həmişə qürurlu olun, heç vaxt əyilməyin.

Bir daha buraya xoş gəlmisiniz!

**İ l h a m  Ə l i y e v:** Sağ olun! Səmimi sözlərə görə sizə minnətdaram. Mən beşinci dəfədir ki, Ağdama səfər edirəm. Hər dəfə burada olarkən, ağdamlılarla görüşərkən görürəm ki, onlarda nə qədər böyük ruh yüksəkliyi, vətənpərvərlik hissləri vardır. Sizin də qeyd etdiyiniz kimi, müharibə zamanı ən çox şəhid verən Ağdam rayonu olmuşdur. 5 minə yaxın şəhid olub. Ağdamlılar öz doğma torpağını qəhrəmancasına müdafiə etmişlər.

Əfsuslar olsun ki, keçən əsrin 90-cı illərinin əvvəllərində Heydər Əliyev Azərbaycanda yox idi. Deyə bilərəm ki, onun, ümumiyyətlə, siyasi səhnədən getməsi ilə bağlı böyük planlar qurulmuşdu. Əfsuslar olsun ki, bu planların içində Azərbaycandan olan bəzi insanlar da olmuşlar. O vaxt Heydər Əliyev politbüroda işləyərkən Azərbaycandan təşkil olunmuş anonim məktublar göndərilirdi. Bir Azərbaycandan göndərilirdi, bir də Ermənistandan. Çünki ermənilər bilirdilər ki, nə qədər Heydər Əliyev hakimiyyətdədir, onlar öz məkrli niyyətlərinə çata bilməyəcəklər.

Buradakı bəzi milli xainlər isə – əfsuslar olsun ki, bizim cəmiyyətimizdə xarici dairələrin sifarişini yerinə yetirənlər hələ də vardır – anonim məktublar yazmaqla əslində bir məqsəd güdürdülər ki, Heydər Əliyev siyasi səhnədən çəkilsin. 1987-ci ilin sonunda istefaya göndərilmişdi. Ondan 2 həftə keçməmiş, ermənilər Qarabağ iddiasını qaldırmışdılar. Yəni bütün bunlar plan üzrə gedirdi. Ondan sonra Azərbaycanda hakimiyyət başına gətirilən insanlar o planın tərkib hissəsi idi. Çünki o vaxt sovet rəhbərliyi yaxşı bilirdi ki, o insanlar Azərbaycanı idarə edə bilməyəcəklər. Faktiki olaraq ölkə artıq yavaş-yavaş tənəzzülə uğramağa başlamışdı. Əgər müharibə başlanan zaman Heydər Əliyev burada – Azərbaycanda, yaxud sovet rəhbərliyində olsaydı, heç vaxt müharibə başlamazdı. Başlasaydı da, dərhal ermənilərin cavabı veriləcəkdi və bizim torpağımız heç vaxt işğal altına düşməyəcəkdi.

Yəni bizim böyük faciəmiz o illərdə Heydər Əliyevin, demək olar, təcrid edilmiş vəziyyətdə olması idi. Ancaq buna baxmayaraq, Heydər Əliyev siyasi hakimiyyətə qayıdandan sonra vəziyyət tamamilə başqa istiqamətdə getdi. Azərbaycanın inkişaf yolu başlandı. Bu gün Azərbaycan Ermənistanla müqayisədə istənilən parametr üzrə ən azı 10 dəfə güclüdür. Bu gücü biz özümüz – Azərbaycan xalqı, onun zəhməti, istedadı, fədakarlığı nəticəsində yaratmışıq. Heç kim bizə kömək etməmişdir. Ermənilərdən fərqli olaraq, biz öz hesabımıza yaşayırıq və heç kimə möhtac deyilik. Heç kimdən

yardım gözləmirik, heç kimə yalvarmırıq. Ancaq ermənilər, onların rəhbərliyi, xarici qüvvələrə güvəndiyini açıq-aydın etiraf edir, onlardan kömək istəyirlər. Son hadisələr zamanı da bu özünü əyani şəkildə büruzə vermişdir.

Beynəlxalq qurumlara gəldikdə, siz də onu yaxşı təhlil etdiniz. Düzdür, dediniz ki, savadınız yoxdur. Amma sizin çox gözəl siyasi təhlil imkanlarınız vardır. Yəni bu reallıqdır. Azərbaycan xalqı bilir ki, bu münaqişə ilə bağlı ədalətsizlik əvvəldən axıra qədər görünür. İndi işğalçı dövlət də bəllidir, işğala məruz qalan dövlət də. Beynəlxalq təşkilatların qərar və qətnamələri icra edilmir. İşğalçıya heç kim demir ki, işğal edilmiş torpaqlardan çəkil. Əksinə, onların havadarları müxtəlif ölkələrdə çalışırlar ki, beynəlxalq ictimaiyyətə bu məsələni tam başqa şəkildə təqdim etsinlər.

Sanki Azərbaycan təcavüzkardır, ermənilər qurban. Burada müxtəlif amillər, əlbəttə ki, öz rolunu oynayır. Bu barədə danışmaq istəmirəm. Hesab edirəm ki, Azərbaycan vətəndaşları bütün bunları bilirlər. Ancaq bu onu göstərir ki, biz ancaq özümüzə güvənə bilərik və güvənirik. Azərbaycanda yaradılan bütün şərait ancaq Azərbaycan xalqının zəhməti, düşünülmüş siyasət hesabına mümkün olmuşdur. Gələcəkdə də biz ancaq özümüzə güvənməliyik. Mən xalqa güvənirəm, necə ki, xalq mənə güvənir. Əgər mən bu dəstəyi hiss etməsəydim, Azərbaycanda bu qədər işləri biz görə bilməzdik. Xalq–iqtidar birliyi bu gün reallıqdır. Mən çalışıram ki, öz fəaliyyətimdə ancaq xalqa xidmət edim. Mənim başqa amalım, məqsədim yoxdur. Bu fikirlərlə mən 11 il bundan əvvəl hakimiyyətə gəlmişəm, bu gün də bu fikirlərlə yaşayıram və ömrümün axırına qədər də bu fikirlərlə yaşayacağam.

Hazırda bizim qarşımızda duran əsas problem Qarabağ problemidir. Bundan vacib problem yoxdur. Biz bütün səyləri bu istiqamətə yönəltmişik. Bizim addımlarımızın təməlində, məqsədlərimizin mərkəzində bu məsələdir. O cümlədən Azərbaycanın inkişafı, qüdrətlənməsi, beynəlxalq mövqelərimizin möhkəmləndirilməsi məsələnin həllini yaxınlaşdırır.

Bu gün erməni tərəfi hələ də hesab edir ki, bu məsələni uzada bilər, amma yaxın zamanlarda başa düşəcəkdir ki, bu məsələ uzana bilməz.

Düzdür, məsələ 20 ildir ki, uzanır. Nəyə görə? Çünki beynəlxalq ictimaiyyət bu məsələ ilə məşğul olmur. Vasitəçilər sadəcə olaraq, nə hərb, nə sülh vəziyyətini saxlamaq istəyirlər. Bizə deyirlər ki, müharibə etməyin, sülh yolu ilə həll edin. Çağırışlar edilir. Böyük dövlətlərin başçıları açıq bəyanatlar verirlər ki, müharibə olmasın. Yaxşı, biz də istəmirik müharibə olsun. Amma gəlin bunu həll edin. Bu sizin imkanınızdadır. Ermənistan asılı bir dövlətdir. Ermənistan öz hesabına yaşaya bilməz. Bu asılı dövlətə deyilə bilər ki, çəkil bu torpaqlardan. Bu, nahaq işdir. Sən beynəlxalq hüququ, ədaləti pozursan. Amma deyilmir. Deyilir ki, gedin razılaşın. Amma necə razılaşaq ki, onlar torpaqlardan çıxmaq istəmirlər. Ona görə 2 yol qalır: ya hərb yolu, ya da danışıqlar yolu. Danışıqlar yolu nəticə vermir. Hələ ki, müəyyən ümidlər var və yaxın vaxtlarda bəzi görüşlər nəzərdə tutulur. Baxarıq, görərik vəziyyət necədir. Ancaq ermənilər bilməlidirlər ki, bu məsələ belə davam edə bilməz. Azərbaycan xalqının səbri artıq tükənir. Bizim imkanımız, bizim güclü ordumuz vardır. Cəmiyyətdə çox gözəl ab-hava, vətənpərvərlik ruhu vardır. Mən deyirəm, yüzlərlə gənc indi cəbhə bölgəsində əməliyyatlarda könüllü kimi gedib iştirak etmək istəyir. Ehtiyac yoxdur. Ordumuz vardır. Ordumuz öz vəzifə borcunu layiqincə yerinə yetirir. Amma bu, cəmiyyətin duyğularını, vəziyyətini göstərir.

Bu gün Azərbaycan vətəndaşları fəxr edirlər ki, Azərbaycan dövlətində yaşayırlar. Bu dövlətin vətəndaşlarıdırlar. Çünki Azərbaycan müstəqil siyasət aparır. Bu siyasətin mərkəzində Azərbaycan xalqının maraqları dayanır. Xalqın maraqları hər şeydən üstündür. Biz bu siyasəti bütün istiqamətlər üzrə davam etdirəcəyik.

O cümlədən müharibə veteranlarının sosial vəziyyətinin yaxşılaşdırılması üçün əməli-praktiki işlər görülür. Şəhid ailələrinə, müharibə əlillərinə dövlət tərəfindən mənzillər, evlər

verilir. Artıq minlərlə ev verilmişdir. Hələ növbədə dayananlar vardır, hesab edirəm ki, 2-3 ilə bu məsələni də tam şəkildə həll edəcəyik. Veteranlara minik maşınlarının verilməsi prosesi də artıq başa çatır. Bu il yəqin ki, başa çatacaqdır. Biz onları dövlət hesabına minik maşınları ilə tam təmin edəcəyik. Onu da qeyd etmək istəyirəm ki, dövlət, əlbəttə, öz siyasətini aparır və aparacaqdır. Ancaq bütün qurumlarda, dövlət və özəl qurumlarda müharibə veteranlarına çox böyük diqqət göstərilməlidir. Onları incitməməlidirlər, onların hüquqları pozulmamalıdır. Burada Ağdam rayonundakı bütün aidiyyəti qurumlara – həm dövlət, həm də özəl qurumlara öz göstərişimi verirəm. Veteranların işlə təmin edilməsində, onların sosial problemlərinin həllində ədalətsizlik qəti qadağandır. Ümumiyyətlə, ədalətsizliyə qarşı biz mübarizə aparırıq. O cümlədən qan tökmüş, Vətəni müdafiə etmiş, əlil olmuş, yaxınlarını itirmiş insanlara xüsusi diqqət göstərilməlidir. Bu, dövlət siyasətidir, mənim tələbimdir. Hər şey ədalətli olmalıdır. Ədalət pozulanda, problemlər yaranır. Həm ikitərəfli münasibətlərdə, xarici siyasətdə, eyni zamanda, ölkə daxilində hər şey ədalətli olmalıdır. Azərbaycan kimi ölkədə, bizim cəmiyyətdə heç nəyi gizlətmək mümkün deyil. Xalq hər şeyi görür, hər şeyə də öz qiymətini verir. Ona görə ədalət hər bir yerdə, xüsusilə müharibə veteranlarına olan münasibətdə əsas prinsip olmalıdır. Hesab edirəm ki, bu sahədə bütün qurumlar daha da diqqətli olacaqdır. Çünki bu ədalətlidir. Veteranlarımız bizim böyük döyüş rezervimizdir. Onların döyüş təcrübəsi, bilikləri, peşəkarlığı var. Əgər buna ehtiyac olarsa, əlbəttə, səfərbərlik də elan oluna bilər və onda bizim veteranlarımız bu işlərə qoşula bilərlər. Hələ ki, buna ehtiyac yoxdur. Ona görə yenə də demək istəyirəm ki, biz Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində öz səylərimizi artıracağıq və bu səylər müxtəlif istiqamətlər üzrə gedir: daxili siyasət, iqtisadi güc, hərbi güc, beynəlxalq mövqelərimizin möhkəmləndirilməsi. Bu gün dünya artıq bilir ki, bu münaqişənin səbəbkarı kimdir və nəticəsi necə olmalıdır.

Bir daha demək istəyirəm, əsas məsələ ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü heç bir ölkə tərəfindən şübhə altına qoyulmur və bu, əsas prinsipdir. Bütün ölkələr, hətta Ermənistanla çox yaxın təmaslarda olan ölkələr də Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bu çox vacibdir, beynəlxalq hüquqdur və bu, münaqişənin həlli üçün əsas çərçivədir.

Son hadisələr zamanı biz itki vermişik. Hər bir vətəndaşın, əsgərin itkisi bizim üçün çox böyük faciədir. Amma qarşı tərəf daha böyük itkilər verib. Bununla bərabər, beynəlxalq aləm də gördü ki, bu, dondurulmuş münaqişə deyil. Çünki bir çoxları bunu dondurulmuş münaqişə kimi qələmə verirlər: bəli, getsinlər Ermənistan və Azərbaycanla danışsınlar. Danışsalar yaxşı olar, danışmasalar da pis olmaz. Budur beynəlxalq təşkilatların əsas mövqeyi. Ancaq bu hadisə göstərir ki, bu, dondurulmuş münaqişə deyil və Ermənistanın havadarları – onlara ən çox dəstək verən dairələr, xarici ölkələrin dairələri, o cümlədən erməni diasporu – onlar başa düşməlidirlər ki, bu gün Ermənistan üçün çox böyük problemlər yarana bilər. Əgər o öz öhdəliyini yerinə yetirməsə, əgər beynəlxalq təşkilatların qərarlarını icra etməsə, torpaqlarımızı boşaltmasa, onların axırı çox ağır ola bilər. Çünki bu gün artıq bizim qabağımızda tab gətirə bilmirlər. Təsəvvür edin ki, 5 il, 10 il keçəndən sonra, əgər münaqişə davam edərsə, onların vəziyyəti necə olacaq? İndi Ermənistanda kütləvi köç başlayır. Mən bu gün təmas xəttində də bu barədə dedim. İndi, bu hadisələr baş verəndən sonra Ermənistanı minlərlə erməni tərk edir. Qorxurlar ki, yenidən burada müharibə başlayar və o zaman onların vəziyyəti çox ağır ola bilər.

Ona görə onlar da bu vəziyyəti dərk etməli, reallıqları anlamalıdırlar ki, Azərbaycan heç vaxt bu vəziyyətlə barışmayacaq. Biz həmişə Dağlıq Qarabağ münaqişəsini prioritet kimi saxlayacağıq. İndi Azərbaycanın gücü var ki, öz torpağını hərbi yolla azad etsin. Düşmənə elə zərbə endirsin ki, o heç özünə gələ bilməsin. Bu məsələni özləri həll etsələr, onlar üçün də yaxşı olacaq. Çünki bu məsələ onlar üçün də böyük problemdir. Nə qədər ki, münaqişə həll olunmayıb, onlar iqtisadi cəhətdən inkişaf edə bilməzlər. Biz isə bütün istiqamətlər üzrə planlı

şəkildə öz siyasətimizi aparırıq, ölkəmizi gücləndiririk. Bir də demək istəyirəm ki, ölkəmizin gücü həm iqtisadi, həm də siyasi gücdür. Əsas güc xalqımızın gücüdür, sizin kimi vətəndaşların vətənpərvərliyidir. Sizinlə fəxr edirik ki, belə gözəl sözlər deyirsiniz.

Daha kimin sözü var?

**B a x ş e y i ş  H ə t ə m l i:** Hörmətli Prezident, Siz bütün xalqımızın sevimlisisiniz, hər bir Azərbaycan vətəndaşının prezidentisiniz. Əminik ki, yaxın günlərdə Vətən həsrətindən, yurd yanğısından ürəyi atlanıb doğma atalarının, babalarının məzarlarını ziyarətə gedərkən girov götürülmüş Dilqəm Əsgərovun, Şahbaz Quliyevin və orada şəhid olmuş Həsən Həsənovun nəşinin geri qaytarılması üçün böyük işlər görəcək və Azərbaycan xalqını sevindirəcəksiniz. Buna bütün xalqımız əmindir.

**İ l h a m  Ə l i y e v:** Biz çalışacağıq ki, bu məsələ də öz həllini tapsın. Əvvəllər də belə hadisələr olub və hər dəfə Azərbaycan öz imkanlarını göstərərək, vətəndaşlarını geri qaytarıb. Nə qədər çətin olsa da, biz bunu etmişik. Bildiyiniz kimi, Ramil Səfərovu da Vətənə qaytarmışıq. Yaxşı bilirsiniz ki, bundan sonra bizə qarşı nə qədər təzyiqlər başlamışdı. Mən bunu gözləyirdim, amma bu dərəcədə gözləmirdim. Çünki bu təzyiqlərin heç bir əsası yox idi. Birincisi, mən o vaxt demişəm və bu gün də demək istəyirəm ki, Azərbaycan öz zabitini Vətənə qaytarıb, vəssalam. Kim nə deyirdesin, məni maraqlandırmır. Biz bunu etmişik, düz də etmişik. İkincisi, biz heç bir qanunu pozmamışıq. Hər şeyi ədalətli etmişik. O, ekstradisiya edilib, yəni Vətənə qaytarılıb və mən burada dərhal onu əfv etdim. Bu mənim konstitusion hüququmdur. Ona görə burada ittihamlara, təzyiqlərə, ümumiyyətlə, yer qalmır. Üçüncüsü, Ramil Səfərov özü işğaldan əziyyət çəkmiş, yaxınlarını itirmiş bir insandır. Onun doğulduğu şəhər işğal altındadır və o, 8 ildən çox cəza çəkib. Ona görə hər şey ədalətli idi və o qayıdıb Azərbaycanda yaşayır, orduda xidmət edir. Budur bizim yanaşmamız. Əlbəttə, biz çalışacağıq ki, bu məsələ də həll olunsun.

Mən dəfələrlə demişəm, dünyada yaşayan bütün azərbaycanlılar bilirlər ki, onların arxasında güclü Azərbaycan dövləti var. O dövlət

ki, heç vaxt öz vətəndaşını darda qoymaz. Biz bütün məsələləri həll etmək üçün çalışırıq və çalışacağıq. Sizi bir daha ürəkdən salamlayıram. Sizinlə görüşmək həmişə mənim üçün xoşdur. Burada bizim görkəmli incəsənət xadimləri əyləşiblər. Onlarla da müxtəlif tədbirlərdə, o cümlədən Ağdam rayonunda görüşlərim olur. Sizə də öz hörmətimi çatdırmaq istəyirəm. Sağ olun.

## BƏRDƏ ŞƏHƏRİNDƏ YENİ SALINAN HEYDƏR ƏLİYEV PARKINDA GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*6 avqust 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 6-da Bərdə şəhərində yeni salınan Heydər Əliyev parkında görülən işlərlə tanış olmuşdur.*

*Ölkənin ümumi inkişaf tempinə uyğun olaraq sürətlə müasirləşən və gözəlləşən Bərdə şəhərində yeni Park-bulvar Kompleksi tikilir. Ulu öndər Heydər Əliyevin adını daşıyacaq bu kompleks ölkənin regionlarında salınmış ən böyük mədəniyyət və istirahət mərkəzlərindən biri olacaq.*

*Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev dövlətimizin başçısına məlumat verdi ki, uzunluğu 1500 metr olacaq Park-bulvar Kompleksi ilkin mərhələdə 40 hektar ərazini əhatə edəcək və gələcəkdə daha da genişləndiriləcək.*

*İnşaat işləri aparılarkən Bərdənin qədim tarixini özündə yaşadan abidələrə xüsusi həssaslıqla yanaşılıb. Belə ki, Tərtər çayının yatağında göl və şəlalələr yaradılarkən VII əsrə aid nadir tarixi tikilinin qalıqları qorunub saxlanılıb. Hazırda 2 istiqamətdən həmin abidəyə asma körpü çəkilir. 14 fəvvarənin bir-birinə körpülər vasitəsilə birləşdirilməsi parkın ecazkarlığını daha da artıracaq.*

*Ulu öndər Heydər Əliyevin kompleksdə ucaldılacaq abidəsinin yerləşdiyi 4 min kvadratmetr ərazidə qranit örtüklü monument yaradılır, 5 fəvvarədən ibarət yeni kompleks salınır. Bütövlükdə park-bulvarda 16 min kvadratmetr qranit işləri görüləcək.*

*Parkın giriş qapısı da öz əzəməti ilə diqqəti cəlb edir. Eni 36 metr, hündürlüyü 12 metr olan qapı milli memarlıq üslubunda ucaldılıb. Yeni tikiləcək Mədəniyyət sarayına da 3 istiqamətdən giriş qapıları qoyulub. Burada keçiriləcək müxtəlif tədbirləri*

nəhəng monitor vasitəsilə izləmək mümkün olacaq. Park-bulvara üz tutanların istirahətinin mənalı təşkili üçün 1000 tamaşaçı yeri olan süni örtüklü stadion, geniş ərazidə Uşaq Əyləncə Mərkəzi, ana-uşaq kafesi, ikimərtəbəli Çay evi, istirahət köşkləri, ticarət və iaşə obyektləri, 1,2 kilometr uzunluğunda velosiped yolu, 300 yerlik avtomobil dayanacağı yaradılır.

Parka 27 kilometr uzunluğunda yeni su xətti çəkilib, İtaliya istehsalı olan 460 işıq dirəyi, 10 ədəd relyef birləşdirici pilləkən quraşdırılıb. Həmçinin 21 hektarda yaşıllaşdırma işləri aparılıb, 6 minə qədər ağac və bəzək kolları əkilib.

Gələcəkdə parkın daha da genişləndirilməsi, 30 hektar ərazidə təbii göllərin yaradılması, Tərtər çayı boyunca bulvarın ümumi uzunluğunun 4,3 kilometrə çatdırılması nəzərdə tutulur.

Prezident İlham Əliyev Park-bulvar Kompleksinin tikintisi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

## LATVİYA RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ RAYMONDS VEYONİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 avqust 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Latviya Respublikasının Müdafiə naziri Raymonds Veyonisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Latviya arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı münasibətlərimizin möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini diqqətə çatdırdı. Prezident İlham Əliyev ölkələrimiz arasında müxtəlif istiqamətlərdə, o cümlədən hərbi sahədə, Azərbaycan–NATO əməkdaşlığı çərçivəsində əlaqələrin müzakirəsi üçün səfərin yaxşı fürsət yaratdığını dedi.*

*Latviyanın Müdafiə naziri Raymonds Veyonis ölkələrimiz arasında ikitərəfli münasibətlərin davamlı inkişafının əhəmiyyətini vurğuladı. Nazir Azərbaycanın ölkəsi üçün müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi sahədə mühüm tərəfdaş olduğunu bildirdi. O, Latviyanın Azərbaycan ilə əməkdaşlığın daha da genişləndirilməsinə maraq göstərdiyini qeyd etdi.*

## RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*8 avqust 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 8-də Rusiya Federasiyasının Soçi şəhərinə işgüzar səfərə gəlmişdir.*

*Azərbaycan dövlətinin başçısını Soçinin «Adler» Beynəlxalq Aeroportunda rəsmi şəxslər qarşıladılar.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*Soçi*

*9 avqust 2014-cü il*

*Rusiyanın Soçi şəhərindəki «Boçarov Ruçey» iqamətgahında avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olmuşdur.*

**V l a d i m i r  P u t i n:** Hörmətli İlham Heydər oğlu!

Hörmətli dostlar, həmkarlar!

Sizi Rusiyada görməyimizə çox şadıq. Çox sağ olun ki, dəvətimizi qəbul etmisiniz. Bizim xeyli ikitərəfli və regional məsələlərimiz var. Şükür Tanrıya ki, münasibətlərimiz inkişaf edir, özü də yüksələn xətt üzrə. Biz öz səviyyəmizdə, hökumətlər səviyyəsində müntəzəm əlaqə saxlayırıq. İqtisadi, humanitar əlaqələr inkişaf edir, bəzi başqa istiqamətlər üzrə də əvvəllər görünməmiş dərəcədə fəal əməkdaşlıq edirik. Ümumiyyətlə, bu bizim ikitərəfli əlaqələrimizdə daim möhkəmlənən etimad elementidir. Biz buna çox şadıq. Yəqin ki, Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı köhnə, ağrılı problemlər barədə də söhbət edəcəyik. Bir sözlə, Sizi görməyə çox şadıq. Xoş gəlmisiniz!

**İ l h a m  Ə l i y e v:** Sağ olun, hörmətli Vladimir Vladimiroviç! Dəvət üçün sağ olun. Rusiyaya yenidən səfər etməkdən məmnunam, Sizinlə yenidən görüşmək, münasibətlərimizin çox geniş gündəliyini müzakirə etmək imkanına görə şadam.

Qeyd etdiyiniz kimi, bizim münasibətlərin çox pozitiv dinamikası – çoxillik, davamlı inkişaf dinamikası müşahidə edilir. Biz bunu çox yüksək qiymətləndirir və Rusiyanı bey-

nəlxalq arenada əsas tərəfdaşlarımızdan biri hesab edirik. Əməkdaşlığımız çox sahələri əhatə edir – həm qarşılıqlı siyasi fəaliyyət sahəsində, həm də iqtisadi sahədə yaxşı nəticələr müşahidə olunur. Əmtəə dövriyyəsi artır. Bu göstərici keçən il də artıb, bu il də artım görürük. Struktur yaxşılaşır. Artıq sanballı həcmdə qarşılıqlı sərmayələr qoyulur. Təbii ki, bu bizim münasibətlərə yeni dinamika verir. Sizin keçənilki çox uğurlu səfərinizi Azərbaycanda çox səmimi xatırlayırıq. Düşünürəm ki, bu səfər bizim münasibətlərin inkişafına ciddi təkan verib. Biz əməkdaşlıq potensialını qətiyyətlə artırmaq əzmindəyik.

Əlbəttə ki, regional təhlükəsizlik və regionumuzda sabitlik məsələləri daim gündəlikdədir. Biz, əlbəttə, həddən artıq uzanmış və öz həllini tələb edən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsini də müzakirə edəcəyik.

Dəvətə və qonaqpərvərliyə görə bir daha sağ olun.

## «PLATFORMA S-70» DÖYÜŞ SAMBOSU ÜZRƏ BEYNƏLXALQ YARIŞLARA BAXIŞ

*Soçi*

*9 avqust 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyan avqustun 9-da Soçidə «Platforma S-70» döyüş sambosu üzrə beynəlxalq yarışlara baxmışlar.*

*Yarışların fəxri qonaqları arasında Rusiyanın Baş naziri Dmitri Medvedev və digər rəsmi şəxslər də var idi.*

*«Platforma S-70» döyüş sambosu üzrə beynəlxalq yarışlar Soçidə 5-ci dəfədir keçirilir. Peşəkar samboçuların budəfəki yarışlarında Rusiya yığması ABŞ, Fransa, Qazaxıstan, Braziliya, Latviya, Litva və Belarus idmançılarının daxil olduğu dünya seçmə komandası ilə qarşılaşıb.*

*Prezident Vladimir Putin yarışda qalib gələn Rusiya komandasının mükafatlandırılması mərasimində çıxış edərək, sambonun Azərbaycanda yaxşı inkişaf etdiyini vurğuladı. Rusiya Prezidenti sambo idman növünün Bakıda keçiriləcək ilk Avropa oyunlarının proqramına salınmasına nail olduğuna görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

# AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ GÖRÜŞÜ

*Soçi*

*10 avqust 2014-cü il*

*Soçidə avqustun 10-da «Boçarov Ruçey» iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan prezidenti Serj Sarkisyanın birgə görüşü olmuşdur.*

**V l a d i m i r  P u t i n:** Hörmətli İlham Heydər oğlu!

Hörmətli Serj Azatoviç!

Sizinlə Rusiyada görüşmək imkanına görə bir daha təşəkkür etmək istəyirəm.

Dünən bizim həm Ermənistan prezidenti, həm də Azərbaycan Prezidenti ilə ikitərəfli münasibətlər barədə söhbət etmək imkanımız oldu. Axşam qeyri-formal şəraitdə də görüşdük. Düzdür, şükür Tanrıya ki, dünən axşam biz işgüzar xarakterli məsələlərə toxunmadıq. Bununla belə, bir-birimizlə müxtəlif mövzularda söhbət etməyə imkan oldu. Mənim fikrimcə bu, regional tənzimləmə ilə bağlı ən mürəkkəb, ağır məsələlər barədə səmimi söhbət etmək üçün müəyyən şərait yaradır.

Təbii ki, bu problemlərin həllinin, Qarabağ münaqişəsinin tənzimlənməsinin beynəlxalq formatları mövcuddur. Şübhəsiz ki, biz bütün bu beynəlxalq formatlara hörmətlə yanaşırıq və həmkarlarımızla işləməkdə davam edəcəyik.

Lakin hər halda, bizim xüsusi, daha yaxın münasibətlərimizin mövcud olmasını nəzərə alsaq, dərin tarixi keçmişimiz bizim harada olmağımız və keçmişdən bizə miras qalmış bütün

bu problemlərin nizamlanmasında irəliləmək üçün nə etmək lazım gəldiyi barədə səmimi fikir mübadiləsi aparmağa imkan verir. Hər halda, mənə elə gəlir ki, bu faydalıdır. İstənilən halda faydalıdır. Bu gün sizinlə görüşmək və bütün bu mövzular barədə söhbət etmək imkanına görə çox şadam.

**İlham Əliyev:** Sağ olun, Vladimir Vladimiroviç!

Bu məsələyə münasibətinizə görə sağ olun. Dünən müzakirə etdiyimiz kimi, bu məsələ öz həllini tələb edir. O, həddən artıq uzandı. Ümidvaram ki, bu prosesdə Sizin şəxsən iştirak etməyiniz danışıqlar prosesinə yeni təkan verəcəkdir.

Qeyd etdiyiniz kimi, danışıqların formatı artıq mövcuddur, münaqişənin tənzimlənməsi üçün hüquqi baza da vardır. BMT Təhlükəsizlik Şurası Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Təəssüf ki, 20 ildən çox vaxt keçib, amma həmin qətnamələr hələ də kağız üzərində qalıb.

Minsk qrupu həmsədrlərin şəxsində işləyir, tərəfləri yaxınlaşdırmağa cəhd göstərir, lakin bu o qədər də yaxşı alınmır. Buna görə düşünürəm ki, Rusiya bizim yaxın dostumuz, tərəfdaşımız və qonşumuz kimi, tənzimləmə prosesində, əlbəttə, xüsusi rol oynayır. Ümid edirik ki, biz ən yaxın vaxtda danışıqlar yolu ilə, sülh yolu ilə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun ədalətli həlli tapacağıq.

**Vladimir Putin**: Məmnuniyyətlə bildirirəm ki, Azərbaycan Prezidenti də problemin sülh yolu ilə həll edilməsinin zəruriliyinə diqqət yetirdi. Bu həqiqətən, ən başlıca məsələdir, çünki insanların həlak olmasından daha böyük faciə yoxdur.

Hər halda, bunu nəzərə almaq lazımdır ki, münaqişəli vəziyyət çoxdan yaranıb, bizə keçmişdən, deyə bilərik və demək lazımdır ki, Sovet İttifaqının mirası kimi qalıb. Biz bu məsələnin həllini tapmaq üçün səbir, müdriklik, bir-birimizə hörmət nümayiş etdirməliyik.

Şübhəsiz, xoş məram varsa, hər hansı mürəkkəb vəziyyət tənzimlənə bilər. Mənə elə gəlir ki, Azərbaycan xalqı tərəfindən, erməni xalqı tərəfindən bu cür xoş məram mövcuddur. Gəlin bu

tərkibdə söhbət edək, sonra isə həmkarlarımızla bərabər oturub bir qədər də məsləhətləşək.

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin avqustun 10-da Rusiyaya işgüzar səfəri başa çatmışdır.*

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
## ZATİ-ALİLƏRİ
## CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

Hörmətli cənab Baş nazir!

Əziz qardaşim!

Türkiyənin tarixində ilk dəfə ümumxalq səsvermə yolu ilə keçirilən prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Heç şübhə yoxdur ki, bu seçkilər qardaş Türkiyənin tarixində yeni mərhələnin başlanğıcı olacaqdır.

Birbaşa səsvermənin nəticəsi xalqın Sizə olan böyük inam və etimadının aşkar təzahürü, qardaş Türkiyənin hərtərəfli inkişafı və çiçəklənməsi yolunda həyata keçirdiyiniz uğurlu siyasətə və əvəzsiz xidmətlərinizə verilən yüksək qiymətdir. Cəmiyyətin demokratik inkişafı yolunda tarixi hadisə olan, açıq, sərbəst və şəffaf şəraitdə keçirilən bu seçkilər eyni zamanda, qardaş Türkiyə xalqının iradəsinin bariz ifadəsidir. Bu qələbəniz, həmçinin Türkiyənin qələbəsidir.

Məmnunluqla qeyd etmək istəyirəm ki, son 10 il ərzində Türkiyə hərtərəfli inkişaf nümayiş etdirərək, beynəlxalq aləmdə güc mərkəzinə çevrilmişdir. Azərbaycan və Türkiyə arasında əməkdaşlıq münasibətləri isə bu müddət ərzində möhtəşəm yol keçərək, möhkəm dostluq və qardaşlıq, strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə yüksəlmişdir.

Uğurlu ikitərəfli və çoxtərəfli əməkdaşlığımız, birgə səylərimizlə həyata keçirdiyimiz nəhəng layihələr – Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, tikilməkdə olan Bakı–Tbilisi–Qars dəmir yolu xətti və yenicə başladığımız TANAP və digərləri ölkələrimizin, eləcə də regionun dünya miqyasında əhəmiyyətini artırır, bölgədə sülhə, əməkdaşlığa və inkişafa xidmət edir.

Əminəm ki, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətləri bundan sonra da davam edəcək və inkişaf edəcəkdir.

Əziz qardaşim, fürsətdən istifadə edərək, Sizi münasib bildiyiniz vaxtda Azərbaycana səfərə dəvət edirəm. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Türkiyənin çiçəklənməsi, xalqınızın isə əmin-amanlığı və firavanlığı naminə ali dövlətçilik fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *11 avqust 2014-cü il*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ**

Hörmətli cənab Sədr!

Tibet dağlarında turist avtobusunun qəzaya uğraması nəticəsində çox sayda insanın həlak olması və xəsarət alması xəbəri məni olduqca kədərləndirdi.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *11 avqust 2014-cü il*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ**

Hörmətli cənab Prezident!

Tehran şəhəri yaxınlığında sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İran xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *11 avqust 2014-cü il*

## BİNƏQƏDİ RAYONUNDAKI 115 SAYLI TAM ORTA MƏKTƏBDƏ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTLƏ TANIŞLIQ

*11 avqust 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 11-də Binəqədi rayonundakı 115 saylı tam orta məktəbdə əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olmuşdur.*

*Dövlət başçısının tapşırıqlarına uyğun olaraq Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində məqsədyönlü və ardıcıl tədbirlər həyata keçirilir. Xüsusi Dövlət Proqramında nəzərdə tutulan tədbirlər planına uyğun olaraq təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin əsaslı şəkildə yenidən qurulması, yeni məktəb binalarının, uşaq bağçalarının inşası uğurla həyata keçirilir. Yeni dərs ili ərəfəsində respublikanın hər yerində olduğu kimi, paytaxtda və eləcə də ətraf qəsəbələrdə orta məktəb binaları yüksək standartlara uyğun şəkildə yenidən qurulur və lazımi avadanlıqlarla təchiz edilir, təhsil müəssisələrinin ərazilərində abadlıq işləri həyata keçirilir, yaşıllıqlar salınır.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov bu istiqamətdə görülən işlərlə bağlı prezident İlham Əliyevə məlumat verdi. Qeyd edildi ki, 115 saylı məktəbin binası 1965-ci ildə inşa olunub. Dövlətimizin başçısının tapşırıqlarına əsasən 5 min kvadratmetr tikinti sahəsi olan məktəbdə yeni dərs ili ərəfəsində əsaslı yenidənqurma işləri yüksək standartlara uyğun şəkildə həyata keçirilib. 47 sinif otağından ibarət 1380 şagird yerlik məktəbdə dərslər əsasən 2 növbədə keçiriləcək. Məktəbin*

bütün sinif otaqları, ayrı-ayrı fənn kabinetləri yüksək səviyyədə təmir olunub və lazımi ləvazimatlarla təchiz edilib.

Prezident İlham Əliyev sinif otaqlarında və fənn kabinetlərində yaradılan şəraitlə tanış oldu.

Məktəbin akt zalı, yeməkxanası, açıq və örtülü idman meydançaları da ən müasir standartlara uyğun şəkildə yenidən qurulub. Təhsil ocağının 1 hektarlıq həyətyanı sahəsində abadlıq və quruculuq işləri həyata keçirilib, yaşıllıqlar salınıb. İstilik və işıqlandırma sistemləri də müasir standartlar səviyyəsindədir. Məktəb içməli və texniki su sistemləri ilə təchiz edilib.

## SERBİYA RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ BRATİSLAV QAŞİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 avqust 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 12-də Serbiya Respublikasının Müdafiə naziri Bratislav Qaşiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan ilə Serbiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafının yaxşı səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı bu əlaqələrin genişləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Ölkələrimiz arasında əlaqələrin müdafiə sahəsində inkişafı məsələsinə toxunan prezident İlham Əliyev bu istiqamətdə də əməkdaşlığın perspektivləri ilə bağlı aparılan müzakirələrin əhəmiyyətini diqqətə çatdırdı.*

*Serbiya Respublikasının Müdafiə naziri Bratislav Qaşiç bu görüşdən məmnunluq hissi keçirdiyini bildirdi.*

*Nazir Serbiya prezidenti Tomislav Nikoliçin və Baş nazir Aleksandr Vuçiçin salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycan ilə Serbiya arasında münasibətlərin inkişafına toxunan Bratislav Qaşiç ölkələrimiz arasında ikitərəfli əlaqələrin heç vaxt indiki kimi yüksək səviyyədə olmadığını vurğuladı. O, Azərbaycan ilə Serbiya arasında münasibətlərin gələcəkdə də uğurla inkişaf etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Serbiya prezidenti Tomislav Nikoliçin və Baş nazir Aleksandr Vuçiçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Serbiyanın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## BAKI SLAVYAN UNİVERSİTETİ NƏZDİNDƏ MƏKTƏB-LİSEY KOMPLEKSİNİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*13 avqust 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 13-də Bakı Slavyan Universiteti nəzdində Məktəb-Lisey Kompleksinin əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış* olmuşdur.

*Bakı və Bakıətrafı qəsəbələrin* sosial-iqtisadi *inkişafına* dair *Dövlət Proqramında nəzərdə* tutulan *tədbirlər planına uyğun* olaraq *ayrı-ayrı təhsil müəssisələrinin əsaslı şəkildə təmir və yenidənqurma işləri ardıcıl* olaraq *həyata keçirilir. Hər il olduğu kimi, bu il də respublikanın hər yerində mövcud məktəblər təmir* edilir, *müasir təhsil müəssisələri, yeni tədris korpusları, idman meydançaları, iclas zalları inşa* olunaraq *ən müasir avadanlıqlarla təchiz* edilir.

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov dövlət başçısına görülən işlərlə bağlı məlumat* verdi.

Qeyd edildi ki, *Məktəb*-Lisey Kompleksi istedadlı *və* qabiliyyətli *uşaqlara qayğının artırılması ilə bağlı* Dövlət Proqramına *uyğun* olaraq 2010-cu *ildə Bakı* Slavyan Universiteti Humanitar Liseyinin *və Bakı şəhər* 15 *saylı* tam orta *məktəbin bazasında yaradılıb. Kompleksdə 1000-ə yaxın şagird təhsil alır. Məktəb-liseydə 33 sinif fəaliyyət* göstərir. *Təhsil Azərbaycan və rus dillərində həyata keçirilir. Azərbaycan bölməsində 600, rus bölməsində isə 400-dək şagird təhsil alır. Məktəbin binası 1935-ci ildə inşa* olunub. *Əvvəllər* hospital *kimi fəaliyyət göstərən* bina *1958-ci ildə məktəbə çevrilib. Bu*

*müddət ərzində məktəb binası ilk dəfə olaraq əsaslı şəkildə təmir edilib. Binada bənd-bərkitmə işləri həyata keçirilib.*

*Yeni dərs ili ərəfəsində təhsil kompleksinin 4800 kvadratmetr ərazisi əsaslı şəkildə yenidən qurulub, lisey ən müasir tədris ləvazimatları və avadanlıqlarla təchiz edilib. Binanın birinci mərtəbəsində xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin rəhbərlikləri ilə təhsil sahəsində görülən işləri əks etdirən fotostend yaradılıb.*

*Kompleksin istilik və işıqlandırma sistemləri, akt zalı, açıq və örtülü idman meydançaları yüksək standartlara uyğun şəkildə yenidən qurulub. Məktəb-Lisey Kompleksinin həyətyanı sahəsində də abadlıq və quruculuq işləri həyata keçirilib.*

*Dövlət başçısı təhsil kompleksinin sinif otaqlarında, fənn kabinetlərində yaradılan şəraitlə tanış oldu, tapşırıq və tövsiyələrini verdi.*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə İndoneziya arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İndoneziya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *13 avqust 2014-cü il*

**QABON RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB ALİ BONQO ONDİMBAYA**

Hörmətli cənab Prezident!

Qabon Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Qabon arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *13 avqust 2014-cü il*

**ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ**

Hörmətli cənab Prezident!

Əfqanıstan İslam Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Əfqanıstan arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əfqanıstan xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *15 avqust 2014-cü il*

**UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB PYOTR POROŞENKOYA**

Hörmətli cənab Prezident!

Ukraynanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Ukraynanı ənənəvi möhkəm dostluq və sıx əməkdaşlıq münasibətləri birləşdirir. Ümidvaram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq bu ənənələrin qorunub saxlanılması və inkişaf etdirilməsi, əməkdaşlığımızın daha da genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Ukrayna xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 avqust 2014-cü il*

**URUQVAY ŞƏRQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB XOSE MUXİKAYA**

Hörmətli cənab Prezident!

Uruqvay Şərq Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Uruqvay xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 avqust 2014-cü il*

**MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB NİKOLAYE TİMOFTİYƏ**

Hörmətli cənab Prezident!

Moldova Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Moldova arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin hərtərəfli və dinamik inkişafı, əlaqələrimizin daha da genişlənməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Moldova xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *22 avqust 2014-cü il*

## ABŞ NƏQLİYYAT KOMANDANLIĞININ YENİ KOMANDANI POL JOZEF SELVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 avqust 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 22-də ABŞ Nəqliyyat Komandanlığının yeni təyin olunmuş komandanı Pol Jozef Selvanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən nəqliyyat infrastrukturu sahəsində uğurla inkişaf etdiyi vurğulandı, Azərbaycanda nəqliyyat infrastrukturu, yerüstü daşımalar və yükdaşımaları üçün əlverişli xidmət vasitələrinin yaradıldığı bildirildi, bu istiqamətdə böyük layihələrin həyata keçirilməsinin önəmi qeyd olundu.*

*Görüşdə, həmçinin Azərbaycanın əlverişli coğrafi mövqeyi və əldə etdiyi iqtisadi uğurlar nəticəsində ölkəmizin beynəlxalq nəqliyyat daşımaları sahəsində mühüm məkanlardan birinə çevrildiyi vurğulandı.*

*Söhbət zamanı Azərbaycanın Əfqanıstandakı sülhməramlı missiyada iştirakı, nəqliyyat təminatı sahəsinə verdiyi töhfə yüksək qiymətləndirildi, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## BİNƏ QƏSƏBƏSİNDƏKİ 121 SAYLI TAM ORTA MƏKTƏBİN YENİ KORPUSUNUN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*23 avqust 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 23-də Bakının Xəzər rayonunun Binə qəsəbəsindəki 121 saylı tam orta məktəbin yeni korpusunun əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında məktəblərin əsaslı təmiri və yenidən qurulması ilə bağlı nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq paytaxtın orta ümumtəhsil məktəblərinin əsaslı təmir və yenidənqurma işləri hər il olduğu kimi, bu il də davam etdirilir.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov 121 saylı məktəbdə görülən əsaslı təmir və yenidənqurma işləri ilə bağlı prezident İlham Əliyevə məlumat verdi. 1934-cü ildə istifadəyə verilən məktəbdə 2006–2007-ci illərdə əlavə korpus inşa edilib. Məktəbin köhnə korpusu yararsız vəziyyətdə olduğuna görə 2012-ci ildə sökülərək, müasir standartlara uyğun yeni korpus inşa olunub. Qeyd edək ki, ötən il prezident İlham Əliyev bu korpusun açılışında iştirak edərkən ikinci korpusun da əsaslı şəkildə yenidən qurulmasına ehtiyac olduğu dövlətimizin başçısının diqqətinə çatdırılmışdı. Prezident İlham Əliyev ikinci korpusun əsaslı şəkildə yenidən qurulması ilə bağlı yerindəcə göstərişlər vermişdi. Şəhid Əmirəhməd Quliyevin adını daşıyan məktəbin 3 mərtəbədən, 35 sinif otağından ibarət 780 şagird yerlik yeni korpusu dövlətimizin*

*başçısının tapşırıqlarına uyğun* olaraq *bu il əsaslı şəkildə yenidən* qurulub.

*Prezident İlham Əliyev* korpusda *yaradılan şəraitlə ya-xından tanış* oldu.

*Buradakı bütün* sinif *otaqları və ayrı-ayrı fənn kabinetləri ən müasir* standartlar *səviyyəsindədir. Məktəb lazımi* avadanlıq *və ləvazimatlarla təchiz* edilib. *Bu təhsil ocağında müasir* istilik *və işıqlandırma sistemləri* qurulub, *1 hektarlıq həyətyanı ərazidə abadlıq və yaşıllaşdırma işləri görülüb.*

## POLŞA RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRİ MİXAEL LABENDAN İLƏ GÖRÜŞ

*25 avqust 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Polşa Respublikasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Mixael Labendanı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Polşa arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu, əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN XALÇA MUZEYİNİN AÇILIŞI MƏRASİMİ

*26 avqust 2014-cü il*

*Azərbaycan Respublikasının* Prezidenti *İlham Əliyev və xanımı* Mehriban *Əliyeva* avqustun 26-da *Azərbaycan Xalça* Muzeyinin *yeni binasının açılışı mərasimində iştirak etmişlər.*

*Azərbaycan xalçaçılıq sənəti sahəsində dünyanın aparıcı ölkələrindən* biridir. *2010-cu ildə Azərbaycanın ənənəvi xalçaçılıq sənəti YUNESKO-nun Bəşəriyyətin* Qeyri-Maddi *Mədəni İrsin* reprezentativ *siyahısına salınıb. Tətbiqi sənətin* nadir *nümunələrinin toplandığı Xalça* Muzeyi *ayrı-ayrı dövrlərdə müxtəlif ünvanlarda yerləşib.*

*Ölkəmizin* nadir *incilərindən* olan *xalçaların* daha *geniş və səmərəli nümayişi məqsədilə* prezident *İlham Əliyevin müvafiq sərəncamına əsasən* muzey *üçün xüsusi* bina *tikilməsi qərara alınıb və 2008-ci il mayın 15-də Dənizkənarı* Milli *Parkın ərazisində binanın təməlqoyma mərasimi keçirilib.*

*Muzeyin yeni binasının yaradılması işində Heydər Əliyev Fondunun və YUNESKO-nun müvafiq dəstəyi və köməyi* olub. *Orijinal üslubda inşa* olunan *bina bükülmüş xalçanı xatırladır. Hazırda muzeyin sərgi və fondlarında 13* min *300-dən artıq* eksponat *və əşya saxlanılır. Muzeydə xalça və xalça məmulatları,* metal *məmulatlar, parça,* geyim *və tikmə,* keramika, *şüşə, ağac, kağız, zərgərlik əşyaları,* kitablar, *fotoşəkillərdən ibarət* nadir *kolleksiya mühafizə* olunur. *Bu* kolleksiyanın *ziyarətçilərə təqdimatı üçün* binada *ideal şərait yaradılıb.* Muzeyin *fondunda mövcud olan xalça və xalça məmulatlarının saxlanılması və konservasiyası 2013-cü ildə Bakıya dəvət edilmiş və bu sahədə zəngin təcrübəsi ilə dünyada məşhur* olan *Viktoriya və Albert Muzeyinin parçalarının* konservasiyası *üzrə*

*mütəxəssis Luis Squirerin tövsiyələri və tərtib etdiyi təlimatlar əsasında təmin olunur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva muzeyin yeni binasının rəmzi açılışını bildirən lenti kəsdilər. Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev muzeydə görülən işlərlə bağlı dövlətimizin başçısına və xanımına məlumat verdi.*

*Müəllifi tanınmış avstriyalı memar Frans Yants olan muzey binasında Azərbaycan xalçaçılıq məktəbinin bütün istiqamətləri, yaşı yüz illərlə ölçülən xalça və xalça məmulatlarının geniş çeşidi təqdim edilir.*

*Azərbaycan Prezidenti və xanımı burada fəaliyyət göstərən suvenir mağazası ilə tanış oldular. Dövlətimizin başçısı Xalça Muzeyinin yeni binasının yaradılması mərhələlərini əks etdirən fotoşəkillərə baxdı.*

**İlham Əliyev:** Əziz dostlar, bu gün ölkəmizin həyatında çox gözəl və əlamətdar bir gündür. Şəhərimizin mərkəzində, bulvarda Azərbaycan üçün çox böyük dəyər kəsb edən Xalça Muzeyi açılır. Bu gözəl hadisə münasibətilə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Azərbaycanda Xalça Muzeyi ötən əsrin 60-cı illərinin sonlarında görkəmli alim, professor, rəssam Lətif Kərimovun təşəbbüsü ilə açılmışdır. Ancaq muzeyin öz binası olmamışdır. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə muzeyin fondlarının zənginləşdirilməsi üçün vəsait ayrılmış və birinci ekspozisiya İçərişəhərdə Cümə məscidində 1972-ci ildə nümayiş etdirilmişdi. Müstəqillik dövründə isə Xalça Muzeyi Muzey Mərkəzində fəaliyyət göstərirdi. Yadımdadır, 2006-cı ildə Muzey Mərkəzində olarkən, o cümlədən Xalça Muzeyinə də baş çəkdim və əlbəttə, elə o vaxt dərhal qərar qəbul etdim ki, mütləq Azərbaycanda Xalça Muzeyi üçün ayrıca bina tikilməlidir. Çünki orada həm saxlanma yerləri bizim tələblərimizə uyğun deyildi, eyni zamanda, ekspozisiya üçün də yer çox məhdud idi. Ona görə 2007-ci ildə sərəncam imzalanmışdır ki, Azərbaycanda Xalça Muzeyinin binası tikilsin və 2008-ci ildə, bax, burada YUNESKO-nun baş direktoru

cənab Matsuuranın iştirakı ilə bu gözəl, möhtəşəm binanın təməli qoyulmuşdur.

Əlbəttə ki, Azərbaycanda tikiləcək Xalça Muzeyi həm daxili tərtibatı, eyni zamanda, xarici görünüşü ilə də fərqlənməli idi. Çünki xalçaçılıq bizim milli sənətimizdir. Azərbaycanı xalçasız, xalçanı isə Azərbaycansız təsəvvür etmək mümkün deyil. Ona görə layihələndirmə işlərinə böyük diqqət göstərilmişdir və nəticədə Avstriya memarlarının zəhməti hesabına bu layihə təqdim edilmişdir. Bu layihə öz nadirliyi ilə seçilir, fərqlənir. Bu bina xalçanı əks etdirir və əlbəttə ki, Xalça Muzeyinin yerləşdirilməsi ilə bağlı məndə heç bir tərəddüd olmamışdır. Çünki Xalça Muzeyi Bakının ən gözəl yerində, bulvarda olmalı idi. Bu, nadir memarlıq əsəridir.

Azərbaycanın çox zəngin və qədim memarlıq əsərləri vardır ki, onlar YUNESKO tərəfindən qorunur. İçərişəhər, Şirvanşahlar sarayı, Qız qalası bizim milli sərvətimizdir. Son illər Azərbaycanın və Bakının müasir memarlıq nümunələri də göz oxşayır. Bakıda qədim memarlıq abidələri və müasir abidələr bir vəhdət, vahid ansambl təşkil edir və son illərdə Heydər Əliyev Mərkəzi, Alov Qüllələri, Bayraq Meydanı kimi müasir Azərbaycan simvolları yaradılmışdır. Bu memarlıq əsərləri müasir Azərbaycanın gücünü, inkişafını göstərir. Əlbəttə ki, bu memarlıq əsərləri təkrarolunmaz əsərlərdir. Deyə bilərəm ki, Xalça Muzeyinin binası da bu sıradadır. Bu da öz nadirliyi ilə seçilir və ümid edirəm ki, gələcəkdə heç kim bu memarlıq nümunəsini təkrar etmək istəməyəcək. Çünki Azərbaycanda yaradılan müasir memarlıq əsərlərini bəzi hallarda başqa yerlərdə də görmək olur. Ancaq bu, artıq Azərbaycan məhsuludur və çox şadam ki, bu gözəl, möhtəşəm muzey bu gün açılır.

Əminəm ki, Bakı sakinləri, qonaqlar üçün burada nümayiş etdirilən ekspozisiya çox böyük maraq doğuracaqdır. Çünki muzeydə 15 minə yaxın eksponat var. Burada həm ekspozisiya çox orijinal tərzdə nümayiş etdirilir – mən burada tikinti zamanı dəfələrlə olmuşam – eyni zamanda, saxlanma yerləri də müasir standartlara cavab verir. Burada, əlbəttə ki, xüsusi temperatur

rejimi də var. Yəni bütün işlər ən müasir səviyyədə qurulub və burada həm daxili tərtibat, bizim milli sərvətimiz olan xalça nümunələri, eyni zamanda, nadir memarlıq nümunəsi birləşir və bu məni çox sevindirir. Çünki bu bizim xalqımızın nə qədər istedadlı olduğunu bir daha göstərir. Çünki xalçaçılıq bizim milli sənətimizdir. Biz hesab edirik ki, Azərbaycan xalçaçılıq sənətinin vətənidir, xalça muğam, memarlıq abidələri kimi, bizim milli dəyərimizdir, sərvətimizdir. Təsadüfi deyil ki, muzeyin tikintisinə başlayandan sonra bizim təşəbbüsümüzlə Azərbaycan xalçaçılıq sənəti YUNESKO-nun qeyri-maddi irsi üzrə reprezentativ siyahısına daxil edilmişdir.

Biz öz xalçamızı, xalçaçılıq sənətimizi qoruyuruq. Azərbaycan xalçasının qorunması və inkişaf etdirilməsi haqqında müvafiq qanun da qəbul edilmişdir. Bu bizim böyük sərvətimizdir və əlbəttə, çalışmalıyıq ki, gənc nəsil bu sənətə maraq göstərsin. Biz bunu təşviq etməliyik.

Hazırda həm Bakıda, həm də müxtəlif bölgələrdə xalça muzeyləri fəaliyyət göstərir. Bakıda artıq bu gündən fəaliyyət göstərəcəkdir. Son illər, demək olar ki, bütün bölgələrdə Heydər Əliyev mərkəzlərinin nəzdində xalçaçılıq dərnəkləri fəaliyyət göstərir. Bu bizə imkan verəcək ki, bu sənət inkişaf etsin və nəsillər arasındakı körpülər daha da möhkəm olsun. Bizim görkəmli xalça ustaları, əlbəttə ki, öz təcrübələrini gənc nəslə ötürməlidirlər. Bu gündən burada nümayiş etdirilən bizim gözəl xalçalarımız əminəm ki, gəncləri də bu sənətə gətirəcək və beləliklə, Azərbaycan xalçaçılıq sənəti bundan sonra da inkişaf etdiriləcəkdir.

Bizim mədəni irsimiz, tariximiz, mədəniyyətimiz çox zəngindir. Son illər ərzində dünyanın müxtəlif yerlərində Azərbaycanla bağlı təqdimatlar, sərgilər, konsertlər keçirilir. Əlbəttə ki, xalça o təqdimatların mərkəzində yerləşir. Çünki bu doğrudan da dünya miqyasında böyük bir dəyərdir. Mən hesab edirəm ki, Azərbaycan xalçası dünyada xalçaçılıq sənətinin etalonudur. Təsadüfi deyil ki, bizim xalçalarımız dünyanın ən məşhur muzeylərində nümayiş etdirilir.

Onu da qeyd etməliyəm ki, mən çoxsaylı xarici səfərlərim zamanı müxtəlif yerlərdə, müxtəlif ölkələrdə prezident saraylarında Azərbaycan xalçasını görmüşəm. Qeyd etmişəm, öz həmkarlarıma bildirmişəm ki, bax, bu xalça Azərbaycan xalçasıdır və onlar bunu bilirlər. Yəni bu gün Azərbaycan xalçası dünyada məhz Azərbaycan xalçası kimi tanınır.

Uzun illər, əsrlərboyu bizim Azərbaycan xalçaları dünyada nümayiş etdirilirdi. Ancaq biz müstəqil ölkə olmadığımız üçün bu xalçalar Azərbaycan xalçaları kimi təqdim edilmirdi. Ona görə biz – həm dövlət, hökumət, müvafiq qurumlar, həm də ictimai təşkilatlar çox böyük iş apardıq ki, xalçamızı, Azərbaycan xalqına məxsus olan bu böyük sənəti məhz Azərbaycan xalçası kimi təqdim edək. Hesab edirəm ki, bu muzeyin fəaliyyətə başlaması bu işdə əlavə imkanlar yaradacaqdır. Çünki əminəm ki, Bakıya gələn qonaqların əksəriyyəti buraya gələcəklər. Hesab edirəm ki, biz bu muzeyin ekspozisiyasını və ümumiyyətlə, muzeylə bağlı məlumatları xarici ölkələrə də çatdırmalıyıq. Biz Azərbaycan xalçasının sərgilərini mütəmadi qaydada dünyanın aparıcı ölkələrində nümayiş etdirməliyik. Bunu biz indi edirik. Bu, sistemli xarakter almalıdır. Bir sözlə, haqlı olaraq fəxr edirik ki, bizim nadir sənətimiz – xalçaçılıq sənəti bu gün var, yaşayır, yaşayacaqdır. Hesab edirəm ki, Azərbaycan xalqının istedadını dünyaya təqdim etmək üçün xalça xüsusi yerə malikdir.

Bütövlükdə Azərbaycanın tarixi abidələrinin, tarixi irsimizin qorunması ilə bağlı müntəzəm olaraq işlər aparılır. Bu işlər öz nəticəsini verməkdədir. Milli dəyərlər – bizim mədəniyyətimiz, incəsənətimiz müstəqilliyimizin əsasıdır. Humanitar sahəyə Azərbaycanda çox böyük diqqət göstərilir. Təsadüfi deyil ki, beynəlxalq humanitar forumların Azərbaycanda keçirilməsi artıq ənənəyə çevrilmişdir. Dünyanın ən məşhur adamları, Nobel mükafatı laureatları, alimlər, ictimai xadimlər bu forumlarda mütəmadi qaydada iştirak edirlər. Azərbaycanda dinlərarası dialoq forumları keçirilir. Bakıda ən məşhur sərgilər keçirilir. Bu gün Heydər Əliyev Mərkəzi dünya miqyasında sərgilər

mərkəzinə çevrilmişdir. Musiqi festivalları, müsabiqələr, beynəlxalq muğam müsabiqələri – bütün bunlar Azərbaycanın mədəni həyatını zənginləşdirir və Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir.

Bu gün biz Azərbaycanı həm inkişafda olan, eyni zamanda, böyük dəyərlərə malik olan və bu dəyərləri qoruya bilən ölkə kimi təqdim edirik. Azərbaycana gələn xarici qonaqlar, əlbəttə ki, Bakının gözəlliyini qeyd edirlər. Ölkəmizin inkişafını görürlər, eyni zamanda, bizim dəyərlərimizlə tanış olurlar. Memarlıq dəyərlərimiz, musiqi sənətimiz, rəssamlıq məktəbimiz və əlbəttə ki, xalçaçılıq sənəti bizim qürur mənbəyimizdir.

Mən çox şadam ki, Azərbaycanda bu sahədə işlər ardıcıllıqla aparılır. Son illərdə Bakının bütün muzeyləri əsaslı təmir edilmişdir, bəzilərində isə indi təmir işləri gedir. Bakıda bir dənə də təmirsiz muzey qalmamışdır. Bölgələrdə, Bakıda yeni muzeylər yaradılır – Müasir İncəsənət Muzeyi, Xalça Muzeyi və digər muzeylər. Bu, əlbəttə ki, ölkəmizin ümumi inkişaf templərini göstərir, eyni zamanda, dövlət siyasətini əks etdirir.

Qeyd etdiyim kimi, xalçaçılıq sənətinin qorunması ilə bağlı qanunvericilikdə ciddi addımlar atılmışdır. Biz praktiki həyatda belə gözəl əsərləri yaratmaqla ölkəmizi zənginləşdiririk. Bütün dünyaya nümayiş etdiririk ki, Azərbaycan müstəqil ölkə kimi, uğurla yaşayır. Müstəqilliyin bütün üstünlükləri Azərbaycan xalqı üçün artıq bəllidir. Müstəqillik bizim ən böyük sərvətimizdir, ən böyük dəyərimizdir. Biz var gücümüzlə müstəqilliyimizi qoruyuruq və qoruyacağıq. Biz məhz müstəqillik dövründə belə gözəl əsərləri yarada bilmişik. Qısa müddətdə – cəmi 23 illik müstəqillik dövründə Azərbaycan çox böyük və şərəfli yol keçmişdir. Əgər biz müstəqilliyi 1991-ci ildə yox, 1971-ci ildə, yaxud 50-ci illərdə qazansaydıq, bu gün Azərbaycan dünyada ən inkişaf etmiş ölkəyə çevrilərdi. Ancaq biz bu yolla gedirik. Ölkəmizi gücləndiririk, inkişaf etdiririk. Hər bir sahə üzrə konkret proqramlar var. Siyasi, iqtisadi islahatlar aparılır. Regional inkişaf proqramları icra edilir.

Əlbəttə, mədəni həyatımızla, tarixi irsimizlə, mədəniyyətimizlə bağlı bütün işlər ardıcıl şəkildə aparılır. Bugünkü tədbir bunun bariz nümunəsidir.

Bu gözəl hadisə münasibətilə sizi və bütün Azərbaycan xalqını bir daha ürəkdən təbrik edirəm. Bütün Azərbaycan xalqına yeni uğurlar arzulayıram. Sağ olun.

**T e y m u r  B ü n y a d o v** *(Azərbaycan Milli Elmlər Akademiyasının akademiki):* Uğurlarımızın, qələbələrimizin, müvəffəqiyyətlərimizin ilhamçısı, müstəqilliyimizin, dövlətimizin, dövlətçiliyimizin ucalığı, hörmətli prezidentimiz cənab İlham Əliyev!

Dahilik, dühalıq zirvəsində qərar tutan, bayrağımız, bayraqdarımız olan Heydər Əliyevin adını daşıyan Fondun Prezidenti! Mədəniyyətimizi, mənəviyyatımızı uca tutan, məşələ çevirən, dünyaya tanıtdıran Mehriban xanım!

Əziz dostlar, xanımlar, cənablar!

Xalça bayramınız mübarək olsun! Sizə yeni-yeni uğurlar arzulayıram.

Xalçaçılıq sənəti bizim xalqın bəşəriyyətə təqdim etdiyi şah əsəridir. Əzəli, əbədi və həmişəyaşar şah əsəri. Xalça bizim bənzərsiz, təkrarsız, tayı-bərabəri olmayan şah əsərimizdir. Ona görə də bugünkü bayram, bugünkü təntənə təkcə bizim xalçaçılıq sənətimizin, mədəniyyətimizin deyil, ümumiyyətlə, xalqımızın bayramıdır. Bu sənəti xalqımız yaradıb, xalqımız yaşadır və əsrlərdən-əsrlərə keçəcəkdir.

Muğam sənəti xalça sənəti ilə qohumdur. Ona görə də xalça həm də muğamdır, mahnıdır, melodiyadır, bayatıdır, oxşamadır. Bu gün görüşdüyümüz bu məkan çox rəmzi məna daşıyır. Bir tərəfdən, Muğam Mərkəzi, muğam dünyası, bir tərəfdən, xalça dünyamız. Nə qədər rəmzi, nə qədər mənalı, nə qədər məzmunludur. Açığını deyim ki, mən dünən bu muzeyə gəldim. Şər qarışar-qarışmaz, günəş dağın arxasına enər-enməz möcüzə, əfsanə, nağılla qarşılaşdım. Nə böyük əzəmət, nə böyük qürur, nə böyük fəxredici incəlik, zəriflik, həssaslıq!

Ona görə də mən demək istəyirəm ki, hörmətli cənab Prezident, hörmətli Mehriban xanım, zaman keçəcək, əsrlər əsrləri, minilliklər minillikləri əvəz edəcək, qoşa dayanan mərkəzlər Xəzərin ayna sularının laylasında uyuyacaq, xalqımıza, millətimizə şərəf, şöhrət gətirəcək.

Hörmətli Prezident, hörmətli Mehriban xanım, bu muzeyə gələnlər hər şeydən əvvəl Sizi yada salacaq, Sizə minnətdarlıqlarını bildirəcək, bu xoş duyğuları ürəklərdə gəzdirəcək, bu gözəlliyi dünyaya tanıtdıracaqlar. Sizin bu möhtəşəm işinizin tayı-bərabəri yoxdur. Adam valeh olur. İnanın, mən muzeyə girəndə elə bil ki, əfsanələr, nağıllar dünyasına, başqa bir aləmə düşdüm, sanki yuxu görürdüm.

Ona görə də mən Sizə dərin minnətdarlığımı bildirirəm. Çox böyük işlər görürsünüz. Sizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, yeni-yeni uğurlar, qələbələr, təntənələr arzu edirəm. Sağ olun!

**M ə m m ə d h ü s e y n H ü s e y n o v** *(xalçaçı-rəssam, dosent):* Möhtərəm cənab Prezident!

Hörmətli Mehriban xanım!

Əziz dostlar!

Bu gün doğrudan da bizim qürurlu günlərimizdən biridir. Əcdadlarımızdan miras qalmış, qərinələr boyu bizə şöhrət gətirmiş xalça sənətimizin bayramıdır. Doğrudan da xalça sənəti Azərbaycan üçün hər şeydir. Çünki Azərbaycan xalça sənətinin kökü, mənbəyi çox qədimlərdən bəri başımızı uca edən bir sənət və dəyər əfsanəsidir. Doğrudan da Gəmiqayadan, Qobustandan, Kür–Araz mədəniyyətindən qaynaqlanan xalça sənətində rəmzlər dünyası yaşayır.

Xalçalarımız inanc mənbələrimizi, yaradılış, varlıq, ünsürlər aləminin rəmzlərini yaşadır. Bu rəmzlər öyrənilməli, aşkar olunmalı və xalqımıza təlqin edilməlidir. Bu təlqinetmədə yaratdığınız bu yeni muzeyin çox böyük rolu olacaqdır. Mən inanıram ki, bu muzey çox gözəl bir elm mərkəzinə çevriləcək və elm araşdırıcıları, xalçasevərlər hər zaman Sizi xatırlayacaq və deyəcəklər ki, əhsən belə el övladlarına. Əhsən olsun ki,

onlar bizim xalqımızın inanc mənbəyini, mədəniyyət kitabəsi olan xalçanı belə dəyərləndirirlər.

Xalçaçılığı öyrənmək xalqımız üçün çox vacibdir. Bizim maariflənməyimiz üçün xalçanın əvəzsiz rolu var. Nəyə görə? Düzdür, regionda müxtəlif xalqların xalça sənətləri mövcuddur. Amma bizim xalça sənətimiz bambaşqa bir sənətdir. Çünki xalça sənətinin əsasını, meyarlarını təşkil edən toxuculuq növləri, ornament – xalçanın ana dili olan ornament və şux, əlvan, fəlsəfi rəng ahəngləri digər xalqların yaratdığı xalçalardan çox-çox fərqlənir. Bu fərqliliklər xalqımızın mədəni dəyərlər sistemindən qaynaqlanmasından xəbər verir. Ona görə də biz bu sənəti sevməli və Sizin sevdiyiniz şəkildə xalqa təlqin etməliyik. Sizə «Çox sağ olun!» – deyirəm. Sonda istəyirəm Oğuz ədəbiyyatından, daha doğrusu, «Kitabi-Dədə Qorqud»dan bir neçə sətir deyim. Yəqin ki, hamı Oğuz ədəbiyyatı ilə, «Kitabi-Dədə Qorqud»la tanışdır. «Kitabi-Dədə Qorqud»un bütün boylarının əvvəlində qədim xaqanlarımızın uca təpə başında iqamətgah tikdirdiklərindən və min bir yerə ipək xalçalar sərdiklərindən xəbəriniz var. Çox maraqlıdır ki, bütün boylarda bu özünü göstərir. Bəzi boylarda Bayandır xanın, bəzi boylarda Qazan xanın, digər xanlarımızın və bəzi boylarda da bildirilir ki, qara yer üzünə min xalı sərirdi bizim xanlarımız.

Mənim arzum budur ki, cənab Prezident, siyasi, ümumi qələbəmizdən sonra bizim Qarabağ torpağımızda öz iqamətgahınızı qurdurasınız və min ipək xalı sərdirib ilk qədəmlərinizi Siz basasınız və biz də Sizin ardınızca o uca Qarabağa addımlayaq.

Mehriban xanım bizim beşliyimizin qoruyucusudur. Beşlik nədir? Biz sənət adamları arasında beşliyi söz, səs, xalça, miniatür və milli memarlığımız adlandırırıq. Bunlar bir mənbədən qaynaqlanır. Bunların kökündə bir inanc ruhu, inanc yaddaşı var. Siz bunların birini qorumaqla beşini, beşini qorumaqla birini qoruyursunuz və bizlərə də bu yolda yol göstərirsiniz. Doğrudan da Sizin gözəl səfərlərinizdə sanki muğam, xalça Sizinlə birlikdə addımlayır. Siz bizim xalqımızın, mədəniyyətimizin ən bariz təbliğatçısısınız. 26 avqust – bu xoş gün bizim üçün ikiqat

bayramdır. Biz bilirik ki, bu gün həm də Sizin ad gününüzdür. Sizə cansağlığı, uğurlar, işinizdə müvəffəqiyyətlər arzulayırıq. Həmişə uca olasınız, cənab Prezidentimizin yanında olasınız. Bu gözəl gündə Sizə alqışlar deyib ürəkdən təbrik edirik.

**R ö y a  T a ğ ı y e v a** *(Xalça Muzeyinin direktoru):* Hörmətli cənab Prezident!

Hörmətli Mehriban xanım!

Hörmətli qonaqlar!

Mən böyük məmnuniyyət hissi ilə bu gün sizi yeni Xalça Muzeyinin binasında salamlayıram.

Hörmətli cənab Prezident, 2006-cı ilin mart ayında muzeyimizin yerləşdiyi binada olanda biz gördük Siz necə məmnun qaldınız və dediniz ki, artıq bizim vaxtımız gəlib və Xalça Muzeyinin yeni binası tikiləcək. Sizin tapşırığınızla qısa bir müddətdə bu binanın inşası üçün yeni tədbirlər görüldü və 2008-ci ildə burada böyük təntənəli təməlqoyma mərasimi keçirildi.

Bu gün yalnız xalçasevərlərin bayramı deyil, bütün xalqımızın bayramıdır. Ona görə ki, əsrlərboyu – 5 min il xalqımızın yol yoldaşı, ilk qədəmgahı, evinin rahatlığı, gözəlliyi, istiliyi, səcdəgahı, qoruyucusu olan bu sənəti Siz bu gün yaşatdınız. Gələcəyə inam yaratdınız. Mən Sizə dərin təşəkkürümü bildirirəm. Kollektivimiz bu binanı artıq 50 il idi ki, gözləyirdi. Çox sağ olun.

Hörmətli Mehriban xanım, biz təməlqoyma günündən Xalça Muzeyinin tikintisinə Sizin qayğınızı daim görmüşük. Sözsüz ki, Siz çox böyük əmək sərf edərək, Azərbaycan xalçasını dünyada tanıtdınız. Artıq 2010-cu ildə Azərbaycan xalçası YUNESKO-nun bəşəriyyətin qeyri maddi-mədəni irsi siyahısına daxil oldu. Bu çox əlamətdar hadisədir. Ona görə ki, hər bir xalq, onun mədəniyyəti o vaxt öz dəyərini alır ki, o, dünya tarixinə düşür. Sizin səyiniz nəticəsində biz həqiqətimizə çatdıq, buna nail olduq. Çox sağ olun. Mən Sizə bütün kollektivimiz adından çox dərin təşəkkürümü bildirirəm.

Bu gün Sizin böyük bayramınızdır. Bizim də böyük bayramımızdır, ikiqat bayramımızdır. İcazə verin, doğum gününüzdə Sizi ürəkdən təbrik edək.

* * *

*Ad günü münasibətilə Mehriban Əliyevaya gül dəstəsi təqdim olundu. Daha sonra Xalça Muzeyi ilə tanışlıq oldu.*

*Muzeyin ekspozisiyası xalça sənətində əsas bədii istiqamətləri dəqiq əks etdirməklə, onların özünəməxsus xüsusiyyətlərini, həmçinin materiallarını, işləmə texnikalarını, incə və çox dərin bədii xüsusiyyətləri ilə ahəngdarlığını aydın şəkildə göstərir.*

*Muzeyin «Qızıl fondu»nu xovlu xalçalar təşkil edir. Onlar bütün kompozisiyaları ilə Azərbaycanın 7 əsas məktəbini – Quba, Bakı, Şirvan, Gəncə, Qazax, Qarabağ və Təbriz xalça məktəblərini təmsil edir. Bu xalçalar insanların, heyvanların, quşların üslublaşdırılmış təsvirini, bitkilərin ornamentlərini, xalqın həyatını təsvir edən süjetli motivlərlə bəzənib.*

*Muzeyin kolleksiyası müxtəlif növ xovsuz xalçaların nadir nümunələrini də əks etdirir. Burada çoxobrazlı kompozisiya silsiləsi, motivlərin orijinallığı və gözəl koloritliliyi ilə fərqlənən palazlar, cecimlər, kilimlər, sumaxlar, həmçinin xalça məmulatları – məfrəşlər, çullar, xurcunlar, corablar və rəngarəngliyinə və toxunma texnikasına görə seçilən bir çox eksponatlar təqdim olunur.*

*Muzekolleksiyasında və ekspozisiyasında digər nadir eksponatlar – bədii naxış tikmələri, parçalar və milli geyimlər, həmçinin metal, keramika, şüşə məmulatlardan və çini qablardan ibarət əl işləri nümayiş və mühafizə olunur. Bu eksponatlar bürünc dövründən başlayaraq bizim günlərədək olan müddəti əhatə edir.*

*Muzeydə quraşdırılmış xüsusi monitor Azərbaycan xalçalarının dünya kolleksiyalarında, Avropa rəssamlarının əsərlərində əks olunduğunu göstərir. Burada, həmçinin Böyük Britaniyanın Viktoriya və Albert Muzeyində saxlanılan məşhur «Şeyx Səfi» xalçasının surəti də var. Ekspozisiyada sərgilənən və saxlanclarda*

*yerləşən xalçalar arasında XVII – XX əsrlərdə toxunmuş məşhur* kompozisiyalara *da rast gəlmək mümkündür. Burada, həmçinin zamanın diktə* etdiyi *ənənəvi* xalq üslublu *süjetlərin müəllifləri* olan *rəssamların müasir işləri əks* olunur.

*Muzeyin sərgi konsepsiyası* adi *sərgilərdən fərqlənir. Əsas* eksponatlar *– xalçalar qövsşəkilli* divarlardan *asılır. Bunların* da *əksi bütün yuxarı mərtəbələrin əksər yerlərindən görünür.* Bunun *sayəsində sərginin böyük hissəsini müxtəlif* rakurslardan görmək olur. *Muzeyin terrasında – açıq səma altında sərgilərin təşkili mümkün* olacaq.

## BAKIDAKI 23 SAYLI TAM ORTA MƏKTƏB BİNASININ ƏSASLI YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRA AÇILIŞI MƏRASİMİ

*26 avqust 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva paytaxtın Nəsimi rayonundakı 23 saylı tam orta məktəb binasının əsaslı yenidənqurmadan sonra açılışında iştirak etmişlər.*

*Azərbaycanda təhsilin və elmin inkişafına ən yüksək səviyyədə dövlət qayğısı göstərilir. Bu sahələrin tərəqqisi isə öz növbəsində ölkəmizin sürətli inkişafına töhfəsini verir. Azərbaycan dövlətinin reallaşdırdığı siyasətin əsasında duran prioritetlərdən biri də insan kapitalının daha da inkişaf etdirilməsidir. Bu baxımdan təhsil sahəsinə qoyulan investisiyalar mühüm əhəmiyyət kəsb edir.*

*Təhsilin yeni mərhələyə qədəm qoyması, onun maddi-texniki bazasının möhkəmləndirilməsində Heydər Əliyev Fondunun da müstəsna xidmətləri var. Fondun «Yeniləşən Azərbaycana yeni məktəb», «Təhsilə dəstək», «Uşaq evləri və internat məktəblərinin inkişafı» proqramları və digər layihələri bu sahənin inkişafında mühüm rol oynayıb. Həmin proqram və layihələrin uğurlu olmasını şərtləndirən əsas amillərdən biri də Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu məsələləri daim diqqətdə saxlamasıdır. Beləliklə, son illərdə ölkədə yüzlərlə məktəb binası və əlavə korpuslar tikilib, minlərlə məktəb binası əsaslı təmir edilib.*

*23 saylı tam orta məktəb binasının əsaslı surətdə yenidən qurulması bir daha təsdiqləyir ki, Azərbaycan prezidenti İlham Əliyevin diqqəti sayəsində təhsil islahatları uğurla davam edir.*

*Bütün bu işlər həm də onu göstərir ki, Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında məktəblərin əsaslı təmiri və yenidən qurulması ilə bağlı nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq, paytaxtın orta ümumtəhsil məktəblərinin əsaslı təmir və yenidənqurma işləri hər il olduğu kimi, bu il də davam etdirilir. Bütün bunlar ilk növbədə, şagirdlərin ən yüksək səviyyədə təhsil almaları, onların elmin sirlərinə daha dərindən yiyələnmələri üçün hərtərəfli imkanlar açır. Müəllim kollektivinin yüksək səviyyədə çalışması üçün bütün imkanlar var.*

*Hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür. Təhsildəki nailiyyətlər hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Ölkəmizdə son illər təhsilin inkişafı ilə bağlı ardıcıl tədbirlərin həyata keçirilməsi, müxtəlif proqramların icrası bu sahənin maddi-texniki bazasının müasirləşməsinə geniş imkanlar açıb.*

*23 saylı tam orta məktəb ilk növbədə, peşəsinə vurğun pedaqoji kollektiv və böyük uğurlar qazanmış məzunları ilə seçilib. Məhz bu amil məktəbin təhsil konsepsiyasında uğura nail olmasına imkan yaradıb. Təsadüfi deyil ki, bu məktəb təlim-tərbiyə prosesində həmişə qabaqcıllar sırasında olub, kreativ ideyaların və təşəbbüslərin reallaşmasında hər zaman mühüm rol oynayıb. Dünya Təhsil İttifaqının Azərbaycanın Təhsil Nazirliyi ilə birgə beynəlxalq aləmdə savadsızlığın ləğvinə həsr edilmiş «Kitabların açılması qapıların açılması deməkdir» devizi altında keçirdiyi tədbir də məhz 23 saylı məktəbdə reallaşıb. Məktəb 1899-cu ildən fəaliyyət göstərir. Həmin il ibtidai məktəbdə 42 oğlan, 8 qız olmaqla, cəmi 50 şagird təhsil almışdı.*

*Dövlətimizin başçısı və xanımı məktəbin binasının rəmzi açılışını bildirən lenti kəsdilər.*

*Təhsil naziri Mikayıl Cabbarov məktəbdə görülən əsaslı yenidənqurma işləri ilə bağlı prezident İlham Əliyevə məlumat verdi.*

*Bu təhsil ocağının yenidən qurulmasına dövlətimizin başçısının sərəncamı ilə 2012-ci ildən başlanılıb. Məktəbin binası tamamilə sökülərək yerində müasir və memarlıq baxımından zövq oxşayan altımərtəbəli bina inşa olunub.*

*Foyedə ulu öndər Heydər Əliyevin büstü və Azərbaycan bayrağı qoyulub. Burada ümummilli liderin və prezident İlham Əliyevin təhsilə qayğılarını əks etdirən fotostendlər yaradılıb.*

*Məktəbdəki Heydər Əliyev Muzeyi də eksponatlarının zənginliyi ilə seçilir. Burada ulu öndərin həyatı və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən maraqlı fotolar, sənədlər və kitablar toplanılıb. Təhsil ocağında, həmçinin məktəbəqədər hazırlıq kursları da nəzərdə tutulur. Hazırda məktəb 2163 şagird yerlikdir. Yenidənqurmadan əvvəl isə bu təhsil ocağı cəmi 500 yerlik olub. Burada 80 sinif otağı və 11 fənn kabineti var. Məktəb ingilis dili təmayüllüdür. Burada 2 xarici dil tədris olunur. Rus bölməsində alman, Azərbaycan bölməsində isə rus dili tədris ediləcək. Hazırda məktəbdə 64 sinif var.*

*Azərbaycanda təhsil sisteminin inkişafına mühüm töhfələr verən Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bu məktəbin yenidən qurulması prosesini daim diqqətdə saxlayıb. Ötən il iyunun 11-də Azərbaycanın birinci xanımı burada aparılan yenidənqurma işlərinin gedişi ilə tanış olub, tövsiyə və təkliflərini verib. Məktəbdə şagirdlərin yüksək səviyyədə təhsili üçün hər cür şərait yaradılıb. Məktəb lazımi avadanlıq və ləvazimatlarla təchiz edilib. Bu təhsil ocağında müasir havalandırma və işıqlandırma sistemləri qurulub. Burada məktəbin muzeyi də yaradılıb. Muzeydə məktəbin direktorları, məzunları və bu təhsil ocağının əldə etdiyi nailiyyətlərlə bağlı maraqlı məlumatlar var.*

*23 saylı məktəb həmişə öz məzunları ilə fəxr edib. Məzunlar arasında bu gün təhsil konsepsiyasının reallaşmasına önəmli töhfə verən, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva da var. 1982-ci ildə bu təhsil ocağını qızıl medalla bitirən Mehriban Əliyeva 2002-ci ildə ona doğma olan*

*pedaqoji kollektivi xoş əməli ilə sevindirib. Təhsil ocağının müasir standartlara uyğun yenidən qurulmasına kömək edib. 23 saylı məktəb 2003–2004-cü təhsil ilində təlim-tərbiyə prosesində yüksək göstəricilərə görə Bakı şəhəri üzrə ən yaxşı təhsil müəssisəsi adına layiq görülüb. Bu təhsil ocağı ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda şəhid olmuş Milli Qəhrəman Tahir Həsənovun adını daşıyır.*

*Buradakı bütün sinif otaqları və ayrı-ayrı fənn kabinetləri ən müasir standartlar səviyyəsindədir. Hazırda məktəbdə 1 növbədə həm Azərbaycan, həm rus bölməsi fəaliyyət göstərir. Yenidən-qurma işləri çərçivəsində məktəbin sahəsi 7 min kvadratmetrdən 22 min kvadratmetrə çatdırılıb. Məktəbdə Mehriban Əliyevanın təşəbbüsü ilə şagirdlərin yaradıcılıq potensialını üzə çıxarmaq üçün rəsm, musiqi və heykəltəraşlıq otaqları yaradılıb. Məktəbdə ibtidai hərbi hazırlıq dərsləri üçün xüsusi kabinet də ən yüksək standartlara cavab verir. Burada, həmçinin milli qəhrəmanların fotolarından ibarət stend də yaradılıb.*

*Təhsil ocağının gimnastika və idman zalları, kitabxanası, linqafon və kompüter otaqları, tibb məntəqəsi var. 314 yerlik akt zalında müxtəlif tədbirlərin keçirilməsi üçün bütün imkanlar yaradılıb.*

*Dövlətimizin başçısı İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və ailə üzvləri məktəbin şagirdlərinin hazırladığı ədəbi-bədii kompozisiyaya tamaşa etdilər.*

*Sonra məktəbin şagirdləri Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya ad günü münasibətilə təbriklərini çatdırdılar.*

*Beləliklə, məktəbdə yaradılan şərait bir daha sübut edir ki, bu təhsil ocağı bundan sonra da özünün yüksək göstəriciləri ilə milli təhsil sisteminə töhfəsini verərək, tarixi şöhrətini qoruyub saxlayacaq. Təhsilin modernləşdirilməsi və bu sahədə mühüm keyfiyyət dəyişikliyinə nail olunması isə Azərbaycanın inkişafının uzunmüddətli olmasına möhkəm zəmin yaradır.*

## «MƏDƏNİYYƏTLƏRARASI DİALOQ: MƏDƏNİYYƏT VƏ DİN ARASINDA QARŞILIQLI ƏLAQƏ» MÖVZUSUNDA 2014-cü İL MƏDƏNİYYƏTLƏRARASI DİALOQUN DİNİ ÖLÇÜSÜ ÜZRƏ AVROPA ŞURASININ MÜBADİLƏ GÖRÜŞÜNÜN İŞTİRAKÇILARINA

Hörmətli görüş iştirakçıları!

Sizin hamınızı tolerantlıq məkanı kimi tanınan Azərbaycanda səmimi-qəlbdən salamlayır, hər birinizə cansağlığı, uzun ömür və müvəffəqiyyətlər arzulayıram.

Fərqli dinlərə və inanclara mənsub insanların əsrlərdən bəri qarşılıqlı anlaşma şəraitində yaşadığı Bakı şəhərində toplaşmağınız rəmzi xarakter daşıyır. Müzakirə etdiyiniz məsələlərin müasir Avropa üçün taleyüklü rol oynadığını nəzərə alaraq xüsusi qeyd etmək lazımdır ki, tarixən bu qitədə müxtəlif dinlər xalqların mənəvi zənginləşməsinə əhəmiyyətli təsir göstərmişdir. Bu mənəvi zənginləşmə cəmiyyətin bütün təbəqələrinə sirayət edərək, əslində onun bütövlüyünün vacib şərtlərindən birinə çevrilmişdir. Eyni zamanda, təhsildə, mədəniyyətdə və gənc nəslin tərbiyəsi ilə bağlı digər sahələrdə yüksək dözümlülük mühitinin formalaşdırılması da hazırkı dövrün başlıca vəzifələrindəndir. Azərbaycanda bu istiqamətdə konkret addımlar atılmaqdadır.

Yeni yaradılmış Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi məhz dünyada mədəni müxtəlifliyin ayrı-ayrı modellərinin tədqiqini və əldə olunan müsbət təcrübənin təbliğini qarşısına məqsəd qoymuşdur. Ümidvaram ki, Mərkəz öz fəaliyyəti ilə insanlığın böyük mənəvi sərvəti olan mədəni rəngarəngliyin daha dərindən araşdırılması işində uğurlar qazanacaq, xoşməramlı niyyətlərimizin ümumbəşəri tarixi-mədəni və dini-

mənəvi dəyərlər müstəvisində gerçəkləşməsi üçün əlverişli zəmin hazırlayacaqdır.

Sürətlə qloballaşan dünyada mövcud siyasi, iqtisadi və mədəni proseslər hər bir ölkədən zamanın təxirəsalınmaz çağırışlarına adekvat cavab verməyi tələb edir. Bu isə dövlətlərarası əməkdaşlığın inkişaf etdirilməsi, yeni kreativ təfəkkürün və innovativ mühitin bərqərar olunması, eləcə də insanın dini əqidəsinə hörmətlə yanaşılması, irqçiliyin və dözümsüzlüyün hər hansı təzahürünün ləğvi ilə mümkündür. İnanıram ki, Sizin görüşünüz ümumavropa məkanında arzu olunan mühitin yaradılması prosesinə layiqli töhfəsini verəcək və yekun qərarlarınız Avropa ailəsinin bütövlükdə inkişafına xidmət göstərəcəkdir.

Bu nəcib işdə sizə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 avqust 2014-cü il*

## MALAYZİYANIN XIV ALİ BAŞÇISI ƏLAHƏZRƏT ƏL-MUTASİMU BİLLAHİ MUHİBBUDDİN TUANKU ƏL-HAC ABDUL HALİM MUADZAM ŞAH İBNİ ƏL-MƏRHUM SULTAN BADLİŞAHA

Əlahəzrət!

Malayziyanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Malayziya xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 avqust 2014-cü il*

**QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALMAZBEK ATAMBAYEVƏ**

Hörmətli Almazbek Şarşenoviç!

Qırğızıstanın milli bayramı – Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Əminəm ki, Azərbaycan ilə Qırğızıstan arasında ənənəvi dostluq münasibətləri və əməkdaşlıq xalqlarımızın rifahı, ölkələrimizin firavanlığı naminə bundan sonra da hərtərəfli və dinamik inkişaf edəcəkdir.

Hörmətli Almazbek Şarşenoviç, Sizə möhkəm cansağlığı və uğurlar, qardaş Qırğız xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 avqust 2014-cü il*

## BEYLƏQAN RAYONUNA SƏFƏR

*28 avqust 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Beyləqan rayonuna səfərə gəlmişdir.*

### Hacıqabul–Bəhrəmtəpə avtomobil yolunun Şirvan şəhərindən keçən hissəsində–Kür çayı üzərində inşa olunan körpünün açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Hacıqabul–Bəhrəmtəpə yolunun Şirvan şəhərindən keçən hissəsində – Kür çayı üzərində inşa olunan avtomobil körpüsünün açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, mühüm strateji ərazidə yerləşən və artıq xeyli vaxt idi ki, istismar müddəti başa çatmış dəmir konstruksiyalı körpü nəqliyyat vasitələrinin hərəkətində ciddi problemlər yaradırdı. Dəfələrlə cari təmir işlərinin aparılmasına baxmayaraq, körpünün yenisi ilə əvəz olunması zərurətə çevrilmişdi. Dövlət başçısının tapşırığına əsasən 2011-ci ildən başlayan tikinti işləri yekunlaşıb və yeni, müasir standartlara uyğun körpü artıq istismara hazırdır.*

*Yeni tikilən körpünün yanaşma yolları ilə birlikdə ümumi uzunluğu 1400 metr, körpünün özünün uzunluğu 317 metr, eni isə 15 metrə yaxındır. NK-100 standartına uyğun olaraq salınan körpü 2 orta, 2 yan dayaq üzərində qurulub və 9 bal gücündə zəlzələyə davamlıdır.*

*Prezident İlham Əliyev körpünün rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Nəqliyyat Nazirliyinin sifarişi ilə yerli «Evrascon» ASC tərəfindən layihə icra olunarkən mövcud köhnə körpüdə də təmir işləri aparılıb və o, ehtiyatda saxlanılacaq.*

## Hacıqabul–Bəhrəmtəpə avtomobil yolunun Bulaqlı–Bəhrəmtəpə hissəsinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Saatlı rayonu ərazisində Hacıqabul–Bəhrəmtəpə avtomobil yolunun Bulaqlı–Bəhrəmtəpə hissəsinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına yolun texniki göstəriciləri barədə məlumat verildi. Bildirildi ki, ikinci texniki dərəcəli yolun uzunluğu 72 kilometr, eni isə 15 metrdir. Tikintinin gedişində layihə üzrə yol üzərində 8 yeni körpü inşa edilib, 109-u yolda, 63-ü yanaşma yollarda olmaqla, 172 suötürücü boru qoyulub və digər infrastruktur işləri görülüb.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Yeni yol çoxlu sayda kəndlər də daxil olmaqla, bu istiqamətdə yerləşən rayonların əhalisinin daha rahat və təhlükəsiz hərəkətinə geniş imkanlar açıb.*

## Beyləqandakı Heydər Əliyev parkında ümummilli liderin abidəsini ziyarət

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Beyləqan rayonundakı Heydər Əliyev parkında ümummilli liderin abidəsini ziyarət etmiş, önünə gül dəstəsi qoymuşdur.*

*Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Abdullayev prezident İlham Əliyevə abidə ətrafında aparılan abadlıq və tikinti işləri barədə məlumat verdi. Bildirildi ki, əsaslı şəkildə yenidən qurulan Heydər Əliyev parkında rayon sakinləri, eləcə də qonaqların istirahəti üçün hər cür şərait yaradılıb.*

## Gənclər Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Beyləqanda Gənclər Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bildirildi ki, mərkəzin binasında inşaat işləri yüksək keyfiyyətlə həyata keçirilib.*

*Binanın foyesində ümummilli lider Heydər Əliyevin Beyləqana səfərlərini əks etdirən fotolardan ibarət guşə yaradılıb. Burada, həmçinin prezident İlham Əliyevin rayona səfərlərini və gənclərlə görüşlərini əks etdirən fotolardan ibarət stend var.*

*Mərkəzdə gənclər kafesi, tir atıcılıq mərkəzi, karaoke, 3D kino zalları fəaliyyət göstərəcək. Binadakı 120 yerlik iclas və 14 yerlik akt zallarında gənclərin müxtəlif toplantı və görüşlərinin keçirilməsi üçün bütün şərait var. Bu zallarda rayonda qeyd edilən əlamətdar günlərlə bağlı tədbirlər keçirmək də mümkün olacaq. Burada yaradılan elektron kitabxana, oxu zalı, linqafon otağı, internet-kafe, bədii gimnastika və rəqs zalları da gənclərin ixtiyarına veriləcək.*

*Belə mərkəzləri yaratmaqda və belə tədbirləri reallaşdırmaqda əsas məqsəd yetişməkdə olan nəslin cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirakına stimul verməkdir. Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, gənclərin intellektual və yaradıcı potensialının üzə çıxarılması, xüsusilə regionlarda yaşayan gənclərin fəallığının artırılması istiqamətində məqsədyönlü layihə və proqramlar davamlı xarakter alıb. Bölgələrdə müasir tələblərə cavab verən sosial infrastruktur obyektlərinin və gənclər mərkəzlərinin istifadəyə verilməsi də məhz həmin məqsədlərə xidmət edir.*

*Mərkəzlə tanışlıqdan sonra prezident İlham Əliyev rayon gənclərinin və ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

## YENİ İSTİFADƏYƏ VERİLƏN GƏNCLƏR MƏRKƏZİNDƏ RAYON GƏNCLƏRİNİN VƏ İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*28 avqust 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Beyləqanda Gənclər Mərkəzinin açılışından və mərkəzlə tanışlıqdan sonra rayon gənclərinin və ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.*

**İlham Əliyev:** Bu gün Beyləqan rayonunda Gənclər Mərkəzi açılır. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Çox gözəl mərkəzdir və qısa müddətdə – il yarım ərzində tikilmişdir. Gənclərin burada asudə vaxtlarını səmərəli şəkildə keçirmələri üçün bütün şərait, bütün imkanlar var.

Son vaxtlar ölkəmizin müxtəlif bölgələrində gənclər mərkəzləri tikilir. Bu məni çox sevindirir. Çünki bizim gənclər siyasətimiz çox dəqiqdir, çox səmərəlidir və gözəl nəticələr verir. Qarşıya vəzifə qoyulub ki, hər bir şəhərdə müasir Gənclər Mərkəzi tikilsin. Burada gənclər həm istirahət etsinlər, həm də öz biliklərini artırsınlar və bir-biri ilə ünsiyyətdə olsunlar.

Bildiyiniz kimi, əvvəlki dövrdə biz olimpiya mərkəzlərinin tikintisi ilə ciddi məşğul idik. Bu proses bu gün də davam edir və fürsətdən istifadə edərək, demək istəyirəm ki, Beyləqan rayonunda da müasir Olimpiya İdman Mərkəzinin tikintisi nəzərdə tutulur. Bax, burada bu dəqiqə Gənclər və İdman Nazirliyinə göstəriş verirəm ki, layihəni hazırlasınlar və tezliklə tikintiyə başlasınlar. Yer də seçilibdir və hesab edirəm ki, biz tezliklə gözəl idman mərkəzini də yaradacağıq.

Gənclər mərkəzlərinin yaradılması da gənclər siyasətinin tərkib hissəsidir. Bizim gənclərimiz həm fiziki cəhətdən sağlam, həm də bilikli, savadlı olmalıdırlar. Deyə bilərəm ki, olimpiya

mərkəzlərinin yaradılması nəticəsində bu gün Azərbaycanda nəinki peşəkar idman sürətlə inkişaf edir, gənclər, yeniyetmələr də idmana böyük maraq göstərirlər və gözəl nəticələr əldə edirlər. Azərbaycan bu gün dünya miqyasında idman dövləti kimi tanınır. Son Olimpiya oyunlarında böyük qələbə – 10 medal qazanmışıq və komanda hesabında 30-cu yerə layiq görülmüşük. Əlbəttə ki, gənc idmançılarımızın hazırlanması işində bölgələrdə fəaliyyət göstərən olimpiya mərkəzləri xüsusi yer tutur.

Onu da qeyd etməliyəm ki, dünən Çində yeniyetmələrin Olimpiya oyunları başa çatdı, bizim gənc idmançılarımız çox böyük qələbələr əldə etdilər. Bu münasibətlə onları, məşqçilərini, bütün idman ictimaiyyətimizi təbrik edirəm. Azərbaycan komanda hesabında 10-cu yerdədir. Bu Olimpiya oyunlarında 200-dən çox ölkə təmsil olunurdu. Azərbaycan 10-cu yerdədir. Avropa ölkələri arasında 6-cı, müsəlman ölkələri arasında isə 1-ci yerdədir. 12 medal qazanmışıq, onlardan 5-i qızıl medaldır. Bu bir daha onu göstərir ki, gənclərimiz nə qədər istedadlıdır, güclüdür və Vətənə bağlıdır.

Bu yaxınlarda Ümumdünya Şahmat Olimpiadası da keçirilmişdir. Orada da Azərbaycan idmançıları ən yüksək yerlərə qalxmışlar və deyə bilərəm ki, həm Ümumdünya Şahmat Olimpiadasında, həm yeniyetmələrin Olimpiya oyunlarında Azərbaycan Ermənistandan qat-qat yüksək pilləyə qalxmışdır. Bu onu göstərir ki, biz həm fiziki, eyni zamanda, intellektual cəhətdən daha güclüyük, üstünük və bu üstünlük hər yerdə özünü büruzə verir. Ermənistan ilə Azərbaycan iqtisadiyyatları müqayisəedilməzdir. Bizim iqtisadiyyatımız Ermənistan iqtisadiyyatından təxminən 20 dəfə böyükdür. İdmanda, həm Olimpiya oyunlarında, həm yeniyetmələrin Olimpiya oyunlarında, intellektual oyunlarda – hər yerdə biz üstünlüyü əldə etmişik. O cümlədən döyüş meydanında Azərbaycan üstünlüyü əldə edibdir və təmas xəttində Azərbaycan öz iradəsini diktə edir.

Azərbaycan ictimaiyyəti bilir ki, bu ayın əvvəlində Ermənistan təmas xəttində təxribat törətmək istəmişdi. Ancaq Azərbaycan Ordusu düşmənə layiqli cavab vermişdir. Onlarla

işğalçı məhv edilmişdir və onların təxribatı baş tutmamışdır. Bu təxribatın səbəbləri də aydındır. Bildiyiniz kimi, Soçi görüşü ərəfəsində Ermənistan rəhbərliyi çalışırdı ki, özü üçün daha da münasib mövqe əldə etsin və Azərbaycanı qane etməyən hansısa məsələyə razı sala bilsin. Ancaq bu, baş tutmadı və əksinə, Azərbaycanın mövqeyi Soçidə daha da güclü səsləndi, qəhrəman Azərbaycan əsgərləri və zabitlərinin cəsarəti nəticəsində düşmənə sarsıdıcı zərbə vuruldu və hələ ki, onlar o zərbədən özlərinə gələ bilmirlər.

Ermənistanda təlaş, təşviş hökm sürür və ən yüksək səviyyədə etiraf olunur ki, ölkədən kütləvi şəkildə köç başlanıb. Daha doğrusu, bu proses çoxdan gedir. Sadəcə olaraq, təmas xəttindəki son hadisələr bunu daha da sürətləndirib. On minlərlə erməni vətəndaşı ölkəni həmişəlik tərk edir və son hadisələr bu prosesə yeni təkan vermişdir. Düzdür, Ermənistan rəhbərliyi bunu izah etmək üçün müxtəlif üsullara əl atır. Bu yaxınlarda hətta etiraf edilmişdir ki, bunun əsas səbəbi diasporun güclü olmasıdır, eyni zamanda, Qarabağ münaqişəsidir. Yəni artıq Ermənistan rəhbərliyi etiraf edir ki, demoqrafik böhranın əsas səbəbi qorxudur. Ermənistan cəmiyyəti qorxu içindədir. Əlbəttə, güclənən Azərbaycan və qüdrətli Azərbaycan Ordusu, qəhrəman Azərbaycan əsgəri onlar üçün daim qorxu mənbəyidir və bu qorxunu aradan qaldırmaq üçün sadəcə olaraq, Ermənistan beynəlxalq hüquq normalarına əməl etməlidir və işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxmalıdır. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi də bunu tələb edir. Əminəm ki, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Beynəlxalq hüquq normaları bizim mövqemizi dəstəkləyir. Azərbaycan dünya miqyasında nüfuz sahibidir və bizimlə hesablaşırlar, məsləhətləşirlər. Bu gün bizim beynəlxalq nüfuzumuz yüksək səviyyədədir.

Biz Ermənistanı iqtisadi cəhətdən dəfələrlə üstələyirik. Hərbi potensial baxımından Azərbaycan Ordusu nəinki Ermənistanla müqayisədə, ümumiyyətlə, dünya miqyasında güclü ordular sırasındadır. Gündən-günə gücümüz artır. Bilirsiniz ki, böyük

vəsait ayrılır və ayrılacaqdır. Hərbi xərclər bizim dövlət büdcəmizin əsas xərcləridir və bu, gələcək illərdə də belə olacaq. Biz xərcləri artıracağıq. Ordumuzun peşəkarlığı artır, vətənpərvərlik ruhu yüksək səviyyədədir və Azərbaycan cəmiyyəti bir amal uğrunda birləşibdir. Bu, Azərbaycanın inkişafı, müasir dövlət quruculuğu prosesi və işğal edilmiş ərazilərimizin qaytarılması məsələləridir. Bu işdə, əlbəttə ki, gənclərin xüsusi rolu vardır.

Mən şadam ki, bizim gənclərimiz vətənpərvərdirlər və milli ruhda böyüyürlər, tərbiyə alırlar. Bu çox önəmlidir, gənclərlə çoxsaylı görüşlərim əsnasında mən bu məsələlərə xüsusi diqqət yetirirəm. Bizim gənclərimiz bilikli, savadlı olmalıdırlar. Çünki müasir dünyada bilik, savad, demək olar ki, hər şeyi həll edir.

İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, o uğurların təməlində intellektual potensial, texnoloji tərəqqi, elmin inkişafı və təhsilin səviyyəsi dayanır. Gələcəkdə bu amillər daha da böyük rol oynayacaq. Çünki bu gün istər iqtisadi sahədə, istər sənaye istehsalının inkişafında, hər bir sahədə müasir texnologiyalar hər şeyi həll edir. Ona görə bizim gənclərimiz yaxşı oxumalı, bilik sahibi olmalı, peşəkar olmalıdırlar. Çünki bu gün Azərbaycanda bütün imkanlar var. İqtisadiyyat inkişaf edir, yeni iş yerləri, yeni sənaye müəssisələri, xidmət sahələri açılır ki, peşəkar kadrlara böyük ehtiyac var. Mən çox istəyirəm ki, bizim əsas, aparıcı sahələrimizin inkişafında Azərbaycan gəncləri öz rolunu oynasın. Belə göstərişlər verilmişdir. Ona görə bilik, savad, əlbəttə ki, hər bir gənc üçün, ölkə üçün, gələcəyimiz və hər bir insan üçün prioritet olmalıdır. Çünki əgər biliyin, savadın varsa, sən gələcəkdə özün üçün layiqli yer tapa bilərsən, yaxşı işlə təmin olunarsan, yaxşı maaş alarsan və beləliklə, həm özün, həm ölkə üçün daha da böyük fayda verə bilərsən.

Gənclər fiziki cəhətdən sağlam olmalıdır. Əlbəttə ki, burada həm idmanın inkişafının, həm olimpiya komplekslərinin tikintisinin mühüm rolu var, hər bir insan gənc yaşlarından öz sağlamlığına fikir verməlidir. İndi ölkəmizin bütün yerlərində müasir diaqnostika mərkəzləri, xəstəxanalar fəaliyyət göstərir. Hər bir insan gərək ildə 1 dəfə müayinədən keçsin. Yəqin sizin də

xəbəriniz var ki, son vaxtlar Azərbaycanda kütləvi şəkildə dispanserizasiya aparılmışdır. Yüz minlərlə insan pulsuz müayinədən keçib. Bu müayinələr nəticəsində xəstəliklər də aşkarlanıb və onların müalicəsi təmin edilib. Yəni fiziki sağlamlıq, bilik, savad, mənəvi sağlamlıq vacibdir.

Bizim gözəl ənənələrimiz, milli dəyərlərimiz var. Biz onları qoruyuruq və siz gənclər onları yaşatmalısınız. Bu, böyük bir mirasdır, böyük mədəni irsdir, bizim zənginliyimizdir. Bizim musiqimiz, xalçaçılıq sənətimiz, incəsənətimiz, ədəbiyyatımız, ana dilimiz – bütün bunlar bizim ən böyük sərvətlərimizdir. Biz bu sərvətləri bütün dövrlərdə – çar Rusiyası, Sovet İttifaqı dövrlərində qorumuşuq. Ona görə bir xalq kimi, biz bu gün inkişaf edirik. Özümüzü dünyaya təqdim etmişik. Əlbəttə ki, biz müstəqillik dövründə bu dəyərləri daha da qorumalıyıq. Dövlət siyasəti var və mən prezident kimi, bu məsələlərə xüsusi diqqət göstərirəm. Bütün dövlət qurumları, eyni zamanda, ictimai təşkilatlar bu işlərlə məşğul olurlar. Ancaq burada ardıcıllıq təmin edilməlidir. Bu ardıcıllığı siz gənclər təmin edəcəksiniz. Ona görə gənclər milli ruhda tərbiyə almalıdırlar. Bunu biz məktəblərdə də, ailələrdə də təşkil etməliyik. Bizim milli ənənələrimiz var. Biz onları qiymətləndiririk. Onlar bizim həyatımızın əsasıdır.

Azərbaycanın dəyərləri bizim üçün əsas dəyərlərdir. Əlbəttə ki, biz ümumbəşəri dəyərləri bölüşürük. Azərbaycan dəyərləri ümumbəşəri dəyərlərin tərkib hissəsidir. Ancaq bizim xalqımızın özünə xas olan dəyərləri var. Biz onları qoruyuruq, qorumalıyıq. Əlbəttə ki, gənclər Vətənə bağlı olmalıdırlar. Bu gün Azərbaycan o qədər sürətlə inkişaf edir ki, Vətəni sevən hər bir insan qürur hissi ilə deyir: mən Azərbaycan vətəndaşıyam! Ümumiyyətlə, hər bir insan öz Vətənini sevməlidir. Ancaq daha çox inkişaf etmiş ölkələrdə təbii ki, bu özünü daha da yüksək səviyyədə büruzə verir. Hesab edirəm ki, vətənpərvərlik, bilik, savad, fiziki hazırlıq, öz keçmişinə bağlılıq, milli ruhda tərbiyə bizim üçün əsas amillər olmalıdır.

Əlbəttə, dövlət siyasətimiz bu istiqamətdə aparılır. Biz islahatları dərinləşdiririk. Azərbaycanda azad cəmiyyət forma-

laşıbdır, bütün demokratik təsisatlar var və onlar uğurla fəaliyyət göstərir. Bütün azadlıqlar – söz azadlığı, vicdan azadlığı, mətbuat azadlığı, internet azadlığı var. Heç bir senzura yoxdur. Siz gənclər bunu yaxşı bilirsiniz. «Facebook», «Twitter», internet – indi 1 milyondan artıq Azərbaycan vətəndaşı «Facebook»da fikirlərini paylaşır və yaxud hansısa məlumat əldə edir. Heç də hər bir ölkədə belə deyil, senzuralar, məhdudiyyətlər vardır. İndi bəzi digər tədbirlər görülür. Bizdə isə bu sərbəstdir, azaddır. Çünki Azərbaycan cəmiyyəti azad cəmiyyətdir və bu bizim böyük nailiyyətimizdir. Ona görə siyasi islahatların, eyni zamanda, iqtisadi islahatların dərinləşməsi nəticəsində son 10 ildə 1 milyondan artıq yeni iş yeri açılmışdır. Bu proses davam edir və davam etməlidir. Çünki bizim əhalimiz artır.

Ermənistandan fərqli olaraq, bizdə demoqrafik vəziyyət çox müsbətdir. Hər il orta hesabla 170–180 min körpə dünyaya gəlir. Beləliklə, iş yerlərinin açılması daimi proses olmalıdır. Çünki əhalinin artımı, əlbəttə ki, bizim üçün böyük güc mənbəyidir. Əhali artır və artmalıdır. Bu, hökuməti də düşündürür. Çünki iş yerlərinin, yeni müəssisələrin açılması gərək elə sürətlə getsin ki, işsizlik aşağı səviyyədə olsun. Hazırda işsizlik 5 faiz səviyyəsindədir. Bəzi bölgələrdə işsizlik orta hesabla daha yüksəkdir. Biz bunu bilirik, bu məsələlər üzərində işləyirik. Yəni bütün sahələr üzrə islahatlar aparılır və aparılacaqdır. Ölkəmizin uğurlu inkişafı təmin ediləcəkdir. Ancaq bütün bu işlərin əsasında, təməlində bizim milli dəyərlərimiz dayanır.

Bu gün nəinki bizim üçün, bütün ölkələr üçün müəyyən təhlükələr var. Yəni qloballaşma və digər proseslər gedir. İndi bəzi xarici dairələr qloballaşma adı altında öz iradələrini tətbiq etmək istəyirlər. Xüsusilə gənclər arasında iş aparılır, müxtəlif fondlar vasitəsilə guya ki, hansısa layihələrin icrası üçün vəsait ayrılır. Əslində gəncləri öz dövlətinə qarşı çevirmək, istiqamətləndirmək üçün işlər aparılır. Biz bunları bilirik.

Bu gün Azərbaycanın uğurlu inkişafını heç də hər kəs qəbul etmir. Ölkə daxilində də milli satqınlar var ki, onlar xarici antiazərbaycan dairələrinə öz vicdanlarını satıblar. Xarici dairələr

var ki, çalışırlar Azərbaycanda sabitlik pozulsun, inkişaf dayansın, Azərbaycan asılı vəziyyətə düşsün. Biz bunu bilirik. Mən prezident kimi, gündəlik fəaliyyətimdə bu qüvvələrə qarşı açıq mübarizə aparıram. Ona görə də Azərbaycana qarşı mediada qarayaxma, böhtan kampaniyaları aparılır. Bunun səbəbi odur ki, biz müstəqilliyimizi qoruyuruq. Azərbaycan xalqının haqlı tələbini, müstəqil olmaq arzusunu qoruyuruq, qoruyacağıq. Siz də, gələcəkdə Azərbaycanı idarə edəcək insanlar da, bax, bu yolla getməlisiniz.

İndi heç kəs üçün sirr deyil ki, müxtəlif fondlar vasitəsilə müxtəlif ölkələrdə kütləvi iğtişaşların, qarşıdurmanın yaradılması üçün praktiki addımlar atılır. Əgər 10 il bundan əvvəl bu daha da məxfi formada aparılırdısa, hazırda artıq bütün maskalar yırtılıbdır, heç gizlətmirlər. Məqsəd də odur ki, təbii resurslarla zəngin, böyük potensiala, əlverişli coğrafi mövqeyə malik ölkələr təsir altına düşsün və başqasının diktəsi ilə hərəkət etsin, oturub-dursun. Bu isə o ölkələri məhvə aparır.

Biz yaxın tarixdən bunu bilirik. Bizim qonşuluğumuzda baş vermiş hadisələrin nələrə gətirib çıxardığı da gözümüzün qabağındadır. Bilin ki, Azərbaycan üçün də oxşar ssenarilər yazılmışdı. Sadəcə olaraq, bizim iqtidarımızın dəmir iradəsi imkan vermədi ki, bu ssenarilər burada həyata keçirilsin və heç vaxt imkan verməyəcəyik.

Ona görə siz gənclər bunu yaxşı bilməlisiniz və bizim gənclərimiz xarici dairələrin təsiri altına düşməməlidir. Xarici qüvvələr Azərbaycanın inkişafını bizdən artıqmı istəyir?! Əlbəttə ki, yox. Onların maraqları başqadır və biz bilirik bunun səbəbi nədir. Onlar da bilirlər ki, bu bizimlə keçməyəcək və sizinlə də keçməməlidir. Ona görə siz də bu məsələləri daim diqqət mərkəzində saxlamalısınız.

Bizə xaricdən heç bir yardım, kömək lazım deyil. Lazım olanda onsuz da heç kim bizə kömək etməyib. Azərbaycan ağır vəziyyətdə olanda kim gəlib bizə kömək edib? Heç kim! Mənim yadımdadır, vaxt var idi ki, biz beynəlxalq qurumlardan kredit ala bilmirdik, vermirdilər kredit. Amma indi biz özümüz başqa ölkələrə kredit

veririk. Yəni bizim iqtisadi inkişafımız sırf Azərbaycan dövlətinin, hökumətinin uğurudur və aparılan siyasətin nəticəsidir. Ona görə bizə yardım etmək üçün heç kimə müraciət etməmişik və buna ehtiyac yoxdur. Amma yardım adı altında Azərbaycana hər il milyonlarla dollar pul ötürülür. O pul müxalifət qurumlarının cibinə gedir. Düzdür, bizim müxalifət pula o qədər meyillidir ki, ayrılan qrantların 70–80 faizini öz cibinə qoyur. Ona görə o pullar onu göndərənlərin iradəsi ilə xərclənmir. Ancaq fakt budur. Biz bunu bilirik, burada heç nəyi gizlətmək mümkün deyil. Bütün bank hesablarına nə qədər gəlir, kimə gəlir, o pul sonra hara gedir və bilin ki, verilən o vəsait ölkəmizin maraqlarının əleyhinə işləyən vəsaitdir. Onsuz da o miqdarı lap 10 dəfə artırsalar da bunun xeyri olmayacaq. Çünki Azərbaycanda sabitliyin, inkişafın təminatçısı Azərbaycan xalqıdır, görülən işlərdir, abadlaşan şəhərlər və inkişafda olan ölkəmizdir. Ona görə hesab edirəm ki, Azərbaycanda sabitliyi pozmaq cəhdləri yersizdir. Bunu artıq o cəhdləri edənlər də tamamilə başa düşürlər.

Ancaq biz bunu bilməliyik və siz də bunu bilməlisiniz. Ona görə biz gələcəkdə də ancaq öz gücümüzə güvənəcəyik. Azərbaycan xalqının iradəsi prezident kimi, mənim üçün əsasdır. Siz gənclər peşəkar, bilikli, həm fiziki, həm mənəvi cəhətdən sağlam olmalısınız və elə etməlisiniz ki, Azərbaycan daim inkişaf etsin və müstəqil ölkə kimi, daim öz sözünü desin, formal olaraq yox, real. Çünki dünyada 200-dən çox müstəqil ölkə var. Bu ölkələrin hamısı müstəqil deyil. Elə götürək Ermənistanı. O ölkəyə müstəqil ölkə demək mümkün deyil. O bir koloniyadır, müstəmləkədir və qul psixologiyası ilə yaşayan Ermənistan iqtidarı ölkəni artıq tamamilə asılı vəziyyətə salıbdır. İnanmıram ki, erməni xalqının arzuladığı müstəqillik bu gün onları təmin edir. Hər bir xalq, insanlar kimi, ölkələr də istəyir ki, müstəqil olsun, öz sözünü desin, heç kimdən asılı olmasın. İnsan üçün azadlıq ən böyük dəyərlərdən biridir. Hər kəs dünyaya azad gəlir və azad olmaq istəyir, təbii ki, qanun çərçivəsində. Ona görə real müstəqilliyi əbədi, dönməz etmək üçün sizdən çox şey asılıdır.

Mən deyə bilərəm ki, Azərbaycan gəncləri öz vətəninə bağlıdırlar, onlar ölkəmizin inkişafına böyük töhfə verirlər. Mən sadəcə olaraq, istəyirəm ki, bu məsələ ilə bağlı öz sözümü deyim, sizə öz məsləhətlərimi verim və siz də bunu rəhbər tutaraq gələcəkdə öz fəaliyyətinizi uğurla davam etdirəsiniz. Bir daha sizi salamlayıram və bu gözəl mərkəzin açılışı münasibətilə təbrik edirəm.

**A y t ə n  M i r z ə y e v a** (*gənclər adından çıxış edən müəllimə):* Möhtərəm cənab Prezident!

Sizi rayonumuzun ictimaiyyəti, gəncləri adından salamlayıram. Xoş gəlmisiniz! Sizin rəhbərliyinizlə doğma Azərbaycanımız son 10 ildə böyük inkişaf yolu keçib. Bu gün gənclərimizin hərtərəfli inkişafı üçün hər cür şərait yaradılıb. Bölgələrimizdə açılan Heydər Əliyev mərkəzləri, olimpiya idman kompleksləri, gənclər mərkəzləri, yeni məktəblər, klublar, kitabxanalar bu gün biz gənclərin istifadəsindədir. Dünyanın heç bir ölkəsində gənclərə bu qədər diqqət və qayğı göstərilmir.

Bu gün Beyləqan gəncləri üçün də əlamətdar bir gündür. İstifadəmizə gözəl Gənclər Mərkəzi verilib. Sizin tapşırığınızla inşa edilən bu mərkəz biz gənclərin fəaliyyətini artıracaq, asudə vaxtlarımızın səmərəli təşkili üçün bizə yardımçı olacaqdır. Bunun üçün Sizə dərin minnətdarlığımızı bildiririk.

Möhtərəm cənab Prezident, Siz gənclərə Vətəni sevməyi, ona sədaqətli olmağı öyrədirsiniz. Bu gün regionlarımıza gəzintilər təşkil edilir. «Azərbaycanı tanıyaq» devizi altında təşkil edilən bu gəzintilərdə gənclərimiz ölkəmizin mədəniyyətini, tarixini, müstəqillik illərində əldə edilmiş nailiyyətlərimizi dərindən öyrənirlər. Bu məqsədlə təşkil edilən gəzintilərdə Beyləqan rayonunun şagirdləri də iştirak ediblər. Onlar Şəki şəhəri, Qəbələ və İsmayıllı rayonlarında olublar.

Bu gün müasir Azərbaycanımızın Heydər Əliyev Mərkəzi, Alov Qüllələri, Dövlət Bayraq Meydanı kimi rəmzləri vardır. Son günlərdə açılışını etdiyiniz Xalça Muzeyi də nadir memarlıq nümunəsidir. Bu, Azərbaycanımızın gücünü,

qüdrətini bir daha sübut edir. Biz bugünkü Azərbaycanımızla fəxr edir və qürur duyuruq.

Ölkəmiz üçün gördüyünüz işlərdə Sizə yaxından kömək göstərən Mehriban xanımın fədakar əməyini xüsusilə qeyd etmək istəyirəm. Məhz onun əməyinin sayəsidir ki, bu gün dünya musiqi xəzinəsinin incisi hesab edilən Azərbaycan muğamı bütün dünyada tanınır. Fürsətdən istifadə edib Mehriban xanımı ad günü münasibətilə bütün beyləqanlılar adından təbrik edir, ona uzun ömür, cansağlığı, işlərində yeni-yeni uğurlar arzulayıram.

Möhtərəm cənab Prezident, bu gün Vətənini, xalqını, millətini sevən, onun şərəfini uca tutan və onunla fəxr edən Azərbaycan nəsli yetişir. Azərbaycan gəncləri fəxr edir ki, Sizin kimi prezidenti var. Əminliklə deyə bilərəm ki, bu günün gəncləri Sizinlə həmfikir, məsləkdaş və silahdaşdırlar. Bir daha təşəkkür və minnətdarlığımı bildirirəm. Diqqətinizə görə sağ olun!

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**Ə z i z Ə k b ə r o v** *(rayon sakini):* Möhtərəm cənab Prezident! Məndən öncə çıxış edən gənc balamız Sizin gənclər üçün gördüyünüz işlərdən, yaratdığınız şəraitdən söhbət açdı. Doğrudan da bütün ölkədə olduğu kimi, Beyləqanda da gənclərin tərbiyəsi üçün böyük işlər görülür, onlara xüsusi qayğı göstərilir. Bütün bu diqqət və qayğıya görə, cənab Prezident, Sizə rayon ictimaiyyəti adından yeni-yeni uğurlar arzulayıram.

Respublikamızda bütün sahələrin inkişafına Sizin diqqət və qayğınız göz qabağındadır. Hər bir vətəndaşın problemi Sizin probleminiz kimi, daim diqqət mərkəzinizdədir. Bütün bunlar Sizin gündəlik gördüyünüz işlərdə öz əksini tapır.

Son illər Beyləqanımız sürətlə inkişaf edir, şəhərimiz gündən-günə gözəlləşir, yeniləşir, abadlaşır. Şəhərdə parklar, xiyabanlar tikilib, mərkəzlər yaradılıb, tibb məntəqələri, məktəblər, uşaq bağçaları istifadəyə verilib, yollar salınıb. Şəhər əhalisinin problemləri həll olunur. Bu yaxınlarda rayon

əhalisinin uzun müddətdən bəri əziyyət çəkdiyi susuzluq problemi həll olunacaq, su-kanalizasiya sistemi tikilib istifadəyə veriləcək. Əhalinin böyük bir qismi artıq işlə təmin olunub. Sizin tapşırığınızla yaradılmış taxılçılıq təsərrüfatının böyük bir hissəsi Beyləqanda yerləşir. Rayonumuzun bütün əhalisi bu təsərrüfatdan ürəkdolusu danışır. Burada xeyli beyləqanlı işlə təmin olunub. Görülmüş bütün bu işlər Beyləqan əhalisinin həyat şəraitinin yaxşılaşmasına xidmət edir. Bütün bunlara görə Sizə öz minnətdarlığımızı bildiririk.

Möhtərəm cənab Prezident, illər, qərinələr, əsrlər ötəcək, Sizin Vətənimiz, xalqımız, Azərbaycanımız üçün göstərdiyiniz böyük fədakarlıq tarixə qızıl hərflərlə yazılacaqdır. Bir ağsaqqal kimi, səmimi-qəlbdən deyirəm ki, Azərbaycan öz tarixinin heç bir dövründə bu qədər güclü inkişafa nail olmayıb. Həqiqətən, bu möcüzədir. Müasir Azərbaycan müstəqil siyasətə, güclü ordu və iqtisadiyyata, yüksək potensiala malik bir dövlətdir.

Mən Sizə, Sizinlə birgə fəaliyyət göstərən Azərbaycan xalqının əzizi, mehribanı olan Mehriban xanıma və ailə üzvlərinizə möhkəm cansağlığı arzulayıram. Eyni zamanda, Azərbaycanın çiçəklənməsi naminə Sizə uğurlar diləyirəm. Qoy Tanrı Sizə yar olsun!

**İ l h a m Ə l i y e v:** Sağ olun. Mən artıq üçüncü dəfədir ki, Beyləqan rayonunda səfərdəyəm. Əvvəlki səfərlərdə də açılışlar olubdur. Bu dəfə də Şahmat məktəbi, Gənclər Mərkəzi, stadion açıldı. İndi artıq Olimpiya İdman Mərkəzinin tikilməsi ilə bağlı qərar verilmişdir. Əvvəlki dövrdə biz əsaslı təmirdən sonra xəstəxananın və digər obyektlərin açılışını qeyd etmişik. Əlbəttə ki, burada sosial infrastrukturun yaradılması vacib məsələdir. Məktəblər, uşaq bağçaları, idman, səhiyyə ocaqları tikilir. Beyləqan rayonunun iqtisadi potensialı da çox böyükdür. Siz də qeyd etdiyiniz kimi, bizim birinci pilot taxılçılıq layihəmiz məhz Beyləqan rayonunda həyata keçirilib. Bu çox uğurlu bir təcrübədir. Artıq bu layihəni biz başqa rayonlarda da həyata keçiririk, orada da tətbiq olunacaqdır. Amma birinci pilot layihəsi məhz Beyləqanda bir neçə min hektar torpaq sahəsində icra edilmişdir. Biz əyani

şəkildə görürük ki, bu layihələrin icrası nəticəsində taxılda məhsuldarlıq orta hesabla təqribən 2 dəfə artmışdır – yəni 50 sentner, bəlkə daha da çox. Ölkə üzrə bu rəqəm təqribən 25-27 sentnerdir. Ona görə iş yerlərinin və bu iri fermer təsərrüfatlarının yaradılması prosesi gələcəkdə də gedəcək.

Əlbəttə ki, Beyləqanın iqtisadiyyatı daha çox kənd təsərrüfatına bağlıdır. Burada böyük imkanlar vardır. Eyni zamanda, həyata keçirilən içməli su və kanalizasiya layihəsi də böyük sosial layihədir. Çünki insanlar təmiz, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin olunacaqlar. Kənd yolları tikilir. Birinci layihə artıq icra edilib. İndi ikinci böyük layihə icra edilir. Bu layihələrin icrası nəticəsində minlərlə, on minlərlə vətəndaşımız yeni kənd yolları ilə təmin ediləcək. Bu yollar onlarla kəndi birləşdirəcək. Bu proses davam etdiriləcək.

Qazlaşdırma prosesi gedir. Beyləqan rayonunda qazlaşdırma 100 faiz olmalıdır. Biz buna nail olmalıyıq. Hesab edirəm ki, 2016-cı ilin sonuna qədər Beyləqan rayonunun qazsız bir kəndi də olmamalıdır. Hazırda ümumi qazlaşdırma təqribən 40 faiz səviyyəsindədir. Biz bunu 100 faizə çatdıracağıq. Hər bir evdə qaz olacaq.

Şəhərdə və ətraf kəndlərdə içməli su, kanalizasiya layihəsi icra edilir. Sosial infrastrukturun yaradılması prosesi davam etdiriləcək. Hələ ki, təmirsiz məktəblər, uşaq bağçaları, digər sosial obyektlər var. Yollar çəkilir. Bu gün səhər mən 2 yol layihəsini açdım. Biri Şirvan şəhərində körpünün açılışı, digəri isə Saatlıda. Artıq Bəhrəmtəpəyə qədər yol çəkilibdir. Bunun Beyləqana, Horadizə qədər davamı olacaq. Orada məsafə o qədər də böyük deyil. Biz yolları dünya səviyyəsində çəkirik, təmir edirik. Bu gün biz artıq həm məktəblərin, həm xəstəxanaların tikintisində Azərbaycan standartlarından da danışa bilərik. Çünki bizdə tətbiq olunan standartlar, keyfiyyət, avadanlıq artıq dünyanın ən yüksək səviyyəsindədir. Biz öz standartlarımızı tətbiq edirik. Azərbaycan xalqı yaxşı yaşamağa layiqdir və yaxşı yaşamalıdır. İqtisadi, sosial cəhətdən təmin olunmalıdır. Çətin vəziyyətdə olanlar üçün sosial proqramlar icra edilir. Kasıb ailələr dövlətdən müavinət alırlar. Biz

iş yerləri yaradırıq ki, insanlar işlə təmin olunsunlar. Yoxsulluq azalsın, yoxsul olmasın, imkanlar olsun və imkanlar da var. İnvestisiyalar qoyulacaq. İnfrastruktura qoyulan investisiyalar artıq Beyləqan rayonunda da canlanmaya gətirib çıxarmışdır. Pilot fermer təsərrüfatlarının yaradılması artıq həyata keçirilib. Bu, davamlı proses olacaq. Siz də, burada yaşayanlar da baxın ki, biz əlavə nə etməliyik. Çünki regionların sosial-iqtisadi inkişafı üzrə üçüncü Dövlət Proqramı artıq icra edilir və 2018-ci ildə başa çatacaqdır. Bu proqramda əsas məsələlər nəzərdə tutulub ki, həll olunsun. Biz ondan sonrakı dövrə də hazırlaşmalıyıq ki, bu, ölkə üzrə hər bir rayonda və hər bir kənddə daimi inkişaf prosesi olsun. Əminəm ki, biz buna nail olacağıq.

Sizi bir daha təbrik edirəm, salamlayıram, sizə yeni uğurlar arzulayıram. Sağ olun.

## Şahmat məktəbinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Beyləqan rayonuna səfəri çərçivəsində Şahmat məktəbinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məktəbin binasında ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin idmançılar, o cümlədən şahmatçılarla görüşləri zamanı çəkilən maraqlı fotolar nümayiş olunur.*

*Buradakı 50 yerlik şahmat yarışı zalı zəruri avadanlıqlarla təchiz edilib. Məktəbin konfrans zalı, sinif və müəllimlər otaqları da müasirliyi ilə diqqəti cəlb edir. Bir sözlə, burada yeniyetmə və gənclərə şahmatın sirlərini öyrətmək üçün bütün imkanlar var.*

*Məktəb binasının orijinal dizaynı burada şahmatın sirlərini öyrənənləri daha da ruhlandırır. Məktəbdə yeniyetmə və gənclərin şahmat kompozisiyalarını daha dərindən öyrənmələri üçün müxtəlif əyani vəsaitlərdən və informasiya-kommunikasiya texnologiyalarının imkanlarından geniş istifadə olunur. Buraya*

*üz tutan gənclər həm asudə vaxtlarını maraqlı keçirir, həm də bilik və bacarıqlara yiyələnirlər.*

*Respublikamızın bütün bölgələrində fəaliyyət göstərən belə şahmat məktəblərində zəngin təcrübə toplayan məktəblilər beynəlxalq səviyyəli yarışlara qatılaraq ölkəmizi yüksək səviyyədə təmsil edirlər.*

**Körpələr evi-uşaq bağçasının açılışı mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə Beyləqanda inşa edilən körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı 80 yerlik körpələr evi-uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Binanın foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin uşaqlara göstərdikləri diqqət və qayğını əks etdirən fotolardan ibarət guşə yaradılıb.*

*Müasir səviyyədə və yüksək keyfiyyətlə inşa edilən binadakı sinif otaqları bütün zəruri avadanlıq, o cümlədən uşaqlarla işləmək üçün lazımi inventar və oyuncaqlarla təmin edilib. Burada uşaqların bilik və bacarıqlarının üzə çıxarılması üçün hərtərəfli şərait yaradılıb.*

*Bu cür obyektlərin yaradılması gələcəyimiz olan uşaqlara Heydər Əliyev Fondunun diqqət və qayğısını əyani şəkildə nümayiş etdirir. Bu bir daha sübut edir ki, Azərbaycanda gənc nəslin yetişməsinə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın diqqəti tükənməzdir. Respublikanın müxtəlif bölgələrində Fondun dəstəyi ilə müasir təhsil ocaqlarının inşası, həyata keçirilən layihə və proqramlar bu sahənin sürətlə inkişaf etməsinə möhkəm zəmin yaradıb. Müasir dizaynı ilə diqqəti cəlb edən bu binalarda uşaqlarla çalışmaq üçün yüksək tələblərə cavab verən şərait var.*

**Mərkəzi Şəhər stadionunda yaradılmış**

## şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Beyləqanda əsaslı təmir və yenidənqurmadan sonra Mərkəzi Şəhər stadionunda yaradılmış şəraitlə tanış olmuşdur.*

*Bildirildi ki, stadionda 3 min tamaşaçı yerlik tribuna, soyunub-geyinmə, mətbuat, məşqçi, tibb otaqları yaradılıb. Burada, həmçinin rezin tipli altızolaqlı qaçış cığırı, çöl tipli 11 fitnes qurğusu, basketbol, voleybol, mini-futbol meydançaları var.*

*Paytaxt Bakı ilə yanaşı, regionlarda da müasir görkəmi ilə seçilən olimpiya idman kompleksləri və digər idman qurğularının inşası respublikamızın hər yerində beynəlxalq tədbirlərin keçirilməsinə şərait yaradır. Ölkəmizin bütün bölgələrində yaradılan müasir idman qurğuları gənclərin idman sahəsində mühüm uğurlar əldə etməsi, onların sağlam yetişmələri baxımından böyük əhəmiyyət daşıyır. Azərbaycan idmançılarının beynəlxalq idman yarışlarında qazandıqları uğurların ildən-ilə artmasında, idmanla məşğul olanların sayının çoxalmasında belə qurğuların tikintisi çox önəmlidir.*

## Birinci Şahsevən–Əhmədli–Dünyamalılar kəndlərini birləşdirən avtomobil yolunun açılışı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Beyləqanda Birinci Şahsevən–Əhmədli–Dünyamalılar kəndlərini birləşdirən avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bu yol Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2013-cü il 12 sentyabr tarixli Sərəncamı ilə tikilib. Sərəncama əsasən avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Beyləqan Rayon İcra Hakimiyyətinə*

*ilkin olaraq 2 milyon manat vəsait ayrılıb. 25 min nəfərin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən yolun ümumi uzunluğu 40 kilometrə yaxındır. Yolun 20 kilometrlik hissəsinin inşası başa çatdırılıb.*

*Birinci Şahsevən–Əhmədli–Dünyamalılar avtomobil yolu ən müasir tələblər səviyyəsində inşa olunub. Tikinti zamanı infrastrukturun mükəmməlliyinə xüsusi diqqət yetirilib. İnşaat işləri zamanı 67 su keçidi tikilib, yolun kənarına müxtəlif siqnal dirəkləri basdırılıb.*

*Bu yolun istifadəyə verilməsi onun əhatə etdiyi kənd sakinlərinin rayon mərkəzinə, o cümlədən respublika əhəmiyyətli əsas yollara çıxışını asanlaşdıracaq.*

## FÜZULİ RAYONUNA SƏFƏR

*28 avqust 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Füzuli rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Horadiz şəhərindəki abidəsini ziyarət etdi.*

*Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev son dövrlərdə rayonda görülən işlər barədə prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, ulu öndərin abidəsinin yerləşdiyi Heydər Əliyev parkında son vaxtlar aparılan genişləndirmə və yenidənqurma işləri uğurla başa çatıb. Parkın ərazisi 2 hektar yarım genişləndirilib. Yaşıllaşdırma işlərinin də aparıldığı parkda uşaqlar üçün əyləncə guşələri yaradılıb, bununla da əhalinin istirahətinin yüksək səviyyədə təşkilinə nail olunub.*

*Sonra prezident İlham Əliyev parkda yerləşən Heydər Əliyev Mərkəzində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Sizi ürəkdən salamlayıram, yenidən Füzuli rayonunda olmağımdan çox şadam. Bu mənim Füzuli rayonuna beşinci səfərimdir. Hər dəfə burada olarkən yeniliklər görürəm, sevinirəm və əldə edilmiş bütün uğurlar münasibətilə sizi ürəkdən təbrik edirəm.

Füzuli rayonunun inkişafı daim diqqət mərkəzindədir. Siz də bunu görürsünüz, bilirsiniz. Dövlət siyasəti ardıcıllıqla aparılır və son illərdə rayonun inkişafı üçün çox böyük işlər görülmüşdür. Sosial obyektlər, infrastruktur obyektləri, yeni müəssisələr yaradılır. Əvvəlki dövrlərdə idman kompleksi, tibb mərkəzi, Muğam Mərkəzi, digər obyektlər yaradılmışdır. Nəinki Füzuli rayonu, bütün bölgə üçün böyük məna daşıyan 25

meqavat gücündə su-elektrik stansiyası tikilmişdir. Yollar çəkilir – kənd yolları, şəhərlərarası yollar. Əlbəttə ki, Horadiz artıq bir şəhərdir, gündən-günə gözəlləşir, inkişaf edir və bu gün öz gözəlliyi, abadlığı ilə seçilir.

Füzuli rayonunda aparılan yenidənqurma işlərinin tərkib hissəsi onun infrastruktur layihələridir. Kənd yolları, içməli su layihələri – bunlar da öz həllini tapır və qazlaşdırma ilə bağlı məsələlər ardıcıllıqla icra edilir. Hazırda qazlaşdırma 70 faizdən çoxdur. Amma bu ilin sonuna qədər bütün yaşayış məntəqələrində 100 faiz qaz olacaq. Bax, budur bugünkü Azərbaycanın reallıqları, Azərbaycanın qüdrəti və regionların inkişafı. Biz bu siyasətə sadiq olaraq gələcəkdə də fəaliyyətimizi bu istiqamətdə aparacağıq ki, inkişaf daha da sürətlə getsin. Mən bu gün də artıq bir neçə tədbirdə iştirak etmişəm və hələ digər tədbirlər olacaqdır. Onlardan biri müharibə zamanı dağıdılmış və ermənilər tərəfindən yandırılmış evlərin bərpası layihəsidir. Bunun çox böyük mənası var. Çünki erməni işğalı zamanı bütün infrastruktur, evlər dağıdılmış, yandırılmışdır. Siz bunu yaxşı xatırlayırsınız və indi nümayiş etdirilən şəkillərdə bunu görmək mümkündür. Ali Baş Komandan Heydər Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu erməniləri buradan çıxararaq, bu bölgəni tamamilə düşməndən azad etmişdir. Erməni işğalçı qüvvələri 22 kənddən qovulmuş, ondan sonra quruculuq və inkişaf prosesi başlanmışdır. Ona görə biz Horadiz şəhərinin timsalında dirçələn Azərbaycanı, qüdrətli Azərbaycan Ordusunu, ulu öndər Heydər Əliyevin siyasətini görürük.

Onu görürük ki, hazırda işğal altındakı bütün torpaqlar işğaldan azad olunandan sonra, bax, Horadiz kimi olacaq. Biz həm Füzuli şəhərini bərpa edəcəyik, həm hazırda tamamilə dağıdılmış Ağdamı bərpa edəcəyik, Şuşanı, bütün başqa şəhərləri bərpa edəcəyik. Çünki mən tam əminəm – əminəm ki, Azərbaycan xalqı bunu bilir – biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Azərbaycanın buna gücü çatır və bu qaçılmazdır. Sadəcə olaraq, hələ çalışırıq ki, bunu danışıqlar yolu ilə,

qan tökülmədən həll edək. Amma biz istənilən varianta hazırıq. Çünki haqq-ədalət bizim tərəfimizdədir. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Siz – Qarabağda doğulmuş, yaşamış, bu gün yaşayan insanlar bunu hamıdan yaxşı bilirsiniz. Bu, əzəli Azərbaycan torpağıdır – Xankəndi, Şuşa. Sadəcə, müvəqqəti olaraq işğal altındadır, ancaq biz bu işğala son qoyacağıq. Biz öz torpağımızda yaşayırıq, öz torpağımızı müdafiə edirik və müdafiə edəcəyik. Əminəm ki, ərazi bütövlüyümüzün bərpası qaçılmazdır. Bunu düşmən də bilir və bilməlidir.

Bu ayın əvvəlində təmas xəttində baş vermiş hadisələr bir daha Azərbaycan Ordusunun qüdrətini, gücünü, qarşı tərəfin isə gücsüzlüyünü, acizliyini əyani şəkildə göstərmişdir. Azərbaycan sülhün, təhlükəsizliyin qarantıdır. Ona görə biz hələ çalışırıq ki, bu məsələ sülh yolu ilə həll olunsun. Ancaq öz ardıcıl siyasətimizi aparırıq, Ermənistanı bütün layihələrdən təcrid etmişik, orada çox böyük böhran yaşanır, həm iqtisadi, həm siyasi, həm hərbi böhran və eyni zamanda, getdikcə əhalinin sayı azalır. Bizdə artır, orada azalır və tarixin gedişatı ona gətirib çıxaracaq ki, bir neçə ildən sonra bu fərq, bu uçurum o həddə çatacaq ki, bu özü-özlüyündə danışıqlar prosesində müsbət rol oynayacaq. Biz isə ordumuzu gücləndirməklə, iqtisadi gücümüzü artırmaqla, regionları inkişaf etdirməklə və beynəlxalq arenadakı mövqelərimizi möhkəmləndirməklə güclənirik. Hər gün biz güclənirik, hər gün Ermənistan zəifləyir. Ermənistan özü artıq etiraf edir ki, xarici yardım olmadan yaşaya bilməz, iqtisadi inkişafa nail ola bilməz və hətta öz təhlükəsizliyini qoruya bilməz. Artıq yüksək vəzifəli erməni dövlət məmurları bunu etiraf edirlər. Bu əslində erməni dövlətinin iflası deməkdir. Çünki hər bir xalq üçün ən böyük nemət müstəqillikdir. Biz bu müstəqillik illərindən səmərəli şəkildə istifadə edərək, bu gün tam şəkildə müstəqil ölkə kimi, azad xalq kimi yaşayırıq. Ancaq Ermənistanın işğalçı siyasəti imkan vermədi ki, erməni xalqı da əsl müstəqilliyə qovuşsun. İndi asılı vəziyyətdə, aciz durumda xarici yardım, ianə olmadan yaşaya bilmir. Torpaqlarımızı hələ ki, işğal altında saxlayır. Ancaq özləri də bilirlər ki, bu, müvəqqəti bir vəziyyətdir.

Biz öz siyasətimizi ardıcıl davam etdirəcəyik və bu gün bütün regionlarda görülən işlər Azərbaycan dövlətinin gücünü, Azərbaycan xalqının istedadını göstərir. Hər bir bölgədə gedən inkişaf məni sevindirir. Mən hər bir rayonda dəfələrlə olmuşam. Füzuliyə beşinci dəfədir gəlirəm. Ancaq Füzuli, Ağdam rayonlarında gedən inkişaf məni xüsusilə sevindirir. Çünki siz düşmənlə üz-üzə yaşayırsınız, siz böyük cəsarət, mərdlik göstərirsiniz. Biz burada, düşmənlə üz-üzə olan Horadizdə bir gülüstan, bir abad şəhər görürük. Getsinlər öz şəhərlərinə baxsınlar. Bu gün Horadiz abadlığına görə onların paytaxtı olan qədim Azərbaycan şəhəri İrəvandan bir neçə dəfə üstündür. Bu reallıqdır. Bunu hər kəs görür və görməlidir. Azərbaycan ictimaiyyəti də bunu bilməlidir.

Mən bu gün Beyləqanda gənclərlə görüş keçirmişəm. Bilirsiniz ki, indi biz gözəl bir proqram icra edirik, gəncləri göndəririk müxtəlif bölgələrə. Yəni bir bölgədən olan gənclər tətildə başqa bölgələrə gedirlər, Azərbaycanla tanış olurlar. «Ölkəmizi tanıyaq» proqramını biz icra edirik. Çox istərdim bu bölgəyə – Ağdama, Füzuliyə daha çox gəlsinlər, görsünlər ki, bura dağılmış vəziyyətdə idi, siz bunu yaxşı bilirsiniz. Erməni vəhşiləri bir dənə də salamat ev qoymamışdılar, hər şeyi dağıdıb talan etmişdilər, oğurlayıb aparmışdılar. Amma baxın, biz bərpa etdik. Horadiz şəhərdir, gözəl şəhərdir, yollar, xiyabanlar, ictimai yerlər, parklar, iş yerləri, məktəblər, uşaq bağçaları, Muğam Mərkəzi, idman kompleksi – hər şey var. Daha da yaxşı olacaq. Füzuli rayonunun inkişafı xüsusi məna daşıyır. Həm Qarabağ üçün, həm Azərbaycan üçün. Ona görə biz bundan sonra da rayonun inkişafı üçün əlimizdən gələni edəcəyik və burada həyata keçiriləcək tədbirlər rayonu daha da gücləndirəcək.

227 dağılmış, yandırılmış ev bərpa edilib. Mən bu gün evlərin birində oldum. Ancaq hələ ki, müxtəlif yerlərdə 300-dən çox dağıdılmış ev var. İndi mən göstəriş verdim ki, təklif hazırlasınlar, biz o evlərin də bərpasına başlayaq. Bu gün Füzuli əhalisinin 50 faizdən çoxu artıq burada məskunlaşıb, 16 qəsəbə tikilib, evlər bərpa edilib və indi mənə deyilər ki, hətta Bakıdan

füzulililər qayıdırlar. Əlbəttə, qayıtmalıdırlar. Burada – doğma torpaqda gözəl şərait, gözəl iqlim, abadlıq var. Ona görə bu proses daha da sürətlə getməlidir və buna nail olmaq üçün burada şərait daha da yaxşı olmalıdır. Mən icra başçısından soruşuram ki, biz əlavə nə iş görməliyik? Mənə deyir ki, indi hər şey görülübdür. Amma mən bilirəm ki, əlavə işlər də görülməlidir. Füzuli rayonunun kənd və qəsəbələrinin heç birində heç bir problem olmamalıdır. Biz buna nail olacağıq. İşlərin böyük hissəsi görülüb, qalan işləri də bərabər görəcəyik.

Sizi bir daha salamlayıram. Əldə edilmiş bütün uğurlar münasibətilə sizi təbrik edirəm.

**M ə c n u n  N a m a z ə l i y e v** *(rayon sakini):* Möhtərəm cənab Prezident!

İcazə verin, rayonumuzun bütün əhalisi adından Sizi salamlayım. Füzuliyə xoş gəlmisiniz! Füzulililər respublikamızın inkişafı naminə Sizin həyata keçirdiyiniz tədbirləri alqışlayırlar. Biz hamımız yaxşı bilirik ki, bunlar ulu öndərin siyasi xəttinin davamıdır və bu mənada çox qiymətlidir.

1993-cü ilin sonları, 1994-cü ilin əvvəllərində ulu öndərin yeni formalaşdırdığı Azərbaycan Ordusu Füzuli rayonunun 22 yaşayış məntəqəsini işğaldan azad etmiş, qayıdış başlamışdır. Həmin böyük qayıdış bu gün də davam edir. Artıq 70 min füzulili 22 yaşayış məntəqəsində, Sizin sayənizdə tikilmiş 16 qəsəbədə çox yaxşı yaşayır, işləyir, iqtisadiyyatlarını möhkəmləndirir. Bütün bunlar Sizin sayənizdə mümkün olub, cənab Prezident. Allah Sizə kömək olsun.

Onu da deyim ki, cənab Prezident, ərazidə yaşayan füzulililərin həyat şəraiti getdikcə yaxşılaşır. Bizim camaatımız zəhmətkeşdir, torpağımız bərəkətlidir, çörəyimiz boldur. Biz füzulililər yaxşı işlədiyimiz kimi, Sizin sayənizdə yaxşı da yaşaya bilirik. Bu gün biz erməni ilə üz-üzə, göz-gözə yaşayırıq, cənab Prezident. Amma hamı nikbindir, hamı xoşbəxtdir, hamı arxayındır ki, bizim cənab İlham Əliyev kimi güvən yerimiz, arxamız, dayağımız, inam yerimiz var. Biz hamımız bununla fəxr edirik, Sizə həmişə minnətdarıq.

Cənab Prezident, Siz çox gözəl bir şəhər tikib bizə vermisiniz. Bu gün Horadizdə nələr yoxdur?! Sizin dediyiniz kimi, burada insan amilinə xidmət edən bütün obyektlər var. Hamısının açılışında Siz iştirak etmisiniz – həm keçən səfərlərinizdə, həm də indi. Son 3 ildə Horadizə qonaq gələn hər bir kəs bu gün yenə gələndə məəttəl qalır ki, bu gözəlliyi kim, necə yaradıb? Bəli, hamımız iftixarla deyirik ki, bu gözəlliyi Prezidentimiz cənab İlham Əliyevin sayəsində biz yaratmışıq. Çox sağ olun, cənab Prezident!

Şəhər statusu alandan sonra Horadizdə hər şey var. Sizin sərəncamınızla burada bayaq dediyiniz kimi, 227 ev bərpa olunub. Elə bərpa olunub ki, indi əvvəl tikilənlərdən də gözəldir. Adamlar evlərinə yığışdıqca məəttəl qalırlar. Evin içində qaz, su, işıq var, bütün infrastruktur məsələləri həllini tapıb. Ona görə də xalqımız, camaatımız Sizə minnətdardır. İş yerlərimiz var. Sizin tapşırığınıza uyğun olaraq rayonumuzda gənclərə daha çox üstünlük verilir. Yeni-yeni iş sahələri yaradılır, gənclər irəli çəkilir, dövlət qulluğunda vəzifələrə dəvət olunurlar. Bütün bunlarla, işlə təmin olunmaqla yanaşı, füzulililər məcburi köçkün kimi, dövlət qayğısı ilə təmin olunurlar. Bizə çörək pulu verilir, işıq, su, qaz, torpaq, imtiyazların hamısı pulsuzdur. Biz bunlara subsidiyaları, kreditləri, başqa güzəştləri, sosial müavinətləri də əlavə etsək, Azərbaycan dövləti, cənab İlham Əliyev füzulililərə milyonlarla manat dəyərində yardım göstərir. Bunu camaatımız bilir və buna görə Sizə minnətdardır.

Rayonumuzun ərazisinin, demək olar ki, 50 faizi bizdə, 50 faizi isə işğal altındadır. Yuxarıda, Horadiz yüksəkliyində bayrağımız dalğalanır. Onu düşmən də görür. İndi Bakıya axın yoxdur, paytaxtdan bura axın var. Çünki Horadizdə Bakıda olanların hamısı var, bizim boulinq, bilyard zallarımız, Şahmat məktəbimiz, futbol, voleybol meydançalarımız – hər şeyimiz var. Yəni bizim yaşayış səviyyəmiz çox gözəldir, cənab Prezident.

Mən bir məlumat da verim ki, Heydər Əliyev Fondu Füzulidə çox böyük işlər görür. Hörmətli Mehriban xanım

Əliyevanın təşəbbüsü ilə rayonumuzda Muğam Mərkəzi, Tarix-Diyarşünaslıq Muzeyi, 2 uşaq bağçası, orta məktəb binası tikilib istifadəyə verilib. Əminik ki, bu işlər gələcəkdə də davam etdiriləcək, Füzuliyə yeni, əlavə kömək göstəriləcəkdir. Biz buna görə hörmətli Mehriban xanıma minnətdarlığımızı bildiririk. Allahdan ona cansağlığı diləyirik.

Cənab Prezident, Siz Azərbaycanın inkişafı üçün çox iş görürsünüz. Biz nə xahiş ediriksə, Siz onu yerinə yetirirsiniz. Ona görə də Sizə çox minnətdarıq. Bizim ən böyük arzumuzu da Siz ifadə etdiniz. Məcburi köçkünlərimiz, inşallah, Sizin rəhbərliyinizlə Qarabağa qayıdacaqlar, cənab Prezident. Əminik ki, bizim dünya şöhrətli Prezidentimizin buna gücü çatacaq və çatır. Dünya Azərbaycana maraq göstərir, Azərbaycan dünyaya inteqrasiya edir. Bunlar çox gözəldir. Bu gün Azərbaycan mədəniyyəti, Azərbaycanın milli-mənəvi dəyərləri dünyada təbliğ olunur. Bunlar çox böyük işlərdir.

Cənab Prezident, Sizin sayənizdə Azərbaycan inkişaf edir, gözəlləşir, daha yüksək zirvələri fəth edir. Azərbaycanın daha xoşbəxt gələcəyi naminə fəaliyyətinizdə Sizə uğurlar diləyirik. Füzulililər Sizə sadiqdirlər, Sizi sevirlər. Cənab Prezident, elə gün olmur ki, Sizin haqqınızda məhəbbətlə danışmayaq. Sağ olun.

**İ l h a m Ə l i y e v**: Dediyiniz xoş sözlərə görə sizə minnətdaram. Mən də demək istəyirəm ki, füzulililəri çox sevirəm və çox sevinirəm ki, Füzulidə indi bu qədər inkişaf var. Bir məsələ məni həmişə incidir, düşündürür və dəfələrlə mən bunu öz çıxışlarımda qeyd etmişəm. Əfsuslar olsun ki, ölkəmiz üçün həlledici anlarda ulu öndər Azərbaycanda yox idi və onu o vaxt – keçən əsrin 80-ci illərinin sonlarında siyasi səhnədən uzaqlaşdırmaq üçün erməni millətçiləri nə qədər əlləşdilər, Moskvaya nə qədər anonim məktublar, donoslar yazıldı. Əlbəttə ki, o vaxtkı sovet rəhbərliyi də Heydər Əliyevə ədalətsizlik etmişdi. Nəyə görə? Çünki o həmişə öz sözünü deyən adam idi, heç kimdən çəkinmirdi. Haqq-ədalət onun üçün əsas amillər idi. O vaxtkı sovet rəhbərliyi isə hesab edirdi ki, hamı onların

qarşısında baş əyməlidir. Ona görə Heydər Əliyevi siyasi səhnədən uzaqlaşdırdılar və ondan sonra 2 həftə keçməmiş erməni millətçiləri qərb mətbuatında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün iddia qaldırdılar və sovet rəhbərliyi buna dəstək oldu, təkan verdi. Əgər Heydər Əliyev o vaxt Azərbaycanda olsaydı və siyasi səhnədə olsaydı, heç vaxt bir qarış torpaq da işğal altına düşməzdi. Heç vaxt. Bu gün artıq Dağlıq Qarabağda demoqrafik vəziyyət də tam başqa olacaqdı. O illərdə Dağlıq Qarabağda sənaye müəssisələrinin yaradılması, dəmir yolunun çəkilişi, digər tədbirlərin görülməsi nəticəsində demoqrafik vəziyyət bərpa olunurdu. Yəni əslində ermənilər deyirdilər ki, Heydər Əliyev demoqrafik vəziyyəti dəyişdirmək istəyir. Ulu öndər onu bərpa etmək istəyirdi. Çünki Dağlıq Qarabağ ərazisində əsrlərboyu Azərbaycan xalqı yaşamışdır. Bu bizim dədə-baba torpağımızdır. Sadəcə olaraq, XVIII əsrin əvvəllərində ermənilər Şərqi Anadoludan və İrandan buraya köçürülmüşdülər. Əgər belə demək mümkündürsə, idxal edilmişlər. Nəyə görə? Burada, bu bölgədə dini tərkibi dəyişdirsinlər. Bu idi məqsəd və ondan sonra süni olaraq Dağlıq Qarabağ ərazisində onlar əhali nöqteyi-nəzərindən üstünlük təşkil etdilər. Heydər Əliyevin səyləri nəticəsində biz bu ədaləti bərpa edirdik və artıq münaqişə başlanan zaman Dağlıq Qarabağ əhalisinin 30 faizi azərbaycanlılar idi. 10 il, 15 il keçəndən sonra azərbaycanlılar 50 faiz olacaqdı və bu məsələ heç vaxt bir daha qalxmayacaqdı.

Əfsuslar olsun ki, o vaxt Azərbaycanda böyük səhvlər buraxılmışdı və ermənilər ondan istifadə etdilər, bu məsələni qaldırdılar. Sovet rəhbərliyi buna təkan verdi. Sovet İttifaqı dağılandan sonra isə Azərbaycana qarşı daha da böyük ədalətsizliklər göstərildi və nəticə etibarilə torpaqlarımız işğal altına düşdü. O vaxt bizim o qədər də böyük hərbi gücümüz yox idi. Yenə də ulu öndərin şəxsi keyfiyyətləri, cəsarəti, xalqın ona olan inamı nəticəsində biz bu torpaqları düşməndən azad etdik. Biz istəmirik ki, yenə müharibə başlasın. Kim istəyir ki? Biz heç vaxt bu vəziyyətlə də barışa bilmərik. Çünki Ermənistan

istəyir ki, heç nə dəyişməsin, necə var, elə də qalsın. Amma bu mümkün deyil. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olan vasitəçilər də bunu istəyir. Onlar da həmişə bizə deyirlər ki, amandır, müharibə etməyin, problemi danışıqlar yolu ilə həll edin. Biz də deyirik, yaxşı, danışıqlar yolu ilə, bəs nə qədər?

Artıq 22 ildir Minsk qrupu fəaliyyət göstərir. Əgər buna fəaliyyət demək mümkünsə. Onun fəaliyyəti ancaq bu vəziyyətin dəyişməz olaraq qalması məsələsidir. Ona görə, bu məsələləri tarixi nöqteyi-nəzərdən bir daha təhlil edərkən görürük ki, biz ancaq öz gücümüzə güvənə bilərik. Biz Azərbaycan xalqının gücünə və Azərbaycan dövlətinin gücünə güvənə bilərik. Biz– Azərbaycan xalqı, güclənən Azərbaycan bu məsələni həll edəcəyik.

Bunu həll etmək üçün, əlbəttə ki, beynəlxalq məsələlər də nəzərə alınmalıdır. Regional vəziyyət, xarici siyasət amilləri öz rolunu oynamalıdır, oynayacaqdır. Şübhəsiz ki, Azərbaycanın artan qüdrəti və bizim iqtisadi, siyasi, beynəlxalq və hərbi sahələrdə gücümüz göz qabağındadır. Bizim gücümüz getdikcə artacaq, ermənilərin gücü azalacaq. İndi orada demoqrafik böhran yaşanır. Hətta yaşlı insanları da zorla orduya cəlb edirlər, onları səngərə göndərirlər. Bu yaxınlarda bir hadisə olmuşdu. Yəqin ki, yaxın vaxtlarda ictimaiyyət də məlumatlandırılacaqdır. Bizim Tovuz, Qazax istiqamətində sərhədimizə yaxın olan erməni kəndlərində yaşlı insanlara zorla hərbi forma geyindirib, əlinə tüfəng verib, göndərirlər səngərə. Bax, budur reallıq.

Amma biz bu gün güclənirik, möhkəmlənirik, ruh yüksəkliyi var, Azərbaycan əsgəri peşəkardır, Azərbaycan xalqı mərddir. Siz burada düşmənlə üz-üzə yaşayırsınız, amma orada – Tovuz, Qazax istiqamətində erməni kəndləri boşalır. Əlbəttə, təmas xəttində erməni kəndləri yoxdur. Nə burada, nə Ağdamda, nə başqa yerdə. Çünki bunlar hamısı Azərbaycan torpağıdır. Amma Tovuz, Qazax istiqamətində erməni kəndləri var, insanlar oradan qaçır, qorxurlar. Onların prezidenti bu yaxınlarda özü etiraf etmişdir ki, ölkədən kütləvi köçün

səbəblərindən biri Dağlıq Qarabağ münaqişəsidir. Valideynlər qorxurlar, uşaqları orduya vermək istəmirlər. Yəni bu kriminal rejimi qorumaq üçün niyə onların vətəndaşları həlak olmalıdır?! Ona görə erməni xalqı özü başa düşməlidir ki, bu kriminal rejim orada nə qədər ki, hakimiyyətdədir, Ermənistanın inkişafı mümkün deyil. Erməni xalqı bu kriminal Qarabağ klanından yaxasını qurtarmalıdır. İndi onlara Qarabağ klanı deyirlər. Əslində, Qarabağ bizim dədə-baba torpağımızdır, amma Ermənistanda onlara Qarabağ tayfası deyirlər. Əminəm ki, erməni xalqı müdriklik göstərəcəkdir. Çünki onlar da başqa millətlər kimi, müstəqil, azad olmaq istəyirlər, kriminal rejim hakimiyyəti altında yaşamaq istəmirlər.

Bizim müharibəmiz haqq-ədalət müharibəsidir. Biz istəyirik ki, məsələ ədalətlə həll olunsun – beynəlxalq hüququn norma və prinsiplərinə uyğun və ədalətli. Ədalət və beynəlxalq hüquq bizim tərəfimizdədir. Çünki bu bizim tarixi torpağımızdır və hüquqi cəhətdən bizim torpağımızdır. Heç bir ölkə qondarma «Dağlıq Qarabağ respublikası»nı respublika kimi tanımır və tanımayacaq. Bu, gözəl əsas yaradır. Bu əsas bizə imkan verir ki, istənilən vaxtda öz ərazi bütövlüyümüzü bərpa edək. Bunu etmək üçün müxtəlif amillər var – iqtisadi, hərbi, siyasi və beynəlxalq. Biz öz addımlarımızı elə atmalıyıq ki, nəticə 100 faiz olsun, 200 faiz olsun və belə də olacaqdır.

Necə ki, bu gün Horadiz şəhəri gözəl şəhərdir, Füzuli şəhəri daha da gözəl şəhər olacaq. İnşallah, oranı da biz birlikdə abadlaşdıracağıq, gözəlləşdirəcəyik. Bir daha sizə cansağlığı, uğurlar arzulayıram.

## Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan 2 saylı körpələr evi-uşaq bağçasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə Horadiz şəhərində inşa olunan 2 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı bağçanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*İkimərtəbəli binada uşaqların təlim-tərbiyəsi və gələcəyin sağlam vətəndaşı kimi yetişmələri üçün hər cür şərait yaradılıb. Burada müasir təlim-tərbiyə qaydalarına riayət olunmaqla, 4 qrup yaradılıb və bağçada uşaqların istirahəti üçün geniş imkanlar var. Uşaqların günün yarısını bağçada keçirmələri nəzərə alınaraq, bu məktəbəqədər təhsil ocağında da onların keyfiyyətli təlim-tərbiyəsi vacib amil kimi götürülüb. Uşaqların ilk yaşlarından intellektual, fiziki və əqli inkişafı, onların istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması diqqət mərkəzində saxlanılır. Bu məqsədlə müasir sinif otaqları yaradılıb və bütün zəruri ləvazimat və təlim avadanlıqları ilə təchiz olunub. Uşaqların qidalanmasına xüsusi diqqət yetirilir. Bundan əlavə, onların məntiqi və əqli imkanlarının inkişaf etdirilməsi məqsədilə rəsm otağı qurulub. Bağçanın ərazisi abadlaşdırılıb, yaşıllıq zolaqları salınıb.*

## Horadiz Tikiş fabrikinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Horadiz Tikiş fabrikinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, fabrikdə işçilərin fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb. Müasir texnika və dəzgahların quraşdırılması keyfiyyətli məhsul istehsalına geniş imkanlar açır. Bu fabrikdə ilkin dövrdə məktəbli formalarının və hərbçi geyimlərinin istehsalı həyata keçiriləcək. Məhsullar daxili bazara yönəldiləcək. Təxmini hesablamalara görə müəssisənin ilkin mərhələdə illik dövriyyəsi 2 milyon manat təşkil edəcək. Fabrikdə açılan yeni iş yerlərinin sayı hazırda 100-ə çatır. Yaxın gələcəkdə bu rəqəmin bir qədər də artırılması diqqət mərkəzindədir.*

*Bütün bunlar bir daha prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə qeyri-neft sektorunun inkişafı ilə bağlı həyata keçirilən siyasətin artıq uğurlu nəticələr verdiyini təsdiqləyir. Bu bir reallığı da nümayiş etdirir ki, Azərbaycan iqtisadiyyatının neftdən asılılığı aradan qaldırılır və yeni istehsal sahələrinin yaradılması ilə ölkəmizin iqtisadi qüdrəti daha da möhkəmləndirilir.*

### Bayraq Meydanında yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Horadiz şəhərində Bayraq Meydanında yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, 10 hektar ərazidə salınan Bayraq Meydanından bütün Horadiz şəhəri görünür. Burada geniş yaşıllaşdırma və abadlıq işləri görülüb. Meydana qalxmaq üçün sağ və sol tərəflərdə hər biri 287 pillədən ibarət olan sütunlu pilləkən tikilib. Əraziyə avtomobil yolu çəkilib və dayanacaq inşa olunub. Bayraq dirəyinin yerdən hündürlüyü 68 metrdir və demək olar ki, bütün ətraf ərazilərdən aydın görünür.*

### İşğal zamanı dağıdılmış 227 evin və çoxmənzilli 3 binanın bərpasından sonra istifadəyə verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Horadizdə işğal zamanı dağıdılmış 227 evin və çoxmənzilli 3 binanın bərpasından sonra istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində ciddi ziyan görən Horadiz şəhərinin yenidən qurulması, burada geniş abadlıq-bərpa tədbirlərinin həyata keçirilməsi istiqamətində son illərdə bir çox mühüm işlər görülüb. Şəhərin simasının daha da gözəlləşdirilməsi istiqamətində həyata keçirilən layihələr bu gün də davam etdirilir. Müharibə zamanı dağıntılara məruz qalan şəhərdə quruculuq işləri geniş vüsət alıb, yeni evlər tikilib. Bu sırada 227 evin və çoxmənzilli 3 binanın bərpa işlərindən sonra istifadəyə verilməsi də mühüm əhəmiyyət daşıyır. Bu cür tədbirlər prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mərkəzində insan amilinin durduğuna daha bir əyani misaldır. Bundan əlavə, «Mən hər bir azərbaycanlının prezidenti olacağam» – deyən dövlət başçısının fəaliyyətinin real nəticələridir. Bu layihələr Azərbaycan dövlətinin ilk növbədə, cəbhə xəttində yaşayan vətəndaşların sosial-rifah halının və mənzil-məişət şəraitinin yaxşılaşdırılması naminə gördüyü işlər sıra-*

*sındandır. Bu həm də Azərbaycanın iqtisadi gücünü və potensialını nümayiş etdirir.*

*Qeyd edək ki, Horadiz şəhərində erməni işğalı zamanı yandırılmış və dağıdılmış 227 evin və çoxmənzilli 3 binanın bərpa edilməsi məqsədi ilə prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Füzuli Rayon İcra Hakimiyyətinə 2013-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan vəsait ayrılıb. Yüksək keyfiyyətlə və müasir tikinti normaları nəzərə alınmaqla, həyata keçirilən inşaat işləri zamanı evlərin hamısı tam bərpa edilib. Mənzillərin hamısı kommunal infrastrukturla təmin olunub, insanların rahat və maneəsiz yaşamaları üçün hər cür imkanlar yaradılıb. Bütün bunlar da bir daha göstərir ki, prezident İlham Əliyevin bu sahədəki fəaliyyəti çətin sınaqlardan çıxan soydaşlarımızda sabaha ümid yaradıb, dövlət başçısının hər zaman onların yanında olduğunu təsdiqləyib. İnsanlar da dövlət başçısının ideyaları ətrafında sıx birləşməyi bacarıblar.*

*Dövlətimizin başçısı Vəli Şamilovun ailə üzvləri ilə çay süfrəsi arxasında söhbət etdi.*

**İlham Əliyev:** Gözəl ev tikilib.

**Xuraman Quliyeva** *(ev sahibəsi):* Bəli, çox gözəldir, Allah Sizi qorusun, ailənizi, uşaqlarınızı xoşbəxt etsin. Çox sağ olun. Bu cür şəraiti bizə Siz yaratmısınız, cənab Prezident.

**İlham Əliyev:** Elə də olmalıdır. Əlbəttə, dövlət bu işləri görməlidir. Bu evləri biz bərpa etdik. Çox şadam ki, açılışına gəlmişik.

**Xuraman Quliyeva:** Bəli, çox sağ olun. O gün olsun Şuşamızda, Qarabağımızda olsun. Biz buna inanırıq, cənab Prezident!

**İlham Əliyev:** Əlbəttə, bax, buralar işğal altında idi, siz burada yaşamışdınız.

**Xuraman Quliyeva:** Bəli, cənab Prezident.

**İlham Əliyev:** İndi görürsünüz burada necə gözəl şərait yaradılıb.

**X u r a m a n  Q u l i y e v a:** Çox gözəl şərait yaradılıb, özü də qısa müddətdə, cənab Prezident. Sizin rəhbərliyinizlə çox gözəl irəliləyiş var. Heydər Əliyev Fondunun təşəbbüsü ilə bizim üçün gözəl məktəb tikilib. Gözəl uşaq bağçamız var. Bu cür şərait heç bir şəhərdə yoxdur. Bunlar Sizin rəhbərliyinizlə yaradılıb. Çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Təmiz hava. Yaxşı iqlim.

**X u r a m a n  Q u l i y e v a:** Bəli, üstünlüyümüzdür təmiz havamız, Qarabağ havası.

**İ l h a m  Ə l i y e v:** Dolanışıq necədir?

**X u r a m a n  Q u l i y e v a:** Çox gözəl, yüksək səviyyədə. Daimi qazımız, işığımız, suyumuz, gözəl asfalt yollarımız, bağımız-bağatımız. Bundan artıq nə lazımdır?! Əvvəlkindən də çox gözəl şəraitdə yaşayırıq. Buna görə Sizə minnətdarıq. Əzizimiz Mehriban xanıma minnətdarıq. Bütün Qarabağımız azad olunsun. Ordumuza inanırıq, Sizə inanırıq, dövlətimizə inanırıq. Cənab Prezident, görün bizə, xalqımıza, qəsəbədə, Füzulidə yaşayan insanlara nə qədər ruh yüksəkliyi vermisiniz.

**İ l h a m  Ə l i y e v:** Burada 16 yeni qəsəbə salınıb.

**A l ı  A l ı y e v** (*rayon icra hakimiyyətinin başçısı*)**:** Bəli. Ulu öndərin sərəncamı ilə.

**İ l h a m  Ə l i y e v:** Horadiz böyük bir şəhərdir. Müvəqqəti olaraq Füzuli rayonunun mərkəzidir. Amma Füzuli şəhəri işğaldan azad olunduqdan sonra biz Füzuli şəhərini bundan da gözəl tikəcəyik.

**X u r a m a n  Q u l i y e v a:** İnşallah, biz ona inanırıq. Biz Sizə inanırıq, güvənirik.

**İ l h a m  Ə l i y e v:** Horadizin Azərbaycan tarixində çox böyük rəmzi mənası var. Çünki buralar erməni işğalı altında olan yerlər idi. Azərbaycan Ordusu ulu öndərin rəhbərliyi ilə erməni işğalçı qüvvələrini buradan çıxartdı. İndi biz oranı bərpa etmişik.

**X u r a m a n  Q u l i y e v a:** Bəli. Mən o günü heç vaxt unutmaram. Ona görə ki, mən ikiqat həyəcan keçirirdim. Bütün Azərbaycan xalqı həyəcan içində idi. Mənim övladım da hücumda, ön cəbhədə idi.

**İ l h a m Ə l i y e v:** Siz buradan nə vaxt çıxmışdınız?

**X u r a m a n Q u l i y e v a:** 1993-cü il oktyabrın 22-dən 23-nə keçən gecə biz buradan qovulduq.

**İ l h a m Ə l i y e v:** Oktyabra qədər burada idiniz?

**X u r a m a n Q u l i y e v a:** Bəli, burada idik. 1994-cü il yanvarın 4-ü unudulmaz bir gündür. Həmin gün ulu öndərimizin rəhbərliyi ilə hücum oldu. Mənim oğlum deyirdi ki, əsgərlər «Heydər Əliyev uğrunda» deyib hücuma keçirdilər. Yəni qorxmadan özlərini tankın altına da ata bilərdilər. O cür ruh yüksəkliyi ilə. Biz inanırıq ki, yenə də həmin ruh yüksəkliyi ilə döyüşə gedəcəklər. Lazım gəlsə biz analar da Sizinlə bərabər, övladlarımızla bərabər gedəcəyik.

**İ l h a m Ə l i y e v:** İndi ordumuz daha güclüdür. İndi imkanlar daha da genişdir. Ruh yüksəkliyi isə Azərbaycan xalqında həmişə olub. Həmişə də yüksək səviyyədə olub. Bu gün də belədir. Vətənpərvərlik ruhu, milli ruh. Bizim iqtisadi, hərbi gücümüz, bu amillər məsələni həll edəcək. Biz nəinki Füzuliyə, Şuşaya da qayıdacağıq.

**X u r a m a n Q u l i y e v a:** İnşallah, cənab Prezident.

**A l ı A l ı y e v:** Cənab Prezident, son 6 ayda 1200 adam işlə təmin olunub.

**X u r a m a n Q u l i y e v a:** Bəli, çox gözəl iş yerləri açılır.

**A l ı A l ı y e v:** Hərbidə mülki işçilər var. Onların hamısı bizdən götürülüb.

**İ l h a m Ə l i y e v:** Onu da mən göstəriş vermişəm. Çünki əvvəlki dövrdə bizim ordumuzda mülki işlərlə elə hərbçilər məşğul idilər. Əsgərləri əsas fəaliyyətindən ayırırdılar, onlar gedib orada xidmət sahəsində işləyirdilər. Mən göstəriş verdim ki, əsgərləri bu işlərdən azad etsinlər, mülki işlərə isə yerli camaatı götürsünlər.

**X u r a m a n Q u l i y e v a:** Bəli, götürüblər, bizim qonşulardan işləyənlər var.

**İ l h a m Ə l i y e v:** Nə qədər idi burada?

**A l ı A l ı y e v:** 1200 nəfər.

**İ l h a m Ə l i y e v:** Nəinki burada, başqa təmas xəttinə yaxın olan yerlərdə, rayonlarda, kəndlərdə yerli insanlar gedirlər, xidmət

edirlər, dövlət maaş verir. Biz burada 2 məqsəd güdürük. Həm əsgərlər xidmətdən ayrılmır, mülki vətəndaşlar isə işləyib maaş alırlar.

**X u r a m a n  Q u l i y e v a:** Çox gözəl. Bizim qəsəbəmizdə, demək olar ki, işsiz adam yoxdur.

**İ l h a m  Ə l i y e v:** Əvvəllər belə bir praktika var idi ki, misal üçün, bir yerdən olan gənc xidmətə mütləq gərək başqa yerə göndəriləydi. Biz burada da dəyişikliklər etdik. Çünki xüsusilə zabitlər öz doğma rayonlarında işləsələr, yaşasaar daha yaxşıdır. Ailələrinin yanında olacaqlar, daha da ürəkli olacaqlar, onlar üçün daha da rahat olacaq. Yəni orduda islahatlar çoxşaxəlidir. Amma bu hissə də çox önəmlidir. Burada qısa müddət ərzində minlərlə iş yerləri yaradılıb. Məsələn, elə biri yemək bişirən. Orduda kim idi? Əsgər. Birincisi, əsgər yemək bişirə bilmir, ikincisi, axı yemək bişirmək onun peşəsi deyil.

**X u r a m a n  Q u l i y e v a:** Allah Sizi dünyaya gətirən ataya, anaya rəhmət etsin. Biz onların qarşısında həmişə borcluyuq. Cənab Prezident, bir ana kimi, mən həmişə Sizə duaçıyam.

**İ l h a m  Ə l i y e v:** Sağ olun!

**X u r a m a n  Q u l i y e v a:** Biz fəxr edirik ki, ölkəmiz ərazicə kiçik olsa da, bütün böyük dövlətlərlə bərabər dayanır. Biz Sizinlə fəxr edirik, cənab Prezident.

**İ l h a m  Ə l i y e v:** Mən də sizinlə fəxr edirəm ki, siz burada, öz doğma yerinizdə, şəhərinizdə düşmənlə üz-üzə dayanmısınız, mərd dayanmısınız. Hamınız kişi kimi dayanmısınız. Öz doğma torpağınızda dayanmısınız.

**X u r a m a n  Q u l i y e v a:** Bəli, Sizə görə. Sizə inandığımıza görə. Ordumuza, dövlətimizə, Prezidentimizə inandığımıza görə.

**V ə l i  Ş ə m i l o v:** Güclü ordumuz da, rəhbərimiz də var.

**X u r a m a n  Q u l i y e v a:** Bəli, bizim indi hər şeyimiz var. Çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Çox yaxşı, bir daha sizi təbrik edirəm.

**X u r a m a n  Q u l i y e v a:** Biz Sizin hər bir tədbiri çox böyük fəxrlə izləyirik. Allah Sizi Azərbaycan xalqına çox görməsin.

**İ l h a m Ə l i y e v:** Sağ olun, çox sağ olun.

**X u r a m a n Q u l i y e v a:** Allah Sizi qorusun.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**X u r a m a n Q u l i y e v a:** Çox sağ olun, cənab Prezident. Siz bu gün bizə sevinc yaşatdınız.

## Əhmədalılar – Mollaməhərrəmli – Arayatlı – Babı kəndlərarası avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Əhmədalılar – Mollaməhərrəmli – Arayatlı – Babı kəndlərarası avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Bu yol prezident İlham Əliyevin ötən ilin oktyabrında imzaladığı sərəncama əsasən tikilib. 2013-cü və 2014-cü illərin dövlət büdcələrindən ayrılan müvafiq vəsait hesabına bu yolun ümumi uzunluğu 32 kilometrdən çoxdur. Eni 8 metr olan yol 4-cü texniki dərəcəlidir. Yol üzərində 28 su keçidi yerləşir. Kəndlərarası avtomobil yolunun əhəmiyyətini artıran ən mühüm amil onun 13 yaşayış məntəqəsini birləşdirməsidir. Uzun illər bu sarıdan əziyyət çəkən həmin kəndlərin əhalisi artıq müasir standartlara uyğun yoldan istifadə edə biləcəklər.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## Füzuli rayon Tarix-Diyarşünaslıq Muzeyinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Füzuli rayon Tarix-Diyarşünaslıq Muzeyinin açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyev muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilən bu muzeydə ibtidai dövr, tunc dövrü, orta əsrlər, yeni və ən yeni dövrlərə aid bölmələr var. Xüsusi memarlıq üslubunda tikilən bina bütün lazımi kommunikasiya xətləri və müvafiq avadanlıqlarla təchiz olunub.*

*Bildirildi ki, bu muzey 1981-ci ildə yaradılıb. 1993-cü ildə Qarabağ müharibəsinin gedişində muzeyin 7 mindən çox eksponatı rayondan çıxarılaraq Bakıdakı İstiqlal Muzeyində saxlanılıb. Mədəniyyət və Turizm Nazirliyi toplanmış çoxsaylı eksponatların tarixi əhəmiyyətini nəzərə alaraq 2006-cı ildə rayonun Bala Bəhmənli kəndində Füzuli Tarix-Diyarşünaslıq Muzeyinin filialını açıb. Hazırda filialın fondunda xalqımızın qədim tarixinin və dövlətçilik ənənələrinin müxtəlif dövrlərinə işıq salan 1000-ə yaxın eksponat var. Muzeydə Azıx mağarasının maketi və ibtidai dövrdə istifadə olunan məişət və əmək alətləri nümayiş etdirilir. Bu eksponatların hamısı vaxtilə Füzuli rayonu ərazisində aparılan arxeoloji qazıntılar zamanı aşkar olunub. Tunc və dəmir dövrləri bölmələrində sərgilənən eksponatların böyük hissəsi isə qədim qəbirlərdən tapılıb. Ulu əcdadlarımızın döyüşlərdə istifadə etdikləri silah nümunələri, məişət avadanlıqlarının qalıqları orta əsrlər dövrünə aid bölmədə yerləşdirilib. Muzeyin əhəmiyyətini artıran mühüm amillərdən biri də burada Füzuli rayonunun etnoqrafik xüsusiyyətlərinin geniş əks olunmasıdır. Belə ki, muzeydə tarixin müxtəlif dövrlərində Füzuli sakinlərinin həyat tərzini və məişətini əks etdirən eksponatlar da sərgilənir. Dəmirçi, dulusçu və xalçaçı emalatxanalarının, evlərin kiçik maketləri əhalinin qədim dövrlərdəki yaşayış tərzini və məşğuliyyətini əks etdirir. Rayonun görkəmli şəxsiyyətləri, o cümlədən Qarabağ müharibəsi zamanı xüsusi fədakarlıq və igidlik göstərmiş füzulililər haqqında məlumatların toplandığı muzeydə «Qələbə qığılcımı» başlığı altında xüsusi bölmə də yaradılıb. Burada Füzuli rayonundan olan milli qəhrəmanların həyatı, onların döyüş yolu, ulu öndər Heydər Əliyevin tarixi xidmətləri sayəsində rayonun işğaldan azad olunan 22 kəndi, o cümlədən Horadiz şəhəri və ötən dövrdə bu ərazilərdə aparılan bərpa, yenidənqurma işləri barədə məlumat verilir.*

*Prezident İlham Əliyev Füzuli rayonundan olan Musa Yaqubovun hazırladığı 16 musiqi aləti ilə tanış oldu.*

**Füzuli Rayon İcra Hakimiyyətinin yeni binasında**

**yaradılan şəraitlə tanışlıq**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Horadiz şəhərində Füzuli Rayon İcra Hakimiyyətinin yeni binasında yaradılan şəraitlə tanış olmuşdur.*

*Binanın foyesində ümummilli lider Heydər Əliyevin büstü qoyulub. Binada ulu öndərin və prezident İlham Əliyevin ölkəmizin tərəqqisi naminə çoxşaxəli fəaliyyətlərini əks etdirən fotoguşələr yaradılıb. Fotoguşələrdə ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin Füzuli rayonunda müxtəlif illərdə keçirilən tədbirlərdə iştirakını əks etdirən şəkillər böyük maraq doğurur.*

*Dövlətimizin başçısı otaqlarda yaradılan şəraitlə tanış oldu. Otaqların hamısı müasir tələblər səviyyəsində qurulub. Burada müasir idarəetmə metodlarından istifadə etmək üçün bütün texniki imkanlar yaradılıb. Bu da icra strukturunun işinin daha mükəmməl qurulmasına, rayon icra hakimiyyəti əməkdaşlarının səmərəli fəaliyyətinə geniş imkan verir. Konfrans zalında tədbirləri yüksək səviyyədə keçirmək üçün hər cür şərait yaradılıb. Operativ idarəetmə otağı vasitəsilə sakinlər inzibati binaya gəlmədən onları narahat edən problemlərlə əlaqədar icra hakimiyyətinin məsul şəxsləri ilə birbaşa videoəlaqə yarada biləcəklər. Artıq rayonun bütün icra nümayəndəlikləri bu şəbəkəyə qoşulub.*

*İcra hakimiyyətinin binası eyni zamanda, rayonun simasına yeni görkəm verir. Binanın yerləşdiyi ərazidə geniş yaşıllaşdırma işləri aparılıb, müasir işıqlandırma sistemi quraşdırılıb.*

*Prezident İlham Əliyev əhaliyə yüksək xidmət göstərilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

**Mil-Muğan hidroqovşağının fəaliyyəti ilə tanışlıq**

*Prezident İlham Əliyev avqustun 28-də Mil-Muğan hidroqovşağının fəaliyyəti ilə tanış olmuşdur.*

*«Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə prezident İlham Əliyevə Mil-Muğan hidroqovşağı barədə məlumat verdi. Qeyd olundu ki, keçmiş SSRİ*

*və İran dövləti arasında 1963-cü ildə imzalanmış «Texniki iqtisadi sahədə əməkdaşlıq haqqında Saziş»ə əsasən Füzuli rayonunun Horadiz qəsəbəsi yaxınlığında Araz sərhəd çayının üzərində inşa olunmuş Mil-Muğan hidroqovşağı 1972-ci ildə istismara verilib. Hidroqovşağın tikilməsində məqsəd Araz çayının nizamlanmış axınından Azərbaycan və İran tərəflərinin birgə istifadəsi ilə 200 min hektar, o cümlədən Azərbaycanda 120 min hektara yaxın torpaq sahəsini suvarma suyu ilə təmin etmək olub. Sazişə əsasən Mil-Muğan hidroqovşağından 921 milyon kubmetr su götürülməsi və ekoloji vəziyyətin qorunması üçün 1 milyard kubmetr suyun çaya buraxılması nəzərdə tutulmuşdu.*

*Bildirildi ki, burada bəndin su tənzimləyən hissəsinin uzunluğu 136 metrdir. Onun üzərində eni 12 metr olan 6 suburaxıcı, eləcə də hər 2 tərəfə su vermək üçün eni 5 metr, hündürlüyü 3,5 metr olan 4 suqəbuledici qapı layihələndirilib. Hidroqovşağın Azərbaycan tərəfində uzunluğu 1850 metr olan torpaq bəndləri tikilib. Hidroqovşaq sel vaxtı saniyədə 2700 kubmetr su buraxmaq qabiliyyətinə malikdir. Mil-Muğan hidroqovşağından götürülən suyun Baş Mil kanalı ilə Yuxarı Mil, Yeni Xanqızı və digər kanallara ötürülməsi, beləliklə də Füzuli, Beyləqan, Ağcabədi və İmişli rayonlarında 120 min hektara yaxın əkin sahəsinin su ilə təmin edilməsi nəzərdə tutulub. Baş Mil kanalından su götürən Yuxarı Mil kanalının tikintisi «Meliorasiya və Su Təsərrüfatı» ASC tərəfindən davam etdirilib və 2012-ci ildə onun 11 kilometrə yaxın hissəsi istifadəyə verilib. Bu da Beyləqan və Ağcabədi rayonlarının inzibati ərazilərində 4800 hektar sahədə pilot taxılçılıq təsərrüfatının yaradılmasına imkan verib. Taxılçılıq təsərrüfatının inkişafı məqsədilə ötən il kanalın daha 5 kilometrə yaxın hissəsi və onun üzərində Füzuli rayonunun ərazisində nasos stansiyası tikilib, bununla da 4 min hektar torpaq sahəsinə suvarma suyunun çatdırılması mümkün olub. Kanalın tikintisinin davam etdirilməsi nəticəsində 20 min hektara yaxın, o cümlədən Ağcabədi rayonunun 7637 hektar torpaq sahələri suvarma suyu ilə təmin ediləcək. Yuxarı Mil kanalı üzərində inşa olunan ikinci nasos stansiyası*

*vasitəsilə bu il daha 1725 hektar əkin sahəsi suvarma suyu ilə təmin ediləcək.*

*Prezident İlham Əliyevə Füzuli və Beyləqan rayonlarının əkin sahələrinin su təminatı barədə də məlumat verildi. Qeyd olundu ki, Füzuli rayonunda hazırda 31305 hektar suvarılan sahələr mövcuddur. Bu sahələrin 6300 hektarında meliorasiya tədbirləri həyata keçirilib. Əkin sahələrinin su təminatı 1378 kilometr suvarma kanalları, 87 subartezian quyusu və 56 nasos stansiyası vasitəsilə həyata keçirilir. Kollektor-drenaj şəbəkəsinin uzunluğu 259 kilometrdir. Artıq rayonun Qayıdış və Örənqala qəsəbələrində məskunlaşmış məcburi köçkün ailələrinə ayrılmış pay torpaqları suvarma suyu ilə təmin edilib. Ötən il Füzulidə 10, o cümlədən dövlətimizin başçısının müvafiq sərəncamına əsasən 7 subartezian quyusu istismara verilib. Bu il isə rayon ərazisində 12 subartezian quyusunun qazılması başa çatdırılıb. Beyləqan rayonunda isə hazırda 50497 hektar suvarılan sahələr mövcuddur. Bu sahələrin 36548 hektarında meliorasiya tədbirləri həyata keçirilib. Əkin sahələrinin su təminatı 1268 kilometr suvarma kanalları, 88 subartezian quyusu, 7 nasos stansiyası vasitəsilə həyata keçirilir. Kollektor-drenaj şəbəkəsinin uzunluğu 1277 kilometrdir. Ötən il rayonda 4, bu il isə 6 subartezian quyusunun qazılması başa çatdırılıb.*

**SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ANDREY KİSKAYA**

Hörmətli cənab Prezident!

Slovakiya Respublikasının milli bayramı – Konstitusiya Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Slovakiya arasındakı mövcud dostluq əlaqələri qarşılıqlı maraq doğuran ikitərəfli əməkdaşlığımızın inkişafı üçün yeni-yeni imkanlar açacaqdır.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Slovakiya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *29 avqust 2014-cü il*

**VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇIONQ TANQ SANQA**

Hörmətli cənab Prezident!

Vyetnam Sosialist Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Vyetnam arasındakı ənənəvi dostluq münasibətlərinin möhkəmləndirilməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Vyetnam xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *29 avqust 2014-cü il*

**ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA**

Hörmətli İslam Abduqəniyeviç!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin şəxsinizdə bütün Özbəkistan xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Sizin rəhbərliyinizlə dünya birliyində layiqli yer tutan qardaş Özbəkistan ölkənin ictimai-siyasi, sosial-iqtisadi inkişafı yolu ilə inamla irəliləyir.

Bizim xalqlarımızı tarixin sınağından çıxmış ümumi mənəvi və mədəni dəyərlər, dostluq, əməkdaşlıq və qarşılıqlı dəstək münasibətləri bağlayır. Əminəm ki, Azərbaycan ilə Özbəkistan arasında çoxplanlı qarşılıqlı əlaqələr bundan sonra da xalqlarımızın əsas mənafelərinə cavab verəcək, ölkələrimizin daha da inkişaf etməsinə və firavanlaşmasına hərtərəfli kömək edəcəkdir.

Hörmətli İslam Abduqəniyeviç, bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, qardaş Özbəkistan xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *29 avqust 2014-cü il*

# BAKIDA 46 SAYLI TAM ORTA MƏKTƏBİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*29 avqust 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Bakının Nəsimi rayonundakı 46 saylı tam orta məktəbin əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər ardıcıl olaraq həyata keçirilir. Xüsusi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq orta məktəblərin, ayrı-ayrı təhsil ocaqlarının maddi-texniki bazası möhkəmləndirilir, təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə ən müasir infrastruktur yaradılır. Yeni dərs ili ərəfəsində respublikanın hər yerində olduğu kimi, paytaxtda və eləcə də ətraf qəsəbələrdə orta məktəb binaları yüksək standartlara uyğun şəkildə yenidən qurulur və lazımi avadanlıqlarla təchiz edilir, təhsil müəssisələrinin ərazilərində abadlıq işləri həyata keçirilir.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov məktəbdə görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, 46 saylı tam orta məktəbin binası 1969-cu ildə inşa olunub. 4 mərtəbədən, 65 sinif otağından ibarət məktəb 1560 şagird yerlikdir. Yeni dərs ili ərəfəsində məktəbin bütün sinif otaqları, ayrı-ayrı fənn kabinetləri əsaslı şəkildə təmir edilib, lazımi avadanlıq və ləvazimatlarla təchiz olunub. Məktəbdə vergilər mövzusunda dərslərin keçirilməsi üçün xüsusi kabinetlər də yaradılıb.*

*Məktəbdə ən müasir havalandırma və işıqlandırma sistemləri quraşdırılıb. Ətraf ərazilərdə abadlıq və quruculuq işləri həyata keçirilib.*

*Prezident İlham Əliyev ayrı-ayrı sinif otaqlarını gəzdi, fənn kabinetlərində yaradılan şəraitlə yaxından tanış oldu.*

## BAKININ XƏTAİ RAYON İCRA HAKİMİYYƏTİNİN BİNASINDA APARILAN YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*29 avqust 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Bakının Xətai Rayon İcra Hakimiyyətinin binasında aparılan yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Son illərdə prezident İlham Əliyevin sərəncam və tapşırıqlarına əsasən ölkədə dövlət idarəçiliyi sistemində yeni metodların tətbiqi daha da genişləndirildi. Bununla əlaqədar olaraq dövlət orqanlarında çalışan əməkdaşların iş şəraitinin yaxşılaşdırılması istiqamətində də mühüm tədbirlər həyata keçirilir. Paytaxtın müxtəlif rayonlarının icra hakimiyyətləri üçün yeni binaların tikilməsi, mövcud olanlarda isə yenidənqurma işlərinin aparılması bu sırada mühüm yer tutur. Xətai Rayon İcra Hakimiyyətinin binasında aparılan təmir və yenidənqurma işləri də həm əməkdaşların əmək fəaliyyətinin yaxşılaşdırılmasına, digər tərəfdən də əhaliyə daha keyfiyyətli xidmətin göstərilməsinə təminat verir. Xətai Rayon İcra Hakimiyyətinin binasında yaradılan şərait bir faktı da təsdiqləyir ki, ölkədə dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi daim diqqət mərkəzindədir. Müasir memarlıq üslubunda yenidən qurulan bina rayonun görkəminə də xüsusi gözəllik verir.*

*Xətai Rayon İcra Hakimiyyətinin başçısı Razim Məmmədov görülən işlərlə bağlı prezident İlham Əliyevə məlumat verdi.*

*Bildirildi ki, bu inzibati bina 1979-cu ildə tikilib və o vaxtdan əsaslı təmir edilməyib. Beşmərtəbəli binada aparılan yenidənqurma işləri zamanı fasad tamamilə yenilənib. Əvvəllər ümumi sahəsi 2500 kvadratmetr olan binanın ərazisi genişləndirilərək 2875 kvadratmetrə çatdırılıb. Yenidənqurma işləri zamanı bina bütün lazımi avadanlıq və sistemlərlə təchiz edilib. Girişdə xalqımızın ümummilli lideri Heydər Əliyevin büstü qoyu-*

lub. Ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin müxtəlif vaxtlarda Xətai rayonunda keçirilən tədbirlərdə iştiraklarından hazırlanan fotostend qurulub.

Prezident İlham Əliyev vətəndaşların qəbulu otağında yaradılan şəraitlə tanış oldu. Bildirildi ki, dövlət başçısının «Elektron hökumət»in yaradılması barədə tapşırıqlarına uyğun olaraq, icra hakimiyyətinin elektron idarəetmə və məlumat bazasında vətəndaşların ərizə və şikayətlərinin elektron formada qəbulu da reallaşıb. Rayonun hər bir sakini icra hakimiyyətinin binasına gələrək bu sistem vasitəsilə elektron ərizə yaza və müvafiq şöbəyə göndərə bilər. Bununla yanaşı, vətəndaşlar bu sistemdən internetlə rayon icra hakimiyyətinin rəsmi saytına və ya bu bazaya daxil olaraq evlərindən birbaşa müraciət edə bilərlər. 220 yerlik konfrans zalında icra hakimiyyətinin və rayonla bağlı tədbirlərin keçirilməsi üçün hər cür şərait var. Burada işıq, səs və digər müasir sistemlər quraşdırılıb. Bundan əlavə, bütün lazımi avadanlıqla təchiz olunan yeməkxana da istifadəyə verilib. Yeni inzibati binada işçilərin normal fəaliyyəti üçün geniş və hərtərəfli imkanlar yaradılıb. Otaqların hamısı müasir avadanlıq və inventarla təchiz olunub.

Müasir memarlıq üslubunda yüksək zövqlə yenidən qurulan binanın interyerində paytaxtın qədim görüntülərini əks etdirən fotolar vurulub. Kiçik konfrans zalında müxtəlif toplantıların keçirilməsi üçün hər cür şərait var. 50 yerlik müşavirə zalındakı şərait də ən müasir tələblərə cavab verir. Operativ idarəetmə mərkəzindən rayon ərazisində yerləşən bütün tikililər barədə məlumat almaq mümkündür. Xüsusi proqram rayondakı bütün mənzil-istismar sahələrinin ərazilərinin bölgüsünü aydın göstərir. İstehsalat qəzalarının, dağıntıların yaranması təhlükəsi baş verəcəyi təqdirdə mərkəzdə idarəetmənin, xəbərdarlığın və rabitənin təşkili sxemi də yaradılıb.

Binadakı şəraitlə tanış olan dövlətimizin başçısı daha sonra icra hakimiyyəti binasının qarşısında yaradılan parka baxdı.

Dövlətimizin başçısına məlumat verildi ki, ötən ilin sonlarından başlayan təmir və yenidənqurma işləri zamanı ərazidə

*geniş yaşıllıq zolaqlarının salınmasına xüsusi fikir verilib. Bunumla bağlı çoxlu dekorativ ağaclar əkilib. Burada yaxınlıqda yaşayan əhalinin istirahəti üçün bütün imkanlar yaradılıb.*

**AVROPA İTTİFAQI ŞURASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DONALD TUSKA**

Hörmətli cənab Baş nazir!

Avropa İttifaqı Şurasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz Azərbaycan ilə Avropa İttifaqı arasındakı münasibətlərə və hərtərəfli əməkdaşlığa böyük əhəmiyyət veririk. «Şərq Tərəfdaşlığı» Proqramı çərçivəsində əlaqələrimizin gündən-günə genişlənməsi məmnunluq doğurur.

İnanıram ki, Azərbaycanın Avropa İttifaqının bütün strukturları ilə əməkdaşlığının genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *1 sentyabr 2014-cü il*

## ÇİNİN NANKİN ŞƏHƏRİNDƏ YENİYETMƏLƏR ARASINDA II YAY OLİMPİYA OYUNLARINDA İŞTİRAK ETMİŞ MİLLİ KOMANDAMIZIN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*1 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 1-də Çinin Nankin şəhərində yeniyetmələr arasında keçirilən II Yay Olimpiya oyunlarında iştirak etmiş milli komandamızın üzvlərini qəbul etmişdir.*

**İlham Əliyev:** Yeniyetmələrin Yay Olimpiya oyunlarında milli komandamız Vətəni ləyaqətlə təmsil etmişdir və Vətənə böyük qələbə ilə qayıtmışdır. Bu qələbəni əldə edən idmançıları, onların məşqçilərini ürəkdən təbrik edirəm, Azərbaycan dövləti adından onlara öz təşəkkürümü bildirirəm.

Bu doğrudan da böyük qələbədir. Bizim komandamız 10-cu yerə layiq görülmüşdür, 12 medal qazanmışdır, onlardan 5-i qızıl medaldır və Avropa ölkələri arasında komandamız 6-cı, müsəlman ölkələri arasında isə 1-ci yerdədir. Nəzərə alsaq ki, bu oyunlarda 200-dən çox komanda iştirak edirdi, əlbəttə, hər kəs görə bilər ki, bu doğrudan da böyük və tarixi qələbədir. Bu qələbə məni çox sevindirir, bilirəm ki, Azərbaycan xalqını da sevindirir. Çünki bu, Azərbaycan gənclərinin və Azərbaycan dövlətinin qələbəsidir.

İdman yarışları, Olimpiya oyunları, yeniyetmələrin Olimpiya oyunları ölkələr arasındakı idman yarışıdır. Hər bir ölkə çalışır ki, bu yarışlarda daha da yüksək yerə sahib olsun. Ancaq Azərbaycanın milli komandası bunu sübut edibdir və bizdən daha yüksək yerlərdə dünya idmanının ənənəvi liderləridir. Belə olan halda, bizim qələbəmizin mənası daha da böyükdür. Bu, tarixi qələbədir, böyük qələbədir. Azərbaycan idmanının yüksəklərə qaldırılması işində Azərbaycanın bütün idman ictimaiyyətini təbrik edirəm. Əminəm ki, bizim gənc idmançılarımız gələcəkdə də yüksək nəticələr göstərəcəklər və

gələcək illərdə keçiriləcək Yay Olimpiya oyunlarında da Azərbaycanı ləyaqətlə təmsil edəcəklər.

Azərbaycan idman dövlətidir, bunu beynəlxalq olimpiya hərəkatının rəhbərləri qeyd edirlər. Son illərdə bu istiqamətdə aparılan dövlət siyasəti elə vəziyyətə gətirib çıxarıb ki, bu gün Azərbaycan dünyada idman dövləti kimi tanınır. Ölkəmizin böyük idman uğurları vardır. Hər il idmançılarımız müxtəlif beynəlxalq idman yarışlarında yüzlərlə medal qazanırlar. Azərbaycanda keçirilən dünya, Avropa çempionatları idmanı ölkəmizdə geniş şəkildə təbliğ edir və uşaqları, gəncləri, yeniyetmələri idman bölmələrinə gətirir, beləliklə, ardıcıllıq təmin edilir. Bizim görkəmli idmançılarımız Azərbaycanı ləyaqətlə təmsil edirlər. Son Olimpiya oyunlarında Londonda biz tarixi qələbə qazanmışıq. Bu Olimpiadada 10 medal qazanmışıq və komanda hesabında 30-cu yerdə, Avropa ölkələri arasında isə 15-ci yerdə idik. Əlbəttə ki, bu nəsillər arasındakı əlaqə kəsilməməlidir. Siz, gənc idmançılar, təbii olaraq istəyirsiniz ki, gələcəkdə olimpiya çempionları olasınız və sizin qarşınızda gözəl nümunələr var.

Çünki müstəqil Azərbaycan dövləti iştirak etdiyi hər növbəti Olimpiya oyunlarında daha da yüksək yerə layiq görülür. Bu ardıcıllıq, qələbə ardıcıllığı davam edir və nəsillər ardıcıllığı da bu gün təmin edilir. Bu, idmanın inkişafının əlamətidir. Çünki yeniyetmə-uşaq idmanına çox böyük diqqət göstərilir və hər bir ölkənin idman inkişafını məhz uşaq-yeniyetmə idmanı müəyyən edir. Çünki burada seleksiya işləri düzgün aparılmalıdır. Kadr hazırlığı, məşqçilərin peşəkarlığı və əlbəttə ki, idman siyasətinin məqsədyönlü olması burada əsas şərtlərdəndir. Bütün bu amillər – gənc, istedadlı idmançılar, peşəkar məşqçilər, idmana rəhbərlik edən qurumların arasında olan əlaqəlilik Azərbaycanda vardır və bu heç də hər bir ölkədə mövcud deyil. Beynəlxalq olimpiya hərəkatının nümayəndələri daim bir məsələni qeyd edirlər ki, Azərbaycanda Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, idman cəmiyyətləri, klublar bir komanda

kimi, sistemli şəkildə fəaliyyət göstərir və bizim uğurlarımızın əsas səbəbi bundan ibarətdir.

Bu gün Azərbaycan hərtərəfli inkişaf edir və idmanın inkişafı, əlbəttə ki, ölkəmizin ümumi inkişafını əks etdirir. İdmanla məşğul olmaq üçün indi bütün şərait var. Bakıda elə gözəl idman qurğuları tikilir və tikilibdir ki, onlar bütün yüksək standartlara cavab verir. Demək olar ki, bütün bölgələrdə müasir olimpiya kompleksləri yaradılıb və o komplekslərə idmançıların axını təmin edilir. İdman infrastrukturunun yaradılması və bütövlükdə idmanı Azərbaycan cəmiyyətində önəmli bir amil kimi təqdimetmə siyasətimiz öz nəticəsini vermişdir. Belə olan halda, əlbəttə, biz gələcəyə böyük ümidlərlə baxırıq və əminik ki, idmançılarımız gələcəkdə də bizi sevindirəcəklər.

Siz, gənc idmançılar öz idman həyatınızda çox böyük uğurlar əldə etmisiniz. Gənc yaşlarınızda olimpiya çempionu olmusunuz. Bu, böyük qələbədir, eyni zamanda, böyük məsuliyyətdir. Təbii ki, qızıl, gümüş və bürünc medal qazanan idmançılara diqqət də böyük olacaqdır, cəmiyyətdə də sizdən nümunə götürmək istəyənlər olacaqdır. Ona görə siz ilk növbədə, peşəkar idman həyatınızı elə qurmalısınız ki, daim yüksək nəticələrə nail olasınız, eyni zamanda, həyatda, məişətdə də nümunə olmalısınız. Azərbaycan gəncləri bizim qürur mənbəyimizdir. Mən gənclərlə Bakıda, bölgələrdə tez-tez görüşürəm, onlara ürək sözlərimi deyirəm və qeyd edirəm – biz fəxr edə bilərik ki, müstəqil Azərbaycanın gəncləri vətənpərvərdirlər, Vətənə bağlıdırlar və öz işləri ilə ölkəmizin inkişafına töhfə verirlər. Siz gələcək fəaliyyətinizdə bu məsələləri daim diqqət mərkəzində saxlamalısınız və eyni zamanda, çalışmalısınız ki, peşəkarlığınızı artırasınız.

Bəzən həm Azərbaycanda, həm başqa ölkələrdə belə hallar olur ki, bir idmançı gənc yaşlarında böyük uğura imza atır. Amma ondan sonra idman səhnəsindən çəkilir, yaxud fəaliyyətini dayandırır və ya yüksək nəticəni təkrar edə bilmir. Belə hallar var, təkcə Azərbaycanda deyil. Ona görə bu böyük qələbə sizin üçün yeni bir stimul olmalıdır ki, gələcək fəaliyyətinizdə də öz gücünüzü sübut edəsiniz. Buna bütün

imkanlar var, dövlət siyasəti aparılır, idmana rəhbərlik edən bütün qurumlar səmərəli fəaliyyət göstərir. Təlim-məşq prosesinin təşkili ilə bağlı heç bir problem yoxdur. Bizim idmançılarımız bütün mötəbər beynəlxalq yarışlarda iştirak edirlər. Yəni Azərbaycan dövlətinin idman siyasəti hər bir gənc üçün böyük imkanlar açır. Siz bu imkanlardan gənc yaşlarınızda uğurla istifadə etmisiniz. Ona görə hesab edirəm ki, biz gələcəkdə də sizin qələbələriniz haqqında eşidəcəyik.

Azərbaycan böyük idman yarışına hazırlaşır. Bildiyiniz kimi, gələn il ilk dəfə olaraq Avropa oyunları keçiriləcəkdir. Bu oyunların keçirilməsi Azərbaycana həvalə edilibdir. Bu, böyük məsuliyyətdir və Azərbaycan idmanının böyük nailiyyətidir. Çünki bu oyunların Azərbaycanda keçirilməsi qərarı bir neçə amilə söykənib. İlk növbədə, Azərbaycanın inkişafı, idman və xidmət infrastrukturunun mövcudluğu, müasir nəqliyyat sisteminin yaradılması, ümumi iqtisadi artım templəri də nəzərə alınmışdır. Eyni zamanda, idmançılarımızın çıxışları da burada öz rolunu oynayıb. Çünki belə mötəbər Avropa oyunları birinci dəfə keçirilir. Bu oyunların necə keçiriləcəyi bizdən asılıdır. Çünki biz Avropa oyunlarının keçirilməsi üçün standartlar müəyyən edəcəyik.

Bizim istəyimiz ondan ibarətdir ki, bu oyunlar Yay Olimpiya oyunlarının səviyyəsində keçirilsin. Buna imkan var. Qeyd etməliyəm ki, bu oyunlar iştirak edəcək idmançıların və idman növlərinin sayına görə Qış Olimpiya oyunlarından daha böyükdür, Yay Olimpiya oyunlarına daha çox yaxındır. Yəni əslində Azərbaycanın üzərinə çox böyük və şərəfli missiya düşübdür ki, biz iki il yarım ərzində Olimpiya oyunları səviyyəsində oyunlar keçirəcəyik. Hazırlıq prosesi gedir. Əminəm, bizim gənclərimiz də – hələ 1 il vaxt var – çalışmalıdırlar ki, milli komandaya daxil olsunlar. Əgər bu, mümkün olacaqsa, əlbəttə ki, sizdən qələbə gözləyəcəyik. Əgər bu, mümkün olmayacaqsa, əminəm ki, siz hansısa başqa bir formada bu oyunların hazırlanmasında iştirak edəcəksiniz. Burada çoxlu təşkilati məsələlər var. O məsələlər ki, Azərbaycana bir daha özünü bütün Avropaya güclü, inkişafda olan, müasir dövlət kimi təqdim etməyə imkan verəcəkdir.

Bizim idmançılarımız həm intellektual, həm də fiziki güc tələb edən oyunlarda birinci yerlərdədirlər. Bu yaxınlarda Dünya Şahmat Olimpiadası keçirilmişdir. Bizim komandamız çox yüksək yerə layiq görülmüşdür. Yeniyetmələrin Olimpiya oyunlarında da həmçinin. Bu, ölkəmizin gənclərinin intellektual və fiziki potensialını göstərir. Eyni zamanda, onu göstərir ki, gənclərimiz öz Vətənini nə qədər sevir, Vətənlə fəxr edirlər. Fəxr edirlər ki, onlar müstəqil Azərbaycan dövlətinin vətəndaşlarıdır.

Sizi bir daha bu böyük qələbə münasibətilə ürəkdən təbrik edirəm. Sizə yeni uğurlar və xoşbəxtlik arzulayıram.

Sağ olun!

**Ə j d ə r  C ə f ə r o v** *(Güləş Federasiyasının baş katibi, Yeniyetmələrin Yay Olimpiya oyunlarında hakimlər komissiyasının inspektoru):* Möhtərəm cənab Prezident!

Fürsətdən istifadə edərək, Sizi bu qələbə münasibətilə təbrik edirəm. Cənab Prezident, bu Sizin qələbənizdir, başda Siz olmaqla, Azərbaycan xalqının qələbəsidir. Çünki Sizin diqqət və qayğınız nəticəsində bütün sahələrdə olduğu kimi, idman sahəsində də böyük irəliləyişlər var. Sizin göstərişiniz əsasında istər paytaxtımızda, istərsə də regionlarımızda inşa edilmiş olimpiya komplekslərimizdən bu gün yeniyetmə və gənc idmançılarımız istifadə edərək, yüksək əyarlı medallar qazanırlar. Şəxsən Sizin diqqətiniz və idmana olan sevginiz biz idmançıları ruhlandırır. Hər dəfə mötəbər beynəlxalq yarışlardan əvvəl və sonra idmançılarla keçirdiyiniz görüşlər, bizə göstərdiyiniz etimad məsuliyyətimizi daha da artırır. Biz bu məsuliyyəti başa düşərək, beynəlxalq yarışlarda iştirak edirik və daim qızıl medallar əldə edirik. Bu, başqa cür ola da bilməz.

Möhtərəm cənab Prezident, mən bir daha Sizi bu böyük qələbə münasibətilə idmançılar, xüsusən də güləşçilər adından təbrik edirəm. Sizi əmin etmək istəyirik ki, üçrəngli bayrağımızı daim yüksəklərə qaldırmaq, himnimizi səsləndirmək üçün var qüvvəmizlə çalışacağıq, Sizin etimadınızı doğruldacağıq. Qarşıda bizi böyük sınaqlar, paytaxtımızda keçiriləcək I Avropa

oyunları, Avropa və dünya çempionatları, 2016-cı ildə Rio-de-Janeyroda Yay Olimpiya oyunları gözləyir.

Möhtərəm cənab Prezident, biz bir daha dünyaya sübut edəcəyik ki, Azərbaycan güclü dövlətdir. Azərbaycanın İlham Əliyev kimi güclü prezidenti var. Biz bununla fəxr edirik. Yaşasın güclü və qüdrətli Azərbaycan!

**N a z i m B a b a y e v** *(atletika növündə bürünc medal qazanmış idmançı):* Hörmətli cənab Prezident!

Hörmətli idmançılar və qonaqlar!

Bu gün mən sonsuz sevinc hissi keçirirəm. Çünki kütləviliyinə görə Yay Olimpiya oyunlarından sonra ikinci yerdə duran mötəbər bir yarışın – Yeniyetmələrin Yay Olimpiya oyunlarının mükafatçısı oldum. Bu, təkcə mənim qələbəm deyil, hörmətli Prezident, bu ilk növbədə, Sizin qələbənizdir. Bu ilk növbədə, dünyada yaşayan azərbaycanlıların qələbəsidir. Mən sevinirəm ki, Azərbaycanın şan-şöhrətini, idman nüfuzunu bütün dünyaya tanıtdım. Çətin keçən yarışlarda Sizin və xalqımızın dəstəyi mənə kömək oldu. Özümü həm fiziki, həm də mənəvi cəhətdən bu yarışlara hazır hesab edirdim və bu inamla da yarışlara qatıldım. Yüngül atletikanın üç təkanla tullanma növündə bürünc medala layiq görüldüm. Bu yarışlar mənim yüksək təcrübə toplamağıma kömək oldu.

Möhtərəm Prezident, biz, bütün idmançılar bu qələbələrimizə görə Sizə təşəkkür edirik və bundan sonra da doğma Vətənimizin idman şərəfini beynəlxalq miqyaslı yarışlarda layiqincə qoruyacaq, yeni nailiyyətlər əldə edəcəyik. Diqqətinizə görə çox sağ olun.

**Ç i n g i z H ü s e y n z a d ə** *(Milli Olimpiya Komitəsinin vitse-prezidenti):* Möhtərəm cənab Prezident!

Həqiqətən, böyük bir tarixi qələbə qazanılıb. Amma mən bir məqamı xüsusilə qeyd etmək istəyirəm. Bu məqam ondan ibarətdir ki, bu qələbəni qazanan uşaqların, demək olar ki, əksəriyyəti 1997-ci ildə anadan olub. Bu həmin ildir ki, Siz Milli Olimpiya Komitəsinin prezidenti seçilmisiniz. Deməli, onlar Sizin dövrünüzdə anadan olublar, böyüyüblər. Mən hesab

edirəm bu bizim Olimpiya Komitəsinin, idman strukturlarının ən böyük qələbəsidir ki, 17 il ərzində əldə olunan nəticələr göz qabağındadır. Mən də bütün idmançılar, bütün Azərbaycan idmansevərləri adından Sizi bu böyük qələbə münasibətilə təbrik edirəm. Mən bir şeyi demək istəyirəm. 17 il bundan qabaq o tarixi seçki olmasaydı, bəlkə də bu gün bu nəticələr olmazdı.

**İ l h a m Ə l i y e v:** Bəli, yadımdadır o günlər. O, idmanın inkişafında, əlbəttə ki, çox önəmli bir hadisə idi. Çünki Azərbaycan müxtəlif dövrlərdə öz idmançıları ilə fərqlənən bir respublika idi, diyar idi. Sovet vaxtında da bizim böyük qələbələrimiz olmuşdur. Dünya çempionlarımız, Azərbaycan idmançıları Olimpiya oyunlarında ləyaqətlə çıxış etmişlər. Ancaq, əlbəttə, müstəqilliyimizin ilk illərində idmanın tənəzzülü yaşanırdı. Bəlkə də bu, müəyyən dərəcədə təbii bir proses idi. Çünki ölkəmiz bütövlükdə çox ağır vəziyyətdə idi. Torpaqlarımız işğal altına düşürdü. Eyni zamanda, iqtisadi vəziyyət çox ağır idi, siyasi böhran yaşanırdı, vətəndaş müharibəsi təhlükəsi vardı. Əlbəttə ki, belə bir şəraitdə idmançılardan yüksək nəticə gözləmək çətin idi.

Xoşbəxtlikdən Azərbaycan xalqı 1993-cü ildə çox müdrik qərar qəbul etmiş, ulu öndər Heydər Əliyevə müraciət edərək, onu siyasi hakimiyyətə dəvət etmiş və 1993-cü ildən başlayaraq Azərbaycanda proseslər müsbət istiqamətdə getmişdir. O cümlədən idmanın inkişafı istiqamətində də çox böyük işlər görülmüş, vahid konsepsiya tərtib olunmuşdur. Əlbəttə ki, 1997-ci ildə Milli Olimpiya Komitəsinə prezident seçilməyim mənim üçün də yeni bir çağırış, yeni bir məsuliyyət idi. Mən o vaxt artıq Milli Məclisin üzvü, Dövlət Neft Şirkətinin vitse-prezidenti idim. Həm kifayət qədər çox işlərim, həm də böyük məsuliyyətim var idi. Çünki o vaxt neft kontraktlarının hazırlanması, icrası ilə bağlı çox ciddi məşğul idim. Bildiyiniz kimi, bu gün Azərbaycan iqtisadiyyatının uğurlu inkişafının təməlində məhz neft siyasətimiz durur. Ona görə bu yeni vəzifə, əlbəttə ki, mənim üçün çox maraqlı idi, eyni zamanda, yeni idi. Mən özüm uşaqlıq yaşlarımdan idmanla məşğul olurdum. Bu gün də məşğul oluram və hər bir insana bunu məsləhət görürəm. Peşəkar idmançı deyildim, amma fikirləşdim

ki, biz Azərbaycan idmanını mütləq inkişaf etdirməliyik. Çünki gözəl potensial, xalqımızın ənənələri, ənənəvi idman növlərimiz var və xalqımız fiziki cəhətdən çox hazırlıqlıdır, güclüdür, vətənpərvərdir.

İlk növbədə, idmançılara şərait yaratmaq məsələləri gündəlikdə idi. Çünki şərait olmasa, idmançı, əlbəttə ki, yüksək nəticəyə çata bilməz. Şərait isə yox idi. Eyni zamanda, bizim bəzi tanınmış idmançılarımız Vətəni tərk etmiş, başqa ölkələrə getmişdilər. Çünki orada idmanla məşğul olmaq üçün şərait, eyni zamanda, maddi təminat da var idi. Çalışdıq ki, onları Vətənə qaytaraq, bəzi hallarda buna müvəffəq olduq, bəzi hallarda alınmadı. İdman komplekslərinin yaradılması ilə məşğul olmağa başladıq. Eyni zamanda, biz idmanın inkişafı ilə bağlı vahid yanaşmanı formalaşdırdıq. Çünki o vaxta qədər sizə deyə bilərəm ki, Gənclər və İdman Nazirliyi, federasiyalar, Milli Olimpiya Komitəsi bir-biri ilə yola getmirdilər. Bəzi ölkələrdə olduğu kimi, bizdə də qarşıdurmalar, toqquşmalar, intriqalar hökm sürürdü. İlk aylarda, bəlkə də birinci 1-2 ildə mən bu məsələ ilə də məşğul idim ki, burada bu xoşagəlməz halları aradan götürək. Çünki bizim hamımızın bir məqsədi var ki, Azərbaycan idmanı inkişaf etsin və Azərbaycan idman arenalarında güclü dövlət kimi özünü göstərsin. Ona görə biz, əlbəttə, bu məsələlərlə – gənc idmançılarımızın hazırlığı, seleksiya məsələləri ilə də məşğul olduq. Bizim tanınmış məşqçilərimizin bir neçəsi xaricdə idi, onları da dəvət etdik, digər tədbirlər görüldü və biz tədricən bu nəticələri görməyə başladıq.

Beynəlxalq idman qurumları ilə çox səmərəli əməkdaşlıq yaradılmışdı. Azərbaycanda dünya çempionatları keçirilməyə başlanmışdı. Yadımdadır, birinci dəfə yeniyetmələr arasında boks üzrə dünya çempionatı keçirilmişdi. Ağacan müəllim, bizim görkəmli idman xadimimiz o vaxt böyük səylər göstərmişdi. Beynəlxalq turnirlər keçirilmişdi. Bu, birinci addımlar idi. Biz bilirdik ki, bu addımlar uğurlu olsa, onda Avropa və dünya çempionatları Azərbaycanda keçirilə bilər və belə də oldu. Azərbaycanda idmanın bir neçə növü üzrə dünya və Avropa çempionatları keçirilmişdir.

İndi Avropa oyunları, əslində Avropanın Olimpiya oyunları Azərbaycanda keçiriləcəkdir.

Əlbəttə ki, idmançılarımızın uğurları və eyni zamanda, gənc idmançılarımızın qələbələri məni həddindən artıq sevindirir. Çingiz burada qeyd etdi. Siz gəncsiniz, siz müstəqillik dövründə dünyaya gəlmisiniz və sizin qələbələriniz Azərbaycan dövlətinin gücüdür. Müstəqil Azərbaycan görün nəyə qadirdir. Sovet vaxtında belə qələbələri biz ancaq arzu edə bilərdik. Əgər 1-2 idmançımız hansısa dünya çempionatında yüksək yerə layiq görülürdüsə, bizim üçün böyük bayram idi. Ancaq bu gün müstəqil ölkə kimi, dünya miqyasında böyüklər arasında 30-cu, gənclər arasında isə 10-cuyuq. Budur real işlərin nəticəsi. Bu onu göstərir ki, hər bir sahədə əgər işlər düzgün qurulursa, yanaşma düzgündürsə, güclü iradə varsa və məsələlərlə bağlı bütün aidiyyəti qurumlar bir nöqtəyə vururlarsa, mütləq nəticə də olacaqdır.

Mən giriş sözümdə qeyd etdiyim kimi, çox istəyirəm ki, bax, bu oyunlarda qələbə qazanmış idmançıların adlarını biz gələcəkdə çox-çox, tez-tez eşidək. Siz mütləq bu fikirlə, bu amalla yaşamalısınız ki, gələcəkdə daha da böyük nəticələr əldə edəsiniz. Əminəm ki, belə də olacaq. Buna nail olmaq üçün bütün şərait var. Bu gün sizin qələbəniz bizim hamımızı ruhlandırır və bir daha göstərir ki, gənc, müstəqil Azərbaycan dövləti böyük uğurları əldə etməyə qadirdir, bunu edir və edəcəkdir. Bir daha sizi təbrik edirəm.

## BAKIDA NÖVBƏTİ YOL QOVŞAĞININ AÇILIŞI MƏRASİMİ

*1 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 1-də Bakının Ziya Bünyadov prospekti ilə Əbdülvahab Salamzadə, Alı Mustafayev və Hüseynbala Əliyev küçələrinin kəsişməsində («Xutor dairəsi») inşa olunan müxtəlif səviyyəli yol qovşağının açılışında iştirak etmişdir.*

*Son illər Azərbaycanda nəqliyyat infrastrukturunun müasirləşdirilməsi istiqamətində çox mühüm tədbirlər reallaşdırılır. Onların arasında paytaxtda və regionlarda inşa olunan çoxsaylı yolötürücülərini, körpüləri, tunelləri, yeraltı və yerüstü piyada keçidlərini göstərmək olar. Mühüm məqam isə ondan ibarətdir ki, bütün yol-nəqliyyat infrastrukturu beynəlxalq standartlar səviyyəsində «Azərbaycanda avtomobil yolları şəbəkəsinin yeniləşməsinə və inkişafına dair 2006–2015-ci illər üzrə Dövlət Proqramı»na uyğun olaraq yaradılır. Bu çərçivədə həyata keçirilən məqsədyönlü tədbirlərin məntiqi nəticəsi olaraq yol-nəqliyyat kompleksinin ayrı-ayrı qurğuları yüksək keyfiyyətlə istismara buraxılır. Yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi sosialyönümlü tədbirlər olmaqla yanaşı, ölkəmizin iqtisadi qüdrətinin də göstəricisidir. İndi paytaxtda və regionlarda həyata keçirilən nəhəng infrastruktur layihələri bir reallığı da ortaya qoyur ki, bu illər ərzində qazanılan nailiyyətlər Azərbaycanın potensialını tam üzə çıxarmaqla yanaşı, ölkəmizin gələcəyinə hesablanan addımların da düzgün istiqamətdə atıldığını təsdiqləyir. Prezident İlham Əliyevin sərəncamı ilə Bakı şəhərində nəqliyyatın hərəkətinin tənzimlənməsi və yol infrastrukturunun təkmilləşdirilməsi layihələri üzrə də işlər uğurla icra olunur.*

*İnşa edilən ən mühüm yol-nəqliyyat qurğularından biri də paytaxtın Ziya Bünyadov prospekti ilə Əbdülvahab Salamzadə,*

*Alı Mustafayev və Hüseynbala Əliyev küçələrinin kəsişməsində («Xutor dairəsi») tikilən müxtəlifsəviyyəli yol qovşağıdır. Bu qovşağın inşası Bakıda tıxac probleminin aradan qaldırılmasına və əhalinin rahatlığının təmin edilməsinə mühüm töhfə verəcək.*

*Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi. Qeyd edildi ki, qovşaqda 3 tunel, 1 körpü, 2 piyada keçidi inşa olunub. Buradakı tunellərin uzunluğu 880, 827, 450 metr, ikisinin eni 10,5, birinin eni isə 22 metr təşkil edir. Qovşaqda müasir səviyyədə inşa edilən körpünün uzunluğu 630 metr, eni isə 12 metrdir.*

*Prezident İlham Əliyev qovşağın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bu qovşağın istifadəyə verilməsi ilə Ziya Bünyadov prospektindən hərəkət edən avtomobillər tunellərdən 20 Yanvar dairəsi və Qələbə meydanı istiqamətinə maneəsiz hərəkət edə biləcək. Bundan başqa, qovşaq 20 Yanvar dairəsi və Qələbə meydanından gələn nəqliyyat vasitələrinin əks istiqamətə – Ziya Bünyadov prospektinə çıxışını təmin edir. Bu nəqliyyat layihəsinin icrası nəticəsində Ziya Bünyadov prospektindən hərəkət edən avtomobillərin respublikamızın şimal bölgəsinə və əks istiqamətə gedən magistrallara rahat çıxışı da təmin olunur. Qovşaqdakı körpüdən isə avtomobillər Əbdülvahab Salamzadə küçəsindən Rəşid Məmmədov küçəsinə və əks istiqamətə rahat hərəkət edə bilir. Bu isə öz növbəsində, Qələbə meydanından mikrorayonlara və əks istiqamətə maneəsiz hərəkətin təmin edilməsinə imkan yaradır. Burada əvvəllər yol dar olduğundan böyük tıxaclar yaranırdı və nəticədə nəqliyyatın hərəkəti iflic olurdu. Qovşağın istifadəyə verilməsi isə problemi həll etməklə yanaşı, paytaxtımızda nəqliyyat infrastrukturu ilə bağlı həyata keçirilən layihələrin miqyasını göstərir.*

*Layihəyə əsasən qovşaqda yan və tunelüstü yollar da inşa olunub. Bundan başqa, tunelüstü yollarda ətrafda yaşayan sakinlərin istirahəti üçün guşələr yaradılıb, yaşıllıq salınıb və uşaq attraksionları quraşdırılıb. Həyata keçirilən tikinti işləri*

*çərçivəsində yaxınlıqda yaşayan sürücülərin avtomobillərini saxlaması üçün* dayanacaq *da yaradılıb. İnşaat işləri zamanı bütün* kommunikasiya *sistemləri,* o *cümlədən* su, istilik, qaz, *rabitə və yağıntı sularını axıdan xətlər dəyişdirilib. Beləliklə, müasir tələblər səviyyəsində inşa* olunan bu *nəhəng yol qurğusunun* tikintisi *nəqliyyatın sıxlığının* aradan *qaldırılması istiqamətində* paytaxtda *aparılan mühüm işlərin davamlı* xarakter *aldığını* bir daha *təsdiq* edir*. Bu cür layihələrin uğurla* icra *olunması* bir daha *sübut* edir ki, *ölkədə aparılan sosialyönümlü tədbirlərdə başlıca məqsəd əhalinin rahatlığını təmin etməkdir.*

## ALMANİYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Alman–Azərbaycan Forumunun İdarə Heyətinin sədri, Alman Mərkəzi Sənətkarlar Birliyinin sabiq baş katibi, sabiq Dövlət katibi Hans-Eberhard Şlayerin, Bundestaqın deputatı, Almaniya–Cənubi Qafqaz parlament qrupunun rəhbəri Karin Ştrentsin, «Almaniya–İsrail Cəmiyyəti»nin sədri Raynold Robbenin, Alman–Azərbaycan Forumunun baş katibi, sabiq Dövlət katibi Mixael Andreas Butsun və «Almaniya İqtisadiyyatının Şərq Komitəsi»nin icraçı direktoru Rayner Lintnerin daxil olduğu Almaniya nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı iqtisadiyyatın müxtəlif sahələrində Azərbaycan ilə Almaniya arasında fəal əməkdaşlığın həyata keçirildiyini vurğulayaraq infrastruktur, müxtəlif investisiya layihələrində alman şirkətlərinin iştirakı üçün yaxşı imkanların olduğunu bildirdi. Prezident İlham Əliyev Almaniyaya səfəri zamanı orada keçirilən biznes-forumun əhəmiyyətini qeyd etdi. Alman–Azərbaycan Forumunun fəaliyyətini yüksək qiymətləndirən dövlətimizin başçısı bu forumun Azərbaycan həqiqətləri və ölkəmizdə əldə olunan nailiyyətlər barədə Almaniya ictimaiyyətinin daha çox məlumat əldə etməsi baxımından önəmli olduğunu bildirdi.*

*Azərbaycan Prezidenti ilə yenidən görüşündən böyük məmnunluq hissi keçirdiyini bildirən Hans-Eberhard Şlayer ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. O, ölkəmizə nüfuzlu siyasətçilərdən və sahibkarlardan ibarət nümayəndə heyəti ilə səfər etdiklərini qeyd etdi.*

*Görüşdə* Almaniya *ilə Azərbaycan arasında ikitərəfli* müna*sibətlərin müxtəlif istiqamətlərdə,* o *cümlədən* siyasi, iqtisadi, enerji, *sərmayə qoyuluşu,* infrastruktur *və digər sahələrdə* daha da *inkişaf etdirilməsi, Ermənistan*–*Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli,* regionda *və dünyada gedən proseslərlə bağlı məsələlər ətrafında* fikir *mübadiləsi aparıldı.*

## BAKININ NƏSİMİ RAYONUNDAKI 54 SAYLI TAM ORTA MƏKTƏBİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*2 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Bakının Nəsimi rayonundakı 54 saylı tam orta məktəbin əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər hər il olduğu kimi, bu il də davamlı olaraq həyata keçirilir. Təhsil, səhiyyə, mədəniyyət müəssisələri əsaslı şəkildə yenidən qurulur, yeni-yeni məktəb binalarının və uşaq bağçalarının inşası uğurla həyata keçirilir.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov 54 saylı tam orta məktəbdə görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi.*

*Qeyd edildi ki, bu məktəbin binası 1976-cı ildə inşa olunub. Üçmərtəbəli bina 2 korpusdan ibarətdir. 56 sinif otağı olan məktəb 1076 şagird yerlikdir. Yeni dərs ili ərəfəsində 54 saylı tam orta məktəbin binası əsaslı şəkildə yenidən qurulub. Bütün sinif otaqları, fənn kabinetləri ən müasir tələblər səviyyəsində təmir edilib. Şagirdlərin hərbi hazırlığının və vətənpərvərlik ruhunun yüksəldilməsi məqsədilə məktəbdə hərbi hazırlıq sinfi də yaradılıb. Müasir istilik və işıqlandırma sistemləri quraşdırılıb. Məktəbin 1 hektar yarım həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri görülüb.*

*Dövlətimizin başçısı sinif otaqlarında, fənn kabinetlərində yaradılan şəraitlə yaxından tanış oldu.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*3 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasında rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın sentyabrın 3-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Türkiyə Respublikasının Prezidentinə raport verdi.*

*Türkiyənin və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Türkiyə Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Rəcəb Tayyib Ərdoğana, Türkiyə nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.*

*Azərbaycan prezidenti İlham Əliyev və Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan rəsmi foto çəkdirdilər.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*3 sentyabr 2014-cü il*

*Rəsmi qarşılanma mərasimindən sonra sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında strateji əməkdaşlığa əsaslanan ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Bu səfərin ölkələrimiz arasında dostluq əlaqələrinin daha da möhkəmlənməsi işinə xidmət edəcəyi bildirildi və münasibətlərimizin bundan sonra da daim yüksələn xətlə inkişaf edəcəyinə əminlik ifadə olundu.*

*Görüşdə ikitərəfli, beynəlxalq və qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*3 sentyabr 2014-cü il*

*Təkbətək görüş başa çatdıqdan sonra sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident, əziz qardaşım!

Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz! Fürsətdən istifadə edərək, prezident seçkilərində qazandığınız böyük qələbə münasibətilə Sizi bir daha ürəkdən təbrik edirəm. Bu qələbə bir daha onu göstərdi ki, son illər ərzində gördüyünüz işlər türk xalqı tərəfindən yüksək qiymətləndirilir.

Biz çox şadıq ki, andiçmə mərasimindən bir neçə gün sonra Siz Azərbaycana rəsmi səfər edirsiniz. Bu bir daha onu göstərir ki, Türkiyə–Azərbaycan əlaqələri dostluq, qardaşlıq əlaqələridir və bu əlaqələr ən yüksək pillədədir.

Bu gün təkbətək görüşümüzdə əlaqələrimizin müxtəlif istiqamətlərini müzakirə etdik. Həm ikitərəfli, həm beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi apardıq. Bir daha görürük ki, bizim birliyimiz gündən-günə güclənir. Bütün məsələlərlə bağlı bizim fikrimiz eynidir və bir amalımız var ki, biz Türkiyə–Azərbaycan dostluq-qardaşlıq əlaqələrini uğurla inkişaf etdirək. Əminəm ki, bu səfər bu istiqamətdə atılan önəmli addım olacaqdır.

Bir daha xoş gəlmisiniz!

**R ə c ə b T a y y i b Ə r d o ğ a n:** Çox dəyərli qardaşım, hörmətli heyət üzvləri! Sizləri avqustun 10-da keçirilmiş seçkilərdən sonra etdiyim ilk rəsmi səfərimdə səmimi-qəlbdən öz adımdan və heyətim adından salamlayıram.

Artıq Sizin də dediyiniz kimi, bu səfərlər qarşılıqlı olaraq ənənə halı alıb. Bunlar da bir-birimizə məhəbbətimizin nə qədər güclü olduğunu göstərir.

Bu gün təkbətək görüşümüzdə xüsusilə Türkiyə–Azərbaycan əlaqələrini geniş şəkildə dəyərləndirmək imkanımız oldu. Burada bütün sahələrlə bağlı müzakirələr apardıq, dəyərləndirdik və heyətlərimizdəki yoldaşlarımızla da bunları inkişaf etdirməyə hazırıq. Təbii ki, Türkiyə–Azərbaycan münasibətləri bundan sonra daha fərqli bir şəkildə inkişaf etməlidir. Hazırda xüsusilə regionumuzdakı sıxıntılar birgə həmrəylik yolu ilə həll edəcəyimiz problemlərdir. Bu problemlərin – Türkiyə–Ermənistan probleminin, eləcə də Ermənistan–Azərbaycan münaqişəsinin həlli bir-biri ilə bağlı məsələdir. Əgər Ermənistan–Azərbaycan münaqişəsi həll olunarsa, Türkiyə ilə Ermənistan arasındakı problem də həllini tapacaq. Amma bu münaqişə həll edilmədiyi təqdirdə, Türkiyə ilə Ermənistan arasındakı vəziyyət indiki kimi davam edəcək. Bunu əvvəllər də həmişə ifadə etmişik. Bu bir daha bilinsin deyə, yenə də söyləyirəm. Bu məsələlərdəki həmrəyliyimizi bundan sonrakı müddətdə də eyni qətiyyətlə davam etdirəcəyik. Bunun da xüsusilə bilinməsini istəyirəm. Mən də çox təşəkkür edirəm.

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*3 sentyabr 2014-cü il*

*Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident, əziz qardaşım!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

İlk növbədə, əziz qardaşım, Sizi Azərbaycanda bir daha səmimi-qəlbdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Biz Sizin səfərinizə çox böyük önəm veririk. Çox şadıq ki, andiçmə mərasimindən bir həftə keçməmiş Siz Azərbaycana, doğma Vətənə səfər edirsiniz. Fürsətdən istifadə edərək, bir daha Sizi prezident seçkilərində qazandığınız böyük qələbə münasibətilə ürəkdən təbrik edirəm və yeni uğurlar diləyirəm.

Bu gün biz təkbətək və heyətlərlə birgə görüşümüzdə ikitərəfli əlaqələrimizin bütün istiqamətlərini müzakirə etdik və bir daha əmin olduq ki, Türkiyə–Azərbaycan əlaqələri ən yüksək səviyyədədir, ən yüksək zirvədədir. Bizim əlaqələrimiz dostluq, qardaşlıq üzərində qurulubdur. Bu gün biz dostluğumuzun, qardaşlığımızın gözəl binasını bu möhkəm təməl üzərində inşa edirik.

Siyasi əlaqələr gündən-günə genişlənir. Biz beynəlxalq təşkilatlarda bir-birimizə daim dəstək veririk, xarici siyasətlə bağlı məsləhətləşmələr aparırıq. Fürsətdən istifadə edərək, Türkiyə dövlətinə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ

münaqişəsinin həlli işində göstərdiyi səylərə görə və Azərbaycanın haqlı mövqeyini müdafiə etdiyi üçün minnətdarlığımı bildirmək istəyirəm. Bu bizim üçün çox önəmlidir. Türkiyə bütün dövrlərdə bu məsələ ilə bağlı öz siyasətini açıq şəkildə aparmışdır, daim Azərbaycanın yanında, haqqın, ədalətin, beynəlxalq hüququn yanında olmuşdur. Bu məsələ bu gün də müzakirə edildi.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bölgə üçün ən böyük təhdiddir. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış əraziləri uzun illərdir ki, işğal altındadır, 20 faiz torpaqlarımız işğal altındadır, 1 milyondan çox qaçqın və məcburi köçkünümüz var. Bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır, BMT Təhlükəsizlik Şurası – dünyanın ən ali qurumu bu münaqişə ilə bağlı 4 qətnamə qəbul etmişdir ki, orada erməni silahlı qüvvələrinin torpaqlarımızdan qeyd-şərtsiz çıxarılması tələb edilir. Əfsuslar olsun ki, Ermənistan bu qətnamələrə məhəl qoymur və münaqişə hələ ki, öz həllini tapmayıb. Ermənistan–Azərbaycan münaqişəsi yalnız beynəlxalq hüquq əsasında, ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Əminəm ki, belə də olacaqdır.

Eyni zamanda, Azərbaycan da bütün beynəlxalq qurumlarda daim Türkiyənin yanındadır. Bu gün biz gələn il Ermənistanda qeyd ediləcək qondarma «soyqırımı» ilə bağlı fikirlərimizi bölüşmüşük. Türkiyə ilə Azərbaycan həm xarici işlər nazirləri, həm səfirliklər səviyyəsində birgə fəaliyyət göstərir və göstərəcəkdir. Diaspor təşkilatlarımız da, ictimai təşkilatlar da bu işlərdə birgə fəaliyyət göstərir və göstərəcəklər ki, biz dünyada qondarma «erməni soyqırımı»nın ifşası ilə bağlı öz işlərimizi əlaqələndirilmiş şəkildə aparaq. Ermənistan və dünya erməniliyi beynəlxalq ictimai rəyi çaşdırmaq, yalan üzərində tarix qurmaq istəyir, Türkiyəyə qarşı əsassız ittihamlar irəli sürür. Bunların heç bir tarixi əsası yoxdur. Bu yalandır, böhtandır, iftiradır. Biz birgə səylərlə və bizə yaxın olan ölkələrlə birlikdə erməni yalanını bundan sonra da birgə ifşa edəcəyik. Təbii ki, bu gün əməkdaşlığımızın müxtəlif istiqamətləri müzakirə edildi. Müdafiə sənayesi sahəsində mövcud olan əməkdaşlıq və onun

perspektivləri də müzakirə edildi. Burada da çox böyük potensial var. Hər zaman olduğu kimi, bizi birləşdirən enerji layihələri də müzakirə mövzusu oldu. 2 il bundan əvvəl TANAP layihəsinə əziz qardaşımla imza atanda biz təxminən görürdük ki, bu nəyə gətirib çıxaracaq. Bizim əsərimiz olan TANAP layihəsi bu gün dünyanın diqqətini cəlb edir. Artıq bizim qruplarımız, komandalarımız işə başlamışlar. Əminəm ki, bu tarixi layihə vaxtında icra ediləcəkdir. Ondan əvvəlki dövrlərdə də enerji məsələlərində biz daim bir yerdə idik. TANAP layihəsi, əlbəttə ki, daha da geniş beynəlxalq əməkdaşlıq tələb edən layihədir. Çünki burada iştirak edən ölkələrin, şirkətlərin sayı daha da çoxdur. Əminəm ki, biz bu layihəni də birgə səylərlə, müştərək iradə ilə uğurla icra edəcəyik.

Bu gün qarşılıqlı sərmayə qoyuluşu məsələləri də müzakirə edildi. Bu bizim əlaqələrimizdə bir növ yenilikdir. Çünki məhz son illərdə həm Türkiyədən, həm Azərbaycandan qarşılıqlı qaydada investisiyalar böyük həcmdə qoyulur. Yaxın 5-6 ildə Türkiyəyə daha da böyük həcmdə Azərbaycan investisiyaları qoyulacaqdır, təxminən 17–20 milyard dollar arasındadır. Mən çox şadam ki, Türkiyə tərəfi bizim enerji layihələrimizdə öz payını artırır. «Şahdəniz»də öz payını artırıbdır, TANAP layihəsində böyük paya sahib olubdur. Bu da Azərbaycana yatırılan Türkiyə investisiyalarıdır. Bu layihələrin icrası ilə bağlı yeni gözəl imkanlar yaranır. Çünki bu böyük enerji layihələrinin əsas iştirakçıları Türkiyə və Azərbaycandır. Bu gün bizim birliyimiz artıq dünya çapında bir amildir və Türkiyə nə qədər güclü olsa, biz də o qədər özümüzü güclü hiss edəcəyik. Türkiyənin uğurları bizi çox sevindirir. Əminəm ki, bizim qardaşlıq əlaqələrimiz bundan sonra da yüksələn xətlə inkişaf edəcək.

Əziz qardaşım, Sizi bir daha ürəkdən salamlayır və bütün türk xalqına xoşbəxtlik, yeni uğurlar arzulayıram. Sağ olun.

## Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın bəyanatı

Bəli, mən də çox təşəkkür edirəm. Avqustun 28-də inauqurasiya mərasimindən dərhal sonra, növbəti həftədə Azərbaycana etdiyim bu səfər çərçivəsində hörmətli qardaşım İlham Əliyev ilə istər təkbətək, istərsə də geniş tərkibdə görüşlərimizdə iqtisadi, ticari, mədəniyyət, təhsil və xarici siyasətlə əlaqədar məsələləri geniş şəkildə dəyərləndirmə imkanımız oldu. Təbii ki, xarici siyasətdə qardaşlığımızın zirvəsi olan ən mühüm məsələ Dağlıq Qarabağ münaqişəsidir. Bu məsələni yenə də hər zaman olduğu kimi, gündəliyimizin ən mühüm maddəsi olaraq müzakirə etdik, dəyərləndirdik. Bu məsələ ilə bağlı bundan sonra atacağımız addımları yenə aramızda eyni şəkildə həm təkbətək, həm geniş tərkibdə keçirilən görüşlərdə müzakirə etdik.

Təbii ki, müzakirə etdiyimiz digər mühüm həssas məsələ enerji məsələsidir. Əlbəttə ki, enerji sahəsi ilə əlaqədar olaraq TANAP çox böyük əhəmiyyət kəsb edir. Türkiyədən Avropaya gedəcək bu enerji xətti xüsusilə çox böyük əhəmiyyətə malikdir. Bu, Azərbaycanın enerji sektorunda gücünü ortaya qoyması baxımından xüsusilə çox mühümdür. Bunu bir sülh xətti olması baxımından çox mühüm sərmayə olaraq görürəm. Bunun üçün də bu həmrəyliyimizin artıq son mərhələsinə gəldik. İnşallah, bu ayın 20-də təməlqoyma mərasimi keçiriləcəkdir. Yüksək səviyyəli rəsmilərin də iştirak edəcəyi təməlqoyma mərasimi ilə birlikdə bu addım atılacaqdır. İnşallah, qurğular da işə başlayacaq. Türkiyədə və Azərbaycanda görülməli işlərin böyük hissəsi tamamlanıb. Bununla bərabər, artıq proses sürətlənərək, inşallah, davam edəcək. Təbii ki, bu həmrəyliyimizin ardından müvafiq sektorlarda – həm inşaat, həm boru sənayesi sahələrində canlanma meydana gələcək.

Azərbaycanın xüsusilə son illərdəki dinamik inkişafı, Azərbaycandakı infrastrukturun inkişafı həqiqətən, dünyanın da heyranlıqla izlədiyi bir prosesdir. Burada hörmətli qardaşımın və komandasının iradəsinin həqiqətən, çox böyük rolu var. Mən

də istər 11 illik Baş nazirliyim müddətində, istərsə də bundan sonra, həmin gündən bu günə Azərbaycanın haradan-haraya gəldiyini görməkdən məmnunam. Çünki qardaş Azərbaycandakı bu inkişaf bizi də xüsusilə məmnun edir. Əminəm ki, qardaşların güc qazanması gələcəyə nikbin baxmağımıza da inamı artırır. Ticarət sahəsində atacağımız addımlarda da müəyyən etdiyimiz hədəflərimiz var. İnşallah, bu hədəflərə də çatacağıq. 15 milyard dollarlıq bir hədəfimiz var və inşallah, bu hədəfə də çatacağıq. Hər iki tərəfdə bu iradənin olduğunu görürük, bilirik. Bu məsələdə heç bir tərəddüdümüz yoxdur.

Təbii ki, indi buradan NATO zirvəsinə gedəcəyik. NATO zirvəsində də, xüsusilə bu zirvə ilə bağlı keçmişdən bu günədək keçirilən bütün tədbirlərdə Azərbaycana verilmiş sözlər vardır. Bu sözləri təbii ki, orada da diqqətə çatdıracağıq. Bir qədər əvvəl digər ölkələrə verilən sözlər necə yerinə yetirilirsə, Azərbaycana verilən sözlərin də yerinə yetirilməsini orada da əlaqədar ölkələrdən istəyəcəyik. Bu, artıq bir ianə və bir lütf deyil, bir haqdır. Bunların yerinə yetirilməsi lazımdır. Bu məsələdə də qətiyyətimizi xüsusilə ifadə edəcəyik.

Azərbaycan ilə əməkdaşlıq edəcəyimiz bir çox sahələr vardır. Təbii ki, bu sahələrin sayı çoxdur. Bu məsələləri təkbətək və geniş tərkibdə görüşlərimizdə müzakirə etdik. Arzu edirəm ki, bu qardaşlığımız güclənərək həmrəylik içərisində gələcəyə doğru irəliləsin. Biz bunu bilirik – «bir millət – iki dövlət». Bu, təbii ki, ulu öndərimizin bu günə bir mirasıdır. Bunun da eyni şəkildə davam etməsi lazımdır. Qoy bu birliyimiz bundan sonra da eyni qətiyyətlə davam etsin. Təşəkkür edirəm.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*3 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən sentyabrın 3-də ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Dövlət başçıları ziyafətdə çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident, əziz qardaşım!

Bu gün çox əlamətdar bir gündür. Qardaş ölkənin Prezidenti, əziz qardaşım Azərbaycana rəsmi səfərə gəlmişdir. Bu səfərin tədbirlərində iştirak edən dostlar bu gün bizimlə bərabərdirlər. Artıq təkbətək, geniş tərkibdə görüşlərimizdə geniş fikir mübadiləsi aparılmışdır. Mətbuata bəyanatda da biz gördüyümüz, eyni zamanda, gələcəkdə görüləcək işlərlə bağlı öz sözlərimizi demişik.

Yekun olaraq bir daha demək istəyirəm ki, səfərin çox gözəl nəticələri vardır. Səfər çox uğurlu keçmişdir. Əminəm ki, bu rəsmi səfərin Türkiyə–Azərbaycan dostluq, qardaşlıq əlaqələrinin inkişafına çox böyük dəstəyi olacaq, onlara böyük təkan verəcəkdir.

İndi isə biz çox xoş bir mərasimdə toplaşmışıq. Mənim əziz qardaşım Rəcəb Tayyib Ərdoğan 11 ildir ki, Türkiyəni inamla idarə edir. Biz Azərbaycanda Türkiyəni çox sevirik. Azərbaycanda elə bir insan tapılmaz ki, Türkiyəni öz doğma Vətəni kimi sevməsin. Ona görə biz Türkiyənin uğurlarına öz uğurlarımız qədər sevinirik.

Son 11 il ərzində Türkiyə çox böyük və şərəfli yol keçmişdir. Bunun da bir səbəbi, daha doğrusu, bir səbəbkarı var – mənim əziz qardaşım. Biz hamımız yaxşı bilirik ki, əziz qardaşım hakimiyyətə gələnə qədər Türkiyənin vəziyyəti o qədər də ürəkaçan deyildi. İqtisadi, siyasi böhran yaşanırdı, Türkiyə böyük borc içində idi, beynəlxalq maliyyə qurumları müəyyən dərəcədə öz iradəsini ortaya qoyurdu, diktə edirdi. Rəcəb Tayyib Ərdoğanın sayəsində, onun fəaliyyəti nəticəsində iqtisadiyyatda bütün xoşagəlməz hallara son qoyulmuşdur və Türkiyə inamla inkişaf etməyə başlamışdır. Bu gün iqtisadi inkişaf baxımından Türkiyə ön sıralardadır. Bir neçə il bundan əvvəl dünyanı, Avropanı böhran bürümüşdü – iqtisadi, maliyyə böhranı. Bu böhran Türkiyəyə heç bir təsir etməmişdir. Çünki Türkiyə hökuməti xalq tərəfindən dəstəklənən düşünülmüş iqtisadi siyasət aparmışdır. Türkiyə bu illərdə «Böyük 20-lik»in üzvünə çevrilmişdir. Bu, tarixi nailiyyətdir. Türkiyə dünyanın aparıcı ölkələrini birləşdirən klubda ön sıralardadır. Bu da göydəndüşmə deyil. Bu, gündəlik fəal işlərin nəticəsidir. Bu gün Türkiyənin xarici siyasətlə bağlı uğurları göz qabağındadır. Türkiyə indi nəinki bölgədə, eyni zamanda, dünyada gedən proseslərə öz təsirini göstərir, dünya miqyasında bir gücə çevrilmişdir. Əlbəttə ki, bütün bu işlərin görülməsində birinci rolu mənim əziz qardaşım prezident Rəcəb Tayyib Ərdoğan və onun yardımçıları, komanda üzvləri oynamışlar.

Bu illərdə – 11 il ərzində biz bərabər çalışmışıq. Çalışmışıq ki, Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı daha da möhkəmlənsin. Halbuki bu dostluq, qardaşlıq o qədər möhkəmdir ki, bunu daha da möhkəmləndirmək o qədər də çətin məsələ deyil. Ancaq biz çalışmışıq ki, tarixdən, əcdadlarımızdan gələn sifariş, bizə verilən vəsiyyət əsasında ölkələrimizin arasındakı birliyi daha da möhkəmləndirək.

Son illərdə enerji, sərmayə, nəqliyyat layihələri və digər layihələr nəinki bizi bir-birimizə daha da sıx bağladı, eyni zamanda, bölgəyə çox müsbət təsir göstərdi. Çünki bizim bütün təşəbbüslərimiz – istər siyasi, istərsə də iqtisadi, enerji, nəqliyyat sahələrində təşəbbüslərimiz bölgəyə fayda gətirir. Bizimlə əmək-

daşlıq edən ölkələr də bundan fayda götürür. Bizim siyasətimiz xoşniyyətlidir. Biz öz maraqlarımızı və əgər belə demək mümkündürsə, təsir dairəmizi əməkdaşlıq üzərində qururuq. Biz həmişə hazırıq ki, başqa ölkələrə kömək edək, yardım əlimizi uzadaq. Bu xoş niyyət bizi fərqləndirir. Son illər ərzində Türkiyə–Azərbaycan birliyi dünya miqyasında, ən azı regionda həlledici amilə çevrilmişdir. Əminəm ki, biz bundan sonra da Türkiyə və Azərbaycan xalqlarının iradəsi ilə hələ çox işlər görəcəyik. Dediyim bütün bu məsələlər son prezident seçkilərində türk xalqı tərəfindən bir daha qeyd edildi. Əziz qardaşıma verilən səslər görülən işlərə verilən səslərdir. Xalq hər şeyi görür. Bizdə atalar sözü var: «Xalqın gözü tərəzidir». Xalq hər şeyə düzgün qiymət verir. Türk xalqı düzgün qiymət vermişdir. Azərbaycan xalqı da düzgün qiymət vermişdir.

Bu gün bu tarixi səfərdə mən əziz qardaşımı Azərbaycan dövlətinin ən ali mükafatı olan «Heydər Əliyev» ordeni ilə təltif etmişəm. Əziz qardaşım, istəyirəm indi bu yüksək mükafatı Sizə təqdim edim.

* * *

*Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın «Heydər Əliyev» ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı oxundu.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Heydər Əliyev» ordenini Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana təqdim etdi.*

## Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışı

Hörmətli qardaşım, ata yadigarı – deyəcəm. Çünki Baş nazirliyim dövründə Heydər ata ilə bizim çox mənalı bir görüşümüz olmuşdu. İlham qardaşımla da o zaman tanış olmuşduq.

Təbii ki, münasibətimiz o gündən başlayıb və bu günə gəlib çıxmışıq. Çox şükürlər olsun, bir tərəfdən, Azərbaycan, digər

tərəfdən, Türkiyə inkişaf etdi və bu günləri gördük. Bu günləri görməyi bizə lütf edənə şükürlər olsun. Təbii ki, bu baxımdan xalqlarımızın da rifahı güclü şəkildə yaxşılaşır. Bu gün adambaşına milli gəlirin 8 min dollara çatdığı Azərbaycan var. Haralarda idi, indi haraya gəldi. Türkiyədə isə bu göstərici 11 min dollara çatmaqdadır. Belə bir Türkiyə var. Təbii ki, biz bu uğurlarla fəxr edirik. Amma bunlar bizim üçün kifayət deyil. Bunu, inşallah, daha da irəli aparacağıq. Artıq biz də 20, 25, 30 min dollara çatacağıq. Bu iradə Azərbaycanda da, Türkiyədə də var. Əl-ələ verəcəyik, həmrəy olacağıq.

Mən bu gün «Heydər Əliyev» ordeni ilə təltif edilməkdən keçirdiyim iftixar, xoşbəxtlik hisslərini ifadə edə biləcək söz tapmaqda həqiqətən, çətinlik çəkirəm. Ulu öndəri rəhmətlə anıram. Bunu bizə layiq görən İlham Əliyev qardaşıma da çox təşəkkür edirəm. Azərbaycan xalqına çox-çox təşəkkür edirəm. Birliyini, bərabərliyini Rəbbim daimi etsin – deyirəm.

## BÖYÜK BRİTANİYAYA İŞGÜZAR SƏFƏR

*3 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO Sammitində iştirak etmək üçün sentyabrın 3-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına işgüzar səfərə gəlmişdir.*

## NATO SAMMİTİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*Nyuport*

*4 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də Uelsin Nyuport şəhərində NATO Sammitinin açılışında iştirak etmişdir.*

*Tədbirdə alyansa üzv olan və İSAF proqramında iştirak edən tərəfdaş ölkələrdən, BMT və digər beynəlxalq təşkilatlardan nümayəndələr iştirak ediblər. Həmçinin BMT-nin və Avropa İttifaqının ali nümayəndələri də sammitə qatılıblar.*

*NATO-nun baş katibi Anders Foq Rasmussen və Böyük Britaniyanın Baş naziri Devid Kemeron prezident İlham Əliyevi və digər dövlət və hökumət başçılarını salamladılar.*

*Sonra dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.*

*Sammitin gündəliyinə Ukrayna hadisələri, Əfqanıstanın gələcəyi, yeni təhdidlərə qarşı mübarizə, təhlükəsizliyin təminინə töhfə verən silahlı qüvvələrə dəstəyin artırılması, əməkdaşlığın möhkəmləndirilməsi, İraq və Suriya böhranı ilə bağlı məsələlər daxil edilib.*

*Sammitin Əfqanıstan üzrə görüşündə çıxış edən NATO-nun baş katibi Anders Foq Rasmussen dövlət və hökumət başçılarını salamladı. Bildirdi ki, bu görüş təhlükələrin yaşandığı dünyada sabitliyə nail olmaq istiqamətində önəmli tədbirdir. NATO-nun öz əməliyyatlarının mühüm hissəsini Əfqanıstanda həyata keçirdiyini deyən A.F.Rasmussen İSAF qüvvələrinin hələ də bu ölkədə xidmət etdiyini diqqətə çatdırdı. NATO-nun məhz onların xidmətləri sayəsində bu gün dünyada ən güclü alyansa çevrildiyini vurğulayan baş katib Əfqanıstanda sabitliyin*

*qorunmasının ilin sonunadək yerli təhlükəsizlik qüvvələrinə təhvil veriləcəyini bildirdi, Əfqanıstana dəstəyin bundan sonra da davam etdiriləcəyini söylədi. Baş katib gündəlikdə nəzərdə tutulan məsələlərlə bağlı müzakirələrin məhsuldar keçəcəyinə əminliyini ifadə etdi.*

*Sonra Əfqanıstanda həlak olan hərbçilərin xatirəsi ehtiramla yad olundu.*

*Böyük Britaniyanın Baş naziri Devid Kemeron da sammitin Uelsdə keçirilməsindən məmnun olduğunu dedi. «NATO bizim gələcəyimiz üçün çox vacib alyansdır» – deyən Devid Kemeron İSAF proqramında iştirak etməklə, Əfqanıstanda təhlükəsizliyə töhfə verən ölkələrə təşəkkür etdi. Bildirdi ki, NATO Əfqanıstandakı missiyasını uğurla başa vurur və bu ölkədə ordunun yaradılması ilə bağlı əldə olunan nəticələrdən qürur hissi keçirir.*

*NATO-nun Zirvə toplantısının Əfqanıstan üzrə görüşündə Azərbaycan prezidenti İlham Əliyev çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Baş katib!

Xanımlar və cənablar!

Azərbaycan ilə NATO arasında tərəfdaşlığın 20 ili ərzində ölkəmiz alyansın bir çox fəaliyyət sahəsinə töhfə verən etibarlı tərəfdaşa çevrilib.

Azərbaycan regional təhlükəsizlik və sabitlikdə mühüm rol oynayır. Bununla belə, bu gün regionumuzdakı təhlükəsizliyə ən böyük hədə Azərbaycan ərazisinin 20 faizini təşkil edən Dağlıq Qarabağ və 7 ətraf rayonunu işğal altında saxlayan Ermənistanın işğalçılıq siyasətidir. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirib və bunun nəticəsində 1 milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Əfsuslar olsun ki, Ermənistan onlara məhəl qoymamaqda davam edir

və münaqişə həll olunmamış qalır. Münaqişə beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü əsasında həll edilməlidir.

Biz NATO-nun bu məsələ ilə bağlı mövqeyini və əvvəlki sammitlərdə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə verdiyi tam dəstəyi yüksək dəyərləndiririk. Biz qətiyyətlə inanırıq ki, NATO-nun beynəlxalq hüququn belə mühüm hissəsinə sadiqliyi bundan sonra da davam edəcək. Beləliklə, o, ədaləti bərpa etməyə və beynəlxalq səviyyədə tanınmış sərhədləri güc hesabına dəyişmək kimi səhv düşüncədən yayındırmağa birmənalı şəkildə yardım edir.

Azərbaycan Əfqanıstana uzunmüddətli inkişafın təmin edilməsi üçün hərtərəfli töhfə verir. Azərbaycan bu sammitin bütün 3 sahəsinə töhfə verən NATO-nun 5 tərəfdaşından biridir. Azərbaycanın hərbi kontingenti lap ilkin vaxtlardan İSAF qüvvələrində xidmət edir. Azərbaycanın müxtəlif akademiyalarında Əfqanıstanın hüquq-mühafizə və hökumət rəsmiləri üçün geniş təlim proqramları həyata keçirilir. Əfqanıstanın Milli Ordusunun Qəyyumluq Fonduna 3 milyon avro keçirilib, digər 1 milyon isə istehkam əməliyyatlarına sərf olunub.

İSAF qüvvələri üçün məhvetmə gücünə malik olmayan malların tranzitinin 40 faizi Azərbaycan tərəfindən təmin edilir. Bundan əlavə, gələcəkdə iştirak edəcəyimiz «Qətiyyətli dəstək» əməliyyatı üçün mühüm tranzit imkanları yaradacaq Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin çəkilməsi tezliklə başa çatdırılmalıdır. Xəzər regionunda ən böyük Azərbaycan Beynəlxalq Dəniz Limanı ilə birgə bu dəmir yolu xətti həm bütün region, həm də Əfqanıstan üçün böyük ticari və iqtisadi imkanlar açacaq. Bu, Uzaq Şərq ilə Avropanı birləşdirən marşrutun tam ortasında yerləşən Əfqanıstana iqtisadi inkişaf verə bilər. Müstəqilliyin ilk illərində durğunluq və böhrandan davamlı sabitlik və sürətli iqtisadi artıma keçmiş ölkə kimi, Azərbaycan öz təcrübəsini Əfqanıstan ilə bölüşməyə və həmin ölkədə müxtəlif yenidənqurma və sərmayə layihələrində iştirak etməyə hazırdır. Sağ olun.

## FRANSA RESPUBLİKASININ PREZİDENTİ FRANSUA OLLAND İLƏ GÖRÜŞ

*Nyuport*

*4 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 4-də Nyuportda NATO Sammiti çərçivəsində Fransa Respublikasının Prezidenti Fransua Olland ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etməsindən məmnunluq ifadə olundu. Azərbaycan ilə Fransa arasında əməkdaşlığın müxtəlif sahələrdə daha yaxşı perspektivlərinin olduğu vurğulandı.*

*Söhbət zamanı dövlət başçıları Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ətrafında geniş fikir mübadiləsi apardılar.*

## AZƏRBAYCAN, ERMƏNİSTAN PREZİDENTLƏRİNİN VƏ ABŞ DÖVLƏT KATİBİNİN BİRGƏ GÖRÜŞÜ

*Nyuport*

*4 sentyabr 2014-cü il*

*Uelsin Nyuport şəhərində sentyabrın 4-də Azərbaycan prezidenti İlham Əliyevin, Ermənistan prezidenti Serj Sarkisyanın və ABŞ-ın Dövlət katibi Con Kerrinin birgə görüşü keçirilmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## XARİCDƏ TƏHSİL ALAN VƏ MƏZUN OLMUŞ AZƏRBAYCANLI GƏNCLƏRİN XII BEYNƏLXALQ FORUMUNUN İŞTİRAKÇILARINA

Əziz gənclər!

Sizi və sizin simanızda ASAİF-in bütün üzvlərini növbəti toplantınızın işə başlaması münasibətilə təbrik edirəm.

Müasir dünyada baş verən proseslərin təhlili göstərir ki, qabaqcıl ölkələrin qazandığı uğurların təməlində ilk növbədə, elm və təhsil, intellektual potensial və texnoloji tərəqqi dayanır. Məhz buna görə də biz Azərbaycan gənclərinin mükəmməl təhsil almaları, öz imkan və bacarıqlarını reallaşdıra bilmələri üçün əlverişli şəraitin yaradılması istiqamətində ardıcıl tədbirlər görürük. Bu məqsədlə paytaxt və regionlarda fəaliyyət göstərən tədris müəssisələrinin binaları yenilənərək müasir avadanlıqlarla təchiz edilir, ali məktəblərin maddi-texniki bazası möhkəmləndirilir, dövrün tələblərinə uyğun dərsliklər və dərs vəsaitləri hazırlanır.

Təhsil sahəsində həyata keçirilən ən mühüm tədbirlərdən biri də 2007-ci ildə təsdiq edilmiş Dövlət Proqramı əsasında minlərlə gəncin inkişaf etmiş ölkələrin qabaqcıl ali məktəblərinə göndərilməsidir. Biz onların Azərbaycana yüksəkixtisaslı mütəxəssis və bacarıqlı menecerlər kimi qayıtmasını arzulayırıq. Təqdirəlayiq haldır ki, xaricdə oxuyan tələbələrimiz elmin əsaslarına dərindən yiyələnmək üçün inadla çalışır, məzun olub Vətənə döndükdən sonra öz biliklərini ölkə həyatının müxtəlif sahələrində uğurla tətbiq edə bilirlər.

Biz həmin gəncləri həm də Azərbaycanın xaricdəki qeyri-formal elçiləri kimi görmək istəyirik. Hesab edirik ki, onlar yaşadıqları cəmiyyətin ictimai-siyasi və mədəni həyatına sıx inteqrasiya olunmalı, ölkəmizin tarixi, mədəniyyəti, turizm

potensialı və müasir inkişafı ilə bağlı məlumatları, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətləri tələbə yoldaşlarına, yerli əhaliyə və dünya ictimaiyyətinə çatdırmaq istiqamətində məqsədyönlü iş aparmalıdırlar.

Xaricdə təhsil alan gənclərimiz oxuduqları ali məktəblərdə, şəhər və ölkələrdə təşkilatlanmalı, səfirliklərimiz və diaspor qurumları ilə yaxından əməkdaşlıq etməlidirlər. Onların fəaliyyətini koordinasiya etmək üçün yaradılmış ASAİF də yalnız Azərbaycanda və Avropanın müxtəlif ölkələrində tədbirlər keçirməklə kifayətlənməməli, hazırda təhsil alan və məzun olmuş gənclərlə davamlı iş mexanizmi qurmalıdır.

Hesab edirəm ki, forum iştirakçıları yuxarıda qeyd olunan məsələlər və xaricdə təhsillə bağlı digər problemlər ətrafında səmərəli müzakirələr aparacaq, əməli təklif və tövsiyələr hazırlayacaqlar. Toplantının işinə uğurlar, hər birinizə təhsilinizdə, ictimai və əmək fəaliyyətinizdə yeni nailiyyətlər arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *4 sentyabr 2014-cü il*

**TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMOMƏLİ RƏHMONA**

Hörmətli Emoməli Şərifoviç!

Sizi və Sizin şəxsinizdə bütün Tacikistan xalqını ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Tacikistanı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri bağlayır. Hazırda yeni məzmun kəsb edən bu münasibətlər dinamik və hərtərəfli inkişaf yolundadır.

Əminəm ki, birgə səylərimiz bundan sonra da dövlətlərarası münasibətlərimizin daha da inkişaf etdirilməsinə və möhkəmlənməsinə, Azərbaycan ilə Tacikistan arasında iqtisadi və humanitar əlaqələrin genişlənməsinə yönələcəkdir.

Hörmətli Emoməli Şərifoviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, qardaş Tacikistan xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *4 sentyabr 2014-cü il*

## KOREYA ƏMƏK PARTİYASININ BİRİNCİ KATİBİ, KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI DÖVLƏT MÜDAFİƏ KOMİTƏSİNİN BİRİNCİ SƏDRİ, KOREYA XALQ ORDUSUNUN ALİ BAŞ KOMANDANI ZATİ-ALİLƏRİ CƏNAB KİM ÇEN İNƏ

Zati-aliləri!

Milli bayramınız – Koreya Xalq Demokratik Respublikasının Yaranması Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *4 sentyabr 2014-cü il*

# LİTVA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ VALDAS LASTAUSKAS İLƏ GÖRÜŞ

*9 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da Litva Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Valdas Lastauskasın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Valdas Lastauskas Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Valdas Lastauskas etimadnaməsini prezident İlham Əliyevə təqdim etdi.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Görüşdə Azərbaycan ilə Litva arasında ikitərəfli münasibətlərin inkişafından razılıq ifadə olundu, əlaqələrimizin möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmi qeyd edildi.*

*Söhbət zamanı əlaqələrimizin ikitərəfli və çoxtərəfli formatda genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi, ölkələrimiz arasında əməkdaşlığın siyasi, iqtisadi, beynəlxalq təşkilatlar, o cümlədən Avropa İttifaqı və NATO çərçivəsində daha da inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## NORVEÇ KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ BAARD İVAR SVENDSEN İLƏ GÖRÜŞ

*9 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da Norveç Krallığının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Baard İvar Svendsenin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Baard İvar Svendsen Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Baard İvar Svendsen etimadnaməsini prezident İlham Əliyevə təqdim etdi.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Azərbaycan Respublikası ilə Norveç Krallığı arasında ikitərəfli əlaqələrin ümumilikdə razılıq doğurduğunu deyən prezident İlham Əliyev səfir Baard İvar Svendsenin ölkəmizdəki diplomatik fəaliyyəti dövründə bu əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev ölkələrimiz arasında energetika sahəsində uzunmüddətli əlaqələrin uğurla inkişaf etdiyini vurğulayaraq bu əməkdaşlığın qeyri-enerji sektorunda da dərinləşdirilməsi üçün qarşılıqlı marağın olduğunu dedi.*

*Səfir Baard İvar Svendsen ölkələrimiz arasında enerji sahəsində uzunmüddətli fəal əməkdaşlığın önəmini qeyd etdi. Norveçli diplomat Azərbaycandakı diplomatik fəaliyyəti dövründə ikitərəfli münasibətlərimizin genişləndirilməsi ilə bağlı səylərini əsirgəməyəcəyini vurğuladı.*

## MALAYZİYANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ DATO ROSLAN TAN SRİ ABDUL RAHMAN İLƏ GÖRÜŞ

*9 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da Malayziyanın ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Dato Roslan Tan Sri Abdul Rahmanın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Dato Roslan Tan Sri Abdul Rahman Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Diplomat etimadnaməsini prezident İlham Əliyevə təqdim etdi.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Səfir Malayziyanın XIV Ali Başçısının və Baş nazirinin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan ilə Malayziya arasında ikitərəfli əlaqələrin genişləndirilməsinə qarşılıqlı marağın əhəmiyyəti qeyd edildi, bu əlaqələrin müxtəlif sahələrdə inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu bildirildi, ölkələrimizin BMT və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində uğurlu əməkdaşlığının önəmi vurğulandı.*

*Söhbət zamanı əlaqələrin iqtisadi, enerji və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev Malayziyanın XIV Ali Başçısının və Baş nazirinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Malayziya dövlətinin başçısına və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## MOLDOVA RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ NATALİA GERMAN İLƏ GÖRÜŞ

*9 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da Moldova Respublikası Baş nazirinin müavini, Xarici İşlər və Avropaya İnteqrasiya naziri xanım Natalia Germanı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Moldova arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğu məmnunluqla qeyd edildi, ölkələrimizin müxtəlif beynəlxalq təşkilatlarda bir-birinə verdikləri dəstəyin önəmi vurğulandı.*

*Söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi, ticarət, kənd təsərrüfatı, infrastruktur layihələrinin həyata keçirilməsi və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AVROPA İTTİFAQININ KOMİSSARI ŞTEFAN FÜLENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da Avropa İttifaqının Genişlənmə və Avropa Qonşuluq Siyasəti üzrə komissarı Ştefan Fülenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu, «Şərq Tərəfdaşlığı» Proqramı çərçivəsində əməkdaşlığın genişləndirilməsi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, ölkəmizlə Avropa İttifaqının əlaqələrinin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji və digər sahələrdə inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# BAKIDAKI 153 SAYLI TAM ORTA MƏKTƏBİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*9 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da Bakının Yasamal rayonundakı 153 saylı tam orta məktəbin əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında nəzərdə tutulan bütün layihələr uğurla icra olunur. Tədbirlər planına əsasən hər il olduğu kimi, bu il də məktəb binalarının təmiri və yenidən qurulması davam etdirilir. Xüsusi Dövlət Proqramında nəzərdə tutulan tədbirlər planına uyğun olaraq orta məktəblərin, təhsil ocaqlarının maddi-texniki bazası möhkəmləndirilir. Yeni dərs ili ərəfəsində respublikanın hər yerində olduğu kimi, paytaxt Bakıda da orta məktəb binalarının yüksək standartlara uyğun yenidən qurulması və zəruri avadanlıqlarla təchiz edilməsi dövlətimizin təhsil sahəsinə olan qayğısını nümayiş etdirir.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov dövlətimizin başçısına məktəbdə görülən işlər barədə məlumat verdi. Qeyd edildi ki, 153 saylı tam orta məktəbin binası 4 mərtəbəli 3 korpusdan ibarətdir. Məktəbin foyesində ulu öndər Heydər Əliyevin təhsil sahəsinə göstərdiyi qayğını və prezident İlham Əliyevin paytaxtın Yasamal rayonundakı təhsil ocaqlarının müasir standartlar səviyyəsinə çatdırılması istiqamətində gördüyü işləri əks etdirən fotolardan ibarət stendlər yaradılıb. Məktəbdə yenidənqurma işlərinə ötən ilin oktyabrında başlanılıb və yüksək səviyyədə həyata keçirilib. 80 sinif otağı, o cümlədən 6 fənn kabinetindən ibarət məktəb 1500 şagird yerlikdir. Hazırda burada 1 növbədə rus və Azərbaycan dillərində 700 şagird təhsil alır. Məktəbdə 2 idman zalı, akt zalı,*

*kitabxana, kompüter, əmək təlimi və tibb otaqları da yaradılıb. Yeni dərs ili ərəfəsində məktəbin bütün sinif otaqları, ayrı-ayrı fənn kabinetləri əsaslı şəkildə təmir edilib, lazımi avadanlıq və ləvazimatlarla təchiz olunub. Məktəbdə ən müasir havalandırma və işıqlandırma sistemləri quraşdırılıb. Təhsil ocağının həyatində də abadlıq və quruculuq işləri görülüb.*

*Məktəblə tanışlıqdan sonra dövlətimizin başçısı pedaqoji kollektivlə xatirə şəkli çəkdirdi.*

## I AZƏRBAYCAN BEYNƏLXALQ MÜDAFİƏ SƏNAYESİ SƏRGİSİNİN İŞTİRAKÇILARINA

Hörmətli sərgi iştirakçıları!

Əziz qonaqlar!

Sizi «ADEX – 2014» I Azərbaycan Beynəlxalq Müdafiə Sənayesi Sərgisinin açılışı münasibətilə səmimi-qəlbdən salamlayır, hər birinizə ölkələrimizin gələcəyi naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Belə bir sərginin ilk dəfə regionun böyük iqtisadi potensiala malik dövlətlərindən olan müstəqil Azərbaycanın paytaxtı Bakı şəhərində təşkili heç də təsadüfi deyildir. Sürətlə modernləşən respublikamızın iqtisadiyyatının bütün sahələri dinamik inkişaf edir. Ölkəmizdə 2014-cü il «Sənaye ili» elan olunmuş və cari ilin ötən dövrü ərzində sənayenin bütün istiqamətləri üzrə müsbət nəticələr qazanılmışdır. Bu baxımdan ümidvaram ki, sərginiz ənənəvi xarakter alaraq öz əhatə dairəsini davamlı surətdə genişləndirəcəkdir.

Daim dəyişən dünyamızda dövlətlərin yeni təhlükəsizlik çağırışları ilə üzləşməsi hərbi-texniki əməkdaşlıq və müasir texnologiyaların mübadiləsi məsələlərinin aktuallığını daha da artırmışdır. Xarici hərbi təcavüz nəticəsində torpaqları işğala və terrorizmə məruz qalmış Azərbaycan Respublikası təhlükəsizliyin möhkəmləndirilməsini və dövlətlərarası əməkdaşlıq münasibətlərinin dərinləşdirilməsini hər zaman diqqət mərkəzində saxlayır, qəbul edilmiş Hərbi Doktrina çərçivəsində özünün müdafiə potensialını gücləndirərək, ümumbəşəri ədalət prinsiplərini bölüşən bütün dost və tərəfdaş dövlətlərlə işbirliyinə yüksək maraq göstərir.

İnanıram ki, bu sərgidə aparılacaq səmərəli görüşlər və işgüzar danışıqlar qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinə öz töhfəsini verəcək, mövcud müasir texnologiyalar

bazarının ədalətli rəqabət meydanına çevrilməsində xüsusi rol oynayacaqdır.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 sentyabr 2014-cü il*

## BAKININ NİZAMİ RAYONUNDAKI 32 VƏ 12 SAYLI TAM ORTA MƏKTƏBLƏRİNDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*10 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Bakının Nizami rayonundakı 32 və 12 saylı tam orta məktəblərində yaradılan şəraitlə tanış olmuşdur.*

*Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı qəbul edilən xüsusi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq bütün sosial sahələrdə olduğu kimi, təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması, yeni məktəb binalarının, uşaq bağçalarının inşası prosesi məqsədyönlü şəkildə uğurla həyata keçirilir. Paytaxtda və ətraf qəsəbələrdə, eləcə də respublikanın hər yerində orta məktəb binaları yüksək standartlara uyğun şəkildə yenidən qurulur və lazımi avadanlıqlarla təchiz edilir, təhsil müəssisələrinin ərazilərində abadlıq işləri həyata keçirilir, yeni yaşıllıq zolaqları salınır. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də mühüm işlər görülür.*

*Prezident İlham Əliyev əvvəlcə 32 saylı tam orta məktəbdə həyata keçirilən təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış oldu.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi. Qeyd edildi ki, 4 mərtəbədən ibarət olan məktəbdə 1050 şagird təhsil alır. Yeni dərs ili ərəfəsində məktəbin bütün sinif otaqları, fənn kabinetləri yüksək standartlara uyğun şəkildə əsaslı surətdə təmir edilib, lazımi avadanlıq və dərs ləvazimatları ilə təchiz olunub. Məktəbin istilik və işıqlandırma sistemləri də müasir tələblər səviyyəsində yenidən qurulub. Növbəti il üçün 640 şagird yerlik əlavə korpusun inşası nəzərdə tutulur.*

Dövlətimizin başçısı məktəbin ayrı-ayrı sinif otaqlarını gəzdi, yaradılan şəraitlə tanış oldu.

Sonra prezident İlham Əliyev 12 saylı tam orta məktəbə gəldi. Burada görülən təmir və yenidənqurma işləri ilə bağlı da dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, 12 saylı tam orta məktəbin binası 1974-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə inşa edilib və ulu öndərin iştirakı ilə istifadəyə verilib. 3 mərtəbədən ibarət məktəbdə 43 sinif otağı var. Məktəbdə 1200-ə yaxın şagird təhsil alır. Növbəti dərs ili üçün 240 şagird yerlik əlavə korpusun inşası nəzərdə tutulur. Burada da bütün sinif otaqları və fənn kabinetləri yüksək standartlar səviyyəsində təmir edilib, müasir istilik və işıqlandırma sistemləri quraşdırılıb.

Dövlətimizin başçısı 12 saylı tam orta məktəbdə əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə yaxından tanış oldu.

# SERBİYA RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ İVİTSA DAÇİÇİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Serbiya Respublikası Baş nazirinin müavini və Xarici İşlər naziri İvitsa Daçiçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Serbiya arasında ikitərəfli əlaqələrin inkişafının razılıq doğurduğunu vurğuladı. Prezident İlham Əliyev Serbiyanın Baş nazirinin müavini və Xarici İşlər naziri İvitsa Daçiçin Azərbaycana bu səfərinin ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

*Xarici İşlər naziri kimi, Azərbaycana ilk dəfə səfər etdiyini vurğulayan Serbiyanın Baş nazirinin müavini və Xarici İşlər naziri İvitsa Daçiç dost ölkələrimiz və xalqlarımız arasında əlaqələrin daha yüksək səviyyəyə qaldırılması üçün qarşılıqlı istəyin olduğunu qeyd etdi. Nazir ölkəsinin Azərbaycan ilə əlaqələri siyasi və iqtisadi sahələrdəki kimi, mədəni, humanitar və digər sahələrdə də inkişaf etdirməkdə maraqlı olduğunu dedi.*

## İSRAİLİN MÜDAFİƏ NAZİRİ MOŞE YAALONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da «ADEX–2014» I Azərbaycan Beynəlxalq Müdafiə Sənayesi Sərgisində iştirak etmək üçün ölkəmizdə səfərdə olan İsrailin Müdafiə naziri Moşe Yaalonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə İsrail arasında ikitərəfli və hərbi-texniki əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## BAKI İSTEDADLAR TƏHSİL KOMPLEKSİNİN YENİ BİNASINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*10 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Bakı İstedadlar Təhsil Kompleksinin yeni binasında yaradılan şəraitlə tanış olmuşdur.*

*Zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycanda bu sərvətlərdən səmərəli istifadə etməklə, insan kapitalının daha da inkişaf etdirilməsi başlıca amilə çevrilib. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin əsas prinsiplərini təşkil edir. Dövlətimizin başçısının təhsilin inkişafına göstərdiyi diqqət və qayğının nəticəsi olaraq, son illərdə müasir məktəb binaları tikilir, təhsil müəssisələri üçün yeni korpuslar inşa olunur. Bu proses təkcə paytaxtla məhdudlaşmayıb, bölgələri də əhatə edir. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də mühüm işlər görülüb. Heydər Əliyev Fondu da dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına güclü dəstək verib. Yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlıqları ilə diqqət çəkən bu təhsil ocaqlarından biri də Azərbaycan Beynəlxalq Təhsil Mərkəzinin nəzdindəki Bakı İstedadlar Təhsil Kompleksidir. Burada təlim-tədrisin yüksək səviyyədə aparılması üçün hər cür şərait yaradılıb.*

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, bu təhsil ocağının tikintisinə ötən ilin avqust ayında başlanılıb. Kompleks qısa müddətdə müasir tələblər səviyyəsində inşa olunub.*

*Bakı İstedadlar Təhsil Kompleksi Azərbaycan Beynəlxalq Təhsil Mərkəzinin beynəlmiləl məktəbidir. Kompleksin foyesində ulu öndər Heydər Əliyevin təhsilə göstərdiyi qayğını əks etdirən*

fotolardan ibarət stendlər yaradılıb. Məktəbdə təhsil ingilis dilində aparılır. Azərbaycan dili, ədəbiyyatı, tarixi və coğrafiyası isə Azərbaycan dilində tədris olunur. 1200 şagird üçün nəzərdə tutulan Bakı İstedadlar Təhsil Kompleksində ilk vaxtlarda 600 şagird təhsil alacaq. Kompleksdə təlim-tədris prosesi 3 yaşından başlayaraq məktəbəqədər təhsil, ibtidai təhsil, orta təhsil və ali məktəblərə hazırlıq mərhələlərini əhatə edəcək.

Məktəbdə 4 birinci sinif və hər birindən 3 sinif olmaqla, 2 və 8-ci sinif şagirdləri ən yüksək səviyyədə təhsil almaq imkanına malik olacaqlar. Təhsil kompleksindəki 80 nəfərlik yeni tipli uşaq bağçasında da təlim proqramları Azərbaycan və ingilis dillərində tədris olunur. Balacalara dil və riyaziyyatın əsasları yeni üsullarla öyrədilir. Təhsil kompleksinin xüsusi nəqliyyat vasitələri uşaqların xidmətinə verilib. Uşaq bağçasının əsas kontingenti 3-4 yaşlı uşaqlardır. 5 yaşlılar isə birinci sinfə hazırlıq kursu keçirlər. Təhsil Kompleksində müasir üslubda tikilən və bütün zəruri avadanlıqlarla təchiz olunan 30 sinif otağı, kitabxana, 300 nəfərlik akt zalı, iclas otaqları, pedaqoji heyət üçün iş otaqları, laboratoriyalar, qapalı idman zalı, 2 üzgüçülük hovuzu, meydançalar, trenajor zalı, yeməkxana, tibb məntəqəsi, kompüter otaqları, qeyri-tədris sahələri yaradılıb. Tədris prosesi hər sinifdə 1 müəllim və 1 assistent tərəfindən aparılacaq. Müəllimlər beynəlmiləl məktəblərdə iş təcrübəsinə və müvafiq sertifikatlara malik əcnəbi vətəndaşlar, assistentlər isə ingilis dilini mükəmməl bilən yerli müəllimlərdən ibarətdir.

Kompleksdə ümumilikdə 32 əcnəbi və 28 yerli müəllim işləyəcək. Burada təlim-tərbiyə prosesi Britaniya təhsil modeli üzərində qurulduğundan, Azərbaycan milli kurrikulumundan bəzi detallar ilə yanaşı, Britaniya milli kurrikulumu–İngiltərə–Uels kurrikulumu da tətbiq olunur.

Məktəbdə şagird–müəllim–valideyn interaktiv şəbəkəsi yaradılıb. Bu, valideynlərə şagirdlərin davamiyyəti, müvəffəqiyyəti, davranışı, onlara verilən ev tapşırıqları haqda operativ-interaktiv məlumat əldə etməyə imkan verəcək. Pedaqoji prosesin müəllim–şagird əməkdaşlığı üzərində qurulması, müasir təlim strategi-

*yalarının və çevik qiymətləndirmə mexanizmlərinin məqsədyönlü tətbiqi, şagirdlərin informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmələri təlimin keyfiyyətinin yüksəldilməsinə zəmin yaradır. Məktəbin kitabxanası tədris planlarında nəzərdə tutulmuş fənlərə dair tədris-informasiya mənbələri ilə zənginləşdirilib. Təhsil ocağının həyatində abadlıq və quruculuq işləri həyata keçirilib.*

*Qeyd edək ki, Bakı İstedadlar Təhsil Kompleksi təkcə Bakıda deyil, Azərbaycanın bütün bölgələrində yaşayan, yüksək intellektual qabiliyyətə və parlaq istedada malik uşaqların aşkara çıxarılması və onlara müasir standartlar səviyyəsində bilik və bacarıqların aşılanması üçün nəzərdə tutulmuş yeni tipli təhsil müəssisəsidir.*

## QIRĞIZ RESPUBLİKASI BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ TAYIRBEK SARPAŞEVİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Qırğız Baş nazirinin birinci müavini, Azərbaycan–Qırğız hökumətlərarası iqtisadi-humanitar Komissiyasının həmsədri Tayırbek Sarpaşevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Baş nazirin birinci müavini Tayırbek Sarpaşev Qırğız prezidenti Almazbek Atambayevin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin razılıq doğurduğu vurğulandı, iqtisadi, ticarət, humanitar və digər sahələrdə də əməkdaşlığın inkişaf etdirilməsinin önəmi qeyd olundu, Qırğız Respublikası Baş nazirinin birinci müavini, Azərbaycan–Qırğız hökumətlərarası iqtisadi-humanitar Komissiyasının həmsədri Tayırbek Sarpaşevin ölkəmizə səfərinin bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olundu.*

*Dövlətimizin başçısı prezident Almazbek Atambayevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qırğız dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## İRAN İSLAM RESPUBLİKASININ ALİ RƏHBƏRİ AYƏTULLAH SEYİD ƏLİ XAMENEİ HƏZRƏTLƏRİNƏ

Möhtərəm Ayətullah Xamenei həzrətləri!

Sizə səmimi salamlarımı yetirməkdən məmnunam. Üzərinizdə aparılmış cərrahiyyə əməliyyatının uğurla həyata keçməsi məni çox sevindirdi. Əməliyyatdan sonra tezliklə sağalmağınızı diləyirəm.

Sizə möhkəm cansağlığı, uzun ömür, işlərinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 sentyabr 2014-cü il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş təbii fəlakət nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbərdən son dərəcə kədərləndim.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Pakistan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 sentyabr 2014-cü il*

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PRANAB MUKHERCİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş təbii fəlakət nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbərdən son dərəcə kədərləndim.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Hindistan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 sentyabr 2014-cü il*

**HONDURAS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB XUAN ORLANDO ERNANDES ALVARADOYA**

Hörmətli cənab Prezident!

Honduras Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Honduras münasibətləri daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Honduras xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *11 sentyabr 2014-cü il*

## GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ İRAKLİ QARİBAŞVİLİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*11 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də ölkəmizə səfərə gəlmiş Gürcüstan Respublikasının Baş naziri İrakli Qaribaşvili ilə təkbətək görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, energetika və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. Gürcüstanın Baş nazirinin bu səfərinin ölkələrimiz arasında əlaqələrin daha da genişlənəcəyinə töhfə verəcəyi qeyd edildi. Əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*11 sentyabr 2014-cü il*

*Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Respublikasının Baş naziri İrakli Qaribaşvilinin nümayəndə heyətlərinin iştirakı ilə sentyabrın 11-də geniş tərkibdə görüşü olmuşdur.*

Nümayəndə heyətini ölkəmizdə bir daha salamlayan prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, bu səfər ikitərəfli qardaşlıq əlaqələrinin inkişafına töhfə verəcək. Dövlətimizin başçısı ölkələrimiz və xalqlarımız arasındakı əlaqələrin böyük tarixi olduğunu bildirdi, xalqlarımızın hər zaman sülh və əmin-amanlıq içində yaşadıqlarını dedi. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan ilə Gürcüstan regionda yaxından əməkdaşlıq edir. Dövlətimizin başçısı nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə ikitərəfli münasibətlərimizin müxtəlif sahələrinə dair məsələlərin müzakirə ediləcəyini dedi. Prezident İlham Əliyev vurğuladı ki, nazirlər ikitərəfli və regional əməkdaşlığa dair məsələləri həll etmək məqsədi ilə daim təmasdadırlar.

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ölkəmizdə olmaqdan böyük şərəf hissi duyduğunu dedi. Azərbaycana nümayəndə heyəti ilə ilk dəfə rəsmi səfər etdiyini bildirən İrakli Qaribaşvili Gürcüstan ilə Azərbaycanın yaxın dost, strateji tərəfdaş, qonşu və qardaş ölkələr olduğunu söylədi və bu əlaqələri daha da dərinləşdirməyin əhəmiyyətini vurğuladı.

## TÜRKİYƏ RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ İSMƏT YILMAZIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də Türkiyə Respublikasının Müdafiə naziri İsmət Yılmazın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən hərbi və hərbi-texniki əməkdaşlıq sahəsində uğurla inkişaf etdiyi bildirildi, keçirilməsi nəzərdə tutulan birgə hərbi təlimlərin Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında əlaqələrin genişləndirilməsi baxımından önəmi qeyd olundu, Türkiyə Respublikasının Müdafiə naziri İsmət Yılmazın ölkəmizə səfərinin bu sahədə əməkdaşlığımızın daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminlik vurğulandı.*

# I AZƏRBAYCAN BEYNƏLXALQ MÜDAFİƏ SƏNAYESİ SƏRGİSİ İLƏ TANIŞLIQ

*11 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev sentyabrın 11-də ölkəmizdə və regionda ilk dəfə keçirilən «ADEX–2014» I Azərbaycan Beynəlxalq Müdafiə Sənayesi Sərgisi ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində ölkə həyatının bütün istiqamətlərində, o cümlədən ordu quruculuğu sahəsində son illərdə mühüm nailiyyətlər əldə olunub. Bu sırada dövlətimizin başçısının sərəncamı ilə 2005-ci ildə yaradılan Müdafiə Sənayesi Nazirliyinin fəaliyyəti mühüm yer tutur. Nazirliyin tabeliyinə verilən müəssisələrdə qısa müddətdə yenidənqurma işlərinin aparılması, son illərdə həmin müəssisələrin maşın və avadanlıq parkının yenilənməsi məqsədilə dünyanın inkişaf etmiş ölkələrindən ən son texnoloji avadanlıqların alınıb quraşdırılması Ali Baş Komandanın bu sahənin inkişafına verdiyi önəmi bir daha göstərir. İndiyədək bu müəssisələrdə müxtəlif istehsal sahələri yaradılıb və bu sahələr Silahlı Qüvvələrin müasir tələblərə cavab verən müdafiə təyinatlı məmulatlarla təmin olunmasına geniş imkanlar açıb. Görülən işlərin nəticəsidir ki, Müdafiə Sənayesi Nazirliyi aviasiya, naviqasiya, cihazqayırma və digər istiqamətlər üzrə dünyanın inkişaf etmiş ölkələri ilə əməkdaşlıq edir. 2009-cu ildən başlayaraq nazirliyin müəssisələrində istehsal olunan məhsullar xaricdə keçirilən beynəlxalq müdafiə sənayesi sərgilərində də nümayiş etdirilir. Bu sərgilərdə Azərbaycan istehsalı olan məhsullar böyük maraqla qarşılanır. Müdafiə Sənayesi Nazirliyi bu günədək 15-dən artıq beynəlxalq sərgidə iştirak edib.*

*Beynəlxalq Müdafiə Sənayesi Sərgisi isə bu il ilk dəfə Azərbaycanda keçirilir. Əgər Azərbaycan ilk qatıldığı sərgidə 27 adda*

məmulatla təmsil olunurdusa, «ADEX–2014»də 168 adda məmulat nümayiş etdirir. Bu sərgi müasir silah və texnikanın, habelə milli müdafiə sahəsində Azərbaycanın gücünün və qüdrətinin böyük nümayişinə çevrilib. Azərbaycan Beynəlxalq Müdafiə Sənayesi Sərgisi müdafiə sənayesi və müdafiə nazirliklərinin rəsmi təşəbbüsü və dəstəyi ilə təşkil edilib. Sərginin keçirilməsi ideyası son illərdə müdafiə sənayesi sahəsində əldə olunan uğurlarla sıx bağlıdır. Təsadüfi deyil ki, bütün sənaye sahələrində müşahidə olunan inkişaf sayəsində Azərbaycan həm regional, həm də beynəlxalq bazarlarda aparıcı fiqur və strateji tərəfdaşa çevrilib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən layihələr regionda təhlükəsizlik və əməkdaşlığın inkişafına müsbət təsir göstərir. Həmçinin Azərbaycanın hərbi sənaye kompleksi də bir sıra irimiqyaslı layihələr həyata keçirərək, öz imkanlarını əsaslı şəkildə genişləndirib. Hazırda Azərbaycan 900 adda müxtəlif hərbi təyinatlı məhsul, o cümlədən bütün növ döyüş sursatı, müxtəlif texnika və silahlar istehsal edir. Müdafiə Sənayesi Nazirliyi bir çox ölkələrlə hərbi-texniki əməkdaşlığı da sürətlə genişləndirir.

Müdafiə Sənayesi naziri Yavər Camalov prezident İlham Əliyevə sərgi barədə məlumat verdi. Bildirildi ki, Azərbaycanın və xarici ölkələrin dövlət orqanları, biznes dairələri və sənaye strukturları tərəfindən sərgiyə göstərilən böyük maraq bu tədbirin aktuallığını və əhəmiyyətini sübut edir.

Dövlətimizin başçısı əvvəlcə Müdafiə Sənayesi Nazirliyinin stendinə baxdı.

Qeyd edək ki, Müdafiə Sənayesi Nazirliyinin yaradılması müstəqillik illərində Azərbaycanda ordu quruculuğu istiqamətində görülən işlərin mühüm tərkib hissəsini təşkil edir. Hazırda Müdafiə Sənayesi Nazirliyi hərbi texnika, silah, mühəndis texnikası, ehtiyat hissələri, döyüş sursatları və digər müdafiə təyinatlı məhsulların istehsalı üzrə fəaliyyət göstərir. Nazirliyin tabeliyində 5 istehsalat birliyi və 2 elmi-tədqiqat institutu var. Eyni zamanda, nazirlik mövcud qanunvericilik çərçivəsində və beynəlxalq hüquq normalarına riayət edərək, istehsal olunan

məhsulların xarici ölkələrə ixracını həyata keçirir. Hazırda nazirlik dünyanın bir sıra qabaqcıl ölkələri ilə hərbi-texniki sahədə əməkdaşlıq edərək, müxtəlif müdafiə təyinatlı məhsulların istehsalı istiqamətində layihələr icra edir. Prezident İlham Əliyev də dəfələrlə bəyan edib ki, hazırda Azərbaycan Ordusunun təchizatında ölkəmizdə istehsal olunan məhsullar mühüm rol oynayır.

Dövlətimizin başçısı sərgidə iştirak edən xarici ölkələrin pavilyonlarında da oldu.

Fransanın dəniz müdafiəsi üzrə dünyada lider şirkətlərindən olan «DCNS Group» şirkəti dənizçiliklə bağlı tikinti sahələrində və hərbi dəniz bazaları üçün xidmət şəbəkəsi yaradır.

Türkiyə bu sərgidə bir neçə şirkətlə təmsil olunur. Məsələn, «Roketsan» şirkəti sistem mühəndisliyi vasitəsilə sifarişçi tələbləri əsasında müəyyən edilən və fərdi tələbatlara uyğunlaşdırılan sistemlərin layihələndirilməsi və istehsalı ilə məşğuldur.

1975-ci ildən fəaliyyətdə olan «Aselsan» şirkəti isə hərbi rabitə, radar, radioelektron, elektro-optik, naviqasiya və aviasiya-elektron avadanlıqları, silah, çoxfunksiyalı məlumat idarəetmə sistemi və digər yüksək texnologiyalar təklif edir.

Ukraynanın «Ukroboronprom» Dövlət Konserni də bu sərgidə yüksək səviyyədə iştirak edir. Ukrayna hərbi-sənaye kompleksinə daxil olan 134 müəssisəni özündə birləşdirən şirkət hərbi və xüsusi təyinatlı məhsulların ixracı və idxalı ilə məşğuldur.

Polşanın pavilyonu da təklif olunan məhsulların zənginliyi ilə seçilir. Bu ölkənin «Armaments Group» şirkətlər qrupu müdafiə vasitələrinin istehsalı üzrə ən böyük müəssisələrdən biridir və hazırda milli təhlükəsizlik sisteminin və bütün Polşa iqtisadiyyatının inkişafında mühüm rol oynayır.

Sərginin özəlliyini artıran mühüm amillərdən biri də burada Azərbaycanın tarixinə, xüsusilə də ölkəmizdə ordu quruculuğunun şanlı keçmişinə böyük diqqətlə yanaşılmadır. Azər-

*baycan Tarix Muzeyinin Silahlar və Bayraqlar fondunun zəngin ekspozisiyasının sərgidə nümayiş etdirilməsi bir daha qəhrəmanlar diyarı olan ölkəmizdə böyük ordu ənənələrinin olduğunu təsdiqləyir.*

*İsrail şirkətləri də bu sərgidə yüksək səviyyədə təmsil olunur. Bu ölkənin «Plasan» şirkəti taktiki döyüş maşınları, təyyarələr, helikopterlər və fərdi mühafizə üçün texnika, «Rafael» şirkəti isə hava, quru, dəniz və kosmosda istifadə üçün yüksəktexnologiyalı müdafiə sistemlərinin geniş çeşidini təklif edir. «Israel Weapon Industries» şirkəti də öz məhsulları ilə maraq doğurur.*

*Belarus sərgidə 7 şirkətlə təmsil olunur. «AGAT–Control Systems» şirkətinin istehsal etdiyi məhsullar quru qoşunları, hərbi hava qüvvələri və hava hücumlarından müdafiə üzrə döyüşün idarə edilməsi sistemlərinin istehsalı ilə məşğuldur. Bu ölkənin sərgidə iştirak edən digər şirkətləri də müdafiə sənayesi üzrə yüksək texnologiyaları təqdim edir.*

*Sərginin əsas iştirakçılarından biri də Rusiyadır. Bu ölkə «ADEX–2014»ə 14 şirkətlə qatılıb. «Rosoboronexport» dünya silah bazarının liderlərindən biridir və Rusiyanın illik silah satışının 80 faizini təmin edir. Dünyanın 70-dən çox ölkəsi ilə hərbi-texniki əməkdaşlıq edən Rusiyanın sərgidə təmsil olunan digər şirkətləri də müdafiə sənayesi sahəsində yüksəktexnologiyalı məhsullarını nümayiş etdirir.*

*Cənubi Afrika Respublikasının «Paramount» şirkəti müdafiə və təhlükəsizlik üzrə innovasiya sahəsində dünya lideridir. Azərbaycan ilə sıx əməkdaşlıq quran şirkət bütün dünyada müdafiə, daxili təhlükəsizlik və sülhməramlı qüvvələr üçün ən müasir texnika, cihaz və zirehli maşınlar istehsal edir.*

*Sərgiyə 6 şirkətlə qatılan Çin də müdafiə sənayesi sahəsində yüksəktexnologiyalı məhsullarını nümayiş etdirir. Bu ölkənin CETC şirkəti əsasən elektron komponentlərin və elektron avadanlıqların istehsalı ilə məşhurdur. Dünyanın 100-dən çox ölkəsində iş quran şirkət hazır məhsullar çeşidinin yüksək səviyyəsi ilə seçilir.*

*Fransanın Qərbi Avropada nüfuzlu müdafiə sənayesinə malik MBDA şirkəti bütün növ silahlı qüvvələrdə idarə olunan raket sistemləri üzrə genişçeşidli komplekslərin yaradılması ilə məşhurdur.*

*Sərgi ilə tanışlıq zamanı prezident İlham Əliyevə Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan müəssisələrdə istehsal edilən ən son model tapança hədiyyə edildi.*

*Sonra dövlətimizin başçısı sərginin Baku Expo Mərkəzinin həyətində təşkil olunan digər hissəsinə baxdı. Burada əsasən çöl-səhra şəraitində, hərbi hava qüvvələrində istifadə olunan texnika, silah-sursat nümayiş etdirilir.*

*Azərbaycan Beynəlxalq Müdafiə Sənayesi Sərgisində dünyanın 34 ölkəsindən 200 şirkət və 22 rəsmi nümayəndə heyəti iştirak edir. Sərgiyə 37 şirkətlə qatılan Azərbaycan irimiqyaslı ekspozisiyası ilə fərqlənir. Bu sərgiyə olan böyük maraq Azərbaycanın mühüm strateji tərəfdaş kimi yüksək rolunu və əhəmiyyətini bir daha təsdiqləyir.*

*Beləliklə, Azərbaycan Beynəlxalq Müdafiə Sənayesi Sərgisi milli hərbi sənaye potensialının nümayişi, habelə hərbi sənaye kompleksinin müxtəlif sahələrində istifadə olunan müasir müdafiə texnologiyaları və nümunələri, eləcə də ən yeni hərbi texnika növləri ilə tanışlıq və beynəlxalq əməkdaşlıq əlaqələrinin qurulması baxımından səmərəli meydandır. Bu cür ixtisaslaşdırılmış sərginin keçirilməsi Azərbaycanda müdafiə sənayesinin inkişafına təkan verməklə yanaşı, ölkədə istehsal edilən hərbi məhsulların dünya bazarında rəqabətədavamlı olmasına da töhfə verəcək.*

*Sərgi çərçivəsində «Müasir müharibə metodları və təhlükəsizlik çağırışları» mövzusunda keçiriləcək konfransda müasir hərbi-texniki siyasət üzrə aktual məsələlər müzakirə olunacaq. Ümumilikdə, konfransda 200-dən artıq mütəxəssis, hərbi ekspert, eləcə də dövlət strukturlarının və şirkətlərin nümayəndələri iştirak edəcəklər.*

## AVSTRİYA RESPUBLİKASININ AVROPA, İNTEQRASİYA VƏ XARİCİ İŞLƏR FEDERAL NAZİRİ SEBASTİAN KURTSUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də Avstriya Respublikasının Avropa, İnteqrasiya və Xarici İşlər Federal naziri Sebastian Kurtsun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Avstriya arasında ikitərəfli münasibətlərin səviyyəsinin razılıq doğurduğunu vurğuladı. Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. İqtisadi sahədə əməkdaşlığımıza toxunan dövlətimizin başçısı Avstriya şirkətlərinin Azərbaycandakı əhəmiyyətli layihələrdə iştirakını bunun yaxşı nümunəsi kimi dəyərləndirdi. Prezident İlham Əliyev ölkələrimiz arasında siyasi, iqtisadi, enerji və digər sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsi üçün böyük imkanların olduğunu vurğuladı.*

*Avstriyanın Avropa, İnteqrasiya və Xarici İşlər Federal naziri Sebastian Kurts ölkəmizə ilk səfərindən məmnunluğunu ifadə etdi. İş adamlarından ibarət böyük nümayəndə heyəti ilə Azərbaycana səfər etdiyini vurğulayan avstriyalı nazir öz növbəsində bu səfərin ikitərəfli əlaqələrimizin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi.*

## MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ

**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB ENRİKE PENYA NİETOYA**

Hörmətli cənab Prezident!

Meksika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Meksika əlaqələrinin genişlənməsi dostluq və əməkdaşlıq münasibətlərimizin inkişafına bundan sonra da töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Meksika xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *12 sentyabr 2014-cü il*

## MALAYZİYANIN BAŞ NAZİRİ MOHAMMAD NAJİB TUN ABDUL RAZAKIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*12 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Malayziyanın Baş naziri Mohammad Najib Tun Abdul Razakın sentyabrın 12-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Malayziyanın Baş nazirinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Malayziyanın Baş naziri Mohammad Najib Tun Abdul Razakı və xanımı Datin Paduka Seri Rosmah Mansoru qarşıladılar.*

*Malayziyanın Baş nazirinin xanımına gül dəstəsi təqdim olundu.*

*Fəxri qarovul dəstəsinin rəisi Malayziyanın Baş nazirinə raport verdi.*

*Malayziyanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Prezident İlham Əliyev və Baş nazir Mohammad Najib Tun Abdul Razak Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Malayziyanın Baş naziri Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Baş nazir Mohammad Najib Tun Abdul Razaka, Malayziya nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Respublikası Prezidentinin və Malayziyanın Baş nazirinin qarşısından keçdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Malayziyanın Baş naziri Mohammad Najib Tun Abdul Razak rəsmi foto çəkdirdilər.*

# MALAYZİYA RESPUBLİKASININ BAŞ NAZİRİ MOHAMMAD NAJİB TUN ABDUL RAZAK İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*12 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 12-də Malayziyanın Baş naziri Mohammad Najib Tun Abdul Razak ilə təkbətək görüşü olmuşdur.*

*Görüşdə ikitərəfli münasibətlərimizin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu. Əlaqələrimizin genişləndirilməsi üçün yaxşı potensialın olduğu qeyd edildi. Malayziyanın Baş nazirinin Azərbaycana səfərinin əhəmiyyəti vurğulandı. Ölkələrimiz arasında münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əminlik bildirildi.*

*Görüşdə ikitərəfli, beynəlxalq və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*12 sentyabr 2014-cü il*

*Təkbətək görüş başa çatdıqdan sonra sentyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Malayziyanın Baş naziri Mohammad Najib Tun Abdul Razakın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Baş nazir, hörmətli qonaqlar! Sizi ölkəmizdə salamlamaq istəyirəm. Ümidvaram ki, Malayziyanın Baş nazirinin ilk səfəri uğurlu olacaq.

Təkbətək görüşümüz zamanı biz ikitərəfli əlaqələrimizin mühüm məsələlərini müzakirə etdik və indi nümayəndə heyətlərinin iştirakı ilə bunu davam etdiririk.

Biz ikitərəfli əlaqələrə böyük əhəmiyyət veririk. Malayziya bizim üçün yaxın dost və tərəfdaşdır. Əminəm ki, bu səfər əlaqələrimizə yeni təkan verəcək və biz siyasi, iqtisadi əlaqələrimizi gücləndirəcəyik. Biz xalqlarımız arasında əlaqələrin dərinləşməsi üzərində çalışacağıq. Xalqlarımız ünsiyyət saxlamaq və ikitərəfli əlaqələrimizin uğurlu inkişafına töhfə vermək üçün bir-birini daha yaxından tanımalıdırlar.

Əməkdaşlığımızın gündəliyi genişdir və bir çox sahələri əhatə edir. Əminəm ki, səfərinizin çox yaxşı nəticələri olacaq. Nümayəndə heyətlərinin üzvləri də ikitərəfli əlaqələrin mühüm məsələləri – siyasi, enerji təhlükəsizliyi və regional təhlükəsizlik ilə bağlı müzakirələr aparacaqlar. Buna görə də ümidvaram ki, biz fəal dialoq və dostluğumuzu davam etdirəcəyik. Təbii ki, bu səfər çox əhəmiyyətlidir. Çünki bu, qarşılıqlı etimadın və dostluğun yaxşı göstəricisidir. Bir daha xoş gəlmisiniz!

**M o h a m m a d N a j i b T u n A b d u l R a z a k:** Cənab Prezident, belə səmimi və gözəl qəbula görə Sizə təşəkkür edirik. Dediyim kimi, Sizin rəhbərliyinizlə sürətli və eyni zamanda, keyfiyyətli inkişaf məni heyrətləndirdi. Bakının müasir şəhərə,

Azərbaycanın güclənən, inkişaf edən, böyük potensialı olan ölkəyə çevrilməsini görmək yeni nəfəs almaq deməkdir.

Zati-aliləri, Sizi bu mükəmməl rəhbərliyiniz münasibətilə təbrik etmək istəyirəm. Mən bu səfəri səbirsizliklə gözləyirdim. Ölkəniz barədə çoxlu məlumatlar eşitmişdim və gördüklərim məni çox sevindirir. Mən gələcəkdə burada daha çox vaxt keçirmək, bu gözəl mənzərəni görmək istərdim.

İkitərəfli əlaqələrimizə gəlincə, ölkələrimiz arasında çox müsbət münasibətlər var. Düşünürəm ki, biz bu münasibətlərə əsasən əməkdaşlığın bir çox sahələrini aşkar edə bilərik. Hesab edirəm ki, bunun əsasını Sizin ölkənizlə neft və qaz sahəsində əməkdaşlıq təşkil edəcək. Düşünürəm ki, bu gün imzalanacaq Anlaşma Memorandumu əməkdaşlığımızın inkişafında çox mühüm bir mərhələnin başlanğıcı olacaq.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*12 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Malayziyanın Baş naziri Mohammad Najib Tun Abdul Razakın sentyabrın 12-də nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan–Malayziya sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası ilə Malayziya arasında dostluq münasibətləri və tərəfdaşlıq haqqında Birgə Bəyannamə»ni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Malayziyanın Baş naziri Mohammad Najib Tun Abdul Razak imzaladılar.*

*«Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və Malayziyanın «Petroliam Nasional Berhad» şirkəti arasında neft və qaz sektorunda əməkdaşlıq üzrə Anlaşma Memorandumu»nu Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və «Petroliam Nasional Berhad» şirkətinin prezidenti və baş icraçı direktoru Tan Sri Dato Şamsul Azhar Abbas imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Malayziya Hökuməti arasında diplomatların təlimi sahəsində əməkdaşlıq üzrə Anlaşma Memorandumu»nu Azərbaycanın Xarici İşlər nazirinin müavini və ADA Universitetinin rektoru Hafiz Paşayev, Malayziyanın Xarici İşlər Nazirliyinin Diplomatiya və Xarici Əlaqələr İnstitutunun baş direktoru Dato Hussin Nayan imzaladılar.*

## MALAYZİYA RESPUBLİKASININ BAŞ NAZİRİ MOHAMMAD NAJİB TUN ABDUL RAZAK İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*12 sentyabr 2014-cü il*

*Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Malayziyanın Baş naziri Mohammad Najib Tun Abdul Razak ilə birgə mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Baş nazir!

Xanımlar və cənablar!

Əvvəlcə, cənab Baş nazir, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Mənim dəvətimi qəbul edib ölkəmizə səfərə gəldiyinizə görə Sizə təşəkkür edirəm. Bu, Malayziya Baş nazirinin Azərbaycana ilk səfəridir. Bu, tarixi bir səfərdir və əməkdaşlığımızın tarixinə həkk olunacaq. Bu səfərə böyük əhəmiyyət veririk və səfərin nəticəsi ikitərəfli əməkdaşlığımızı gücləndirəcək.

Əməkdaşlığımızın yaxşı tarixçəsi var. Əminəm ki, gələcək üçün çox böyük perspektivlər var. Çünki bizim çox fəal siyasi dialoqumuz mövcuddur. Düşünürəm ki, bugünkü səfər də siyasi təmaslarımızı gücləndirəcək. Biz müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində fəal siyasi dialoq aparırıq.

Biz bu gün Birgə Bəyannamə imzaladıq. Əminəm ki, bu, gələcək əməkdaşlığımızın inkişafı baxımından çox mühüm sənəd olacaq. Çünki həmin sənəd əməkdaşlığımızın bütün aspektlərini – siyasi, iqtisadi, enerji sahələrini əhatə edir.

Eyni zamanda, biz bu gün cənab Baş nazirlə geniş müzakirə apardıq. Bizim beynəlxalq təsisatlar çərçivəsində də çox müsbət əməkdaşlığımız var, xüsusilə də BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər təşkilatlarda. Mən Malayziyaya minnətdarlığımı bildirirəm ki, bu ölkə Dağlıq Qarabağ məsələsində çox qətiyyətli mövqe tutur və Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini daim müdafiə edir.

Bu, beynəlxalq hüquqa uyğun olan bir mövqedir və bizim əməkdaşlığımızı, qardaşlığımızı əks etdirir.

Təəssüflər olsun ki, uzun illərdir Dağlıq Qarabağ və ətraf 7 rayon erməni işğalı altındadır. Ermənistan beynəlxalq hüququn normalarını açıq-aşkar pozur. Dünyanın ən mühüm beynəlxalq təşkilatı olan BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib ki, o qətnamələrdə Ermənistan dərhal və qeyd-şərtsiz torpaqlarımızı azad etməyə çağırılır. Amma Ermənistan buna məhəl qoymur. Bizim ölkənin ərazisinin 20 faizi işğal altındadır. Ermənilər azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparıblar. Burada Xocalı soyqırımını qeyd etmək istərdim. Yüzlərlə günahsız insanın qətlə yetirilməsi faktı mövcuddur. Bizim məscidlər, məzarlıqlar dağıdılıb. Buna heç bir bəraət qazandırmaq olmaz, bu vandalizmdir.

Həmin o zorakılığı və soyqırımını bu gün Ermənistan rəhbərliyində olan kriminal ünsürlər törədiblər. Biz bu məsələni daim diqqətdə saxlayırıq. Bu münaqişə tezliklə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Bu, regional sülh və sabitliyə töhfəsini vermiş olacaq. Cənab Baş nazir, bu məsələ ilə bağlı ölkənizin qətiyyətli mövqeyinə görə Sizə bir daha təşəkkür edirəm.

Biz bu gün iqtisadi əməkdaşlığımızı müzakirə etdik. Razılıq əldə edildi ki, hər 2 ölkənin şirkətləri qarşılıqlı şəkildə sərmayə yatırsınlar. Bu gün biznes-forum keçiriləcək və hər 2 ölkə öz biznes imkanlarını təqdim edəcək. Zənnimcə, praktiki addımlar müəyyən ediləcək ki, gələcəkdə əməkdaşlığımız güclənə bilsin.

Biz birgə sərmayə imkanlarını nəzərdən keçirdik – söhbət üçüncü ölkələrdə reallaşdırılacaq layihələrdən gedir. Zənnimcə,

böyük potensial var. Təəssüflər olsun ki, bu gün ticarət dövriyyəmiz olduqca aşağı səviyyədədir. Amma əminəm ki, bu səfərdən sonra müsbət irəliləyiş əldə ediləcək.

Bu gün biz enerji sahəsində çox ətraflı, geniş müzakirə apardıq. Bu sahədə əməkdaşlığımız üçün çox böyük perspektivlər var. Zənnimcə, biz bu sahədə strateji tərəfdaşlığa nail ola bilərik – enerji resurslarının ixracı, nəqli, emalı və digər məsələlərdə. Bu səbəbdən də bu gün SOCAR və «Petroliam Nasional Berhad» şirkətləri arasında imzalanmış Anlaşma Memorandumu gözəl bir əməkdaşlıq çərçivəsi yaradır. Əminəm ki, hər iki şirkətin rəsmiləri dərhal fəal dialoqa və əməkdaşlığa başlayacaqlar. Çünki tərəflər artıq konkret layihələr müəyyən ediblər. Ümid edirəm ki, biz olduqca qısa zamanda real nəticələr görəcəyik.

Onu da qeyd etmək istərdim ki, Malayziya dünyada bizim üçün mühüm tərəfdaş və dost ölkələrdəndir. Biz islam həmrəyliyinin gücləndirilməsi üçün birgə tədbirlər həyata keçiririk, səylər göstəririk. Biz İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində çox fəal əməkdaşlıq edirik. Malayziya istər iqtisadi və siyasi, istərsə də sosial inkişaf baxımından böyük nailiyyətlər əldə edib. Bu bir çox ölkələr üçün örnək ola bilər. Malayziyanın möhkəm, sabit siyasi sistemin və güclü iqtisadi zəminin yaradılması baxımından böyük nailiyyətləri var. Zənnimcə, islam dövlətlərinin inkişafı, həmrəyliyi əməkdaşlığın gücləndirilməsinə də töhfəsini verir. Hesab edirəm ki, biz səylərimizi birləşdirərək daha çox işlərə nail ola bilərik. Biz əməkdaşlığımızdan çox razıyıq. Düşünürəm ki, bugünkü səfər əməkdaşlığımızın yeni səhifəsini açır.

Cənab Baş nazir, bir daha Sizi Azərbaycanda salamlayıram.

## Malayziyanın Baş naziri Mohammad Najib Tun Abdul Razakın bəyanatı

Cənab Prezident, məni ölkənizə səfərə dəvət etdiyinizə görə Sizə səmimi təşəkkürümü bildirirəm. Mənə və nümayəndə heyətimə göstərilən çox səmimi və mehriban qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istəyirəm. Həqiqətən də mənim

səfərimi tarixi səfər adlandırmaq olar. Çünki Malayziya Baş nazirinin Azərbaycana ilk səfəridir. Mən təyyarədən endiyim ilk andan çox təsirləndim. Təkcə inkişafın özü deyil, keyfiyyəti də məni valeh etdi. Sizin gələcəyə olan baxışlarınız məndə böyük təəssürat yaratdı. Təbii ki, ölkəmə qayıdandan sonra həmvətənlərimə Azərbaycana səfər etməyi tövsiyə edəcəyəm.

Azərbaycan həqiqətən, çox gözəl ölkədir, Xəzər sahilində yerləşən bir dövlətiniz var. Bu gün qaldığım otağın pəncərəsindən baxanda məndə elə təəssürat yarandı ki, sanki böyük, gözəl bir istirahət məkanındayam. Həqiqətən də Azərbaycan mənim bu günə qədər səfər etdiyim ən gözəl ölkələrdən biri hesab oluna bilər.

Cənab Prezident, Sizə müdrik siyasətinizə və uzaqgörənliyinizə görə təşəkkür edirəm, eyni zamanda, nailiyyətlərinə görə Azərbaycan xalqını təbrik edirəm. Əminik ki, bizim birgə irsimiz, hətta oxşar dəyərlərimiz var. Biz haqq-ədalətin tərəfdarı olan ölkəyik. Bu səbəbdən də biz hər yerdə Azərbaycanın mövqeyini müdafiə edirik, xüsusilə də ərazi bütövlüyü məsələsində. Biz bundan sonra da qətiyyətli mövqe nümayiş etdirəcəyik. Haqq-ədalət sizin tərəfinizdədir və biz hər zaman sizinlə olacağıq. Mən Azərbaycana təşəkkür edirəm ki, BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyü məsələsində bizim ölkəmizi dəstəkləyib.

Bu gün təkbətək və geniş tərkibdə çox gözəl görüşümüz oldu və hər iki görüşün nəticəsi çox müsbətdir. Qeyd edə bilərəm ki, enerji, neft və qaz sahələri diqqət mərkəzində olacaq. Bildiyiniz kimi, Malayziyanın, xüsusilə «Petronas» şirkətinin bu sahədə böyük təcrübəsi var. Zənnimcə, bu şirkət Azərbaycan ilə neft və qaz sahəsində yaxından əməkdaşlıq edə bilər. Eyni zamanda, təkcə neft-qaz sektorunda deyil, artıq istifadədən çıxarılmış neft və qaz sahələrinin reabilitasiyası məsələsində bizim böyük təcrübəmiz var.

Digər tərəfdən, qeyd etmək istərdim ki, Azərbaycan qazının Avropaya nəqli xüsusi strateji əhəmiyyətə malik olan məsələdir. Bu baxımdan Azərbaycan çox strateji mövqeyə malikdir. Sizi əmin

edə bilərəm ki, Malayziya Azərbaycan üçün etibarlı tərəfdaş olacaq. Mən bütün sahələri nəzərdə tuturam və əminəm, biz əlimizdən gələni edəcəyik ki, gələcək nəsillərə də dəyərli bir irs qoya bilək.

Bundan başqa, Azərbaycan rəsmilərinin müvafiq peşəkarlıq səviyyəsinin artırılması üçün müxtəlif təlimlər təşkil edə bilərik. Əminəm ki, bu səfərin çox gözəl nəticələri olacaq. Cənab Prezident qeyd etdi, bu gün biznes-forum keçiriləcək, iş adamları və sahibkarlar öz aralarında fikir mübadiləsi aparacaqlar. Malayziya şirkətlərinin xüsusilə infrastruktur layihələrinin həyata keçirilməsində böyük təcrübəsi var. Tikinti, emal sənayesi, elektronika avadanlığı istehsalı sahələrində böyük təcrübəyə malik olan şirkətlərimiz var.

Zati-aliləri, mən qəti əminəm ki, gələcəyimiz çox uğurlu olacaq. Müzakirə etdiyimiz məsələlər bu səfərdən sonra qısa müddətdə praktiki nəticələrini verəcək və ümid edirəm ki, bunun çox gözəl nəticələri olacaq. Mən zati-aliləri İlham Əliyevi öz ölkəmə dəvət etdim. Biz çalışacağıq ki, həmin səfər zamanı cənab Prezidentə öz nailiyyətlərimizi nümayiş etdirək.

Mənim bu səfərdən böyük gözləntilərim var. Cənab Prezident, ümid edirəm ki, Siz bizim ölkəyə səfər edəndə biz də Sizə eyni dərəcədə qonaqpərvərlik nümayiş etdirəcəyik. Bu gözəl imkana görə bir daha təşəkkür edirəm. Gözəl ölkənizdə olmaqdan çox məmnunam. Əminəm ki, görüşlərimiz çox səmərəli olub.

## MALAYZİYA RESPUBLİKASININ BAŞ NAZİRİNİN VƏ XANIMININ ŞƏRƏFİNƏ VERİLƏN ZİYAFƏTDƏ İŞTİRAK

*12 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından sentyabrın 12-də Malayziyanın Baş naziri Mohammad Najib Tun Abdul Razakın və xanımı Datin Paduka Seri Rosmah Mansorun şərəfinə ziyafət verilmişdir.*

## FRANSA RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN BEYNƏLXALQ İNKİŞAF İDARƏSİNİN DİREKTORU STEFAN REB İLƏ GÖRÜŞ

*12 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Fransa Müdafiə Nazirliyinin Beynəlxalq İnkişaf İdarəsinin direktoru Stefan Rebi qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin möhkəmləndirilməsində dövlət başçıları arasında keçirilən görüşlərin önəmi qeyd olundu, müdafiə sənayesi sahəsində əməkdaşlıq imkanları ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## BAKI FRANSIZ LİSEYİNİN AÇILIŞI MƏRASİMİ

*12 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 12-də Bakı Fransız liseyinin açılışı mərasimində iştirak etmişlər.*

*Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, insan kapitalının inkişaf etdirilməsi dövlət siyasətinin prinsiplərinin əsasını təşkil edir. Son illərdə ölkəmizdə müasir məktəb binaları tikilib, təhsil müəssisələri üçün yeni korpuslar inşa olunub. Bu proses təkcə paytaxtla məhdudlaşmayıb, bölgələri də əhatə edib. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də mühüm işlər görülüb. Heydər Əliyev Fondu da dövlət səviyyəsində həyata keçirilən bu proqramın reallaşmasına güclü dəstək verib. Fondun «Təhsilə dəstək» layihəsi çərçivəsində ölkəmizdə yaşayan milli azlıqların təhsilinə xüsusi diqqət göstərilib. Bundan əlavə, Bakıda yaşayan əcnəbilərin övladlarının təhsili ilə bağlı problemlərin aradan qaldırılması da diqqətdən kənarda qalmayıb. Bu məqsədlə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələr öz bəhrəsini verib. Bakı Fransız liseyinin yaradılması ilə bağlı həyata keçirilən layihə də bu sırada mühüm yer tutub.*

*Qeyd edək ki, paytaxtın «Ağ şəhər» adlanan ərazisində inşa olunan bu təhsil ocağı 320 şagird yerlikdir. Müasir memarlıq quruluşu ilə diqqət çəkən liseyin binası yüksək səviyyədə inşa olunub. Sahəsi 14 min kvadratmetr olan liseydə təlim-tədris üçün bütün şərait yaradılıb.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva liseyin rəmzi açılışını bildirən lenti kəsdilər. Yüksək standartların tətbiq olunduğu bu tədris müəssisəsində məktəbəqədər hazırlıq*

*kursu daxil olmaqla, ibtidai təhsil və kollec-lisey qrupları fəaliyyət göstərəcək. Cari tədris ilində 100 şagird liseydə təhsil almağa başlayacaq.*

*Qeyd edək ki, liseyin təməli 2011-ci ilin oktyabrında Fransanın sabiq prezidenti Nikola Sarkozinin Bakıya rəsmi səfəri çərçivəsində imzalanan «Azərbaycan və Fransa hökumətləri arasında Bakı Fransız liseyinin yaradılmasına dair» Sazişə əsasən qoyulub. Yaradılmasına Heydər Əliyev Fondunun da dəstək verdiyi lisey ölkəmizdə müvəqqəti və daimi yaşayan fransızdilli əcnəbi vətəndaşların və Azərbaycan vətəndaşlarının bu dildə təhsil almalarına geniş imkanlar yaradacaq. Fransız liseyində tədris uşaq bağçasından başlayaraq 12 illik ümumi təhsil müəssisəsində tətbiq edilən klassik fransız tədris planı əsasında qurulacaq. Tədris proqramı Fransa milli təhsil sisteminin tələblərinə uyğun olaraq fransız dilində aparılacaq. Şagirdlərə veriləcək attestat Fransa Milli Təhsil Nazirliyinin standartlarına və tələblərinə cavab verəcək və nazirlik tərəfindən tanınacaq. Məktəbin məzunları öz seçimlərinə uyğun olaraq təhsillərini Fransanın istənilən ali təhsil müəssisəsində davam etdirmək imkanı qazanacaqlar.*

*Xatırladaq ki, bu ilin mayında Fransa prezidenti Fransua Olland da Azərbaycana rəsmi səfəri çərçivəsində Fransız liseyinə gəlmiş və burada tikinti işlərinin gedişi ilə tanış olmuşdu.*

# BAKININ «AĞ ŞƏHƏR» BULVARINDA GÖRÜLƏN İŞLƏRLƏ TANIŞLIQ

*12 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 12-də Bakının «Ağ Şəhər» Bulvarında olmuşlar.*

*Dövlətimizin başçısı və xanımı «Ağ Şəhər» Bulvarında görülən işlərlə tanış oldular. İşlərin gedişi ilə maraqlanan prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

## ƏMİRCAN QƏSƏBƏSİNDƏKİ 84 SAYLI TAM ORTA MƏKTƏBİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*13 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakının Suraxanı rayonunun Əmircan qəsəbəsindəki 84 saylı tam orta məktəbin yeni binasının açılışında iştirak etmişdir.*

*Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında nəzərdə tutulan bütün layihələr uğurla icra olunur. Tədbirlər planına əsasən hər il olduğu kimi, bu il də məktəblərin təmiri və yenidən qurulması davam etdirilir. Xüsusi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq, təhsil ocaqlarının maddi-texniki bazası möhkəmləndirilir.*

*Yeni dərs ili ərəfəsində respublikanın hər yerində olduğu kimi, paytaxt Bakıda da orta məktəb binalarının yüksək standartlara uyğun yenidən qurulması və lazımi avadanlıqlarla təchiz edilməsi dövlətimizin təhsil sahəsinə qayğısını nümayiş etdirir.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, 1920-ci ildə inşa olunan məktəbin binasından ilk vaxtlar hospital kimi istifadə olunub. Yararsız vəziyyətdə olan bina 2012-ci ildə sökülüb və yerində ən müasir standartlara cavab verən üçmərtəbəli bina tikilib.*

*Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, hazırda 48 sinif otağı olan məktəb 1224 şagird yerlikdir. Məktəbin foyesində ulu öndər Heydər Əliyevin təh-*

*silin inkişafına göstərdiyi qayğını və prezident İlham Əliyevin Suraxanı rayonundakı təhsil ocaqlarının müasir standartlar səviyyəsinə çatdırılması istiqamətində gördüyü işləri əks etdirən fotolardan ibarət stendlər yaradılıb.*

*Dövlətimizin başçısı məktəbdə yaradılan şəraitlə yaxından tanış oldu. Burada bütün sinif otaqları, fənn kabinetləri ən müasir tələblər səviyyəsində qurulub. Məktəb yüksək tələblərə cavab verən avadanlıq və müasir dərs ləvazimatları ilə təchiz edilib. Şagirdlərin nəzəri bilikləri laboratoriyalarda tətbiq etmələri üçün də zəruri avadanlıq quraşdırılıb. Təhsil ocağının idman zalı da müasirliyi ilə diqqəti cəlb edir. Məktəbin akt zalında müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait var. Şagirdlərin hərbi hazırlığının və vətənpərvərlik ruhunun yüksəldilməsi məqsədilə məktəbdə hərbi hazırlıq sinfi yaradılıb. Burada müasir istilik və işıqlandırma sistemləri quraşdırılıb. Təhsil ocağının həyatində də abadlıq və quruculuq işləri görülüb. Məktəbin açıq futbol, voleybol və basketbol meydançaları da var.*

## SABUNÇU RAYONUNDAKI 72 SAYLI MƏKTƏB-LİSEYDƏ VƏ 80 SAYLI TAM ORTA MƏKTƏBDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*13 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakının Sabunçu rayonundakı 72 saylı məktəb-liseydə və 80 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlətimizin başçısı əvvəlcə 72 saylı məktəb-liseydə həyata keçirilən təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış oldu.*

*Azərbaycan Prezidentinə məlumat verildi ki, məktəb-liseyin binası 1930-cu ildə inşa olunub. İkimərtəbəli təhsil ocağı ilk illər Qızlar Gimnaziyası kimi fəaliyyətə başlayıb. 1989-cu ildə məktəb üçün ikinci korpus tikilib. Təhsil ocağının 3-cü əlavə korpusu isə 2007-ci ildə inşa olunub. Bu il məktəb-liseydə əsaslı təmir və yenidənqurma işləri aparılıb. 45 sinif otağı olan məktəbdə 1235 şagird təhsil alır. Burada bütün sinif otaqları və fənn kabinetləri yüksək standartlar səviyyəsində təmir edilib, zəruri dərs ləvazimatları və avadanlıqları ilə təchiz olunub, müasir istilik və işıqlandırma sistemləri quraşdırılıb. Məktəbin idman zalında mini-futbol, basketbol, voleybol yarışları keçirmək mümkündür. Bir sözlə, məktəb-liseydə təlim-tədris prosesinin yüksək səviyyədə aparılması üçün mükəmməl infrastruktur yaradılıb.*

*Sonra prezident İlham Əliyev Sabunçu rayonundakı 80 saylı tam orta məktəbin əlavə korpusunun əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış oldu.*

*Dövlətimizin başçısına məktəbdə görülən işlərlə bağlı məlumat verildi. Məktəbin 3 mərtəbədən, 23 sinif otağından ibarət 480 şagird yerlik əlavə* korpusu prezident *İlham Əliyevin tapşırıqlarına uyğun* olaraq *bu il əsaslı şəkildə yenidən* qurulub. *Bu korpusda tikinti işləri müasir* standartlara *uyğun* olaraq *yüksək keyfiyyətlə aparılıb.*

*Qeyd edildi ki, buradakı bütün* sinif *otaqları və ayrı-ayrı fənn kabinetləri ən müasir* standartlar *səviyyəsindədir. Məktəb lazımi avadanlıq və ləvazimatlarla təchiz* edilib. *Bu təhsil ocağında müasir* istilik *və işıqlandırma sistemləri* qurulub, *həyətyanı ərazidə abadlıq və yaşıllaşdırma işləri görülüb.*

*Məktəblərin yeni binalarının inşası və əlavə korpusların* tikintisi *bir* daha *təsdiqləyir ki, Azərbaycan* prezidenti *İlham Əliyevin diqqəti sayəsində ölkəmizdə təhsil islahatları uğurla* davam edir. *Bütün bu işlər həm də* onu *göstərir ki, Bakı şəhərinin və* onun *qəsəbələrinin* sosial-iqtisadi *inkişafına* dair *Dövlət Proqramında məktəblərin əsaslı təmiri və yenidən qurulması ilə bağlı nəzərdə tutulmuş tədbirlər planına uyğun* olaraq *paytaxtın* orta *ümumtəhsil məktəblərinin binalarında əsaslı təmir və yenidənqurma işləri hər il olduğu* kimi, *bu il də* davam etdirilir. *Bütün bunlar ilk növbədə, şagirdlərin ən yüksək səviyyədə təhsil almaları, onların* elmin *sirlərinə* daha *dərindən yiyələnmələri üçün hərtərəfli* imkanlar *açır.*

# BİNƏQƏDİ RAYONUNDAKI 182 SAYLI TAM ORTA MƏKTƏBİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*13 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakının Binəqədi rayonunda 182 saylı tam orta məktəbin yeni binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı məktəbin yeni binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı prezident İlham Əliyevə məlumat verdi.*

*Bildirildi ki, məktəbin əvvəlki binası 1962-ci ildə inşa edilib. 31 sinif otağından ibarət məktəb 800 yerlik olub. Məktəbin binası yararsız vəziyyətdə olduğundan sökülərək 3 mərtəbədən, 65 sinif otağından ibarət müasir bina inşa olunub və yeni dərs ilində şagirdlərin istifadəsinə veriləcək. 1300 şagird yerlik yeni binada 10 fənn kabineti yaradılıb. Bütün sinif otaqları ən müasir standartlar səviyyəsində olan məktəb zəruri avadanlıq və dərs ləvazimatları ilə təchiz edilib. Təhsil müəssisəsində yeni istilik və işıqlandırma sistemləri quraşdırılıb. Bu məktəbdə də idmanın müxtəlif növlərinin öyrədilməsi üçün müasir zal və meydançalar var.*

*Dövlətimizin başçısı məktəbin sinif otaqlarına, fənn kabinetlərinə baxdı, yaradılan şəraitlə yaxından tanış oldu.*

## ŞAĞAN QƏSƏBƏSİNDƏKİ 124 SAYLI TAM ORTA MƏKTƏBİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*15 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 15-də – «Bilik Günü»ndə Bakının Xəzər rayonunun Şağan qəsəbəsindəki Füzuli Gözəlov adına 124 saylı tam orta məktəb üçün yeni inşa edilən binanın açılışı mərasimində iştirak etmişlər.*

*Prezident İlham Əliyevin «qara qızılı insan kapitalına çevirək» ideyası artıq dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilib. Son illərdə dövlətimizin başçısının rəhbərliyi altında ölkədə həyata keçirilən təhsil islahatları uğurla davam etdirilir.*

*Müasir dünyada təhsil hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsi kimi qəbul olunur. Bu baxımdan ölkəmizdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək istəyir.*

*Son illərdə dövlətimizin başçısının ölkədə məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı sərəncam və tapşırıqlarına uyğun olaraq yüzlərlə məktəb binası tikilib və ya təmir olunub. Təhsil ocaqlarının kompüter texnologiyaları ilə təchiz olunması ilə bağlı sərəncam və tapşırıqlara uyğun olaraq ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı gücləndirilib. Ucqar bölgələrdə müəllim çatışmazlığını aradan qaldırmaqla bağlı hökumət müvafiq proqram qəbul edib.*

*Heydər Əliyev Fondunun da həyata keçirdiyi layihələr dövlət səviyyəsində icra olunan fəaliyyət proqramına güclü dəstək verib. Fondun «Yeniləşən Azərbaycana yeni məktəb» və*

*«Təhsilə dəstək» layihələri çərçivəsində ölkə üzrə yüzlərlə orta məktəb binası tikilib və bu proses davam etdirilir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə məktəbin rəmzi açılışını bildirən lenti kəsdilər.*

*Məktəbin foyesində xalqımızın ümummilli lideri Heydər Əliyevin və prezident İlham Əliyevin ölkədə təhsilin inkişafına göstərdikləri qayğını əks etdirən fotolardan ibarət guşə yaradılıb. Məktəbin bütün dəhlizlərində dövlət rəmzləri, müxtəlif fənlərə dair məlumatlar olan lövhələr asılıb.*

*Qeyd edildi ki, 1961-ci ildə Şağan qəsəbəsində inşa olunan məktəb mövcud tələblərə cavab vermirdi. Məktəbin maddi-texniki bazasının yarıtmaz vəziyyətdə olması, digər tərəfdən, şagird sıxlığı yeni təhsil ocağının inşasını gündəmə gətirdi. Belə ki, köhnə məktəb binası 520 yerlik olsa da, burada 800-dən çox uşaq oxuyurdu və dərslər 2 növbədə aparılırdı. 2011-ci ilin avqustunda dövlətimizin başçısı Şağan qəsəbəsində olarkən məktəbin vəziyyəti ilə tanış oldu və burada yeni binanın inşası ilə bağlı göstəriş verdi.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov prezident İlham Əliyevə görülən işlərlə bağlı məlumat verərkən bildirdi ki, qısa vaxtda müasir tikinti standartlarına uyğun inşa olunan məktəb indi 1560 şagird yerlikdir. Yeni tədris ilindən məktəb birnövbəli olacaq. 65 sinif otağının hamısı zəruri avadanlıq və əyani vəsaitlərlə təchiz olunub. Məktəbdə 4 informatika kabineti, fənn laboratoriyaları yaradılıb. Fizika, kimya və biologiya laboratoriyalarının hamısı müasir tədris vasitələri ilə təmin edilib. Uşaqlar üçün hər cür şəraiti olan yeməkxana və müxtəlif tədbirlərin keçirilməsinə imkan verən akt zalı qurulub. Bundan əlavə, şagirdlərin fiziki sağlamlığının qorunması üçün hər cür ləvazimatlarla təchiz olunan idman zalı da yaradılıb.*

*Bu il 145 uşaq yeni məktəbdə birinci sinfə gedir. Onu da deyək ki, builki tədris ilində Azərbaycanda 139 mindən çox uşaq birinci sinfə gedir. Bu il ilk dəfə olaraq Azərbaycanda maksimum sayda – 271 adda 7,8 milyon ədəd dərslik çap olunub. 2014–2015-ci tədris ilində 1692 gənc müəllim də ilk dəfə*

*sinfə daxil olaraq öz vəzifələrinin icrasına başlayır. Bu müəllimlər təhsil sahəsində ilk dəfə olaraq «Müəllim andı» içdikdən sonra fəaliyyət göstərəcəklər.*

*Bu il də ölkə üzrə onlarla məktəb yenidən inşa olunub və ya təmir edilib. 124 saylı məktəbin yerləşdiyi ərazidə də xeyli abadlıq işləri görülüb, uşaqlar üçün müasir futbol meydançası qurulub.*

*Sonra prezident İlham Əliyev məktəbin kollektivi və Şağan qəsəbə ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Dövlətimizin başçısı yeni dərs ili münasibətilə şagirdləri və müəllimləri təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Əziz uşaqlar, müəllimlər, əziz dostlar!

Bu gün yeni dərs ili başlayır. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Siz uşaqlar yeni dərs ilinə bu gözəl məktəbdə başlayacaqsınız.

Bu çox gözəl, əlamətdar hadisədir. Bu gözəl məktəb göz oxşayır, çox rahatdır, genişdir və burada oxumaq üçün bütün şərait, imkanlar var. Yadımdadır, 2 il bundan əvvəl burada olarkən əvvəlki məktəblə tanış olmuşdum. Gördüm ki, artıq bu məktəbin gələcəyi yoxdur. Çünki bərbad vəziyyətdə idi, uzun illər idi ki, təmirsiz qalmışdı və yeni məktəbin tikintisi ilə bağlı qərar verildi. Bu məktəb əvvəlki məktəbdən 3 dəfə böyükdür. Burada 1500-dən artıq uşaq oxuyacaq. Rahat, geniş otaqlar, dəhlizlər. Müəllimlər üçün gözəl şərait yaradılıbdır. Əminəm ki, burada nəticələr də yaxşı olacaq, yüksək olacaq. Çünki son illərdə ölkə üzrə tikilən gözəl məktəblərdə təhsilin keyfiyyəti də artır.

Yeni dərs ili ərəfəsində mən Bakıda 20-dən çox məktəbdə olmuşam. Təmir, tikinti işləri ilə özüm şəxsən tanış oluram. Deyə bilərəm ki, tikilən və təmir olunan bütün məktəblər ən yüksək səviyyədədir. Bu il Bakıda 30-a yaxın məktəb təmir olunub, tikilib, istifadəyə verilib. Ölkə üzrə isə bu il 178 məktəb təmir edilib və tikilibdir. Hər il bu proses uğurla gedir. Son 10 il ərzində Azərbaycanda 2900 məktəb tikilib və təmir edilib. Ümumiyyətlə isə ölkəmizdə 4500 məktəb vardır. Hələ ki təmirə

ehtiyacı olan məktəblər var, o cümlədən Bakıda. Ancaq onların sayı getdikcə azalır. Xəzər rayonunda isə cəmi 1 məktəb təmirsizdir. O məktəbin də təmiri nəzərdə tutulur və gələn dərs ilinədək Xəzər rayonunda bir dənə də təmirsiz məktəb olmayacaqdır.

Bu çox önəmli məsələdir. Çünki uşaqlar yaxşı məktəblərdə oxumalıdırlar, müəllimlər yaxşı məktəblərdə dərs deməlidirlər. Müəllimlərin də iş şəraiti yaxşı olmalıdır. Belə məktəblərin tikintisi, əlbəttə ki, dövlətimizin gücünü göstərir. Bu gün inkişafda olan Azərbaycan təhsil sahəsinə çox böyük diqqət ayırır. Dövlət siyasəti aparılır. İlk növbədə, təhsil sisteminin maddi-texniki bazası möhkəm olmalıdır. Belə gözəl məktəblər inanmıram ki, hansısa başqa bir ölkədə tikilsin. Xüsusilə indiki zamanda ki, bəzi ölkələrdə böhran yaşanır, iqtisadi çətinliklər var.

Azərbaycanda isə sosial sferaya, təhsil sahəsinə diqqət daim yüksək səviyyədədir. Bizim əsas istəyimiz odur ki, təhsilin keyfiyyəti artsın. Burada, əlbəttə ki, aparılan islahatların böyük rolu var. Bu islahatlar aparılır. Əminəm ki, yaxın gələcəkdə artıq gözəl nəticələr də olacaqdır. Eyni zamanda, təhsil prosesinin keyfiyyəti çox önəmlidir. Müəllimlərin hazırlığı burada xüsusi yer tutur. Əlbəttə ki, uşaqlar da yaxşı oxumalıdırlar. Uşaqlar başa düşməlidirlər ki, onların gələcəyi özlərinin əlindədir.

Bu gün bizim gözəl ölkəmizdə – sürətlə inkişaf edən ölkədə hər bir vətəndaş üçün bütün imkanlar var. Çünki ölkəmizin dinamik inkişafı, yeni iş yerlərinin, yeni istehsalat sahələrinin açılması, əlbəttə ki, hər kəs üçün imkan yaradır. O insanlar ki böyük biliklərə malikdirlər, onlar həyatda öz layiqli yerini tuta bilərlər. Ona görə yaxşı oxumaq həm ölkənin gələcəyinə verilən töhfədir, eyni zamanda, hər bir insan üçün önəmlidir. Yaxşı bilikli insan həyatda yaxşı iş də tapa, yaxşı dolanışıq da qura bilər, həm də öz ölkəsinə, xalqına daha da böyük xidmət göstərmiş olar.

Ona görə uşaqlar da bunu dərk etməli və bilməlidirlər ki, onların gələcəyi özlərinin əlindədir. Müəllimlər isə, əlbəttə ki, uşaqlara yaxşı tərbiyə verməlidirlər. Uşaqlar eyni zamanda, vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar. Bizim gənclərimiz müstəqillik illərində formalaşır. Müstəqilliyin üstünlüklərini hər bir insan görür. Ancaq müstəqil olan zaman Azərbaycan xalqı, dövlətimiz sürətlə inkişaf edir. Müstəqillik bizim ən böyük xoşbəxtliyimizdir, ən böyük sərvətimizdir.

Əlbəttə ki, ölkəmizin uğurlu gələcəyi cəmiyyətin intellektual potensialından asılıdır. Çünki inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər saldıqda görürük ki, məhz o ölkələrdə ki, təhsilə, elmə, texniki tərəqqiyə diqqət verilir, o ölkələr inkişaf edir. Bizim üstünlüyümüz ondan ibarətdir ki, Azərbaycanın zəngin təbii resursları, artıq şaxələndirilmiş iqtisadiyyatı, düşünülmüş dövlət siyasəti var. Dövlət siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Sosial sahəyə çox böyük diqqət göstərilir.

Əlbəttə, Azərbaycanda elmə, təhsilə göstərilən diqqət mütləq öz nəticəsini verəcək. Bizdə savadlılıq yüksək səviyyədədir, savadsız insan yoxdur. Bu, böyük üstünlüyümüzdür. Ancaq bu gün yeni texnologiyalar tətbiq olunur. Uşaqlar da bunu bilməlidirlər. Elmin, təhsilin inkişafı ölkəmizin dayanıqlı inkişafını təmin edəcək. Bizim güclü iqtisadiyyatımız, güclü siyasi iradəmiz və bu gün dövlətimizin inkişafında öz rolunu oynayan gözəl gənclərimiz var. Bizim gənclərimiz, dediyim kimi, vətənpərvər olmalıdırlar və milli ruhda tərbiyə almalıdırlar.

Bu gün dünyada qloballaşma prosesi gedir. Bunun həm mənfi, həm müsbət tərəfi vardır. Mən çox istəyirəm ki, uşaqlarımız məhz milli ruhda böyüsünlər, Vətənə, xalqa bağlı olsunlar. Öz milli ənənələrinə sadiq və dəyərli vətəndaş olsunlar. Əlbəttə ki, buna nail olmaq üçün ailələrdə və məktəblərdə tərbiyə düzgün aparılmalıdır. Belə gözəl məktəbin özü artıq bir tərbiyə üsuludur. Çünki burada oxuyan uşaq bu gözəlliyi, təmizliyi görəcək, uşaqlıq yaşlarından buna öyrəşəcək və gələcəkdə də öz həyatında bu prinsipləri rəhbər tutacaq.

Bir daha demək istəyirəm ki, son 10 il ərzində 2900 məktəbin tikintisi, təmiri tarixi hadisədir. Bu məktəblərin əksəriyyəti keçən əsrin 30-cu, 40-cı, 50-ci, 70-ci illərində tikilib. Onların bir çoxu artıq bərbad, qəzalı vəziyyətdə idi. Əfsuslar olsun ki, hələ də bölgələrimizdə qəzalı vəziyyətdə məktəblər var. Amma onların sayı kəskin şəkildə aşağı düşür. Dövlətin gördüyü işlər, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında, o cümlədən Bakı və onun qəsəbələrinin inkişafına dair Dövlət Proqramında bütün məktəblərin təmiri, tikintisi nəzərdə tutulur. Proqrama görə 2016-cı ilə qədər Bakıda məktəblərin təmiri başa çatmalıdır. Amma hesab edirəm ki, artıq gələn il Bakıda bir dənə də olsun təmirsiz məktəb qalmayacaqdır.

Sizi bu məktəbin tikilməsi, açılışı və yeni dərs ilinin başlanması münasibətilə bir daha təbrik edirəm, sizə uğurlar arzulayıram.

Sağ olun.

**T ə v ə k k ü l  S ə l i m o v** *(Xəzər Rayon Ziyalılar Cəmiyyətinin sədri):* Möhtərəm cənab Prezidentimiz!

Hörmətli Mehriban xanım!

Sizi bütün rayonumuzun sakinləri və xüsusən də kəndimizin sakinləri adından salamlayır və Sizə dərin minnətdarlığımı bildirirəm.

Cənab Prezident, Sizin indi işlətdiyiniz söz artıq məktəbin girəcəyində sitat kimi, yazılıb. Belə yazılıb: «Mən istəyirəm ki, insanlarımız yaxşı yaşasın. Mən istəyirəm ki, şagirdlərimiz yaxşı məktəbdə oxusun. Mən istəyirəm ki, müəllimlərimiz yaxşı məktəbdə dərs desin».

Hörmətli Prezidentimiz, mən bir elm adamı, təhsillə məşğul olan bir adam kimi, hiss edirəm ki, ölkəmizin prioritet istiqaməti təhsilin inkişafına yönəlib. Bax, bu möhtəşəm bina bunun əyani təsdiqidir. Bir neçə gün bundan qabaq, cənab Prezident, buraya xarici ölkələrdən bir neçə turist gəlmişdi. Bakının hər yerindən, ətraf qəsəbələrindən buraya gəlirlər, bu məktəbə baxırlar. Turistlərin buraya gəlməsi bizi müəyyən mənada təəccübləndirdi və həm də sevindirdi. Sual verdilər bizə, bu məktəb sizindir? Bəli, sözün əsl mənasında, belə

möhtəşəmlik, bayaq Siz də qeyd etdiniz ki, xaricdə də az-az olur. Ona görə, cənab Prezident, Şağan qəsəbəsinin, rayonumuzun bütün sakinləri adından Sizə bir daha «Çox sağ olun!» – deyirik. Mehriban xanım, Sizə «Çox sağ olun!» – deyirik.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Şağan qəsəbəsində vaxtilə Olimpiya Kompleksi tikilmişdi. İndi də məktəb tikilib.

İndi həm qəsəbə sakinləri, rayon sakinləri, həm xarici qonaqlar da gəlib görürlər ki, Bakının qəsəbəsində belə möhtəşəm məktəb tikilib. Həm Bakının mərkəzində, həm qəsəbələrdə, eyni zamanda, ölkəmizin digər şəhər və rayonlarında da belə məktəblər tikilir. Heç bir fərq qoyulmur ki, böyük şəhərdə gözəl məktəb tikilməlidir, qəsəbədə, yaxud da ki, kənddə başqa cür. Yox! Hər yerdə şərait belə olmalıdır. Bundan yüksək səviyyə ola bilməz və yoxdur. İndi bəlkə də heç bir başqa ölkədə belə təşəbbüslər irəli sürülmür. Ancaq bizim bu gənc uşaqlarımız belə gözəl məktəbdə oxumalıdırlar, müəllimlər də yaxşı şəraitdə işləməlidirlər və yaxşı nəticə olmalıdır.

Xəzər rayonunun da inkişafı gedir. Mehriban xanım da artıq neçə ildir ki, rayonun deputatı kimi fəal işləyir.

**S a k i n l ə r:** Sağ olun, çox sağ olun!

## RUSİYA FEDERASİYASI HÖKUMƏTİ SƏDRİNİN MÜAVİNİ DMİTRİ ROQOZİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Rusiya Federasiyası Hökuməti sədrinin müavini, Rusiya–Azərbaycan hökumətlərarası komissiyanın həmsədri Dmitri Roqozinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün sahələrdə dinamik şəkildə uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı Rusiya–Azərbaycan hökumətlərarası komissiyanın gündəliyində duran məsələlərin geniş şəkildə nəzərdən keçirilməsinin önəmini qeyd etdi. Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə Soçidə görüşünü məmnunluqla xatırladan prezident İlham Əliyev həmin görüşdə ikitərəfli münasibətlərimizin inkişafı ilə bağlı səmərəli müzakirələr aparıldığını vurğuladı. Hazırkı dövrdə ticarət dövriyyəsinin artırılması, o cümlədən iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu deyən dövlətimizin başçısı Dmitri Roqozinin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin yaxşı nəticələr verəcəyinə əminliyini ifadə etdi.*

*Böyük nümayəndə heyəti ilə Azərbaycana səfərə gəldiyini diqqətə çatdıran Dmitri Roqozin komissiyanın bugünkü iclasında dövlət başçılarının Soçi görüşündə qarşıya qoyduqları vəzifələrin, o cümlədən enerji sahəsində əməkdaşlığın genişləndirilməsi ilə bağlı yüksək səviyyəli işçi qrupunun yaradılması və əməkdaşlığımızın digər sahələri ilə əlaqədar məsələlərin ətraflı müzakirə olunacağını dedi.*

## BÖYÜK BRİTANİYANIN SABİQ MÜDAFİƏ NAZİRİ, PARLAMENTİN ÜZVÜ LİAM FOKS İLƏ GÖRÜŞ

*15 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Böyük Britaniyanın sabiq Müdafiə naziri, parlamentin üzvü Liam Foksu qəbul etmişdir.*

*Görüşdə Liam Foks bildirdi ki, coğrafi və geosiyasi baxımdan əlverişli ölkə olan Azərbaycanın getdikcə əhəmiyyəti daha da artır. O, müəllifi olduğu kitabı dövlətimizin başçısına təqdim etdi.*

*Ölkəmizin siyasi və iqtisadi baxımdan uğurla inkişaf etdiyini diqqətə çatdıran prezident İlham Əliyev Azərbaycanın mövqeyinin daha da möhkəmləndiyini məmnunluqla vurğuladı.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafı, beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ALMANİYA BUNDESTAQININ FRAKSİYA SƏDRİNİN MÜAVİNİ ANDREAS ŞOKENHOF İLƏ GÖRÜŞ

*16 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 16-da Almaniya Bundestaqının Xristian-Demokrat İttifaqı/Xristian-Sosialist İttifaqı fraksiyasının sədr müavini, deputat Andreas Şokenhofu qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına, Azərbaycan ilə Avropa İttifaqının əməkdaşlığına dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**MALTA RESPUBLİKASININ PREZİDENTİ XANIM MARİ-LUİZ KOLEYRO PREKAYA**

Hörmətli xanım Prezident!

Malta Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Malta arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Malta xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *17 sentyabr 2014-cü il*

**MALİ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İBRAHİM BUBAKAR KEYTAYA**

Hörmətli cənab Prezident!

Mali Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Mali xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *18 sentyabr 2014-cü il*

# MONTENEQRO RESPUBLİKASININ BAŞ NAZİRİ MİLO CUKANOVİÇİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Monteneqronun Baş naziri Milo Cukanoviçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Əvvəlcə prezident İlham Əliyevin Baş nazir Milo Cukanoviçlə təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə edildi, əlaqələrimizin müxtəlif istiqamətlərdə, o cümlədən enerji, infrastruktur, bank sektoru, turizm, təhsil və digər sahələrdə inkişafı üçün yaxşı potensialın olduğu vurğulandı.*

*Sonra görüş geniş tərkibdə davam etdirildi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Monteneqro arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif sahələri əhatə etməsindən və dinamik inkişafından məmnunluğunu ifadə etdi. Əməkdaşlığımızın genişləndirilməsi məsələsinə toxunan prezident İlham Əliyev ölkələrimiz arasında qarşılıqlı ticarət əlaqələrinin inkişaf etdirilməsi üçün də yaxşı imkanların olduğunu vurğuladı. İkitərəfli münasibətlərin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd edən dövlətimizin başçısı Monteneqronun Baş naziri Milo Cukanoviçin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin əlaqələrimizin inkişafı ilə bağlı məsələlərin müzakirəsi baxımından əhəmiyyətini diqqətə çatdırdı.*

*Baş nazir Milo Cukanoviç Azərbaycan Prezidentinin Monteneqroya olan dostluq münasibətinə görə minnətdarlığını bildirdi.*

*Ötən dövr ərzində ölkəmizdə gedən sürətli inkişaf proseslərinin şahidi olduğunu vurğulayan Baş nazir bu inkişafın onda dərin təəssürat yaratdığını dedi və əldə olunan nailiyyətlər münasibətilə dövlətimizin başçısını təbrik etdi. Milo Cukanoviç öz növbəsində, Azərbaycan ilə Monteneqro arasında ikitərəfli münasibətlərin inkişafının razılıq doğurduğunu vurğuladı.*

## AVROPA OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ PATRİK HİKİ İLƏ GÖRÜŞ

*19 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının* Prezidenti *İlham Əliyev sentyabrın* 19-*da* Avropa Olimpiya *Komitəsinin* prezidenti Patrik Hikini *qəbul etmişdir.*

*Görüşdə* 2015-ci *ildə ilk dəfə Bakıda keçiriləcək I* Avropa *oyunlarına hazırlıq işlərinin yüksək səviyyədə* getdiyi *məm-*nunluqla qeyd olundu, *Azərbaycanda idmanın bütün növlərinin inkişafına göstərilən dövlət qayğısının önəmi vurğulandı,* idman *sahəsində beynəlxalq əməkdaşlıq məsələləri ilə bağlı* fikir *mübadiləsi aparıldı.*

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ƏHMƏD DAVUDOĞLUNUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*19 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da ölkəmizə rəsmi səfərə gəlmiş Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlu ilə təkbətək görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurlu inkişafı məmnunluqla vurğulandı. Əlaqələrimizin bundan sonra da yüksələn xətlə inkişaf edəcəyinə əminlik ifadə olundu. Qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ƏHMƏD DAVUDOĞLU İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*19 sentyabr 2014-cü il*

*Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlu mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Baş nazir, əziz qardaşım!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Hörmətli cənab Baş nazir, Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Türkiyənin Baş naziri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi bir daha ürəkdən təbrik edirəm. Əminəm ki, Siz bu məsul vəzifədə fəal işləyəcəksiniz, həm Türkiyə, həm də Türkiyə–Azərbaycan əlaqələrinin inkişafı üçün böyük işlər görəcəksiniz.

Bu gün biz təkbətək görüşdə ikitərəfli əlaqələrimizin müxtəlif istiqamətlərini müzakirə etdik. Bir daha əmin olduq ki, Türkiyə–Azərbaycan əlaqələri ən yüksək zirvədə, ən yüksək səviyyədədir. Bu belə də olmalıdır. Çünki bizim xalqlarımız qardaş xalqlardır. Biz əsrlərboyu bir-birimizin yanında olmuşuq və bu gün iki müstəqil dövlət kimi, əlbəttə ki, öz gələcəyimizi birgə qururuq.

Bizim siyasi əlaqələrimiz gündən-günə inkişaf edir. Bu ayın əvvəlində hörmətli prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycanda rəsmi səfərdə idi. İndi hörmətli Baş nazir rəsmi

səfərdədir. Mən də seçkilərdən sonra ilk rəsmi səfərimi Türkiyəyə etmişəm. Bu əslində əlaqələrimizin səviyyəsini əyani şəkildə göstərir.

Bu gün biz iqtisadi sahədə də uğurla əməkdaşlıq edirik. Sərmayə qoyuluşu baxımından Türkiyə və Azərbaycan burada qarşılıqlı sərmayə yatırmaqla həm öz maraqlarını təmin edir, həm də bir-birimizi daha da gücləndiririk. Azərbaycandan Türkiyəyə qoyulacaq sərmayələrin həcmi təxminən 20 milyard dollara yaxındır. Eyni zamanda, Türkiyədən də Azərbaycana sərmayələr qoyulur. Biz çox böyük məmnuniyyət hissi ilə Türkiyənin «Şahdəniz»dəki və TANAP-dakı payının artırılmasını qəbul edirik. Burada artıq türk şirkətləri daha da böyük paya malik olacaqdır. TANAP layihəsi Türkiyə–Azərbaycan layihəsidir. Bu layihəyə cəmi 2 il bundan əvvəl start verildi və bu gün artıq bu layihə reallaşır.

Təbii ki, enerji sahəsində əlaqələrimiz nəinki iki ölkə, bölgə, dünya üçün də böyük önəm daşıyır. Sabah Azərbaycanda böyük bir mərasim keçiriləcək – «Cənub Qaz Dəhlizi»nin tikintisi sabah başlayır. 20 sentyabr bizim üçün tarixi bir gündür. Çünki 20 il bundan öncə məhz sentyabrın 20-də «Əsrin kontraktı» imzalanmışdır. 20 ildən sonra biz artıq XXI əsrin layihəsinə start veririk. Əlbəttə, bu layihənin uğurla həyata keçirilməsində Türkiyə və Azərbaycan tərəfinin rolu xüsusi əhəmiyyət daşıyır.

Enerji sahəsində digər layihələr də icra edilir. Əminəm ki, Trans–Anadolu, Trans–Adriatik və «Şahdəniz-2» layihələrinin uğurlu icrası nəticəsində bölgədə əməkdaşlıq üçün yeni şərait yaradılacaq. Bu layihələr həm iqtisadi, həm siyasi maraqlarımızı təmin edəcək və burada iştirak edəcək ölkələrin sayı kifayət qədər çoxdur. Beləliklə, Türkiyə və Azərbaycan bu layihələrin təşəbbüskarları kimi, geniş beynəlxalq əməkdaşlığa da öz töhfəsini verəcəkdir.

Şübhəsiz ki, bu gün biz hörmətli Baş nazirlə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yollarını müzakirə etdik. Mən hörmətli Baş naziri son vəziyyətlə tanış etdim. Əfsuslar olsun ki, bu münaqişə Ermənistanın qeyri-

konstruktiv mövqeyinə görə öz həllini tapmır. Ölkəmizin beynəlxalq birlik tərəfindən tanınan əraziləri işğal altındadır. Bu münaqişənin postsovet məkanındakı digər münaqişələrdən fərqi ondadır ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var. Təhlükəsizlik Şurası dünyanın ən mötəbər beynəlxalq qurumudur və bu qurum 4 qətnamə qəbul etmişdir. Ermənistan tərəfi sadəcə olaraq, buna məhəl qoymur və onları icra etmir. Torpaqlarımızın 20 faizi işğal altındadır. Bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır. 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın, köçkün vəziyyətinə düşmüşdür. Əfsuslar olsun ki, vasitəçilərin fəaliyyəti heç bir nəticə vermir və beynəlxalq hüquq Ermənistan tərəfindən kobudcasına pozulur. Dediyim kimi, münaqişənin həlli ilə bağlı beynəlxalq təşkilatların qərar və qətnamələri vardır. Bu münaqişə məhz bu qərar və qətnamələr əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Əminəm ki, gün gələcək və Azərbaycan öz ərazi bütövlüyünü tam şəkildə bərpa edəcəkdir.

Fürsət düşmüşkən, Türkiyə hökumətinə, dövlətinə həmişə bizim yanımızda olduğuna görə minnətdarlığımı bildirmək istəyirəm. Türkiyə həmişə ədalətli mövqe nümayiş etdirmişdir – beynəlxalq hüququn norma və prinsiplərinə uyğun bir mövqe. Əlbəttə ki, münaqişənin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həlli gələcəkdə bölgəyə sülh, barış, genişmiqyaslı əməkdaşlıq gətirəcək. Bu gün bu əməkdaşlıq var. Ancaq Ermənistan öz işğalçılıq siyasətinə görə bütün bu əməkdaşlıq layihələrindən təcrid edilib. Bu gün Bakı–Tbilisi–Qars dəmir yolu, Bakı–Tbilisi–Ceyhan neft kəməri, «Cənubi Qafqaz» qaz kəməri, digər təşəbbüslər Ermənistanın iştirakı olmadan həyata keçirilir. Əgər Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həllini taparsa, bölgədə geniş əməkdaşlıq üçün daha da gözəl imkanlar yaranacaqdır. Hər halda, biz öz prinsipial mövqemizdən əl çəkməyəcəyik və var gücümüzlə çalışacağıq ki, münaqişə tezliklə həllini tapsın.

Burada digər məsələlər də müzakirə edildi. Biz bir daha əmin oluruq ki, Türkiyə–Azərbaycan əlaqələri dostluq, qar-

daşlıq, müttəfiqlik əlaqələridir. Bu əlaqələrin gələcəkdə də inkişafı üçün hər iki tərəf fəal çalışacaqdır.

Hörmətli cənab Baş nazir, bir daha xoş gəlmisiniz!

## Türkiyənin Baş naziri Əhməd Davudoğlunun bəyanatı

Hörmətli Prezident, dəyərli dostum!

Yenidən öz Vətənimdə, evimdə olmaqdan böyük məmnunluq duyuram. Biz hansı mövqedə olsaq da, hansı vəzifəni təmsil etsək də bu vəzifələri yerinə yetirərkən Türkiyə ilə Azərbaycan arasında hər hansı fərq qoymuruq. Bizim üçün Türkiyəyə xidmət Azərbaycana xidmətdir, Azərbaycana xidmət etmək Türkiyəyə xidmət etməkdir.

Mən bundan əvvəl Xarici İşlər naziri, indi isə Baş nazir olaraq həmişə Azərbaycanı öz Vətənim bildim və indi də, qarşıdakı dövrdə də – dəyərli dostum hörmətli İlham Əliyevlə təkbətək görüşdə vurğuladığım kimi – bundan sonra da həmişə Türkiyə üçün çalışdığımız qədər Azərbaycan üçün də çalışacağıq. Bizim olduğumuz yerdə Azərbaycan vardır, hörmətli İlham Əliyevin olduğu yerdə də Türkiyə vardır. Bunu olmadığımız yerlərdə bir-birimizi necə müdafiə etdiyimizi dünya bilir. Azərbaycan bizim üçün bir eşqdir, sevdadır, məhəbbətdir. Bu mənəvi bağlılığı Baş nazir kimi, inkişaf etdirmək, dərinləşdirmək mənim boynuma düşən borcdur. Bu hisslərlə 77 milyon qardaşından hörmətli Əliyevə, dəyərli dostumuza salam gətirdim.

Türkiyədə və Azərbaycanda gözəl bir ənənə vardır. İlk səfərlər qarşılıqlı olaraq həyata keçirilir. Bu ənənəni davam etdirmək də mənim üçün bu gün bir fəxrdir.

Bundan başqa, Türkiyə ilə Azərbaycanın ikitərəfli əlaqələrində qeyri-adi bir inkişaf əldə etdik. Son 10-12 il ərzində bir çox layihə həyata keçirdik. Ətraf bölgələrə baxarkən, hətta dünyaya baxarkən, əgər Yaxın Şərqdə, Balkanda, Qafqazda, bütün Avrasiyada 2 uğur hekayəsindən söhbət açılsa, Türkiyə və Azərbaycan 2 uğur hekayəsidir. Çiyin-çiyinə yeriyən 2 qardaşın uğur hekayəsidir. Bir

çox yerdə qeyri-sabitlik, daxili münaqişələr olduğu, təəssüf ki, çox ciddi iqtisadi böhranlar yaşandığı halda, son 10-12 il ərzində Türkiyə və Azərbaycan böyük bir inkişaf əldə etdilər, iqtisadi baxımdan nəhəng layihələrə imza atdılar.

Biz hər zaman bunu düşündük. Cənab Prezidentlə, hörmətli dostumla bir qədər əvvəl də bunu çox ətraflı olaraq müzakirə etdik ki, əgər Türkiyə müvəffəqiyyət qazanırsa, Azərbaycanın uğurları, Azərbaycan uğur qazanırsa Türkiyənin nailiyyətləri güclənir.

İndi maraqlandığımız layihələrə baxarkən görürük ki, bu layihələr sadəcə, Türkiyə ilə Azərbaycana deyil, bütün ətraf bölgələrə sülh gətirən layihələrdir. Bakı–Tbilisi–Ceyhanla Qafqazı Aralıq dənizinə bağladıq. Bakı–Tbilisi–Ərzurumla Qafqazı Anadoluya bağladıq. Bakı–Tbilisi–Qars – bu dəfə dəmir yolu ilə bağladıq. Mərmərə də açılınca bütün bu xətlərlə Pekini Londona bağlayacağıq. İndi TANAP layihəsi və həqiqətən, sabah bu mərasimə qatılmaqdan böyük fəxr duyduğum «Cənub Qaz Dəhlizi» ilə Qafqazı Anadolu üzərindən Balkana bağlayacağıq.

Balkan və Qafqaz keçən əsrin 90-cı illərində daim gərginliklərlə, mənfi xəbərlərlə yadda qalmışdı. İndi Azərbaycan ilə Türkiyənin bu uğur hekayələri bu iki bölgəni sülh bölgələri olaraq bir-birinə bağlayacaq. Anadolu coğrafiyası Xəzər ilə Adriatik arasında bir keçid coğrafiyası olacaq.

Əgər Azərbaycanda bu qüdrət olmasa idi, Azərbaycanda Azərbaycan xalqının gələcəyini düşünən lider olmasa idi, Allah rəhmət etsin, öndərimiz Heydər Əliyevin də söylədiyi kimi, «Bir millət – iki dövlət» kəlamı ilə Azərbaycanın bu qüdrəti böyüməsə, Türkiyə qüdrətli olmasa idi, «Bir millət – iki dövlət» kəlamı kağız üzərində, hər zaman söhbətlərimizdə qalardı. Amma indi, sözün həqiqi mənasında, qüdrətli bir Azərbaycan qüdrətli bir Türkiyə ilə birləşdikdə, bütünləşdikdə, əl-ələ, çiyin-çiyinə verdikdə qazanan sadəcə, Türkiyə və Azərbaycan olmur, bütün Qafqaz, bütün Balkan, hətta Avropa və Asiya qazanır. O baxımdan bu layihə həqiqətən, əsrin layihəsidir. Sabah bu layihəyə töhfə vermək, bu layihənin təməlqoyma mərasimində, bundan sonrakı mərhələlərdə birgə olmaq bizə böyük fəxr verir. İnşallah, cənab Prezidentlə

gələn il martın 17–18-də Çanaqqala savaşının ildönümündə – bu günlər eyni zamanda, Qafqaz şəhidlərimizin də ildönümüdür, hamısını rəhmətlə anırıq – orada da TANAP-ın Anadolu hissəsinin təməlqoyma mərasimində birlikdə olacağıq. Beləliklə, böyük bir sülh layihəsi gerçəkləşəcək.

Bu səhər istər hörmətli Heydər Əliyevin mübarək məzarını, istərsə də Şəhidlər xiyabanını ziyarət edərkən Qarabağ, 20 Yanvar şəhidləri ilə Qafqaz şəhidlərini yan-yana gördüyümdə onlar necə çiyin-çiyinə, birlikdə müstəqil, azad, qürurlu bir Azərbaycan üçün bir yerdə olmuşdularsa, indi də bizlər sülh dönəmində sülhü gerçəkləşdirmək üçün bir aradayıq. Kaş ki bizim bu mövqemizi hər kəs anlaya biləydi. Kaş ki hər kəs bu mövqeyə qatıla biləydi.

Biz bu gün axşam da Yunanıstandan, Bolqarıstandan, Monteneqrodan gələn liderlərlə bir yerdə olacağıq. Bu gün və sabah. Balkan və Qafqaz belə bağlanacaq. Təəssüf ki, bəzi ölkələr hələ də bu əməkdaşlıq mühitini anlamırlar. Bir az əvvəl cənab Prezidentin – içəridə də danışdıq – burada da bildirdiyi kimi, Qarabağ problemi çözülmədikcə və Ermənistan qeyri-konstruktiv mövqeyini davam etdirdikcə, bu şəbəkə çərçivəsində bütün bu layihələrdən kənarda qalacaq. Halbuki Azərbaycanın ərazi bütövlüyünə hörmət göstərilsə bu çərçivədə sülh əldə olunsa, bundan digər ölkələr kimi, Ermənistan da faydalanar. Amma Türkiyə olaraq, Türkiyə Respublikasının Baş naziri olaraq, bir daha burada, Bakıda bütün Türkiyə xalqını da təmsil edərək söyləyirik ki, Azərbaycan torpaqlarının hər bir kvadratsantimetri azad olunanadək Türkiyə Azərbaycanın apardığı mübarizədə yanında olacaqdır. Bunu beynəlxalq hüquq belə söyləyir. Beynəlxalq hüququn tələbləri yerinə yetirilənə qədər Türkiyə ilə Azərbaycan bölgəni sülh bölgəsinə çevirmək üçün çiyin-çiyinə səy göstərəcəkdir. Azərbaycan əleyhinə ola biləcək hər cür mənfi münasibət Azərbaycanda olduğu qədər Türkiyədə də eyni etirazla qarşılanacaq. Bu baxımdan iyul ayında cəbhə xəttində şəhid olan qardaşlarımıza rəhmət diləyirəm. Onlar qürurlu Azərbaycan üçün şəhid oldular. Yaralananlara isə şəfa diləyirəm. Mən də bilavasitə

xəstəxanaya gedərək Türkiyəyə apardığımız qardaşlarımızı ziyarət etdim, onlarla qucaqlaşdım. O qazilərimizə də şəfalar diləyirəm.

Azərbaycanın ürəyinə düşən ən kiçik atəş Türkiyənin ürəyinə düşmüş deməkdir. Bunu bir daha buradan bəyan etmək istəyirəm. Bundan başqa, beynəlxalq aləmdə də, regional məsələlərdə də çox yaxın bir əməkdaşlıq şəraitində bir-birimizi dəstəkləməyə davam edəcəyik. Çox gözəl bir haldır ki, BMT Təhlükəsizlik Şurasında Azərbaycanın üzvlüyü bitəndən sonra, inşallah, qarşıdakı oktyabr ayında Türkiyə üzv seçilər və ay-ulduzlu bir bayraq başqa ay-ulduzlu bir bayraqla əvəzlənər. Biz Azərbaycanın şanlı bayrağının harada yüksəldiyini görsək qürur duyuruq, iftixar hissi keçiririk. Azərbaycanın beynəlxalq aləmdə qazandığı uğurları da öz uğurlarımız kimi görürük.

Bunu bir daha vurğulamaq istəyirəm ki, Azərbaycanın regional və beynəlxalq təşəbbüslərinin hamısına dəstək verməyə davam edəcəyik. Qarşıdakı dövrdə, inşallah, daha böyük uğurlara birlikdə imza atacağıq. Başlatdığımız hər layihə sona çatacaq. Sona çatdırdığımız hər bir layihə də yeni layihələrə yol açacaq. 5 milyard dollar məbləğindəki ticarət dövriyyəsini, inşallah, 2023-cü ildə 15 milyard dollara çatdırmaq hədəfini qətiyyətlə həyata keçirməkdə qərarlıyıq. Eyni qaydada, qarşılıqlı sərmayələrimizi də ən yüksək səviyyəyə çıxarmaq əzmindəyik. Bütün bu ortaq hissiyyat, ortaq iqtisadi və strateji məqsədlərdə də, enerji, nəqliyyat və müdafiə sənayesində də – müdafiə sənayesinin üzərində görüşümüzdə xüsusilə dayandıq, müdafiə sənayesi bizim üçün mühüm strateji bir sektordur – Türkiyə və Azərbaycan bir çox birgə layihələri həyata keçirməkdə qərarlıdır. Bu layihələrlə, inşallah, iki ölkənin bu ana qədər yazdığı uğur hekayəsi daha yüksək səviyyələrə çatacaq.

Mən bir daha öz Vətənimdə, ikinci demirəm, birinci evimdə olmaqdan, Azərbaycanda, Bakıda olmaqdan qürur duyuram. Türkiyə Respublikasının Baş naziri olaraq hər zaman Azərbaycanın və azərbaycanlı qardaşlarımın, can Azərbaycanın yanında olacağımızı bir daha ifadə etmək istəyirəm.

Qonaqpərvərliyiniz üçün də bir daha təşəkkür edirəm.

Sağ olun.

## BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ROSEN PLEVNELİEVİN AZƏRBAYCANA SƏFƏRİ

*19 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Azərbaycana səfərə gəlmiş Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevneliev ilə təkbətək görüşmüşdür.*

*Görüşdə ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. Azərbaycanda «Cənub Qaz Dəhlizi»nin təməlinin qoyulmasının beynəlxalq əməkdaşlıq baxımından əhəmiyyəti qeyd olundu. Ölkələrimiz arasında iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin mövcud olduğu bildirildi.*

*Söhbət zamanı ikitərəfli münasibətlər və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*19 sentyabr 2014-cü il*

*Təkbətək görüş başa çatdıqdan sonra sentyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevnelievin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İlham Əliyev:** Bu gün biz enerji sektoru ilə yanaşı, digər əməkdaşlıq sahələrini müzakirə etdik. Düşünürəm ki, burada həyata keçiriləcək investisiya qoyuluşu, müqavilələr, infrastruktur layihələri sahəsində geniş formatda əməkdaşlığın aparılması üçün yaxşı potensial mövcuddur. Ümidvaram ki, əməkdaşlıq məsələlərini müzakirə etmək üçün növbəti aylarda yeni nümayəndə heyətləri gələcək.

**Rosen Plevneliev**: Təşəkkür edirəm, cənab Prezident! Böyük tarixi əhəmiyyətə malik olan «Cənub Qaz Dəhlizi»nin təməlqoyma mərasimində iştirak etmək bizim üçün böyük şərəfdir. Bu bir çox Avropa ölkələrinin on illərlə arzuladığı bir xəyalın reallığa çevrilməsidir və bu məsələdə Sizin tarixi xidmətləriniz var.

Bolqarıstan Prezidenti kimi, Avropa İttifaqına üzv olan dövlət başçıları adından mən Azərbaycana Sizə təşəkkür etmək üçün gəlmişəm. Bu bizim hamımız üçün əlamətdar bir hadisədir. Azərbaycan bizim üçün öz baxışı, investisiya siyasəti ilə vacib ölkədir. Etibarlı dost və tərəfdaş ölkə kimi, biz həmişə Sizin yanınızdayıq və əməkdaşlıq etmək istəyirik.

## AZƏRBAYCAN–BOLQARISTAN BİRGƏ BƏYANNAMƏSİNİN İMZALANMASI MƏRASİMİ

*19 sentyabr 2014-cü il*

*Geniş tərkibdə görüş başa çatdıqdan sonra sentyabrın 19-da Azərbaycan–Bolqarıstan Birgə Bəyannaməsi imzalanmışdır.*

*Bəyannaməni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevneliev imzaladılar.*

# BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ROSEN PLEVNELİEV İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*19 sentyabr 2014-cü il*

*Azərbaycan–Bolqarıstan Birgə Bəyannaməsinin imzalanması mərasimi başa çatdıqdan sonra sentyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevneliev mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident, Azərbaycana xoş gəlmisiniz! Sizi ölkəmizdə görməyə şadıq. İnanıram ki, Sizin səfəriniz ölkələrimiz arasındakı münasibətlərin inkişafına əlavə təkan verəcəkdir.

Biz Bolqarıstan ilə əməkdaşlığın səviyyəsindən çox məmnunuq. Ölkəniz bizim üçün Avropada etibarlı tərəfdaşlardandır və aramızda yüksək səviyyəli əməkdaşlıq mövcuddur.

Biz az öncə əməkdaşlığımızın müxtəlif sahələrini əhatə edən Birgə Bəyannamə imzaladıq. Bu, ölkələrimiz arasında yüksək səviyyəli dialoqun və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin sübutudur.

Burada iqtisadiyyat, enerji, mədəniyyət sahələri əks olunub. Eyni zamanda, bizim üçün çox vacibdir ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsinin nizamlanması da qeyd olunur və münaqişənin yalnız beynəlxalq hüquq, yəni dövlətlərin ərazi bütövlüyü, suverenliyi və sərhədlərin toxunulmazlığı prinsipləri və BMT Təhlükəsizlik Şurasının müvafiq

qətnamələri əsasında həll edilməsinin vacibliyi vurğulanır. Biz Bolqarıstana ədalətə və beynəlxalq hüquqa əsaslanan mövqeyinə görə təşəkkürümüzü bildiririk.

Biz bu gün əməkdaşlığın bütün aspektlərini müzakirə etdik. İnanıram ki, müzakirə etdiyimiz bütün məsələlər icra olunacaqdır. Artıq bir çox işlər görülüb, ancaq hələ də görüləcək işlərimiz çoxdur. Ölkələrimiz arasında əməkdaşlıq ikitərəfli əlaqələrimizin əhəmiyyətli hissəsini təşkil edir.

Sabah biz bir yerdə tarixi tədbirdə iştirak edəcəyik. «Cənub Qaz Dəhlizi»nin təməlqoyma mərasimi təşkil olunacaqdır. Bu, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində yeni səhifə olacaq və Azərbaycana öz təbii sərvətlərini Avropa bazarlarına nəql etmək imkanı verəcəkdir.

Şadam ki, Bolqarıstan «Cənub Qaz Dəhlizi» layihəsinin iştirakçısıdır. Bu həm bizim üçün, həm də Avropa üçün vacib layihədir. Azərbaycan Bolqarıstana və gələcəkdə ölkənizin ərazisindən digər ölkələrə qaz nəql edə biləcək. Çünki ixtiyarımızda olan böyük həcmdə qaz ehtiyatımız hesabına biz qaz təchizatının coğrafiyasını genişləndirərək sizin qonşularınızı da əhatə edə biləcəyik.

Biz enerji təhlükəsizliyi məsələsində gələcək illərdə də fəal məsləhətləşmələr və əlaqələndirmə aparacağıq. Çünki sabahdan biz bir çox ölkələrin iştirakı ilə konkret işlərə başlayırıq. Burada əlaqələndirməyə və addımlarımızın lazımi şəkildə planlaşdırılmasına ehtiyac olacaqdır.

Biz «Cənub Qaz Dəhlizi» layihəsinin vaxtında və yüksək səmərəliliklə icra edilməsi məsələsinə sadiqik və şübhə etmirəm ki, bu məhz belə də olacaqdır. Eyni zamanda, biz enerji sahəsində digər layihələri də nəzərdən keçirə bilərik və onları da məhz bu gün müzakirə etdik.

Sərmayə imkanları, tikinti sahəsində fəaliyyət və üçtərəfli formatda müxtəlif əməkdaşlıq imkanları vardır. Bir sözlə, enerji sahəsindəki əməkdaşlığımız şirkətlərimiz üçün mühüm layihələrdə əlavə imkanlar yaradacaqdır.

Biz həmçinin qarşılıqlı sərmayə qoyuluşu məsələsini müzakirə etdik. Biz Bolqarıstandan Azərbaycana və Azərbaycandan Bolqarıstana sərmayə qoyuluşunu alqışlayırıq. Əminəm ki, bu da qarşılıqlı fəaliyyətimizə əlavə təkan verəcəkdir. Bundan əlavə, mən cənab Prezident vasitəsilə Bolqarıstan şirkətlərini Azərbaycana dəvət etdim. Burada müxtəlif infrastruktur layihələrinə də sərmayə yatırıla bilər, həm də bolqar şirkətləri ölkəmizdə podratçı kimi çalışa bilərlər.

Bir sözlə, siyasi əlaqələrimizin yüksək səviyyəsi və olduqca mehriban dostluq münasibətlərimiz işgüzar dairələr üçün əməkdaşlığın artırılmasına gözəl imkanlar yaradır.

Cənab Prezident, bu tarixi vaxtda bizimlə olduğunuza görə Sizə bir daha minnətdarlığımı bildirirəm. Sabah biz Azərbaycanın enerji sahəsinin inkişafı üçün müstəsna əhəmiyyətə malik hadisəni qeyd edəcəyik. Sizi bir daha salamlayıram və inanıram ki, əməkdaşlığımız bundan sonra da davam edəcəkdir.

## Bolqarıstan prezidenti Rosen Plevnelievin bəyanatı

Cənab Prezident, əziz dostum!

Biz bu tarixi layihənin tərkib hissəsi olmaqdan çox şadıq. Bu, təkcə region üçün deyil, həm də Avropa və dünya üçün mühüm bir layihədir. Çünki hər bir ölkənin hüququ var ki, bir təminatçıdan asılı olmasın. Bu təminatın şaxələndirilməsi bu gün bir çox ölkələrin gündəliyində durur və imkan verir ki, ölkələr alternativ şəkildə inkişaf etsin. Alternativ qaz mənbələrinin təmin edilməsi bir çox ölkələr üçün strateji əhəmiyyət daşıyır və Sizin töhfəniz sayəsində enerji sahəsində təhlükəsizlik məsələsi də güclənmiş olacaq.

Biz «Cənub Qaz Dəhlizi» layihəsini ilk gündən dəstəkləmişik. İlkin mərhələlərdə bir çox işlər görülmüşdür. Sizə təşəkkür etmək istərdim ki, Siz yalnız gələcəyə baxışa malik olan dövlət başçısı deyilsiniz. Siz eyni zamanda, layihənin üzərində şəxsən duraraq onun gündəlik icra edilməsi prosesinə nəzarət etmisiniz və artıq bu

gözəl fəaliyyətin nəticəsinin şahidi olacağıq. Bu, yalnız siyasi bir tədbir olmayacaq. Biz artıq layihənin təməlini qoyuruq. Strateji əhəmiyyətə malik bu layihə Avropa üçün ən iri infrastruktur layihəsi olacaq. Bu, enerji təhlükəsizliyi baxımından da çox mühüm bir tədbir olacaq. Zənnimcə, Azərbaycanın simasında Avropa tərəfdaşları çox etibarlı dost qazanıblar.

Mən bu gün yalnız Bolqarıstan Prezidenti deyil, eyni zamanda, Avropa İttifaqına daxil olan dövlət başçısı kimi danışıram. Azərbaycan dost və tərəfdaş ölkədir və inanıram ki, biz yalnız enerji sahəsində deyil – burada hər şey aydındır – digər sahələrdə də birlikdə çalışacağıq. «Cənub Qaz Dəhlizi»nə sərmayə qoyulacaq. Türkiyə Yunanıstan ərazisindən keçən birləşdirici layihələrdə iştirak edəcək. Biz Makedoniyada iş görürük, Serbiyada tikinti başlanılacaq. Bununla da biz regional qovşaq rolunu oynamağa hazırıq və Azərbaycanın sərmayəsini ölkəmizdə görməkdən çox şad olardıq. Biz cənab Prezidentlə bunu müzakirə etdik. Bir sıra memorandumlar imzalanacaq ki, bu, əziz dostlar, bizim əməkdaşlığımıza xidmət edəcəkdir.

Bizim ölkələrimiz arasında dostluq və etibarlı tərəfdaşlıq münasibətləri var. Bu zənnimcə, digər ölkələr üçün də nümunəvi tərəfdaşlıq ola bilər. Biz sülh şəraitində inkişafın, iqtisadiyyatın şaxələndirilməsinin tərəfdarıyıq və inteqrasiyanı dəstəkləyən ölkəyik. Biz yalnız boru kəmərlərini müzakirə etmirik. Biz digər layihələri – dəmir yolu, dəniz limanları və digər strateji infrastruktur layihələrini müzakirə etdik. Hər iki ölkənin strateji-coğrafi yerləşməsi vardır. Avropanı Çinə qədər, Çini Londona və Avropanı Asiyaya birləşdirəcək yerləşməmiz vardır. Birgə əməkdaşlıq nəticəsində Bolqarıstan, Türkiyə, Gürcüstan, Azərbaycan həqiqətən də sözün əsl mənasında, dünya ticarətinin 70 faizinə xidmət edən bir qovşaq ola bilər.

Bizim bir sıra yeni layihələrimiz var. Amma bu həqiqətən də dostlar arasında olan münasibətdir. Biz gələcək layihələri müzakirə etdik. Biz çox şadıq ki, sabah çox önəmli bir tədbirdə iştirak edəcəyik. Amma biz burada yalnız qonaqpərvərlikdən həzz almağa gəlməmişik. Bu, 20 il ərzində, cənab Prezident, Sizin gələcəyə

baxışınız nəticəsində ərsəyə gəlmiş bir layihədir və digər yeni layihələr artıq masa üzərindədir. Dəmir yolu, qaz, elektrik təchizatı baxımından Bolqarıstan investorları bu layihələrdə çalışmağa hazırdırlar. Ölkənizdə münbit biznes ab-havası var, xüsusilə əczaçılıq, istehlak elektronikasının istehsalında. Digər tərəfdən də müdafiə sənayesi məsələsində bir çox layihələrdə ola bilər ki, biz yaxından əməkdaşlıq edək. Mən çox şadam ki, təkcə prezidentlər arasında deyil, xalqlarımız arasında da dostluq mövcuddur. Çünki Azərbaycan və Bolqarıstan xalqları bir araya gəldikdə, biz xalqlarımızın iradəsinə əsasən hərəkət edirik. Biz yaxınlaşmalıyıq, əməkdaşlığımızı genişləndirməliyik. Bu səbəbdən də, cənab Prezident, dəstəyinizə görə Sizə təşəkkür edirəm.

## YUNANISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ ANTONİS SAMARASIN AZƏRBAYCANA SƏFƏRİ

*19 sentyabr 2014-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Azərbaycana səfərə gəlmiş Yunanıstan Respublikasının Baş naziri Antonis Samaras ilə təkbətək görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyi bildirildi, «Cənub Qaz Dəhlizi»nin reallaşmasının əhəmiyyəti vurğulandı. Qeyd edildi ki, Azərbaycan ilə Yunanıstan arasında əməkdaşlıq əlaqələrinin böyük perspektivi var.*

*Söhbət zamanı ikitərəfli münasibətlər, beynəlxalq və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*19 sentyabr 2014-cü il*

*Təkbətək görüş başa çatdıqdan sonra sentyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Yunanıstan Respublikasının Baş naziri Antonis Samarasın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Görüşdə ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə edildi. Enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə olundu, «Cənub Qaz Dəhlizi»nin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

## İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Əlahəzrət!

Əziz qardaşım!

Səudiyyə Ərəbistanının milli bayramı – Krallıq Elan Edilməsi Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən böyük məmnunluq duyuram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Səudiyyə Ərəbistanının qardaş xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 sentyabr 2014-cü il*

# QEYDLƏR

**1. Böyük Britaniya,** Böyük Britaniya və Şimal-i İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 5, 165, 252–257.

**2. Devid Kemeron** (d.1966) – Böyük Britaniya siyasətçisi. Mühafizəkarlar Partiyasının lideri. 2010–2016-cı illərdə Böyük Britaniyanın Baş naziri olmuşdur. – 5, 253, 254.

**3. İtaliya,** İtaliya Respublikası – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 6–21.

**4. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən başlayaraq muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxarıb Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də er-

məni silahlı qüvvələrinin işğalı altındadır. – 9, 11, 76, 104, 105, 112, 116, 117, 122, 123, 124, 130, 131, 133 – 134, 196, 200, 201, 203, 210, 244, 246, 254, 256, 257, 266, 299, 330, 339.

**5. Nizami Gəncəvi,** İlyas Yusif oğlu (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri, ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 7.

**6. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 7, 13, 33, 68, 155, 161, 168, 169, 170, 191, 199, 204, 275, 306.

**7. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Aİ-yə 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan

hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ-nin üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 9, 11, 16, 76, 266, 322, 337, 342.

**8. Ciorcio Napolitano** (d.1925) – İtaliyanın siyasi xadimi. 2006–2015-ci illərdə İtaliya Respublikasının Prezidenti olmuşdur. – 9–10.

**9. Rusiya,** R u s i y a   F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon $km^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 22, 129–135, 289, 320.

**10. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 22, 130 –135, 320.

**11. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik

okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 325,8 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 28, 96, 132, 151, 257.

**12. Riçard Morninqstar** (d.1945) – ABŞ Dövlət katibinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi (2009–2012), ABŞ-ın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur (2012–2014). – 28, 96, 132, 151, 257.

**13. Belçika,** B e l ç i k a  K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 11,2 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüssel şəhəridir. – 30.

**14. Filipp** (d.1960) – 2013-cü ildən Belçika kralı. Kral II Albertin böyük oğlu. – 30.

**15. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** A l l a h - ş ü k ü r  H ü m m ə t  o ğ l u (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 31–35.

**16. Mehriban Əliyeva,** M e h r i b a n  A r i f  q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitu-

tunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 33, 35, 68, 155, 156, 161, 162, 163, 164, 165, 168, 169, 170, 187, 188, 192, 199, 200, 305, 306, 307, 311, 318, 319.

**17. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və

hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 33.

**18. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 33, 34, 35, 39, 48, 53, 60, 62, 67, 68, 69, 92, 117, 118, 119, 126, 156, 163, 190, 195, 200, 201, 212, 230, 308.

**19. Zərifə xanım Əliyeva,** Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksəkixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək

elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 31.

**20. Leyla Əliyeva,** L e y l a  İ l h a m  q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 33, 68.

**21. Təzəpir məscidi** – Azərbaycan memarlıq abidəsi. 1905–14-cü illərdə tikilmişdir (memarı Zivərbəy Əhmədbəyov). Kvadratplanlı Təzəpir məscidinin baş fasadındakı üçtağlı eyvan, cinahlarındakı minarələr və günbəz aydın və dəbdəbəli memarlıq kompozisiyası əmələ gətirir. Məscidin böyük ibadət zalı günbəzlə örtülmüşdür. İbadət zalının quruluşu yerli memarlıq konstruksiyaları ilə işlənmiş, günbəzi saxlayan çatmatağ formalarından istifadə olunmuşdur. Təzəpir Bakı–Abşeron dini tikililəri arasında xüsusi yer tutur. – 34.

**22. İmamzadə piri,** İ m a m z a d ə  t ü r b ə s i, G ö y  i m a m – Gəncədə orta əsrlərə aid memarlıq abidəsi. Üzərindəki kitabənin imam Məhəmməd Bağırın oğlu İbrahimin (? – 739) qəbri üstündə tikildiyi və general-leytenant İsrafil bəy Yadigarzadənin təşəbbüsü ilə bərpa edildiyi (1878–79) göstərilir. İmamzadə türbəsinin tikildiyi tarix dəqiq müəyyən edilməmişdir. Memarlıq quruluşuna görə türbənin XIV əsrin sonu – XV əsrin əvvəllərində, ətrafındakı kompleksin isə XVII əsrdə tikildiyi ehtimal olunur. Türbənin hündürlüyü 12 metr, günbəzin hündürlüyü 2,7 metr, diametri 4,4 metrdir. Günbəzə mavi

kaşıdan üzlük çəkilmişdir («Göy imam» adı da bununla əlaqədardır). – 34.

**23. Bibiheybət məscidi** – Bakının Şıx kəndində türbə. Rəvayətə görə, türbədə şiələrin yeddinci imamı Museyi Kazımın qızı Hökumə və onun Heybət adlı nökəri dəfn olunmuşdur. «Bibiheybət» adının da buradan yarandığı güman edilir. Başqa rəvayətə görə, səkkizinci imam Rzanın qızı və bacısı Bakı yaxınlığında məskən salmış, burada da vəfat etmişlər. Onların dəfn olunduğu yerdə türbə, onun yanında isə 20 metrlik minarəsi olan məscid tikilmişdi. Məscidin XIII əsrin sonunda tikildiyi ehtimal edilir. Məscid sovetlər vaxtında yerlə yeksan edilmişdi. Respublikamız müstəqillik qazandıqdan sonra prezident Heydər Əliyevin təşəbbüsü ilə yenidən tikilmişdir. – 34.

**24. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 59, 99, 138, 179, 224 – 232, 342.

**25. Cəfər Cabbarlı,** C ə f ə r Q a f a r o ğ l u (1899–1934) – böyük Azərbaycan yazıçısı, dramaturq. Cabbarlı yaradıcılığı Azərbaycan ədəbiyyatının inkişafına böyük təsir göstərmiş, istedadlı dramaturqlar nəslinin yetişməsində mühüm rol oynamışdır. C.Cabbarlının zəngin irsi Azərbaycan ədəbiyyatı tarixində layiqli yer tutur. – 70 – 71.

**26. Maldiv,** M a l d i v R e s p u b l i k a s ı – Cənubi Asiyada Maldiv adalarında dövlət. Sahəsi 298 km$^2$, əhalisi 402 min nəfərdir.

Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Şurasıdır. Paytaxtı Male şəhəridir. – 75.

**27. Abdullah Qəyyum** (d.1959) – 2013-cü ildən Maldiv Respublikasının Prezidentidir. – 75.

**28. Ramazan bayramı –** müsəlman aləmində orucluq bitəndən sonra keçirilən bayram. Qurani-Kərim oruc tutmağı islamın vacib əməllərindən biri hesab etmiş və insanlarda yol verilmiş xataların oruc tutmaqla bağışlanmasını təsbit edir. Bu bayram bir də ona görə əzizdir ki, məhz Qurani-Kərim müqəddəs Ramazan ayında nazil olmuşdur. – 84 – 85.

**29. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 87, 132, 256, 288, 290, 304, 305 –306.

**30. Fransua Olland** (d.1954) – Fransanın dövlət xadimi. 2012–2017-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. – 87, 256, 306.

**31. Mərakeş,** M ə r a k e ş K r a l l ı ğ ı – Şimal-Qərbi Afrikada dövlət. Sahəsi 446,6 min km$^2$, əhalisi 34 milyon nəfərdir. İnzibati ərazisi 16 əyalətə bölünür. Mərakeş konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı Nümayəndələr Palatasıdır. Paytaxtı Rabat şəhəridir. – 88.

**32. VI Məhəmməd,** b i n əl - H ə s ə n (d.1963) – 1999-cu ildən Mərakeş kralı. VI Məhəmməd 1666-cı ildən Mərakeşi idarə edən Alauitlər sülaləsindən 18-ci kraldır. – 88.

**33. Samir Şərifov,** S a m i r  R a u f  o ğ l u (d.1961) – hüquqşünas. 2006-cı ildən Azərbaycan Respublikasının Maliyyə naziridir. Eyni zamanda, Qara Dəniz Ticarət və İnkişaf Bankında Azərbaycan Respublikası üzrə təməlçi direktordur. – 92.

**34. Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016). 2004–2008-ci illərdə Demokratlar Partiyasından ABŞ Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. – 96.

**35. İran,** İ r a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 82 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 97– 98, 139, 201, 279.

**36. Həsən Ruhani** (d.1948) – hüquqşünas. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 97, 98, 139.

**37 Bakı–Tbilisi–Qars**– Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanılmışdır. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 58, 331, 333.

**38. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyasi Mərkəzi Komitəsinin Baş katibi, 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXR Mərkəzi Hərbi Şurasının Sədridir. – 99, 138.

**39. İndoneziya,** İ n d o n e z i y a  R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1,9 milyon km$^2$, əhalisi 257,5 milyon nəfərdir. İnzibati ərazisi 32 əyalətə və əyalət statusu olan 2 xüsusi inzibati əraziyə bölünür. Dövlət başçısı

prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 100.

**40. Coko Vidodo** (d.1961) – 2014-cü ildən İndoneziya Respublikasının Prezidentidir. – 100.

**41. Sinqapur,** S i n q a p u r  R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 719 $km^2$, əhalisi 5,3 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Sinqapur şəhəridir. – 101.

**42. Toni Yam** (d.1940) – Sinqapur siyasətçisi, bankir və riyaziyyatçı. 2011–2017-ci illərdə Sinqapur Respublikasının Prezidenti olmuşdur. – 101.

**43. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 $km^2$, əhalisi 199,5 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 102 –125, 195.

**44. Zakir Həsənov,** Z a k i r  Ə s g ə r  o ğ l u (d.1959) – general-leytenant. 2013-cü ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir. – 102.

**45. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində

Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 104, 106, 195, 196.

**46. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1991-ci ildən erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 104, 106, 196.

**47. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 134, 202.

**48. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşul-

muşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 128, 247, 252 – 257, 262.

**49. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 136 – 137, 239 – 251, 285, 288, 328 – 335.

**50. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 136 –137, 239 – 251.

**51. Əfqanıstan,** Əfqanıstan İslam Respubli-kası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 34,6 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 147, 253, 254, 255.

**52. Həmid Kərzai** (d.1957) – 2001–2002-ci illərdə Əfqanıstanın Baş naziri, 2004–2014-cü illərdə Əfqanıstan İslam Respublikasının Prezidenti olmuşdur. – 147.

**53. Ukrayna,** Ukrayna Respublikası – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 148, 288.

**54. Pyotr Poroşenko** (d.1965) – biznesmen və siyasətçi. 1998–2005 və 2006–2007-ci illərdə Ukrayna Ali Radasının Xalq deputatı, 2005-ci ildən Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi, 2009–2010-cu illərdə Ukraynanın Xarici İşlər naziri olmuşdur. 2014-cü ildən Ukrayna Respublikasının Prezidentidir. – 148.

**55. Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi** – Azərbaycanın xalça və xalq tətbiqi sənətinin nümayiş edildiyi ən zəngin ekspozisiya. 1967-ci ildə yaradılmışdır. Burada Azərbaycanın xalça və xalça məmulatlarının növləri, tarixi dövrləri, Quba, Şirvan, Bakı, Qazax, Qarabağ və Təbriz toxuculuq məktəblərinin fərdi ənənələri, çoxsaylı çeşidləri qorunub saxlanılır. Muzeydə 10000-dək xalça və xalq tətbiqi sənəti nümunələri mühafizə edilib saxlanılır. – 155 – 166.

**56. Lətif Kərimov,** L ə t i f  H ü s e y n  o ğ l u (1906–1991) – Azərbaycanın Xalq rəssamı, naxışşünas və xalçaşünas. Onun monumental tədqiqatlarından biri çoxcildli «Azərbaycan xalçası» monoqrafiyasıdır. – 156.

**57. İçərişəhər** – Bakının qala divarları ilə əhatə olunan qədim hissəsi. Sahəsi 22 hektardır. Arxeoloji qazıntılar nəticəsində İçərişəhər ərazisində 2 mədəni təbəqə müəyyənləşdirilmişdir. XIV–XVII əsrləri əhatə edən üst təbəqədən düzbucaqlı və dördkünc yaşayış evlərinin qalıqları, VIII–XIII əsrlərə aid alt təbəqədən düzbucaqlı formalı kiçik otaqların qalıqları, quyular və s. maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

İçərişəhər orta əsrlərdə Bakının əsas mərkəzinə çevrilmiş, XII əsrdə burada ilk qala divarları çəkilmişdir. Bu divarlar 25–30 m dənizin içərisinə uzanaraq İçərişəhərin qarşısında qapalı liman əmələ gətirmişdir. İçərişəhərin 3 əsas – Şamaxı, Salyan və dəniz sahilinə açılan darvazası olmuşdur. İçərişəhərdəki Sınıqqala (1078), Qız qalası və s. abidələr İçərişəhərin

əvvəllər dənizə yaxın sahədə inkişaf etdiyini göstərir. XV əsrdə Şirvanşahlar sarayı tikilmişdir. XVII əsrdə İçərişəhərdə çoxlu karvansara və ticarət binası inşa edilmiş, XVIII əsrdə isə Xan sarayı tikilmiş, yeni su kəmərləri çəkilmişdir. XIX əsrdə və XX əsrin əvvəllərində İçərişəhərin plan quruluşu dəyişdirilmədən köhnə binaların yerində əsaslı daş binalar tikilmişdir. Bu zaman qala divarlarının ikinci sırası sökülmüş və yalnız Şamaxı darvazasının yanında 2-ci darvaza tikilmişdir (1888). Beləliklə, qoşa darvaza əmələ gəlmişdir. 1977-ci ildə İçərişəhər Azərbaycan memarlığı tarixi qoruğuna çevrilmişdir. – 156, 157.

**58. Şirvanşahlar sarayı –** Azərbaycan memarlıq kompleksi, Şirvan – Abşeron memarlıq məktəbinin görkəmli abidəsi. Bakının İçərişəhər hissəsindədir. Bakının XV əsrdə Şirvanşahlar dövlətinin paytaxtına çevrilməsilə əlaqədar tikilmişdir. 1420–60-cı illər arasında salınmış Şirvanşahlar sarayı ansamblının binaları yerin relyefinə uyğun olaraq inşa edilmişdir. Ərazisinin ən hündür yerində olan Yuxarı həyətdə saray binası və ona bitişik Divanxana, aşağı həyətdə türbə və minarəli Şah məscidi, yuxarı həyətin yaxınlığında Seyid Yəhya Cəlaləddin Bakuvinin türbəsi və ona bitişik kiçik məscid yerləşir. Türbə olan həyətin giriş baştağı Şimal darvazası tikilmişdir. Şirvanşahlar sarayı ansamblının yaxınlığında hamam, «Şah kəhrizi»nin qurtaracağında 500 min litr su tutan ovdan qalmışdır. – 157.

**59. Qız qalası** – Bakı şəhərində tarixi-memarlıq abidəsi. Tədqiqatçıların çoxu tərəfindən müdafiə məqsədilə XII əsrdə tikildiyi qəbul olunmuşdur. Qalanın daş kitabəsində kufi xətti ilə Məsud Davud oğlunun («Qübbə Məsud bin Davud») adı həkk edilmişdir. Qız qalası memarlıq formasına görə Şərqdə yeganə abidədir. Abidənin hündürlüyü 28 m, diametri 16–16,5 m-dir. Divarlarının qalınlığı aşağıda 5 m, yuxarıda 4 m olan Qız qalası silindrik əsas hissədən və ona bitişik bütöv çıxıntıdan ibarət orijinal quruluşa malikdir. Silindrik hissə daxildə sək-

kizmərtəbəlidir. Bu mərtəbələrdə 250-dək adam yerləşə bilər. Abidənin Qız qalası adlanması haqqında xalq arasında müxtəlif əfsanələr mövcuddur. – 157.

**60. Teymur Bünyadov,** Teymur Əmiraslan oğlu (d.1928) – tarixçi-etnoqraf, tarix elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi. Azərbaycan Respublikası Milli Məclisinin I çağırış deputatı, Elm və Təhsil Məsələləri Daimi Komissiyasının sədri olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 161 – 162.

**61. Malayziya** – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 329,7 min km$^2$, əhalisi 31 milyon nəfərdir. Malayziya federasiyadır. Tərkibinə 13 ştat və federal ərazi – Kuala-Lumpur və Lavyan daxildir. Malayziya konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultanlığın ştat başçıları tərəfindən 5 il müddətinə seçilən kraldır. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Kuala-Lumpur şəhəridir. – 173.

**62. Əl-Mutasimu Badli şah** (1927–2017) – 1970–1975 və 2011–2016-cı illərdə Malayziya Sultanlığının Sultanı olmuşdur. – 173.

**63. Qırğız Respublikası** – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min km$^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 174, 278.

**64. Almazbek Atambayev** (d.1956) – Qırğız Respublikasının dövlət və siyasi xadimi. 2011–2017-ci illərdə Qırğız Respublikasının Prezidenti olmuşdur. – 174, 278.

**65. Füzuli** (1959-cu ilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 $km^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 194– 214.

**66. Horadiz** – Azərbaycan Respublikasının Füzuli rayonunda qəsəbə. Əhalisi 2877 nəfərdir. 1993-cü ildə erməni işğalçıları tərəfindən işğal edilmiş Horadiz 6 ay sonra Azərbaycan Ordusu tərəfindən azad edilmişdir. – 195, 197, 199, 203, 204, 205 – 210.

**67. Özbəkistan,** Özbəkistan Respublikası – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min $km^2$, əhalisi 33 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 217.

**68. İslam Kərimov,** İslam Əbduqəni oğlu (1938–2016) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı illərdə Özbəkistan KP MK-nın Birinci katibi, 1990–2016-cı illərdə Özbəkistan Respublikasının Prezidenti olmuşdur. – 217.

**69. Donald Tusk** (d.1957) – Polşa və Avropanın siyasi xadimi. 2007–2014-cü illərdə Polşanın Baş naziri, 2014-cü ildən Avropa İttifaqının sədridir. – 223.

**70. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min $km^2$, əhalisi 82,2 milyon nəfərdir. Dövlət başçısı prezident, hökumət başçısı isə Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 236 – 237, 322.

**71. Anders Foq Rasmussen** (d.1953) – Danimarka siyasətçisi. 2001–2009-cu illərdə Danimarkanın Baş naziri, 2009–2014-cü illərdə NATO-nun baş katibi olmuşdur. – 253.

**72. Tacikistan,** Tacikistan Respublikası – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 143,1 min km$^2$, əhalisi 9 milyon nəfərdir. İnzibati ərazisi Bədəxşan Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 260

**73. Emoməli Rəhmon,** Emoməli Şərif oğlu (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin Sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir. «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 260.

**74. Koreya Xalq Demokratik Respublikası** – Şərqi Asiyada, Koreya yarımadasında dövlət. 1948-ci ildə yaradılmışdır. Sahəsi 120,5 min km$^2$, əhalisi 24,7 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Ali Xalq Məclisidir. Paytaxtı Pxenyan şəhəridir. – 261.

**75. İsrail –** Yaxın Şərqdə dövlət. Sahəsi 22,1 min km$^2$, əhalisi 8,7 milyon nəfərdir (1948–49-cu illərdə işğal edilmiş ərazi daxil olmaqla). İsrail dövləti BMT-nin Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı prezidentdir, onu birpalatalı parlament (Knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. Paytaxtı Yerusəlim şəhəridir. – 274.

**76. Xamenei,** Seyid Əli (d.1939) – İranın dini və dövlət xadimi. 1981–89-cu illərdə İranın prezidenti, 1989-cu ildən isə İran İslam Respublikasının ali rəhbəridir. – 279.

**77. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 207,8 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 280.

**78. Məmnun Hüseyn** (d.1940) – iş adamı. 2013-cü ildən Pakistan İslam Respublikasının Prezidentidir. – 280.

**79. Hindistan,** Hindistan Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 3,3 milyon km$^2$, əhalisi 1 milyard 330 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nyu-Dehli şəhəridir. – 281.

**80. Pranab Mukherci** (d.1935) – Hindistanın dövlət xadimi. 2004–2006-cı illərdə Müdafiə naziri, 2006–2009-cu illərdə Xarici İşlər naziri, 1982–1984 və 2009–2012-ci illərdə Maliyyə naziri, nəhayət, 2012–2017-ci illərdə Hindistan Respublikasının Prezidenti olmuşdur. – 281.

**81. Gürcüstan,** Gürcüstan Respublikası – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 283–284.

**82. Dmitri Roqozin** (d.1963) – Rusiyanın dövlət xadimi, diplomat, fəlsəfə elmləri doktoru, texniki elmlər doktoru. 2011-ci ildən Rusiya hökuməti sədrinin müavini, Rusiya Federasiyasının hərbi-sənaye komissiyası kollegiyasının sədridir. – 320.

**83. Hafiz Paşayev,** H a f i z  M i r  C ə l a l  o ğ l u (d.1941) – fizika-riyaziyyat elmləri doktoru, professor. Azərbaycan Xarici İşlər nazirinin müavini, diplomat, ADA Universitetinin rektoru. 1993–2006-cı illərdə ABŞ-da (eyni zamanda, Meksika və Kanadada) Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur.

Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 297.

**84. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerji daşıyıcılarının Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəqlini nəzərdə tutur. – 330, 333, 337, 340, 341, 342, 344.

## Şəxsi adlar göstəricisi


**Abdullayev Vaqif** – 176
**Abdullayev Rövnəq** – 297
**Abutalıbov Hacıbala** – 140, 152, 218, 238, 267, 271, 308, 312, 314
**Al Səud Abdullah** – 346
**Aleksandr** – 35–37
**Alıyev Alı** – 194
**Alvarado Xuan** – 282
**Aslanov Xəzər** – 60
**Atambayev Almazbek** – 174, 278
**Azhar Abbas** – 297
**Babayev Nazim** – 229
**Badlişah əl-Mutasimu** – 173
**Barraççiu Françeska** – 17
**Bədəlov Akim** – 24
**Burkhalter Didye** – 89
**Buteflikay Əbdüləziz** – 86
**Bünyadov Teymur** – 161–162
**Buts Muxael** – 236
**Cabbarov Mikayıl** – 168
**Camalov Yavər** – 287
**Cabbarlı Cəfər** – 70–71
**Cəfərov Əjdər** – 228–229
**Cəfərova Məryəm** – 117–118
**Ciorcio Napolitano** – 9–10
**Cukanoviç Milo** – 325–326
**Çionq Tanq Sanq** – 216
**Da Silva Joze** – 19
**Daçiç İvitsa** – 273
**Delrio Qratsiano** – 18

**Davudoğlu Əhməd** – 328–335
**Əkbərov Əziz** – 187–188
**Əliyev Heydər** – 33, 34, 35, 39, 48, 53, 60, 62, 67, 68, 69, 92, 117, 118, 119, 126, 156, 163, 190, 195, 200, 201, 212, 230, 308
**Əliyeva Leyla** – 33, 68
**Əliyeva Mehriban** – 33, 35, 68, 155, 156, 161, 162, 163, 164, 165, 168, 169, 170, 187, 188, 192, 199, 200, 305, 306, 307, 311, 318, 319
**Əliyeva Zərifə xanım** – 31
**Ərdoğan Rəcəb Tayyib** – 136–137, 239–251
**Əs-Sisi Əbdülfəttah** – 51
**Əsgərov Dilqəm** – 124
**Fallon Maykl** – 5
**Filipp** *(Belçika kralı)* – 30
**Foks Liam** – 321
**Foq Rasmussen Anders** – 253
**Füle Ştefan** – 266
**German Natalia** – 265
**Gəncəvi Nizami** – 7
**Həsənov Həsən** – 124
**Həsənov Tahir** – 170
**Həsənov Zakir** – 102
**Hətəmli Baxşeyiş** – 115–117, 124
**Hüseyn Məmnun** – 280
**Hüseynov Məmmədhüseyn** – 162–163
**Hüseynzadə Çingiz** – 229–230
**Hiki Patrik** – 327
**Xamenei Əli Seyid** – 279
**İsayev Vidadi** – 126
**Kalenda Karlo** – 17
**Kemeron Devid** – 5, 253, 254
**Kerri Con** – 257

**Keyta İbrahim** – 324
**Kərimov İslam** – 217
**Kərimov Lətif** – 156
**Kərzai Həmid** – 147
**Kim Çen İn** – 261
**Kiska Andrey** – 215
**Kurts Sebastian** – 291
**Qarayev Əbülfəs** – 156
**Qaribaşvili İrakli** – 283–284
**Qaşiç Bratislav** – 142
**Qəyyum Abdullah** – 75
**Qrasso Pietro** – 11
**Quliyev Elçin** – 49
**Quliyev Şahbaz** – 124
**Quliyeva Xuraman** – 206–210
**Labendan Mixael** – 154
**Lastauskas Valdas** – 262
**Lintner Rayner** – 236
**Lupi Maurizio** – 17
**Marino İqnatsio** – 12–15
**VI Məhəmməd** – 88
**Məmmədov Razim** – 220
**Məmmədyarov Elmar** – 18
**Muxika Xose** – 149
**Mirzəyeva Aytən** – 186–187
**Morninqstar Riçard** – 28, 96, 132, 151, 257
**Mukherci Pranab** – 281
**Mustafayev Şahin** – 53
**Nacib Dato** – 46
**Namazəliyev Məcnun** – 198–200
**Napolitano Ciorcio** – 9–10
**Nieto Enrike** – 292
**Nikoliç Tomislav** – 142
**Obama Barak** – 96
**Olland Fransua** – 87, 256, 306

**Ondimba Ali** – 146
**Paşayev Hafiz** – 297
**Paşazadə Hacı Allahşükür** – 31–35
**Plevneliev Rosen** – 336–343
**Preka Mari-Luiz** – 323
**Putin Vladimir** – 22, 130–135, 320
**Poroşenko Pyotr** – 148
**Rahman Dato** – 264
**Razak Mohammad** – 293–303
**Reb Stefan** – 304
**Renzi Matteo** – 16, 17–18
**Rəhmon Emoməli** – 260
**Robbe Raynold** – 236
**Roqozin Dmitri** – 320
**Ruhani Həsən** – 97, 98, 139
**Rütte Mark** – 47
**Samaras Antonis** – 344–345
**Salber Herbert** – 76
**Sadıqov Vaqif** – 17
**Sarpaşev Tayırbek** – 278
**Si Cinpin** – 99, 138
**Selva Pol** – 151
**Səfərov Ramil** – 124
**Səlimov Təvəkkül** – 318
**Squirer Luis** – 156
**Sun Jianan** – 59
**Svendsen Baard** – 263
**Şahgəldiyeva Xatirə** – 67–69
**Şərifov Samir** – 92
**Şəmilov Vəli** – 206
**Şokenhof Andreas** – 322
**Şlayer Hans-Eberhard** – 236
**Ştrents Karin** – 236
**Tağıyeva Röya** – 164–165
**Tasso Olyanta** – 77

**Timofti Nikolaye** – 150
**Tusk Donald** – 223
**Vaezi Mahmud** – 97–98
**Veyonis Raymonds** – 128
**Vidodo Coko** – 100
**Vuçiç Aleksandr** – 142
**Yaalo Moşe** – 274
**Yam Toni** – 101
**Yants Frans** – 156
**Yayi Bani** – 90
**Yevdayev Milix** – 37–38
**Yılmaz İsmət** – 285
**Yudhoyono Susilo** – 145
**Yunker Jan-Klod** – 29

## Coğrafi adlar göstəricisi


**Adriatik dənizi** – 333
**Ağdam** – 102–125, 195, 197
**Ağçay** – 74
**Ağstafa** – 54
**Almaniya** – 236–237, 322
**Amerika Birləşmiş Ştatları** – 28, 96, 132, 151, 257
**Anadolu** – 201, 333, 334
**Avrasiya** – 332
**Asiya** – 57, 333, 342
**Avropa** – 13, 54, 57, 224, 225, 249, 333, 340, 341, 342
**Avstriya** – 291
**Belarus** – 132, 289
**Belçika** – 30
**Benin** – 90
**Beyləqan** – 175–193, 197
**Biləsuvar** – 24
**Binə** – 152–153
**Bərdə** – 126–127
**Bibiheybət** – 34
**Binəqədi** – 34, 140–141, 312
**Böyük Britaniya** – 5, 165, 252–257, 321
**Böyükşor** – 82–83
**Braziliya** – 132
**Caqacuqçay** – 74
**Çin** – 59, 99, 138, 179, 224–232, 342
**Cənubi Qafqaz** – 53, 76
**Dağlıq Qarabağ** – 9, 11, 76, 104, 105, 112, 116, 117, 122, 123, 124, 130, 131,

133 – 134, 136, 200, 201, 203, 210, 244, 246, 254, 256, 257, 266, 299, 330, 339
**Əfqanıstan** – 147, 253, 254, 255
**Əlcəzair** – 86
**Fransa** – 87, 132, 256, 288, 290, 304, 305–306
**Füzuli** – 194–214
**Gəncə** – 34, 165
**Göyçə** – 104
**Gürcüstan** – 283–284
**Goranboy** – 54
**Haaqa** – 5
**Hindistan** – 281
**Honduras** – 282
**Horadiz** – 195, 197, 199, 203, 204, 205–210
**Xankəndi** – 104, 106, 196
**Xəzər dənizi** – 49, 333
**Xızı** – 60–74
**İndoneziya** – 100, 145
**İran** – 97–98, 139, 201, 279
**İrəvan** – 104
**İsrail** – 274, 289
**İsveçrə** – 89
**İtaliya** – 6–21
**Koreya Xalq Demokratik Respublikası** – 261
**Qabon** – 146
**Qafqaz** – 11, 332, 334
**Qaraçay** – 74
**Qazax** – 56, 165, 202
**Qazaxıstan** – 132
**Qırğız Respublikası** – 174, 278
**Qobustan** – 24
**Quba** – 165

**Qudyalçay** – 74
**Quruçay** – 74
**Qusarçay** – 74
**Latviya** – 128, 132
**Litva** – 132, 262
**London** – 225, 342
**Maldiv** – 75
**Mali** – 324
**Malayziya** – 46, 173, 264, 293–303
**Malta** – 323
**Masallı** – 24
**Meksika** – 292
**Mərakeş** – 88
**Misir** – 51
**Moldova** – 150, 265
**Monteneqro** – 325–326, 334
**Moskva** – 22, 200
**Nankin** – 224–232
**Naxçıvan** – 56
**Niderland** – 47
**Norveç** – 263
**Nyuport** – 253–257
**Özbəkistan** – 217
**Pakistan** – 280
**Peru** – 77
**Pirallahı** – 24
**Polşa** – 154, 288
**Rio de Janeyro** – 229
**Roma** – 6–21
**Rusiya** – 22, 129–135, 289, 320
**Sabunçu** – 310–311
**Samux** – 24
**Serbiya** – 142,273
**Səngəçal** – 24
**Səudiyyə Ərəbistanı** – 346

**Sinqapur** – 101
**Siyəzən** – 66
**Slovakiya** – 215
**Soçi** – 129–135, 180, 320
**Suraxanı** – 23–27
**Sumqayıt** – 56
**Şağan** – 313–319
**Şabran** – 66
**Şamaxı** – 34
**Şəmkir** – 54
**Şuşa** – 104, 106, 195, 196
**Şirvan** – 165, 175
**Tacikistan** – 260
**Təbriz** – 165
**Tibet** – 138
**Tovuz** – 54, 202
**Türkiyə** – 136–137, 239–251, 285, 288, 328–335
**Türkan** – 48
**Ukrayna** – 148, 288
**Uruqvay** – 149
**Vyetnam** – 216
**Yaxın Şərq** – 332
**Yunanıstan** – 334, 344–345
**Zəngəzur** – 104

# MÜNDƏRİCAT

BÖYÜK BRİTANİYANIN ENERGETİKA NAZİRİ MAYKL FALLONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 iyul 2014-cü il ............................................................................5*

İTALİYA RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*13 iyul 2014-cü il...............................................................................6*

ROMADA DAHİ AZƏRBAYCAN ŞAİRİ VƏ MÜTƏFƏKKİRİ NİZAMİ GƏNCƏVİNİN ABİDƏSİNİ ZİYARƏT

*13 iyul 2014-cü il...............................................................................7*

«NAMƏLUM ƏSGƏR» ABİDƏSİNİ ZİYARƏT

*14 iyul 2014-cü il...............................................................................8*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*14 iyul 2014-cü il...............................................................................9*

İTALİYA SENATININ SƏDRİ PİETRO QRASSO İLƏ GÖRÜŞ

*14 iyul 2014-cü il.............................................................................11*

«MERCATİ Dİ TRAİANO» MUZEYİNDƏ ŞƏHƏR MERİ İQNATSİO MARİNO İLƏ GÖRÜŞ VƏ İTALİYA JURNALİSTLƏRİNƏ MÜSAHİBƏ

*14 iyul 2014-cü il.............................................................................12*

İTALİYA RESPUBLİKASININ BAŞ NAZİRİ MATTEO RENZİ İLƏ GÖRÜŞ

*14 iyul 2014-cü il.............................................................................16*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*14 iyul 2014-cü il*..........................................................................17

BMT-nin ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATININ BAŞ DİREKTORU JOZE QRATSİANO DA SİLVA İLƏ GÖRÜŞ

*15 iyul 2014-cü il*..........................................................................19

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*16 iyul 2014-cü il*..........................................................................22

SURAXANI GÜNƏŞ ELEKTRİK STANSİYASININ AÇILIŞI MƏRASİMİ

*16 iyul 2014-cü il*..........................................................................23

ABŞ-ın AZƏRBAYCANDAKI SƏFİRİ İLƏ GÖRÜŞ

*16 iyul 2014-cü il*..........................................................................28

AVROPA KOMİSSİYASININ YENİ SEÇİLMİŞ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB JAN-KLOD YUNKERƏ

*17 iyul 2014-cü il*..........................................................................29

BELÇİKA KRALI ƏLAHƏZRƏT FİLİPPƏ

*17 iyul 2014-cü il*..........................................................................30

RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ İŞTİRAK

*17 iyul 2014-cü il*..........................................................................31

MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ ÇIXIŞ

*17 iyul 2014-cü il*..........................................................................39

MALAYZİYA RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB DATO SRİ MOHD NACİBƏ

*18 iyul 2014-cü il...........................................................................46*

NİDERLAND KRALLIĞININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ CƏNAB MARK RÜTTEYƏ

*18 iyul 2014-cü il...........................................................................47*

DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN SAHİL MÜHAFİZƏSİNİN
YENİ GƏMİ İNŞASI ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*18 iyul 2014-cü il...........................................................................48*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ

*19 iyul 2014-cü il...........................................................................51*

«NORM» SEMENT ZAVODUNUN AÇILIŞI
MƏRASİMİ

*21 iyul 2014-cü il...........................................................................52*

XIZI RAYONUNA SƏFƏR

*22 iyul 2014-cü il...........................................................................60*

HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN AÇILIŞINDA XIZI
RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ
GÖRÜŞ

*22 iyul 2014-cü il...........................................................................62*

MALDİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB ABDULLAH YAMİN ABDUL QƏYYUMA

*23 iyul 2014-cü il...........................................................................75*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HERBERT SALBERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*23 iyul 2014-cü il.........................................................................................76*

PERU RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLYANTA UMALA TASSOYA

*24 iyul 2014-cü il.........................................................................................77*

BAKI OLİMPİYA STADİONUNDA TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*24 iyul 2014-cü il.........................................................................................78*

BAKI OLİMPİYA STADİONU ƏTRAFINDA İNŞASI DAVAM ETDİRİLƏN YOL-NƏQLİYYAT İNFRASTRUKTURUNUN TİKİNTİSİ İLƏ TANIŞLIQ

*24 iyul 2014-cü il.........................................................................................81*

BÖYÜKŞOR GÖLÜNÜN VƏ ƏTRAF ƏRAZİLƏRİN EKOLOJİ VƏZİYYƏTİNİN KOMPLEKS BƏRPASI İŞLƏRİ İLƏ TANIŞLIQ

*24 iyul 2014-cü il.........................................................................................82*

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*25 iyul 2014-cü il.........................................................................................84*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA

*25 iyul 2014-cü il.........................................................................................86*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FRANSUA OLLANDA

*25 iyul 2014-cü il*.........................................................................................*87*
MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ

*25 iyul 2014-cü il*.........................................................................................*88*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DİDYE BURKHALTERƏ

*25 iyul 2014-cü il*.........................................................................................*89*

BENİN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BANİ YAYİYƏ

*25 iyul 2014-cü il*.........................................................................................*90*

MALİYYƏ NAZİRLİYİNİN YENİ İNŞA EDİLƏN İNZİBATİ BİNASI İLƏ TANIŞLIQ

*25 iyul 2014-cü il*.........................................................................................*91*

XƏTAİ RAYONUNDAKI 56 SAYLI TAM ORTA MƏKTƏBİN BİNASININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*4 avqust 2014-cü il* .....................................................................................*94*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

*30 iyul 2014-cü il* ........................................................................................*96*

İRAN İSLAM RESPUBLİKASININ RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRİ MAHMUD VAEZİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 avqust 2014-cü il* .....................................................................................*97*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB Sİ CİNPİNƏ

*4 avqust 2014-cü il* .....................................................................................*99*

İNDONEZİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB COKO VİDODOYA

*4 avqust 2014-cü il ........................................................................................100*

SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TONİ TAN KENQ YAMA

6 *avqust 2014-cü il ........................................................................................101*

AĞDAM RAYONUNA SƏFƏR

*6 avqust 2014-cü il ........................................................................................102*

632 MƏCBURİ KÖÇKÜN AİLƏSİ ÜÇÜN SALINAN YENİ QƏSƏBƏNİN AÇILIŞI MƏRASİMİNDƏ AĞDAM RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*6 avqust 2014-cü il ......................................................................................108*

BƏRDƏ ŞƏHƏRİNDƏ YENİ SALINAN HEYDƏR ƏLİYEV PARKINDA GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*6 avqust 2014-cü il ........................................................................................126*

LATVİYA RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ RAYMONDS VEYONİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 avqust 2014-cü il ........................................................................................128*

RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*8 avqust 2014-cü il ........................................................................................129*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*9 avqust 2014-cü il ........................................................................................130*

«PLATFORMA S-70» DÖYÜŞ SAMBOSU ÜZRƏ BEYNƏLXALQ YARIŞLARA BAXIŞ

*9 avqust 2014-cü il* ........................................................................................*132*
AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN
PREZİDENTLƏRİNİN BİRGƏ GÖRÜŞÜ

*10 avqust 2014-cü il* ........................................................................................*133*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*11 avqust 2014-cü il* ........................................................................................*136*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ
CƏNAB Sİ CİNPİNƏ

*11 avqust 2014-cü il* ........................................................................................*138*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ

*11 avqust 2014-cü il* ........................................................................................*139*

BİNƏQƏDİ RAYONUNDAKI 115 SAYLI TAM ORTA
MƏKTƏBDƏ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA
İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTLƏ TANIŞLIQ

*11 avqust 2014-cü il* ........................................................................................*140*

SERBİYA RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ
BRATİSLAV QAŞİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*12 avqust 2014-cü il* ........................................................................................*142*

BAKI SLAVYAN UNİVERSİTETİ NƏZDİNDƏ MƏKTƏB-LİSEY KOMPLEKSİNİN ƏSASLI TƏMİR VƏ
YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ
İLƏ TANIŞLIQ

*13 avqust 2014-cü il* ........................................................................................*143*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA

*13 avqust 2014-cü il* ............................................................................ 145

QABON RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALİ BONQO ONDİMBAYA

*13 avqust 2014-cü il* ............................................................................ 146

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ

*15 avqust 2014-cü il* ............................................................................ 147

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PYOTR POROŞENKOYA

*20 avqust 2014-cü il* ............................................................................ 148

URUQVAY ŞƏRQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB XOSE MUXİKAYA

*20 avqust 2014-cü il* ............................................................................ 149

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NİKOLAYE TİMOFTİYƏ

*22 avqust 2014-cü il* ............................................................................ 150

ABŞ NƏQLİYYAT KOMANDANLIĞININ YENİ KOMANDANI POL JOZEF SELVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 avqust 2014-cü il* ............................................................................ 151

BİNƏ QƏSƏBƏSİNDƏKİ 121 SAYLI TAM ORTA MƏKTƏBİN YENİ KORPUSUNUN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*23 avqust 2014-cü il* ............................................................................ 152

POLŞA RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRİ MİXAEL LABENDAN İLƏ GÖRÜŞ

*25 avqust 2014-cü il* ......................................................................... *154*

AZƏRBAYCAN XALÇA MUZEYİNİN AÇILIŞI MƏRASİMİ

*26 avqust 2014-cü il* ......................................................................... *155*

BAKIDAKI 23 SAYLI TAM ORTA MƏKTƏB BİNASININ ƏSASLI YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRA AÇILIŞI MƏRASİMİ

*26 avqust 2014-cü il* ......................................................................... *167*

«MƏDƏNİYYƏTLƏRARASI DİALOQ: MƏDƏNİYYƏT VƏ DİN ARASINDA QARŞILIQLI ƏLAQƏ» MÖVZUSUNDA 2014-cü İL MƏDƏNİYYƏTLƏRARASI DİALOQUN DİNİ ÖLÇÜSÜ ÜZRƏ AVROPA ŞURASININ MÜBADİLƏ GÖRÜŞÜNÜN İŞTİRAKÇILARINA

*27 avqust 2014-cü il* ......................................................................... *172*

MALAYZİYANIN XIV ALİ BAŞÇISI ƏLAHƏZRƏT ƏL-MUTASİMU BİLLAHİ MUHİBBUDDİN TUANKU ƏL-HAC ABDUL HALİM MUADZAM ŞAH İBNİ ƏL-MƏRHUM SULTAN BADLİŞAHA

*27 avqust 2014-cü il* ......................................................................... *173*

QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALMAZBEK ATAMBAYEVƏ

*27 avqust 2014-cü il* ......................................................................... *174*

BEYLƏQAN RAYONUNA SƏFƏR

*28 avqust 2014-cü il* ......................................................................... *175*

YENİ İSTİFADƏYƏ VERİLƏN GƏNCLƏR MƏRKƏZİNDƏ RAYON GƏNCLƏRİNİN VƏ İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*28 avqust 2014-cü il* ......................................................................... *178*

FÜZULİ RAYONUNA SƏFƏR

*28 avqust 2014-cü il* ........................................................................ *194*
SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ANDREY KİSKAYA

*29 avqust 2014-cü il* ........................................................................ *215*

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ÇIONQ TANQ SANQA

*29 avqust 2014-cü il* ........................................................................ *216*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA

*29 avqust 2014-cü il* ........................................................................ *217*

BAKIDA 46 SAYLI TAM ORTA MƏKTƏBİN ƏSASLI TƏMİR
VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ
İLƏ TANIŞLIQ

*29 avqust 2014-cü il* ........................................................................ *218*

BAKININ XƏTAİ RAYON İCRA HAKİMİYYƏTİNİN
BİNASINDA APARILAN YENİDƏNQURMA İŞLƏRİ
İLƏ TANIŞLIQ

*29 avqust 2014-cü il* ........................................................................ *220*

AVROPA İTTİFAQI ŞURASININ YENİ SEÇİLMİŞ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DONALD TUSKA

*1 sentyabr 2014-cü il* ....................................................................... *223*

ÇİNİN NANKİN ŞƏHƏRİNDƏ YENİYETMƏLƏR ARASINDA
II YAY OLİMPİYA OYUNLARINDA İŞTİRAK ETMİŞ MİLLİ
KOMANDAMIZIN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*1 sentyabr 2014-cü il* ....................................................................... *224*

BAKIDA NÖVBƏTİ YOL QOVŞAĞININ AÇILIŞI MƏRASİMİ

*1 sentyabr 2014-cü il* ........................................................................ *233*
ALMANİYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 sentyabr 2014-cü il* ........................................................................ *236*

BAKININ NƏSİMİ RAYONUNDAKI 54 SAYLI TAM ORTA MƏKTƏBİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*2 sentyabr 2014-cü il* ........................................................................ *238*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*3 sentyabr 2014-cü il* ........................................................................ *239*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*3 sentyabr 2014-cü il* ........................................................................ *240*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*3 sentyabr 2014-cü il* ........................................................................ *241*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*3 sentyabr 2014-cü il* ........................................................................ *243*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*3 sentyabr 2014-cü il* ........................................................................ *248*

BÖYÜK BRİTANİYAYA İŞGÜZAR SƏFƏR

*3 sentyabr 2014-cü il* ........................................................................ *252*
NATO SAMMİTİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*4 sentyabr 2014-cü il* ........................................................................ *253*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ FRANSUA OLLAND İLƏ GÖRÜŞ

*4 sentyabr 2014-cü il* ........................................................................*256*

AZƏRBAYCAN, ERMƏNİSTAN PREZİDENTLƏRİNİN VƏ ABŞ DÖVLƏT KATİBİNİN BİRGƏ GÖRÜŞÜ

*4 sentyabr 2014-cü il* ........................................................................*257*

XARİCDƏ TƏHSİL ALAN VƏ MƏZUN OLMUŞ AZƏRBAYCANLI GƏNCLƏRİN XII BEYNƏLXALQ FORUMUNUN İŞTİRAKÇILARINA

*4 sentyabr 2014-cü il* ........................................................................*258*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMOMƏLİ RƏHMONA

*4 sentyabr 2014-cü il* ........................................................................*260*

KOREYA ƏMƏK PARTİYASININ BİRİNCİ KATİBİ, KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI DÖVLƏT MÜDAFİƏ KOMİTƏSİNİN BİRİNCİ SƏDRİ, KOREYA XALQ ORDUSUNUN ALİ BAŞ KOMANDANI ZATİ-ALİLƏRİ CƏNAB KİM ÇEN İNƏ

*4 sentyabr 2014-cü il* ........................................................................*261*

LİTVA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ VALDAS LASTAUSKAS İLƏ GÖRÜŞ

*9 sentyabr 2014-cü il* ........................................................................*262*

NORVEÇ KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ BAARD İVAR SVENDSEN İLƏ GÖRÜŞ

*9 sentyabr 2014-cü il* ........................................................................*263*

MALAYZİYANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ DATO ROSLAN TAN SRİ ABDUL RAHMAN İLƏ GÖRÜŞ

*9 sentyabr 2014-cü il*......................................................................*264*

MOLDOVA RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ NATALİA GERMAN İLƏ GÖRÜŞ

*9 sentyabr 2014-cü il*......................................................................*265*

AVROPA İTTİFAQININ KOMİSSARI ŞTEFAN FÜLENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 sentyabr 2014-cü il*......................................................................*266*

BAKIDAKI 153 SAYLI TAM ORTA MƏKTƏBİN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*9 sentyabr 2014-cü il*......................................................................*267*

I AZƏRBAYCAN BEYNƏLXALQ MÜDAFİƏ SƏNAYESİ SƏRGİSİNİN İŞTİRAKÇILARINA

*10 sentyabr 2014-cü il*....................................................................*269*

BAKININ NİZAMİ RAYONUNDAKI 32 VƏ 12 SAYLI TAM ORTA MƏKTƏBLƏRİNDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*10 sentyabr 2014-cü il*....................................................................*271*

SERBİYA RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ İVİTSA DAÇİÇİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 sentyabr 2014-cü il*....................................................................*273*

İSRAİLİN MÜDAFİƏ NAZİRİ MOŞE YAALONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 sentyabr 2014-cü il*....................................................................*274*

BAKI İSTEDADLAR TƏHSİL KOMPLEKSİNİN YENİ BİNASINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*10 sentyabr 2014-cü il*.........................................................................*275*

QIRĞIZ RESPUBLİKASI BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ TAYIRBEK SARPAŞEVİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 sentyabr 2014-cü il*.........................................................................*278*

İRAN İSLAM RESPUBLİKASININ ALİ RƏHBƏRİ AYƏTULLAH SEYİD ƏLİ XAMENEİ HƏZRƏTLƏRİNƏ

*11 sentyabr 2014-cü il*.........................................................................*279*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ

*11 sentyabr 2014-cü il*.........................................................................*280*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PRANAB MUKHERCİYƏ

*11 sentyabr 2014-cü il*.........................................................................*281*

HONDURAS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB XUAN ORLANDO ERNANDES ALVARADOYA

*11 sentyabr 2014-cü il*.........................................................................*282*

GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ İRAKLİ QARİBAŞVİLİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*11 sentyabr 2014-cü il*.........................................................................*283*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*11 sentyabr 2014-cü il*.........................................................................*284*

TÜRKİYƏ RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ İSMƏT YILMAZIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 sentyabr 2014-cü il* ....................................................................... *285*

I AZƏRBAYCAN BEYNƏLXALQ MÜDAFİƏ SƏNAYESİ SƏRGİSİ İLƏ TANIŞLIQ

*11 sentyabr 2014-cü il* ....................................................................... *286*

AVSTRİYA RESPUBLİKASININ AVROPA, İNTEQRASİYA VƏ XARİCİ İŞLƏR FEDERAL NAZİRİ SEBASTİAN KURTSUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 sentyabr 2014-cü il* ....................................................................... *291*

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ENRİKE PENYA NİETOYA

*12 sentyabr 2014-cü il* ....................................................................... *292*

MALAYZİYANIN BAŞ NAZİRİ MOHAMMAD NAJİB TUN ABDUL RAZAKIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*12 sentyabr 2014-cü il* ....................................................................... *293*

MALAYZİYA RESPUBLİKASININ BAŞ NAZİRİ MOHAMMAD NAJİB TUN ABDUL RAZAK İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*12 sentyabr 2014-cü il* ....................................................................... *294*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*12 sentyabr 2014-cü il* ....................................................................... *295*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*12 sentyabr 2014-cü il* ....................................................................... *297*

MALAYZİYA RESPUBLİKASININ BAŞ NAZİRİ MOHAMMAD NAJİB TUN ABDUL RAZAK İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*12 sentyabr 2014-cü il ............................................................................298*

MALAYZİYA RESPUBLİKASININ BAŞ NAZİRİNİN VƏ XANIMININ ŞƏRƏFİNƏ VERİLƏN ZİYAFƏTDƏ İŞTİRAK

*12 sentyabr 2014-cü il ............................................................................303*

FRANSA RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN BEYNƏLXALQ İNKİŞAF İDARƏSİNİN DİREKTORU STEFAN REB İLƏ GÖRÜŞ

*12 sentyabr 2014-cü il ............................................................................304*

BAKI FRANSIZ LİSEYİNİN AÇILIŞI MƏRASİMİ

*12 sentyabr 2014-cü il ............................................................................305*

BAKININ «AĞ ŞƏHƏR» BULVARINDA GÖRÜLƏN İŞLƏRLƏ TANIŞLIQ

*12 sentyabr 2014-cü il ............................................................................307*

ƏMİRCAN QƏSƏBƏSİNDƏKİ 84 SAYLI TAM ORTA MƏKTƏBİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*13 sentyabr 2014-cü il ............................................................................308*

SABUNÇU RAYONUNDAKI 72 SAYLI MƏKTƏB-LİSEYDƏ VƏ 80 SAYLI TAM ORTA MƏKTƏBDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*13 sentyabr 2014-cü il ............................................................................310*

BİNƏQƏDİ RAYONUNDAKI 182 SAYLI TAM ORTA MƏKTƏBİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*13 sentyabr 2014-cü il ............................................................................312*

ŞAĞAN QƏSƏBƏSİNDƏKİ 124 SAYLI TAM ORTA MƏKTƏBİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*15 sentyabr 2014-cü il*..........................................................................*313*

RUSİYA FEDERASİYASI HÖKUMƏTİ SƏDRİNİN MÜAVİNİ DMİTRİ ROQOZİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 sentyabr 2014-cü il*..........................................................................*320*

BÖYÜK BRİTANİYANIN SABİQ MÜDAFİƏ NAZİRİ, PARLAMENTİN ÜZVÜ LİAM FOKS İLƏ GÖRÜŞ

*15 sentyabr 2014-cü il*..........................................................................*321*

ALMANİYA BUNDESTAQININ FRAKSİYA SƏDRİNİN MÜAVİNİ ANDREAS ŞOKENHOF İLƏ GÖRÜŞ

*16 sentyabr 2014-cü il*..........................................................................*322*

MALTA RESPUBLİKASININ PREZİDENTİ XANIM MARİ-LUİZ KOLEYRO PREKAYA

*17 sentyabr 2014-cü il*..........................................................................*323*

MALİ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İBRAHİM BUBAKAR KEYTAYA

*18 sentyabr 2014-cü il*..........................................................................*324*

MONTENEQRO RESPUBLİKASININ BAŞ NAZİRİ MİLO CUKANOVİÇİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 sentyabr 2014-cü il*..........................................................................*325*

AVROPA OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ PATRİK HİKİ İLƏ GÖRÜŞ

*19 sentyabr 2014-cü il*..........................................................................*327*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ƏHMƏD DAVUDOĞLUNUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*19 sentyabr 2014-cü il ..........................................................................328*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ƏHMƏD DAVUDOĞLU İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*19 sentyabr 2014-cü il ..........................................................................329*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ROSEN PLEVNELİEVİN AZƏRBAYCANA SƏFƏRİ

*19 sentyabr 2014-cü il ..........................................................................336*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*19 sentyabr 2014-cü il ..........................................................................337*

AZƏRBAYCAN–BOLQARISTAN BİRGƏ BƏYANNAMƏSİNİN İMZALANMASI MƏRASİMİ

*19 sentyabr 2014-cü il ..........................................................................338*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ROSEN PLEVNELİEV İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*19 sentyabr 2014-cü il ..........................................................................339*

YUNANISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ ANTONİS SAMARASIN AZƏRBAYCANA SƏFƏRİ

*19 sentyabr 2014-cü il ..........................................................................344*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*19 sentyabr 2014-cü il ..........................................................................345*

İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*19 sentyabr 2014-cü il* ........................................................................ *346*

QEYDLƏR ........................................................................................ *347*

*Şəxsi adlar göstəricisi* ........................................................................ *369*

*Coğrafi adlar göstəricisi* ...................................................................... *374*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.